**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏSUD ƏLİOĞLUNUN ƏDƏBİ-TƏNQİDİ GÖRÜŞLƏRİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı
5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**


İddiaçı: ____________ **Nurlanə Hümmət qızı Məmmədova**

Elmi rəhbər: ____________ **Məhəmmədəli Bayram oğlu Mustafayev**
Filologiya elmləri doktoru, dosent


**Bakı – 2021**

## MÜNDƏRİCAT


GİRİŞ ........................................................................................................ 3

I FƏSİL. MƏSUD ƏLİOĞLUNUN TƏNQİDÇİLİK FƏALİYYƏTİNİN ƏSAS MƏRHƏLƏLƏRİ ........................................................................................ 11

1.1. Məsud Əlioğlunun tənqidçi fərdiyyətinin formalaşmasında 50-ci illər xüsusi mərhələ kimi ................................................................................ 11

1.2. Məsud Əlioğlunun tənqidçilik axtarışlarının 60-70-ci illər mərhələsi ........... 31

II FƏSİL. ƏDƏBİ TƏNQİDİN MÜASİRLİK AXTARIŞLARI ............................ 43

2.1. Ədəbi-bədii təcrübənin inkişafında ənənə və novatorluğun tənqidi dərki........... 43

2.2. Məsud Əlioğlunun tənqidində müasir ədəbi prosesin yaradıcılıq problemləri........................................................................................ 57

2.3. Azərbaycan poeziyası və nəsrində sənətkarlıq məsələləri ................................ 65

III FƏSİL. MƏSUD ƏLİOĞLUNUN ƏDƏBİYYATŞÜNASLIQ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ ............................................................................ 95

3.1. Məsud Əlioğlunun elmi irsində klassik Azərbaycan ədəbiyyatının tədqiqi məsələləri ........................................................................................ 95

3.2. Məsud Əlioğlunun elmi-nəzəri irsində realizm və romantizmin problemlərinə müasir elmi baxış ...................................................................... 105

3.3. Bədii yaradıcılıqda "Atalar və oğullar" probleminə Məsud Əlioğlunun yanaşması ........................................................................................ 132

NƏTİCƏ........................................................................................................ 147

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI................................................. 151

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ədəbi-nəzəri fikrimiz daim zənginləşir, klassik və müasir ədəbi irsin tədqiqində yeni nailiyyətlər qazanır. Bu sahədə, xüsusən, milli ədəbi tənqidin rolu və gördüyü işlər müstəsnadır. Ədəbiyyatşünaslığın metodologiyasının müəyyənləşdirilməsində, ədəbi irsin çağdaş ədəbi meyarlarla qiymətləndirilməsində ədəbi tənqid ön mövqedə dayanır. Bütün bunlar tənqidçidən yüksək istedad, obyektivlik, prinsipiallıq, ədəbi-estetik zövq tələb edir. Məsud Əlioğlu bu cür tənqidçilərdən idi.

Ədəbi tənqid tarixini müasir dövrün prizmasından tədqiq etmək, bu tarixi formalaşdıran tənqidçilərin yaradıcılığını müasir meyarlar baxımından dəyərləndirmək vacib məsələlərdən biridir. Bu baxımdan ədəbi prosesdə öz orijinal yazı üslubu ilə yadda qalan Məsud Əlioğlunun ədəbi-tənqidi görüşlərinin tədqiqata cəlb edilməsi hər zaman öz aktuallığını qoruyub saxlayır.

Məsud Əlioğlu qısa ömrü ərzində (1928-1973) milli ədəbiyyatşünaslığın aktual nəzəri problemləri ilə maraqlanmış, məhsuldar bir yaradıcılıq irsi qoyub getmişdir. Ömrünü ədəbiyyat tarixinin öyrənilməsinə sərf edən Məsud Əlioğlu özünüifadəetmə qabiliyyəti güclü olan tənqidçilər sırasında yer almaqdadır. O, məqalələrində ədəbiyyatşünaslığın ümumi mənzərəsini dolğun şəkildə işıqlandıra bilmiş, araşdırdığı hər bir yaradıcılıq probleminin əsas xüsusiyyətlərini diqqət mərkəzinə çəkmişdir.

Məsud Əlioğlunun ədəbi-tənqidi irsi çoxcəhətli və universal xarakteri ilə seçilir. Bu irsi araşdırmaq, alimin yaradıcılığının əsas xüsusiyyətlərini sistemləşdirmək ədəbi tənqidin başlıca vəzifələrindən biridir. Bununla belə, tənqidçinin yaradıcılığı az öyrənilmiş, sistemli şəkildə tədqiqata cəlb edilməmişdir. Tədqiq olunan mövzunun aktuallığı buradan irəli gəlir.

Bədii yaradıcılığı öyrənə-öyrənə ədəbi tənqid və ədəbiyyatşünaslıq həm də öz ənənələrini, tarixini, mərhələlərini yaradır. Bu ənənələri, ədəbi axtarışları üzə çıxarmaq, sistemləşdirmək bu gün vacib bir məsələ kimi ortaya çıxır. Məsud Əlioğlunun elmi irsini tədqiq etmək ədəbi-estetik fikrimizin XX əsrin 50-70-ci illər

mərhələlərini, ənənələrini üzə çıxarmaq baxımından əhəmiyyətlidir. Bu da mövzunun aktuallığını şərtləndirir.

Dissertasiyada təkcə Məsud Əlioğlunun ədəbi-tənqidi yaradıcılığından bəhs olunmur, eyni zamanda elmi-nəzəri fikrimizin konkret bir dövrü haqqında dolğun təsəvvür yaradılır. Mövzunu aktual edən cəhətlərdən biri bununla əlaqədardır.

Məsud Əlioğlunun yaradıcılığına elmi maraq XX əsrin 60-cı illərindən başlanılmışdır. Onun tənqidçilik fəaliyyətinin araşdırılmasında Cəlal Abdullayev, Əli Saləddin, Yəhya Seyidov, Əbülfəz İbadoğlu, Bəkir Nəbiyev, Ayaz Vəfalı, Zaman Əsgərli, Nazif Ələkbərli, Elçin, İmamverdi Əbilov, İntiqam Qasımzadə, Şamil Salmanov, Vaqif Yusifli, Şirindil Alışanlı, Nizami Cəfərov, Səlahəddin Xəlilov, Azər Turan və başqalarının əməyini qeyd etmək olar. Bu tədqiqatlarda bir tənqidçi kimi Məsud Əlioğlu şəxsiyyəti, tənqidçi fərdiyyəti ön plana çəkilmiş, orijinal yazı üslubundan bəhs edilmişdir. Bununla belə, Məsud Əlioğlunun yaradıcılığının öyrənilməsi istiqamətində geniş həcmli tədqiqat əsəri yoxdur. Lakin bu məqalələrin Məsud Əlioğlunun həyat və yaradıcılığının ayrı-ayrı məqamlarının araşdırılması istiqamətində ilk təşəbbüs kimi əhəmiyyəti böyükdür. Dissertasiyada yeri gəldikcə bu çoxsaylı məqalələrdən istifadə edilmiş, hər bir məqaləyə konkret predmet baxımından yanaşılmışdır. Məsud Əlioğlunun tənqidi görüşlərinin araşdırılmasında mühüm istiqamət kimi onun çap olunan kitabları ilə bağlı yazılan məqalələri daxil etmək olar. Alimin "Ədəbiyyatda yeni insan" (1964-cü il) toplusu nəşr edildiyi vaxtdan bu günədək yaradıcılığının müxtəlif sahələri haqqında ədəbiyyatşünas və tənqidçilər məqalə və rəylər yazmışdırlar. Bu işdə ilk addım Cəlal Abdullayevə [2] məxsusdur. O, Məsud Əlioğlu yaradıcılığında müsbət qəhrəman məsələsinin işlənmə dərəcəsinə nəzər salmış, qaldırılan problemlərin elmi-nəzəri səviyyəsini yüksək qiymətləndirmişdir. Bundan başqa kitabın məziyyətləri barədə Yəhya Seyidovun "Ədəbiyyatda yeni insan" [114], Əli Saləddinin "Yeni insanın tədqiqi" [112] başlıqlı məqalələləri çap olunmuşdur. Tənqidçinin "Məslək qardaşları" (1966-cı il) toplusunun çapı ilə əlaqədar Əli Saləddinin "Məslək naminə" [111] başlıqlı məqaləsi dövri mətbuat səhifəsində nəşr olunmuşdur. Məqalədə tənqidçinin klassik irsə münasibəti məsələsi diqqət mərkəzinə çəkilmişdir. Məsud Əlioğlunun vəfatından

sonra 1974-cü ildə çap olunan "Ədəbi fraqmentlər" [41] toplusuna müqəddimə yazan şair-alim Qasım Qasımzadə tənqidçinin şəxsiyyətinə üç prizmadan yanaşmış, onun elmi irsində istedad, zəhmətsevərlik və xalqsevərlik amillərini yüksək qiymətləndirmişdir.

Məsud Əlioğlunun ədəbi-tənqidi fikir tarixində xidmətlərini Yəhya Seyidov tənqidçinin 1979-cu ildə nəşr olunan "Məhəbbət və qəhrəmanlıq" toplusuna yazdığı giriş sözündə [47, s.5-8] yüksək dəyərləndirmiş, tənqidçi-ədəbiyyatşünasın ədəbi fəaliyyətini geniş təhlil etmişdir. Bu kitabla bağlı Bəkir Nəbiyevin yazdığı "Məhəbbət və qəhrəmanlıq" [103] məqaləsində tənqidçinin əsərlərinin aktuallığı, müasirliyi önə çəkilmişdir.

Məsud Əlioğlunun tənqidi irsinin araşdırılmasında ikinci istiqaməti onun anadan olması ilə bağlı müxtəlif ədəbi-mədəni tədbirlərin həyata keçirilməsi təşkil edir. Buna görə də Məsud Əlioğlu yaradıcılığına elmi-nəzəri səviyyədən qayıdışı 1998-ci ildən götürə bilərik. Tənqidçinin anadan olmasının 70-ci ildönümü münasibətilə çap olunan məqalələrdə onun tənqidi irsinə obyektiv münasibəti izləmək mümkündür. Zaman Əsgərli "Sözü qalan tənqidçi" [62] məqaləsində Hüseyn Cavid yaradıcılığına münasibətdə Məmməd Cəfər Cəfərovla Məsud Əlioğlu tədqiqatlarını müqayisə edir, onların təhlillərinin məzmunundakı fərqləri müəyyənləşdirir, monoqrafiyaların yazıldığı tarixi şəraiti diqqət mərkəzinə çəkir, Məsud Əlioğlunun tənqidi irsində Vanslovun estetikasının təsirini düzgün izah edirdi. Nazif Ələkbərlinin "Tənqiddən keçən şəxsiyyət" [36] məqaləsi Məsud Əlioğlunun tənqidçilik fəaliyyəti haqqında müfəssəl məlumat xarakteri daşıyırdı. Professor Şamil Salmanov "Tənqidçi ehtirası ilə" [113] məqaləsində Məsud Əlioğlunu professional tənqidçi kimi diqqətə çatdırır, onun fəaliyyətə başladığı dövrdə digər tənqidçilər sırasında yerinə diqqəti yönəldir, özünəməxsus təfəkkür tərzinə, orijinal tənqidçi üslubuna malik olduğunu qeyd edirdi.

2008-ci il Nizami adına Ədəbiyyat İnstitutunda Məsud Əlioğlunun anadan olmasının 80 illiyinə həsr olunmuş tədbir keçirilməsi tənqidçinin fəaliyyətinin araşdırılmasında yeni mərhələ oldu. Belə ki, yubiley münasibətilə yazılan məqalələr elmi-nəzəri əhəmiyyət kəsb etməklə yanaşı, xatirə xarakteri daşıyırdı. Şirindil

Alışanlı "Nəzəri fikrin yaşamaq haqqı" məqaləsində [10] ictimai və fəlsəfi fikir tarixində Məsud Əlioğlunun xidmətlərini göstərmiş, ədəbi-nəzəri fikrin inkişafında onun irsinin aktuallığı məsələsinə aydınlıq gətirmişdir. "Azərbaycan" jurnalının 11-ci sayında "Məsud Əlioğlu – 80" başlığı altında İntiqam Qasımzadə və İmamverdi Əbilovun məqalələri çap olunmuşdur. İntiqam Qasımzadə "İşığı qalır" [80] məqaləsində tənqidçinin romantik xarakterinin onun yaradıcılığına təsirini, cəsarətli tənqidçi mövqeyini diqqət mərkəzinə çəkmişdir. İmamverdi Əbilovun "Söndükcə zəka əhli-vətən ağlayacaqdır" [34] yazısı Məsud Əlioğlu ilə bağlı xatirələrə həsr olunmuşdur. Azər Turan "Fikir həyatımızın Məsudu" [123] məqaləsində isə Məsud Əlioğlunu Azərbaycan ədəbi tənqid tarixində ayrıca bir mərhələ kimi dəyərləndirmişdir. Səlahəddin Xəlilov [73] isə tənqidçinin yaradıcılığında fəlsəfi qatı müəyyənləşdirməyə çalışmışdır.

2018-ci il sentyabr ayının 25-də Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Məsud Əlioğlu – 90" tədbirinin keçirilməsi, akademik İsa Həbibbəylinin onu "Universal tənqidçi" [8] kimi qiymətləndirməsi müasir dövrdə Məsud Əlioğlu yaradıcılığına verilən yüksək dəyərin göstəricisidir. Vaqif Yusiflinin "Məsud Əlioğlu: 90 ilin yarısı" [163] məqaləsi onun hərtərəfli tənqidçi üslubunun orijinallığını üzə çıxarırdı.

Beləliklə, mövzu ilə bağlı adı çəkilən məqalələr göstərir ki, Məsud Əlioğlunun ədəbi-tənqidi görüşləri həmişə diqqət mərkəzində olmuşdur. Bu mülahizələrin tənqidçinin fəaliyyətinin araşdırılması istiqamətində oynadığı rol böyükdür.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Məsud Əlioğlunun ədəbi-tənqidi görüşlərində yer alan çoxcəhətli problemlərin, onun yaradıcılığı kontekstində ədəbi şəxsiyyətlərin ədəbiyyat tarixindəki rolunun öyrənilməsi təşkil edir. Tədqiqatın predmeti isə Məsud Əlioğlunun tənqidi irsini əhatə edən monoqrafik araşdırmaları, məqalələri, resenziyalarıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Məsud Əlioğlunun tənqidçilik fəaliyyətini araşdırmaq, onun monoqrafiya, məqalə, resenziyalarında öz əksini tapan fikirlərini təhlil etmək, ümumiləşdirmələr aparmaq, sistemli şəkildə tədqiq etmək, Azərbaycan ədəbi tənqid tarixində onun yerini müəyyənləşdirməkdən

ibarətdir. Qarşıya qoyulmuş məqsədin həyata keçirilməsi ilə bağlı aşağıda göstərilən tədqiqat vəzifələrinin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Məsud Əlioğlunun tənqidçilik fəaliyyətinin əsas xüsusiyyətlərini və mərhələlərini tədqiq etmək;
- Dövrün ədəbi-elmi mühiti çərçivəsində tənqidçinin estetik tərəflərini sistemləşdirmək;
- Məsud Əlioğlunun tənqidçi üslubunu ortaya çıxarmaq;
- Ədəbi prosesdə Məsud Əlioğlunun yerini və mövqeyini, irəli sürdüyü mülahizələrin orijinallığını aydınlaşdırmaq;
- Azərbaycan ədəbiyyatının aktual problemlərinin həllində Məsud Əlioğlunun rolunu müəyyənləşdirmək;
- Məsud Əlioğlunun tənqidçilik fəaliyyətində ədəbi şəxsiyyətlər problemini araşdırmaq;
- Qadın-ana hüququnun sovet ədəbiyyatında öz əksini tapmasına Məsud Əlioğlunun münasibətini öyrənmək, milli və ümumbəşəri dəyərlərin çağdaş ədəbiyyatda yerini müasir ədəbiyyatşünaslıq mövqeyindən təhlil etmək;
- "Cəlil Məmmədquluzadənin dramaturgiyası" monoqrafiyası əsasında milli realizmin nəzəri-estetik səviyyəsinin müəyyənləşdirilməsində Məsud Əlioğlunun rolunu nəzərdən keçirmək;
- "Hüseyn Cavidin romantizmi" monoqrafiyasını təhlil etməklə milli romantizmin tədqiqində yeni mərhələnin formalaşmasında Məsud Əlioğlunun xidmətlərini öyrənmək;
- Məsud Əlioğlunun klassik ədəbi irsə həsr etdiyi tədqiqatlarda mövzu və problem dairəsini üzə çıxarmaq, klassiklərin yaradıcılıq fəlsəfəsinin açılmasında tənqidçinin mövqeyini qiymətləndirmək;
- Məsud Əlioğlunun "Atalar və oğullar" probleminə yanaşma tərzini açmaq, bu problemin həllində marksist estetikanın "Atalar və oğullar" konsepsiyasına geniş münasibət bildirmək, ədəbi-tarixi prosesdəki sağlam meyillərlə yanaşı, dövrün konyuktur ədəbi mövqelərinə qiymət vermək;

- Müasir irsin tədqiqində Məsud Əlioğlunun araşdırmalarının dəyər və əhəmiyyətini ön plana çəkmək;

- Azərbaycan poeziyasında novatorluq axtarışlarını tədqiqata cəlb etmək;

- Məsud Əlioğlunun elmi irsində Azərbaycan nəsrinin inkişaf meyillərinə nəzər salmaq;

**Tədqiqat metodları.** Dissertasiya işində elmi-nəzəri materiallar sistemli şəkildə araşdırılmışdır. Tədqiqat zamanı tarixi-müqayisəli və tarixi-tipoloji təhlil metoduna üstünlük verilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Tədqiqatın elmi yeniliyi müdafiəyə təqdim olunan aşağıdakı yeni elmi müddəalarda əks olunur:

- Ədəbi-nəzəri fikrimizdə müstəqil düşünə bilən, yaradıcılığın nəzəri-estetik cəhətlərinə diqqət yetirən, ədəbi prosesdə yeni faktlara obyektiv münasibət göstərən tənqidçi şəxsiyyətinin diqqətə çatdırılması;

- Sosioloji və estetik tənqidin konsepsiyalarını özündə birləşdirən tənqidçi fərdiyyətinin üzə çıxarılması;

- Məsud Əlioğlunun bir-birinə antiteza təşkil edən XX əsrin 50-ci və 60-70-ci illər yaradıcılıq mərhələlərinin izlənilməsi. Tənqidçinin 50-ci illərdəki fəaliyyətinin axtarış, 60-70-ci illərdəki fəaliyyətinin isə kamillik mərhələsi kimi səciyyələndirilməsi;

- Azərbaycan nəsrinin problemlərinin ədəbi tənqiddə işıqlandırılması istiqamətində Məsud Əlioğlunun oynadığı rolun müəyyənləşdirilməsi;

- Azərbaycan poeziyasının tədqiqində Məsud Əlioğlunun özünəməxsusluğu və orijinallığı;

- Məsud Əlioğlunun klassik irsə münasibəti məsələsi;

- Məsud Əlioğlunun nəzəri biliyə sahib tənqidçi kimi əsaslandırılması;

- Teatr və incəsənətlə bağlı yazılmış məqalələrdə Məsud Əlioğlunun tənqidçilik fəaliyyətinin universallığının və çoxşaxəliliyinin qiymətləndirilməsi;

**Tədqiqatın elmi yeniliyi.** Məsud Əlioğlu şəxsiyyətinə, fəaliyyətinə müxtəlif məqalələrdə toxunulsa da, ayrıca tədqiqat predmeti seçilməmiş, yaradıcılığı bütövlükdə araşdırılmamışdır. Buna görə də dissertasiya müasir elmi tələblər

səviyyəsində Məsud Əlioğlu irsinə həsr olunmuş ilk elmi tədqiqat əsəridir. İşin elmi yeniliyini aşağıdakı şəkildə müəyyənləşdirmək olar:

- Məsud Əlioğlunun tənqidçilik fəaliyyəti ilk dəfə olaraq sistemli şəkildə araşdırılır.

- Məsud Əlioğlu sosioloji və estetik tənqidin qovşağında yetişən tənqidçi kimi nəzərdən keçirilir.

- Məsud Əlioğlunun tənqidçilik fəaliyyəti tarixilik və müasirliyin vəhdətində açılır.

- "Atalar və oğullar" probleminin mahiyyətinə Məsud Əlioğlunun yanaşma tərzi tədqiq edilir.

- Azərbaycan poeziyasının tədqiqində Məsud Əlioğlunun xidmətləri araşdırılır.

-Azərbaycan nəsrinin nəzəri problemlərinə Məsud Əlioğlunun yanaşma tərzi tədqiqat obyekti seçilir.

- Məsud Əlioğlunun ədəbi-tənqidi görüşlərinin fəlsəfi aspekti üzə çıxarılır.

- İlk dəfə olaraq Məsud Əlioğlunun kitablar haqqında yazdığı rəylər, resenziyalar kompleks şəkildə öyrənilir.

- İlk dəfə olaraq Məsud Əlioğlunun teatrla bağlı görüşləri diqqətə çatdırılır.

- Məsud Əlioğlunun ədəbi əlaqələr probleminə münasibəti təhlilə cəlb olunur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Məsud Əlioğlunun ədəbi-tənqidi fəaliyyəti XX əsr ədəbi-nəzəri fikrin ən mühüm tərkib hissəsi kimi xüsusi əhəmiyyətə malikdir. Tədqiqat işinin nəticələrindən XX əsr ədəbi tənqidinə dair araşdırmalarda, müvafiq monoqrafiya, dissertasiya işləri, tədris proqramları və dərsliklərin hazırlanmasında, ali məktəblərin filologiya fakültəsinin bakalavr və magistr pillələrində Ədəbi tənqid, Ədəbiyyat nəzəriyyəsi, Azərbaycan ədəbiyyatı fənlərinin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın hər bir fəsli Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin iclaslarında müzakirə edilmişdir. Tədqiqat işinin əsas müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan

dövri elmi nəşrdə, ölkədaxili və xaricində keçirilən beynəlxalq konfransın materiallarında işıq üzü görmüşdür.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.** Dissertasiya işi girişdən, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 284979 işarədən ibarətdir. Giriş 13288 işarədən, birinci fəsil 63320 işarədən, ikinci fəsil 102169 işarədən, üçüncü fəsil 99293 işarədən, nəticə isə 6909 işarədən ibarətdir.

# I FƏSİL
# MƏSUD ƏLİOĞLUNUN TƏNQİDÇİLİK FƏALİYYƏTİNİN ƏSAS MƏRHƏLƏLƏRİ

## 1.1. Məsud Əlioğlunun tənqidçi fərdiyyətinin formalaşmasında 50-ci illər xüsusi mərhələ kimi

Ədəbi-nəzəri fikrin hər bir mərhələsi Azərbaycan ədəbiyyatının tədqiqində mühüm rol oynayır. Ədəbi tənqidin təşəkkülü qədim və orta əsrlər ədəbiyyatında yaranan nəzəri prinsiplərlə bağlıdır. Bu hazırlıq mərhələsi ədəbi tənqidi fikrin XIX əsrdə yeni mərhələsinin formalaşmasına təkan verdi. XX əsrdə isə ideoloji faktorların olmasına baxmayaraq, ədəbi tənqid peşəkar səviyyəyə yüksəldi. Bu dövrdə tənqidçilər Mirzə Fətəli Axundzadənin nəzəri konsepsiyasını davam etdirməklə, ədəbi-tənqidi fikir tariximizin inkişafına öz töhfələrini verdilər. Xüsusən, İkinci Dünya müharibəsindən sonra tənqidin qarşısında yeni vəzifələr dururdu. Bununla belə, sosioloji təhlil aparıcı mövqeyini qoruyub saxlayır, konfliktsizlik nəzəriyyəsi ədəbiyyatın mövzu və problematikasına mənfi təsir göstərirdi. Bu tarixi şəraitdə formalaşan tənqidçilər dövrün tələbindən irəli gələn məsələlərə diqqət yetirib bədii materiala yanaşsalar da, onların öz yolu və yazı tərzi olub. Çünki *"tənqid məhz o zaman mənalı və maraqlı olur ki, o, sənətkarın yaradıcılığında həm özünəməxsus – fərdi, həm də tipoloji cizgilərə təhlil verə bilir və bu təhlil bədii dünyagörüşünün təhlili səviyyəsinə, mühüm fəlsəfi-estetik ümumiləşmələr səviyyəsinə yüksəlir. Nəzəri baxım bu zaman nəinki oxucu ilə tənqidçi arasında maneə olmur, əksinə, tənqidçi əməyini xalqın mənəvi həyatının hadisəsinə çevirir"* [19, s.232]. Bu istiqamətdə ədəbi prosesə təsir edən tənqidçilər arasında Məsud Əlioğlu öz üslubu ilə seçilir, milli ədəbiyyatın nəzəri-estetik dəyərləri fonunda bədii materialı şərh edirdi.

Ədəbi tənqid XX əsrdə düzxətli bir inkişaf yolu getməmiş, yeni mərhələ ziddiyyətli meyillərlə müşayiət olunmuşdur. Bu mübahisəli təmayüllər XX əsr ədəbi tənqid tarixini ayrı-ayrı mərhələlərə bölürdü. Buna görə də bu dövrün tənqidi mahiyyəti, elmi-nəzəri səviyyəsi etibarilə özünəməxsusluğu ilə seçilirdi. 70-ci illərə qədər olan tədqiqatlarda "Tənqid və ədəbiyyatşünaslıq" 1920-1932-ci illər, 1932-

1941-ci illər, 1945-1953-cü illər, 1953-1960-cı illər kimi mərhələlərə bölünürdü. Bu təsnifata 1970-1980-ci illərdəki tənqidi fikri də əlavə etsək, XX əsr sovet tənqidi beş mərhələdə səciyyələnirdi. Bu təsnifat ideoloji çərçivəni özündə ehtiva edirdi. 80-ci illərin araşdırmalarında isə ədəbi tənqidin 1920-1930-cu illər, 1930-1940-cı illər, 1950-ci illər, 1960-cı illər, 1970-1980-ci illər kimi bölünməsi tənqidçilərin ədəbi prosesə qoşulma illəri ilə əlaqədar idi. Bu mərhələlər şərti xarakter daşısa da, sovet dövrü ədəbi tənqidinin elmi-nəzəri səviyyəsi haqqında dolğun məlumat verirdi. Bununla belə, vahid mərhələ konsepsiyası diqqəti cəlb etmir. Çünki bu dövr tənqidində siyasi faktorun aktuallığı bu tipli təsnifatların sosialist realizmi yaradıcılıq tipinə cavab verməsi ilə nəticələnirdi.

Sovet dövrünü ayrıca bir mərhələ kimi götürsək, sosioloji və estetik tənqidin spesifikasını nəzərə almaq lazımdır. İki bir-birinə zidd olan bu anlayışlar Sovet dövrü ədəbi tənqid tarixini sosioloji tənqid dövrü və estetik tənqid dövrü kimi təsnifatda bölməyə əsas verir. 1930-1950-ci illərin sosioloji tənqid, 1960-1980-ci illərin isə estetik tənqid kimi təsnifatlaşdırılması nəzəri problemlərin həlli və tənqidçilərin fəaliyyəti baxımından tənqid tarixinin sərhədlərinə uyğun gəlir. Məsud Əlioğlunun tənqidçilik fəaliyyəti bu iki bir-birinə əks olan mərhələləri özündə birləşdirirdi.

Azərbaycan ədəbi-nəzəri fikrin inkişafında böyük xidmətləri olan tənqidçi Məsud Əlioğlu çətin bir dövrdə – marksizm metodologiyasının hakim olduğu bir vaxtda ədəbiyyata gəlmişdir. İkinci Dünya Müharibəsindən sonra yeni repressiya dalğasının ədəbiyyatda gücləndiyi bir vaxtda öz üslubi ilə fərqlənən Cəlal Məmmədov, Qasım Qasımzadə, Kamal Talıbzadə, Bəkir Nəbiyev, Pənah Xəlilov, Qulu Xəlilov, Yəhya Seyidov, İslam İbrahimov kimi tənqidçilərin sırasında Məsud Əlioğlunun da adını qeyd edə bilərik. 1943-1944-cü illərdə çap olunan “Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi”nə olan haqsız iradlar, ÜİK(b)P MK-nın “Zvezda” və “Leninqrad” jurnalları haqqında” 14 avqust 1946-cı il, “Dram teatrlarının repertuarı və onu yaxşılaşdırmaq tədbirləri haqqında” 26 avqust 1946-cı il, “Böyük həyat” kinofilmi haqqında” 4 sentyabr 1946-cı il, Azərbaycan K(b)P Mərkəzi Komitəsinin “Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında” 22 avqust 1948-ci il tarixli qərarlarından sonra ədəbiyyat və incəsənət

üzərinə basqılar artdı. Bundan sonra tənqidçilər ehtiyatlı mövqe tutmağa məcbur oldular, sosioloji təhlilə daha çox üstünlük verildi. Məsud Əlioğlu isə bu cür mövqe ilə barışmır, sosioloji təhlilin sərhədlərini aşa bilir, azad fikirliliyin boğulduğu bir şəraitdə öz sözünü deməyi bacaran tənqidçi kimi yadda qalırdı.

Bəzi tədqiqatlarda Məsud Əlioğlunun ədəbi tənqid sahəsinə 40-cı illərin sonu, 50-ci illərin əvvəllərində gəldiyi fikri irəli sürülmüşdür [33, s.14]. Bu da təbii idi. Çünki həmin dövrün tədqiqatlarında ədəbiyyat iki hissəyə bölünmüşdü: müharibəyə qədərki dövr və müharibədən sonrakı dövr. Məsud Əlioğlu özü də bu izlə gedirdi. “Azərbaycan Sovet ədəbiyyatı tarixi”nin “Müharibədən sonrakı dövrdə ədəbiyyat” fəslinin “Tənqid və ədəbiyyatşünaslıq” hissəsini yazan ədəbiyyatşünas 1945-ci il müharibəsindən sonra ədəbiyyata qoşulan tənqidçilərin sırasında öz adını da qeyd etməyi unutmurdu: *“Onlardan K.Talıbzadə, Ə.Mirəhmədov, K.Məmmədov, daha sonralar P.Xəlilov, Məsud Əlioğlu, Ə.Hüseynov, İ.İbrahimov, H.Axundov və b. göstərmək olar. Əlbəttə, tənqidlə məşğul olan və ədəbiyyatşünaslığa həvəs göstərən bu gənclərin qələmi hələ lazımınca bərkiməmişdi. Nəzəri hazırlığa hələ kifayət qədər yiyələnə bilmədiklərindən gənclərin məqalələrində təsvirçilik, bədii əsərlərin məzmununu nağıl etmək və s. qüsurlar nəzərə çarpırdı”* [16, c.2, s.163]. 80-ci ilin ortalarından bu tendensiya dəyişirdi. Müstəqilliyə gedən yolda müharibə faktorunun aradan qalxması tədqiqatların yaradıcılıq istiqamətinə də təsir göstərirdi. Artıq bu dövrün tədqiqatlarında Məsud Əlioğlunun bir tənqidçi kimi üslubunun formalaşdığı dövr 50-ci illər götürülürdü [102, s.3].

Məsud Əlioğlunun 50-ci illərdə formalaşan tənqidçilər sırasına daxil edilməsi dövrün səciyyələndirilməsi baxımından real idi. Çünki tənqidçi fərdiyyəti, orijinal tənqidçi üslubu, ədəbi prosesdə aktual mövqeyi bu illərdə yazdığı məqalələrdə daha qabarıq görsənirdi. Bununla belə tənqidçinin 40-cı illərin sonlarında yazdığı məqalələrin elmi əhəmiyyəti də az deyildir. Onun ilk məqaləsi 1947-ci ildə “Oxucunun qeydləri” [151] başlığı altında hələ tələbəlik illərində çap olunmuşdur. Tənqidçinin ilk qələm təcrübəsi poeziya ilə bağlı idi. Ədəbiyyata yeni gələn Cahan Əfruz, Qabil Nikbin, İsmayıl Tofiq kimi gənc şairlər haqqında yazdığı bu məqalədə sərbəst, azadfikirli tənqidçinin izlərini görmək mümkündür. “Azərbaycan gəncləri”

qəzetində, "İnqilab və mədəniyyət" jurnalında dərc olunan ilk məqalələri də "Oxucunun qeydləri" [127; 152] başlığı altında idi. Tələbə qələmindən çıxan bu məqalələr elmi-nəzəri səviyyəsi etibarilə yüksək səviyyədə olmasa da, gənc tədqiqatçının leksikonunun zəngin olduğunu göstərir, ədəbiyyata istedadlı bir tənqidçinin gələcəyindən xəbər verirdi. 1948-ci ildə Manaf Süleymanovun "Yerin sirri" povesti, Zeynal Xəlilin "Fədai" poeması, Bəxtiyar Vahabzadənin "Aylı gecələr" poeması, Balaş Azəroğlunun şeirləri, 1949-cu ildə İsmayıl Şıxlının "Raykom katibi" hekayəsi, Vidadi Şıxlının "Dönüş" poeması, Balaş Azəroğlunun "Mingəçevir" poeması, Adil Babayevin, Əli Tudənin şeirləri haqqında yazdığı məqalələr Məsud Əlioğlunun tənqidçilik fəaliyyətində ilkin təcrübə kimi mühüm yer tuturdu. 1949-cu ildə çap olunan "Bir gəncin manifesti" [133] məqaləsi sübut edirdi ki, bu yazı onun 50-ci illərdə yazdığı məqalələrdən fərqlənmir. Mir Cəlal sənətkarlığına yanaşma tərzi, fikirlərinin aydınlığı, qələminin itiliyi, romanın təhlili zamanı gəldiyi yekun nəticələrdə ədəbi prosesə həvəslə qoşulan tənqidçinin izlərini görmək mümkündür. Bu məqalənin "İnqilab və mədəniyyət" jurnalının 11-ci sayında işıq üzü görməsi bu nəticəyə gəlməyə əsas verir ki, Məsud Əlioğlunun tənqidçi üslubu 50-ci illərdə formalaşmışdır.

Bir tənqidçi-ədəbiyyatşünas kimi Məsud Əlioğlunun ədəbi-nəzəri irsinin formalaşmasında 40-cı illərin nəzəri konsepsiyası da mühüm rol oynayır. 1946-1948-ci illərin qərarları 30-cu illərin abu-havasının davamı demək idi və vulqar sosioloji meyillərin hələ də hökm sürdüyünü göstərirdi. Bununla belə, 1948-ci ildə 25 may tarixində Belinskinin ölümünün 100 illiyi münasibətilə Azərbaycan SSR Elmlər Akademiyasında Tənqid konfransının, 1949-cu il 30 may tarixində Azərbaycan tənqidçiləri və ədəbiyyatşünaslarının müşavirəsinin, 1952-ci il 26 noyabr tarixində Natəvan adına klubda Azərbaycan tənqidçilərinin müşavirəsinin keçirilməsi tənqidi fikrin səviyyəsinə öz müsbət təsirini göstərirdi.

Nəticə olaraq deyə bilərik ki, Məsud Əlioğlunun ədəbi tənqidi fəaliyyəti ədəbi tənqid tarixinin 50-70-ci illərini əhatə etməkdədir. Təsnifat baxımından bu məsələyə baxsaq, bir-birinə antiteza təşkil edən dövrdə fəaliyyət göstərməsi onun üslubundakı rəngarəngliyi səciyyələndirən cəhət idi. Tənqidçinin nəzəri-estetik fikrin aktual

problemlərini əhatə edən məqalələri göstərdi ki, ədəbi-nəzəri fikrimizə müstəqil düşünə bilən, ədəbi irsin sosioloji yönümünə deyil, yaradıcılığın bədii estetik cəhətlərinə, fəlsəfi ümumiləşdirmələrə daha çox diqqət yetirən cəsarətli bir ədəbi şəxsiyyət gəlir. *"Məsud Əlioğlunun yaradıcılığında üç əsas istiqamət elmi-metodoloji aktuallığı (və enerjisi) ilə seçilir ki, onlardan birincisi xalq yaradıcılığı, ikincisi klassik, üçüncüsü isə müasir ədəbiyyatdır"* [31]. Tədqiqat apardığı sahə nəsrlə bağlı olsa da, poeziya və dramaturgiyaya da maraq göstərmiş, bu sahədə uzun illər aktuallığını qoruyub saxlayan ciddi araşdırmalar aparmışdır. Öz fəaliyyətində məhdudiyyət tanımayan Məsud Əlioğlu ədəbiyyatımızın müxtəlif nəsillərini təmsil edən Natəvan, Nizami, Füzuli, Vidadi, Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Məhəmməd Hadi, Süleyman Rəhimov, Süleyman Sani Axundov, Səməd Vurğun, Məmməd Səid Ordubadi, Mir Cəlal, İlyas Əfəndiyev, Yusif Vəzir Çəmənzəminli, Mirzə İbrahimov, Seyid Hüseyn və başqalarının yaradıcılığını təhlil edərkən çox vaxt obyektiv mövqedə dayanır, onların hər birinin yaradıcılığını konkret ədəbi faktlar əsasında tədqiqata cəlb edirdi. Azərbaycan poeziyasının keçdiyi inkişaf yolu, Rəsul Rza, Balaş Azəroğlu, Zeynal Xəlil, Osman Sarıvəlli, Mikayıl Müşfiq, Əliağa Vahid, Bəxtiyar Vahabzadə, Hacı Kərim Sanılı yaradıcılığının spesifik xüsusiyyətləri bir tənqidçi kimi onun diqqətindən yayınmırdı.

Nəzəri-estetik fikrin aktual problemlərini əhatə edən məqalələri "Məfkurə dostları", "Ədəbiyyatda yeni insan", "Məslək qardaşları", "Tənqidçinin düşüncələri", "Ədəbi fraqmentlər", "Məhəbbət və qəhrəmanlıq", "Amal və sənət", "Darıxan adamlar" kitabında toplanmışdır. Məsud Əlioğlunun ədəbiyyatşünaslıq fəaliyyətində ədəbi şəxsiyyətlər, onların yaradıcılıq üslubu və əsərlərinin geniş təhlili əsas yer tuturdu. "Cəlil Məmmədquluzadənin dramaturgiyası", "Süleyman Sani Axundov", "Rəsul Rza", "Hüseyn Cavidin romantizmi" monoqrafiyalarında tənqidçinin bu şəxsiyyətlərə və onların yaradıcılığına dərin məhəbbəti hiss olunur.

Məsud Əlioğlunun elmi fəaliyyəti Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə bağlıdır. Azərbaycan ədəbiyyat tarixinin yaradılmasında onun xüsusi xidmətləri olmuşdur. Üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi" kitabının "Mikayıl Müşfiq"

oçerkini [14, c.1], “Azərbaycan Sovet yazıçıları” kitabının “Osman Sarıvəlli”, “Məmməd Cəfər”, “Qılman Musayev” portretlərini [17], ikicildlik “Azərbaycan Sovet ədəbiyyatı tarixi”nin “20-ci illərdə ədəbiyyat” və “30-cu illərdə ədəbiyyat” fəsillərinin “Nəsr”, “Müharibədən sonrakı dövrdə ədəbiyyat” fəslinin “Dramaturgiya”, “Tənqid və ədəbiyyatşünaslıq”, “Müasir dövrdə ədəbiyyat” fəslinin “Tənqid və ədəbiyyatşünaslıq” bölmələrini Məsud Əlioğlu yazmışdır [15, c.1, s.5].

Bu illərdə yazılan məqalələrdə tənqidçinin üslubi funksionallığı rəngarəngliyi ilə yadda qalırdı. Ədəbiyyatşünas 1955-ci ildə “Azərbaycan nəsrində vətəndaş müharibəsi mövzusu” adlı filologiya üzrə fəlsəfə doktorluğu işini müdafiə etmişdir. Tədqiqat sahəsi ilə bağlı olduğuna görədir ki, bu illərdə yazılan məqalələrin bir qismi bu mövzu ətrafında idi. Onun Mirzə İbrahimovun “Gələcək gün”, Süleyman Rəhimovun “Şamo” romanları haqqındakı tədqiqatlarını Azərbaycan nəsrinin araşdırılması istiqamətində qiymətli nümunələr sırasına daxil etmək olar.

Məsud Əlioğlunun “Gələcək gün” romanının təhlili zamanı Şeyx Məhəmməd Xiyabaninin “Ey Azərbaycan, Ey Azərbaycan demokratiyası başını qaldır!” cümləsi ilə məqaləni başlaması romanın əsas ictimai və bədii əhəmiyyəti haqqında dolğun məlumat formalaşdırır. Tənqidçi romanın qəhrəmanları Firudin, Kürd Əhməd, Kərimxan Azadi və Sərxanı gələcəyin sahibləri adlandırmaqla onların mübarizəsinin həyatiliyini diqqətə çatdırmaq istəmişdir. Mirzə İbrahimovun romanında qəhrəmanların peşəkar inqilabçı kimi yetişməsində Qorkinin “Ana” əsərinin təsiri məsələsini qabartması real qənaət kimi verilmişdir. Həyat təcrübəsi az olan Firudini mübarizə meydanına gətirən səbəblər, digər inqilabçılarla olan münasibəti, xalqın gələcək taleyi uğrunda keçirdiyi hisslər, ata nəsihətini inqilabi çağırış kimi beyninə həkk edən Kürd Əhmədin nəcib keyfiyyətləri, xalqın azadlığı üçün canından keçən Kərimxan Azadinin həbsxanada əyilməz xarakteri, Sərtib Səliminin inqilabçı taleyi, Sərxanın inqilaba qoşulduqdan sonra qadına münasibətdə surətli dəyişikliyi real cizgilərlə təhlil olunmuşdur. Müəllif Gülnaz, Xavər, Fəridə, Südabə və Şəmsiyyənin həyat yolunun inqilabdan ayrı verilməməsinin yerində olduğunu vurğulayırdı. Tənqidçi Gülnazı təşrih aləti kimi təhlil edərkən utancaq, çəkingən bir qız olan Gülnazın daxilən təkamül prosesində verilməsinə, mübariz bir qadına çevrilməsinə,

İran həyatının qorxulu tərəflərinin üzə çıxarılmasında oynadığı rola, Mirzə İbrahimovun onu ustalıqla yaratmasına işarə etmiş, tutarlı bir vasitə seçmişdir. Tənqidçinin Xavərin təhlilində siyasi cəhətdən geniş dünyagörüşə malik qadın surətini üzə çıxarması onun digər qadın obrazlarından fərqlənməsinə gətirib çıxarmışdır.

Məqalənin ikinci hissəsi İran dövlətinin daxilində baş verən siyasi məsələlərin izahına həsr olunmuşdur. Pəhləvi rejiminin törətdiyi acınacaqlı vəziyyətin, Rza şahın cinayətkar əməllərinin açılmasına yönələn təhlillər reallığı ilə diqqəti cəlb edir. Tənqidçi dövlət başçısının açdığı yolla gedən Hakimülmülkün, sərhəng Səfainin, Hikmət İsfahaninin təsvirinin saray mühitinin əsl mahiyyətini açmaq baxımından əhəmiyyətini də qeyd etməyi unutmamışdır. Hikmət İsfahaninin dustaqxanada Firudini ələ almağa çalışması, Sofi İranpərəstin Hikmət İsfahani tərəfindən ələ salınması və xarici qonaqların onlara gülməsi səhnələrini Məsud Əlioğlu İran dövlətinin çürüklüyünü sübut edən əhəmiyyətli hissələr kimi dəyərləndirmişdir. Xarici işğalçıların yeritdiyi siyasətin nəticəsində əzilən xalqın təsvirinin tarixilik baxımından izahı tənqidçi təfəkkürünün genişliyini ortaya çıxarır. Tənqidçinin bu yaramaz insanların əməlləri haqqında gəldiyi qənaət real nəticələrə bağlanmışdır. Pul düşkünü Hakimülmülkün satqın təbiətinin, sərhəng Səfainin məzlum kütləyə qarşı qorxunc əməllərinin, saray məmurlarının əlində oyuncağa çevrilən Hikmət İsfahaninin qəddarlığının yalnız bir səbəbi var: *"Bunlar hamısı nədən doğmuşdur? Yenə də ictimai quruluşun çürüklüyündən, qanunların qanunsuzluğundan, hökmdarların vicdansızlığından"* [140, s.143].

Məsud Əlioğlunun "Gələcək gün" romanını nasirin yaradıcılığında irəliyə doğru atılmış müvəffəqiyyətli addım kimi dəyərləndirməsi, romanın publisistik ruhu ilə obrazların fərdi xüsusiyyətlərinin bir-birinə bağlaması reallığı əks etdirmişdir. Məqalənin əhəmiyyəti onda idi ki, müəllif həm romanın əsas ideyasına toxuna, həm də surətlərin təhlilini düzgün məcraya apara bilmişdir.

Məsud Əlioğlunun Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Süleyman Rəhimov haqqında yazdığı məqalələrin əhəmiyyəti yazıçının sənətkarlıq səviyyəsini, istedadını, hadisələri, obrazları işləmə ustalığını təhlil etməyi bacarmasındadır.

Nasirin Azərbaycan sovet ədəbiyyatının inkişafında oynadığı rol əsas verirdi ki, tənqidçi bu fikirləri irəli sürsün. Yaradıcılığa "Şamo" romanı ilə başlayan ədib çətin bir işin öhdəsindən gəlmişdir. 30-cu illərdə yazılan bu əsər romanların içərisində tarixi gerçəkliyin əksi baxımından qiymətli əsər kimi yadda qalmışdır. Romanın sovet dövrünü səciyyələndirmək istiqamətdə oynadığı rol danılmazdır. Tənqidçi "Şamo" romanının rus dilində nəşrindən sonra "Fırtına ərəfəsində" məqaləsini yazmışdır [138]. Tənqidçinin Şamonun həyat yolunun "öyrənmək, anlamaq, əməl etmək" kimi üç tezis ətrafında təhlili bədii obrazın səciyyəsini obyektivliyi ilə göstərirdi. O, romanın müsbət obrazlarının qarşısında duran "Nə etməli" sualının mahiyyətini açmağa çalışırdı. Onun qənaətincə, bu sual Şamo və Fərzalının şüurunu aktivləşdirən mənbədir. Müəllif məqalədə romanın ilk variantının ictimai funksiyasına görə şəxsi motivlərlə məhdudlaşdırılması fikrini əsaslandırmağa çalışmışdır. Ona görə də Şamo, Fərzalı, Həsi, Heybət kimi gənclərin inqilabi mübarizəsinin yalnız mühakimələrdə verməklə kifayətlənilməsi, romanın mənfi obrazları siyahısına daxil olan Hətəmxanın, Sultan bəyin, Kərbalının, Göyərçinin canlı göstərilməsi müqabilində müsbət surətlərin zəif təsviri tənqidçinin etirazına səbəb olmuşdur. Məsud Əlioğlunun Hətəmxanın xırman vaxtı ilan oynadan sofiləri döyməsi, Alo ilə öküz əhvalatı kimi təsvirlərin sujet xəttinə zərbə vurduğunu söyləməsi bir qədər reallığı əks etdirmir. Çünki bu epizodik hissələr əsas məqsədin və obrazın səciyyəvi cizgilərinin açılmasına müəyyən qədər kömək edirdi. Qeyd edək ki, tənqidçi bu məqaləni yazarkən təhlildən çox nasirə məsləhət vermək məqsədi güdmüş, göstərilən iradların romanın gələcək hissələrində nəzərə alınmasını diqqətə çatdırmışdır.

Məsud Əlioğlunun yaradıcılığına xüsusi əhəmiyyət verdiyi ədəbi şəxsiyyətlər sırasında Süleyman Sani Axundovun adını qeyd edə bilərik. Süleyman Sani Axundov yaradıcılığı müxtəlif dövrlərdə Məmməd Arif, Cəfər Xəndan, Məmməd Cəfər Cəfərov, Abbas Zamanov, Kamran Məmmədov, Nadir Vəlixanovun elmi irsinin tədqiqat predmeti olmuşdur. Bu tədqiqatlar arasında Məsud Əlioğlunun 1956-cı ildə yazdığı "Süleyman Sani Axundov" monoqrafiyasının Azərbaycan ədəbi fikir tarixində əhəmiyyəti böyükdür. Monoqrafiya ədibin həm həyatını, həm də ədəbi və ictimai fəaliyyətini əhatə edirdi. Onun bədii irsi pedaqoji fəaliyyəti ilə vəhdətdə təhlil

olunur, uşaqlıq illərindən ölümünə qədər yaradıcılıq yolu ardıcıllıqla diqqət mərkəzinə çəkilirdi. Sənətkarın xatirələrinə əsaslanaraq, tədqiqatçı uşaqlıq və Qori seminariyasında keçən təhsil illəri, müəllimlik fəaliyyətindən bəhs edirdi. Gənc nəslin təlim-tərbiyə məsələsinə xüsusi diqqət ayıran Süleyman Sani Axundovu "Xalq müəllimi" adlandırması tənqidçinin ədibin şəxsiyyətinə verdiyi dəyərin göstəricisi idi. Məsud Əlioğlu 1906-1907-ci illər ərzində Bakıda çağırılan Azərbaycan müəllimlərinin I və II qurultayının mahiyyətini düzgün dərk edən sənətkarın "İkinci il" adlı dərsliyi tərtib etməsini əsil xalq müəlliminə yaraşan bir xüsusiyyət kimi dəyərləndirirdi.

Tənqidçi monoqrafiyada ədibin anadan olduğu tarixə nəzər salmış, həyat və fəaliyyəti ilə bağlı yeni faktlar üzə çıxarmışdır. Bu zaman anlaşılmazlıqlar da nəzərə çarpır. Məsud Əlioğlu onun 1875-ci il sentyabr ayının 21-də anadan olduğunu qeyd edir [159, s.3]. Süleyman Sani Axundov yaradıcılığının tədqiqatçısı Nadir Vəlixanov ədibin 1875-ci il oktyabr ayının 21-də dünyaya göz açdığını vurğulayır [124, s.7]. Məmməd Arif də oktyabr ayının 21-də doğulduğunu bildirir [13]. Süleyman Sani Axundovun Seçilmiş əsərlərinin 1951-ci il nəşrinə daxil olan "Tərcümeyi-halım" hissəsində bu tarix sentyabr ayının 21-i kimi göstərilir [6, s.423]. "İnqilab və mədəniyyət" jurnalının 1939-cu il IV nömrəsində Süleyman Sani Axundovun tərcümeyi-halı ilk dəfə olaraq nəşr edilir. Jurnalda ədibin doğulduğu gün 21 oktyabr kimi qeyd olunur [119, s.102]. Cəfər Hacıyev ədibin 1935-ci ildə yazılmış tərcümeyi-halına əsaslanıb, 1875-ci il sentyabr ayının 21-də dünyaya göz açdığını vurğulayır [67, s.345]. Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda 63/10 qovluğunda Süleyman Sani Axundovun öz əlyazısı ilə yazılmış şagird dəftəri saxlanılır. Ərəb əlifbası ilə yazılmış bu dəftərdə ədibin 31 oktyabrda anadan olduğunu yazılır [118]. Məsud Əlioğlu özü də monoqrafiyada qeyd edir ki, ədibin həyatı haqqında faktları "Uşaqlıq illərindən xatirələr" və "Tərcümeyi-halım"dan götürmüşdür. Çox güman ki, tədqiqatçı müəllifin "Seçilmiş əsərləri"ndə çap olunan tərcümeyi-halına əsaslanmış, jurnalda nəşr olunan variantla və tərcümeyi-halın əlyazma nüsxəsi ilə tanış olmamışdır.

Məsud Əlioğlu ədibin həyat və yaradıcılığını xronoloji ardıcıllıqla təhlilə cəlb edib. Tənqidçinin təhlillərini nəzərə alsaq, onun yaradıcılığını 3 dövrə bölmək olar:

1) 1899-1905-ci illər

2) 1905-1921-ci illər

3) 1921-1935-ci illər

Süleyman Sani Axundov yaradıcılığa 1899-cu ildə yazdığı “Tamahkar” pyesi ilə başlamış, 1912-1914-cü illərdə “Qorxulu nağıllar” başlığı altında silsilə hekayələr yazmış, bununla da uşaq ədəbiyyatının inkişafına böyük töhfələr vermişdir. Məsud Əlioğlu sənətkarın dramdan hekayə janrına meyil etməsinin müəyyən səbəbləri olduğunu vurğulayır və fikirlərini belə izah edirdi: *“S.S.Axundov bir qabaqcıl müəllim kimi hiss edirdi ki, yaradıcılığın bu növü kiçik yaşlı uşaqların, gələcək nəslin əxlaqi və mənəvi yüksəlişinə əsaslı, dərin təsir edə bilər. Həm də bu sahədə (uşaq ədəbiyyatı sahəsində) görülən iş qənaətbəxş deyildi”* [159, s.29].

Məsud Əlioğlu onun ilk hekayələri olan “Yuxu”, “Kövkəbi-hürriyyət” və “Qonaqlıq” əsərlərini sənətkarlıq cəhətdən nöqsanlı hesab etmişdir. “Qorxulu nağıllar” başlığı altında ədibin dörd hekayə yazdığını bildirmiş, “Əşrəf” hekayəsini bu silsiləyə daxil etməmiş, ümumiyyətlə, onun bu adlı hekayəsinin olduğu haqqında məlumata tənqidçinin tədqiqatlarında rast gəlmirik. O, silsiləyə daxil olan “Əhməd və Məleykə”, “Abbas və Zeynəb” hekayələrini ayrıca təhlilə cəlb etməmiş, “Nurəddin” və “Qaraca qız” əsərləri üzərində geniş dayanmışdır.

Süleyman Sani Axundov nasir kimi Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan bir maarif xadimidir. 1905-1935-ci ilə qədər bir çox hekayəyə imza atan ədibi daha çox tanıdan “Qaraca qız” əsəridir. Məsud Əlioğlu bu əsəri ədibin nəsr yaradıcılığının ən kamil, ən güclü nümunəsi hesab edir, digər nəsr nümunələrindən fərqləndirən cəhətləri belə ümumiləşdirirdi: *“Povestdə elə bir səhifə yoxdur ki, orada ədibin insanpərvərlik hissi ilə çarpan ürəyi duyulmasın. Uşaqlığın poeziyasını, uşaqlıq dünyasının incəlik və gözəlliyini dərindən-dərinə duymaq, sevmək, qiymətləndirmək S.S.Axundovun bu əsərində daha qabarıq və təsirli şəkildədir”* [159, s.45].

Məsud Əlioğlunun tədqiqatlarında diqqətimizi cəlb edən əsas cəhət müəllifin "Qaraca qız" əsərini "povest" adlandırmasıdır. Əsər "Məktəb" jurnalının 1913-cü il nəşrində hissə-hissə çap olunmuşdur. Jurnalda əsərin janrı "hekayə" olaraq göstərilmişdir. Ona qədər (Məsud Əlioğluya – N.M.) də əsəri povest kimi qiymətləndirən tədqiqatçılara rast gəlirik. Cəfər Hacıyev əsər haqqında fikirlərini belə ümumiləşdirir: *"Uşaq ədəbiyyatının yaxşı nümunələrindən olan povestdə Süleyman Sani Axundov keçmiş həyatın çirkinliklərini, o dövrdə kimsəsiz uşaqların acınacaq halda yaşamalarını, dövlətlilərin zülmünü sadəcə olaraq təsvir etmir, eyni zamanda ifşa etməyə çalışır"* [67, s.359].

Son dövrün tədqiqatlarında da "Qaraca qız" əsərinin janrı povest olaraq diqqət mərkəzinə çəkilir. Əsərin üç variantı üzərində geniş tədqiqat aparan Könül Nəhmətova əsərin janrı məsələsinə toxunur və onu "povest" adlandırır: *"Orta məktəb şagirdləri üçün yazılan ədəbiyyat dərsliklərində "Qaraca qız" povestinin 1934-cü ildə dəyişdirilib nəşr edilən variantı əsas götürülməklə süjet xəttini izləyən epizodlar təfərrüatlardan təmizlənərək hekayə adı ilə tədris proqramına daxil edilmişdir. On illərlə "Qaraca qız" povesti janr və ideya baxımından yanlış təbliğ olunur"* [5, s.10].

Janrların sərhəddinin müəyyənləşməsindəki çətinlik, xüsusilə, epik növdə olan əsərlərdə özünü daha çox göstərir. Hekayə ilə povestin, povestlə romanın arasında olan fərqlərin aşkar edilməsində müəyyən mübahisələr ortaya çıxır. *"XX əsrin əvvəllərinə qədər "povest" sözü geniş məna almışdır. Poemalar, təmsillər, yol qeyd və təəssüratları povest adlanmış və "hekayə" sözü "povest" sözünün sinonimi kimi işlənmişdir. Qoqol hekayələrinə hekayə yox, povest demişdir"* [66, s.278]. Abbas Hacıyevin bu fikirlərinə əsaslansaq, deyə bilərik ki, Məsud Əlioğlunun "Qaraca qız" əsərinin janrını "povest" adlandırması sadəcə təsadüfi sinonimlikdən gələn bir məsələdir. Belə ki, müəllif bir çox yerdə əsərə "hekayə" də demişdir. *"Povest hekayədən fərqli olaraq, əsas personajın ətrafında birləşən həyat dövrünü təşkil edən bir sıra epizodlar verir. Bu baxımdan həcmcə daha böyükdür, daha geniş bir dairəni əhatə edir: zavyazka, razvyazka, zirvə nöqtəsi (kulminasiya) formaları artıq inkişaf etmiş hadisələr meydana gətirir: personajlar qarşılıqlı əlaqədə daha geniş təsvir edilir"* [174, s.343].

Əsərin həcm etibarilə genişliyi, bədii obrazın həyatının əhatəli təsviri tənqidçi tərəfindən hekayənin povest adlandırılmasına gətirib çıxarmışdır. Məsud Əlioğlunun sözləri ilə razılaşaraq bu qərara gəlirik ki, əsərdə yalnız bir bədii obrazın deyil, bir neçə bədii qəhrəmanın taleyi, həyəcanlarını görmək mümkündür: *"Yazıçı Qaraca qız ilə yanaşı olaraq onu sevən və qiymətləndirən bu üç adamın (Müəllif Yasəmən, Ağca xanım və Piri babanı nəzərdə tutur – N.M.) da taleyini, həyatını, iztirab və sevinclərini qabarıq vermişdir"* [160, s.172]. Lakin bir neçə adamla əlaqədar baş verən əhvalatın bir surətin taleyi ilə bağlanması əsərin janrının hekayə kimi səciyyələnməsinə gətirib çıxarır. Əsərdə qaldırılan problemin əhatə dairəsinin geniş olmaması, Yasəmən, Ağca xanım və Piri baba kimi obrazların təsvirinin Qaraca qızın faciəli həyatının açılmasına xidmət etməsi əsərin hekayə janrında yazıldığını sübut edir.

Məsud Əlioğlunu "Nurəddin" və "Qaraca qız" əsərlərinin finalı daha çox cəlb edir. O, "Nurəddin" əsərinin sonunda ədibin mənfi tipləri cəzalandırmamasını onun yaradıcılığının zəif cəhəti kimi qeyd edir, mənəvi tərbiyə yolunun ən yaxşı cəza növü kimi göstərilməsini yanlış qənaət kimi qiymətləndirirdi. "Qaraca qız" əsərinin sonluğunu isə uzun müddət yaddan çıxmayan, xatirələrdə dərin iz buraxan "kədər və göz yaşı səhnəsi" adlandırırdı.

Süleyman Sani Axundovun yaradıcılığının bir hissəsi Sovet hakimiyyəti illərinə düşür. Tənqidçi 1923-1927-ci illər ərzində yazdığı hekayələri iki istiqamət üzrə təhlilə cəlb etmişdir:

1) Sovet hakimiyyətinə qədərki həyatdan bəhs edən hekayələr: "Qan bulağı", "Ümid çırağı", "Qatil uşaq", "Namus", "Nə üçün", "Qonaqlıq"

2) Sovet həyatından bəhs edən hekayələr: "Müalicə", "Molla Qasım", "Sona xala", "Təbrik", "Son ümid", "Mister Qireyin köpəyi", "Gənc maşinistika və qoca yazıçı"

Müəllif sənətkarın sovet dövrü yaradıcılığını geniş şəkildə təhlil süzgəcindən keçirmişdir. Süleyman Sani Axundov sovet quruluşunun ilk illərində qələmini dramaturgiya sahəsində davam etdirmişdir. 20-30-cu illərdə marksist düşüncə bədii yaradıcılıqda sənətkarlıq məsələlərindən daha çox siyasi-ideoloji təbliğata üstünlük

verirdi. Süleyman Sani Axundov da başqa yazıçılar kimi kiçik həcmli, ancaq siyasi təbliğata uyğun kiçik pyeslər yazırdı. Şübhəsiz ki, bu tələsik yazılan əsərlərdə yüksək sənətkarlıq keyfiyyətləri görünmürdü. Ədib "Çərxi fələk", "Şahsənəm və Gülpəri", "Laçın yuvası", "Bir eşqin nəticəsi", "İki yol", "Şeytan" kimi əsərlərini 20-ci illərin əvvəllərində yazmışdır. 1921-ci ildə açılan "Tənqid - təbliğ" teatrı Süleyman Sani Axundovun "Çərxi fələk" pyesi ilə fəaliyyətə başlamışdır. Tənqidçi bu əsərdə dramaturji ustalıq cəhətdən zəiflik görür, müəllifin həyatdan uzaq düşdüyünü qeyd edir, bununla belə, əsərdə canlandırılan mövzunun Azərbaycan ədəbiyyatı üçün tarixi əhəmiyyətini yüksək qiymətləndirir, əsəri "təbliği publisist xarakterli pyes" adlandırırdı.

Məsud Əlioğlu Süleyman Sani Axundovun üç dram əsərinə ("Tamahkar", "Eşq və intiqam", "Laçın yuvası") yüksək dəyər verir, bu əsərlərdə təsvir edilən problemlərə qarşı müəllifin hansı yollarla mübarizə apardığı məsələsinə aydınlıq gətirirdi. O, ədibin "Tamahkar" komediyasında xəsislik psixologiyasını satira ilə, "Eşq və intiqam" pyesində sevgi azadlığı məsələsini dramatik vəziyyətlə, "Laçın yuvası" əsərində qaldırılan problemini mübarizə yolu ilə həll etdiyi fikrini irəli sürürdü. "Tamahkar" əsərində xəsis obrazına qarşı müsbət qadın obrazının yaradılmasını Mirzə Fətəli Axundzadə dramaturgiyasından gələn xüsusiyyət olduğunu vurğulayır, müsbət obrazların iztirabının bitdiyi andan xəsis Hacı Muradın faciəsinin başlamasının təsvir edilməsini realist dramaturqa yaraşan ən yaxşı keyfiyyət hesab edirdi. Süleyman Sani Axundovun bu ilk əsərində maariflə bağlı məsələləri əks etdirməməsini müəllifin düzgün seçimi kimi dəyərləndirirdi. O, beyinlərdə hakim yer tutan cəhalətin və avamlığın yalnız təhsil, maarif yolu ilə aradan qaldırılması fikri ilə razılaşmır, bunun üçün konkret həll yollarının tapılmasını əsas hesab edirdi.

Azad məhəbbət ideyasının bitkin formada qələmə alındığı "Eşq və intiqam" əsəri Azərbaycan ədəbiyyatında mövzu etibarilə yeni hadisə idi. Tənqidçi bu əsəri ədibin yaradıcılığında tərbiyəvi əhəmiyyəti və sənətkarlıq xüsusiyyətlərinə görə ən qüvvətli əsər hesab edirdi. Çingiz – Zöhrə məhəbbətinin qələmə alınmasını dramaturji ustalıq cəhətdən yüksək qiymətləndirir, tədqiqatçıların bir qismi tərəfindən

pyesin sentimental bir əsər kimi dəyərləndirilməsi fikri ilə razılaşmır, əsəri doğru olaraq realist faciə adlandırırdı.

Xeyirxah qoca obrazını Süleyman Sani Axundovun həm dramaturgiyasında, həm də nəsr əsərlərində görmək mümkündür. "Qaraca qız" əsərində Piri baba, "Nurəddin" əsərində İmamverdi baba, "Eşq və İntiqam" əsərində Piri baba, "Cəhalət qurbanı" əsərində Budaq baba obrazları ədibin müsbət qəhrəman idealını əks etdirən bədii tiplərdir. Məsud Əlioğlu bu qocaların səmimi və müdrik təsvirinin uşaq ədəbiyyatının inkişafındakı rolunu qeyd etsə də, onlarda konkret yardım əlaməti görmürdü: *"Bu müsbət qocalar yalnız səmimi və yumşaq ürəkli adamlardır. Onlar ictimai haqsızlığa qarşı çıxış etmək iqtidarına malik deyillər. Ancaq təəsüflənmək, göz yaşı axıtmaq və haqsızlığa lənət oxumaq – onların fəaliyyəti bundan ibarətdir"* [160, s.165].

Azərbaycan dramaturgiyasına olan maraq 50-ci illərdə yazılan məqalələrdə daha çox hiss olunurdu. Məsud Əlioğluda qələmini bu istiqamətdə sınamış, dramaturgiyamıza daxil olan bədii nümunələri qiymətləndirməyə əhəmiyyət vermişdir. O, Cəlil Məmmədquluzadənin, Mirzə İbrahimovun, Səməd Vurğunun yaradıcılığına aydınlıq gətirərkən XX əsr Azərbaycan dramaturgiyasının əsas mənzərəsi ilə tanış etmişdir. Tənqidçi Mirzə İbrahimovun pyeslərinin ideyasına, forma yeniliyinə və tərbiyəvi əhəmiyyətinə görə dramaturgiyamızın inkişafına təsirini xüsusi vurğulamışdır. Mirzə İbrahimovun sovet ədəbiyyatının zənginləşməsində rolunu və dramaturqun qarşısında duran çətinlikləri qələmə almaqda əsas məqsəd yeni quruluşun tələblərinə cavab verən əsərlərin yazılmasının vacibliyi məsələsini diqqətə çatdırmaqdır. Xüsusilə, dramaturqun "Həyat" adlı pyesinin ilk addım kimi dövrün tələblərini ödədiyi haqqında fikirləri bu məqsədə qulluq edirdi. Azərbaycan kəndində kollektiv əməyin qurulmasından bəhs edən "Həyat" əsərinin Həyat, Atlas, Abbas, Akif, Süleyman, Məşədi Hüseyn obrazlarının simasında sovet ədəbiyyatşünaslığında aktual mövzu olan köhnəlik və yeniliyin mübarizəsini, İspaniya xalqının milli azadlıq mübarizəsini göstərən "Madrid" əsərində Aida, Lina, Karlos, Karton, Xose ilə Ramon, Henrix arasındakı barışmazlığı, II Dünya Müharibəsi illərində zavodda çalışan işçilərin əməyindən bəhs edən "Məhəbbət"

pyesində bir-birinə zidd iki ailənin təhlilini verərkən Məsud Əlioğlu dramaturqun dərin konflikt yaratmaq qabiliyyətini, dramaturgiyamıza yeniliklər gətirdiyini isbat etməyə çalışmışdır. Əsərin konfliktindən danışarkən *"istər "Həyat"da, istərsə də "Madrid" və "Məhəbbət" dramalarında müəllif həyatımızda baş verən gündəlik və aktual problemlərə toxunmuş, bu problemlərin siyasi mahiyyətindən doğan həlledici və böyük nəticələri əsərləri üçün əsas konflikt kimi almışdır"* [149, s.152] deməklə Mirzə İbrahimovun bədii əsərlərinin siyasi mahiyyətini üzə çıxarmağa çalışmışdır. Lakin tənqidçinin doğru qənaəti onda idi ki, o siyasi mövzuların bədii dəyərini də müəyyən etməyi unutmurdu. Məsud Əlioğlu obrazların tipik xüsusiyyətlərinin, hadisələrin inkişafda verilməsinin səbəbini dramaturqun yaradıcılığında publisistik ruha malik olması ilə əlaqələdirirdi. Onu da qeyd edək ki, tənqidçi Mirzə İbrahimovun nəsrində də publisistikanın olması məsələsini qabartmışdır. Publisistik ruh dedikdə, tənqidçi müasir həyatın təsviri fonunda dramaturqun subyektiv düşüncə tərzini nəzərdə tuturdu.

Mirzə İbrahimovun dramaturgiyasını Azərbaycan ədəbiyyatının inkişafı ilə bağlamaqla bu yaradıcılığı sovet rejiminin əsas təbliğatçısı kimi səciyyələndirməsi doğru nəticə idisə də, tənqidçinin fikirlərində ziddiyyətli məqamlar da yox deyildir. Bir tərəfdən müsbət obrazların dolğun və canlı təsvirinə görə Mirzə İbrahimovun sənətkarlıq xüsusiyyətlərini yüksək qiymətləndirmiş, bununla belə obrazların sevgi hisslərinə yer verilməsini düzgün hesab etməmiş, obrazların ictimai fəaliyyətinin daha çox göstərilməsini dramaturqdan tələb etmişdir. Digər tərəfdən Həyat və Məhəbbət kimi qadın surətlərinin duyğularına, ailə münasibətlərinə az yer verildiyi üçün onların canlı xarakter səviyyəsinə qalxmadığı fikrini irəli sürmüşdür.

Səməd Vurğun Məsud Əlioğlunun yüksək dəyər verdiyi yazıçılardan idi. Səməd Vurğunun əsərlərinin bədii dəyəri tənqidçinin doğru yolda olduğunu göstərirdi. Azərbaycan dramaturgiyasından söhbət edərkən, əlbəttə, Səməd Vurğunun yaradıcılığını unutmaq olmazdı. "Vaqif" dramının sənətkarın istedadının ortaya çıxmasında oynadığı rolu diqqətə çatdırmaqda tənqidçinin məqsədi orijinal, heç kimə bənzəməyən dramaturq obrazını yaratmaqdır. Tənqidçinin "Vaqif" və "Fərhad və Şirin" əsərlərinin şöhrət qazanmasına səbəb kimi xalq həyatının, tarixi-qəhrəmanlıq

motivinin vəhdəti faktorunu irəli sürməsi reallığa söykənən qənaət idi. Buna görə də tənqidçi dramın yaranmasında üç əsas fəlsəfənin rolunu yüksək qiymətləndirmişdir:

1. Xalq hikməti
2. Xalqın mübarizəsindən doğan həyat fəlsəfəsi
3. "İnsan insana qarşı canavar yaranmışdır" fəlsəfəsi

Tənqidçi bu üç istiqamətdə təhlillərini aparmışdır. Birinci fəlsəfənin izahında Vaqifin şair təbiəti, şəxsi iztirabları – bir sözlə xalqa bağlı Vaqif obrazı yaradılmışdır. İkinci fəlsəfə əsasında Eldarın simasında xalqın mübarizə əzmi, onun Qacarla vuruşma səhnəsi əsaslandırılmışdır. Üçüncü fəlsəfənin baş qəhrəmanı isə Qacardır.

Məsud Əlioğlu bu əsərdə Vaqifin şair obrazını görürdü. O, bədii əsərlərdə Vaqifin tarixi qəhrəmanlıq motivlərinə geniş yer verilməsini düzgün hesab edir, bununla yanaşı, onun şairlik istedadının da ön plana çəkilməsini əsas sayırdı. Səməd Vurğunun Vaqifin həyat və mənəvi inkişaf yolunu bu şəkildə təsvir etməsini dramatik əsəri gücləndirən faktor kimi qiymətləndirirdi. Tənqidçi dramın ən güclü hissəsini Vaqiflə Qacarın deyişmə səhnəsində görür və belə nəticəyə gəlir ki, dramaturq Vaqif obrazının mənəvi əzəmətini göstərmək üçün onu qəddar düşmənlə – Qacarla qarşılaşdırır. Eləcə də Vidadi obrazının tədricən dəyişmə prosesinin bu səhnədən sonra yekunlaşdığını vurğulayır, yeni tipli bir insan kimi təsvir edildiyini diqqət mərkəzinə çəkirdi. Əsərin əvvəlində "səbr eylə" fəlsəfəsi ilə yaşayan Vidadi bu qarşılaşmadan sonra həqiqətləri dərk edir. Məsud Əlioğlu əsərin uğurunu onda görürdü ki, əsərdə müasirliklə yanaşı tarixi həqiqətlərə sadiqlik də vardır: *"Bir dramaturq kimi Səməd Vurğunun gücü ondadır ki, o, Azərbaycan xalqının qəhrəmanlıq tarixindəki ən mühüm və həlledici dövrləri, həmin dövrdə meydana çıxan və bu dövr üçün səciyyəvi olan hadisə və məsələləri dərin realist səhnələrdə canlandırmağa müvəffəq olmuşdur"* [146, s.47].

Məsud Əlioğlunun bədii yaradıcılıqları ilə ədəbiyyatımızda özünəməxsus yeri olan Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı və Səməd Vurğunun ədəbi-estetik fikirlərini təhlilə cəlb etməsi ədəbiyyatşünaslığın inkişafına müəyyən qədər təsir göstərmişdir.

Məsud Əlioğlu Cəlil Məmmədquluzadənin ədəbiyyatşünaslıq fəaliyyətini, onun ədəbiyyatın vacib problemləri ilə bağlı mühakimələrini əsaslandırır, xüsusilə Mirzə Fətəli Axunzadənin estetik görüşləri haqqında fikirlərini təhlil edirdi. Cəlil Məmmədquluzadənin istər bədii, istərsə də nəzəri fikirlərinin formalaşmasında Mirzə Fətəli Axundzadənin böyük rolu olmuşdur. Onun estetik fikirləri Mirzə Fətəli Axundzadənin görüşləri ilə üst-üstə düşürdü. Buna görə də Məsud Əlioğlu nəzəri məsələlərin təhlilində ədibi Mirzə Fətəli Axundzadənin davamçısı kimi qiymətləndirir, Cəlil Məmmədquluzadənin sənət və ədəbiyyat qarşısında qoyduğu tələbləri belə müəyyənləşdirirdi:

1) Sənət və ədəbiyyat ictimai hadisədir.

2) Sənət və ədəbiyyat realist xarakter daşımalıdır.

3) Sənət və ədəbiyyat əxlaqi əhəmiyyətdə olmalıdır.

O, sənətkarın elmi-nəzəri fikirlərində müasirlik, tipiklik, orijinallıq, həqiqətlilik prinsiplərinə əməl etdiyini vurğulayır, ədəbiyyatda xəlqilik probleminə ədibin yanaşma prizmasını ortaya çıxarmağa çalışırdı. Tənqidçi "xəlqilik" anlayışı dedikdə, Cəlil Məmmədquluzadənin iki əsas cəhəti nəzərdə tutduğunu irəli sürürdü:

1) Xalqın ictimai-siyasi vəziyyətini düşünmək;

2) Sənətdə milli keyfiyyətlərin əsas yer tutmasına çalışmaq.

Məsud Əlioğlu dramaturqun öz əsərlərində bu tələblərə riayət etdiyini qeyd edir və yazırdı: *"Deməli, ədibin fikrincə, sənətin qarşısında bir yol var: həyatın dərinliklərinə nüfuz etmək, xalqla bağlanmaq, milyonları düşündürən sadə və böyük həqiqətlərdən yazmaq. Cəlil Məmmədquluzadə bədii yaradıcılıqda bu yolu ən doğru və real bir yol hesab edirdi"* [144].

Tənqidçi Cəfər Cabbarlının sənət və ədəbiyyat haqqında fikirlərinə aydınlıq gətirərkən dramaturqun ədəbi tənqidlə məşğul olmadığını vurğulamış, onun "sənət həyat üçündür" prinsipinə sadiqliyini müdafiəyə qalxmışdır. Cəfər Cabbarlının fikirlərinə əsasən tənqidçi ədəbiyyatın tərbiyəvi əhəmiyyətini diqqətə çatdırmağı əsas məqsəd kimi götürmüşdür. Bu məqsədi əsas tutaraq, Cəfər Cabbarlının mülahizələrini bu şəkildə qruplaşdıra bilərik:

1. Sənət həyatı tərbiyə etməlidir.

2. Sənət həyata yol göstərməlidir
3. Bədii əsərlər böyük fikirlər ifadə etməlidir.

Məsud Əlioğlunun *"Ədəbi tənqid bədii ədəbiyyatın inkişaf surətinə mane olan hər cür zərərli təmayüllərə qarşı şiddətli müqavimət göstərən bir ədəbi janrdır"* [135, s.128] fikri ədəbiyyatşünaslığın üç böyük sahəsindən biri olan ədəbi tənqidin funksiyasının məhdudlaşdırılması demək idi. "Ədəbi janr" birləşməsi ədəbi tənqidin mahiyyətinə uyğun gəlmir. Çünki ədəbiyyatşünaslığın bir qolu kimi ədəbi tənqidin də öz janrları vardır.

Məsud Əlioğlu "Səməd Vurğunun ədəbi-tənqidi görüşləri" məqaləsində şairin yaradıcılığı ilə məqalələrini vəhdətdə təhlil etmiş, nəzəri mülahizələrini bədii əsərlərinin nəticəsi kimi dəyərləndirmişdir. O, bu nəticəyə gəlir ki, dramaturq bədii obrazları vasitəsilə öz nəzəri-bədii fikirlərini ifadə etmişdir. Tənqidçi şairin nəzəri məsələlərə diqqət yetirməsinin səbəbini sənətkarın ədəbiyyatın gələcək inkişafı üçün yollar axtarması ilə əlaqələndirmişdir. Səməd Vurğunun Mirzə Fətəli Axundzadə, Molla Pənah Vaqif, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı haqqında fikirləri ədəbiyyat tarixinin zənginləşməsində mühüm əhəmiyyətə malikdir. Tənqidçi onun bu ədəbi şəxsiyyətlərə münasibəti əsasında öz tənqidi fikirlərini də əsaslandırmış, Vaqif və Sabir şeirinin Səməd Vurğun poeziyasında təsirini qeyd etmişdir. Buna əsasən hər iki ədibin yaradıcılığındakı xəlqi mahiyyətin Səməd Vurğunun ilham mənbəyinə çevrilməsi qənaətinə gəlinməsi şairin bədii isrinə verilən düzgün yanaşmadan irəli gəlirdi.

Tənqidçinin Səməd Vurğunun nəzəri görüşlərini tədqiqata cəlb etməsi səbəbsiz deyildir. Bir tərəfdən onun klassik və çağdaş ədəbiyyatla bağlı nəzəri biliklərə sahib olması, digər tərəfdən isə elmi məruzələri ilə bağlı idi. Xüsusilə, Səməd Vurğunun 1936-cı ildə Azərbaycan Sovet Yazıçıları İttifaqında formalizm və naturalizm əleyhinə keçirilən müşavirədəki çıxışında məzmun və forma haqqında irəli sürdüyü elmi qənaətləri təhlil edərkən Məsud Əlioğlunun Hüseyn Caviddən misal çəkməsi əsassız deyildir. Çünki bu müşavirədə Hüseyn Cavid yaradıcılığı formalizmdə ittiham olunmuş, onu tənqid edənlərdən biri də Səməd Vurğun olmuşdur. Tənqidçi elə təhlil istiqaməti seçmişdir ki, bir növ Səməd Vurğunun fikirlərinə bəraət qazandırmaq

istəmişdir. Səməd Vurğunun *"Hüseyn Cavidin yaradıcılığında biz şairlər üçün öyrənməli şeylər çoxdur"* [146, s.88] cümləsinin verilməsi bu məqsədə xidmət etmişdir. Məsud Əlioğlu Cavidin tənqidi məsələsində xalq həyatına yaxınlıq cəhətdən realist ədəbiyyatın tərəfində olan Səməd Vurğunun sənətkarlara bu tələbdən yanaşdığı fikrini irəli sürmüş, Cavid şeirinin dərin məntiqi və bədii ümumiləşdirmə qüvvətini də qeyd etməyi unutmamışdır..

*"Bir şair və dramaturq olaraq Səməd Vurğun hansı həyatı və bəşəri məsələləri həll etmişdirsə, bir tənqidçi və nəzəriyyəçi olaraq da həmin nəticəyə gəlmişdir. Şair-dramaturq Səməd Vurğun tənqidçi-publisistik Səməd Vurğunun eyni olmuşdur"* [146, s.81] fikri doğru qənaət kimi səslənmir. Onun bədii irsi ədibin şair və dramaturq kimi səciyyələndirilməsinə əsas verirdi. Onun uşaq ədəbiyyatı, klassik isr, müasir yazıçıların yaradıcılığı, gənc şairlər haqqında, Azərbaycan ədəbiyyatının tarixi-nəzəri problemləri haqqında yazdığı məqalələri poeziya və dramaturgiya sahəsindəki bədii nümunələr ilə müqayisədə səviyyəcə eyni deyildir. Bu yazılar Azərbaycan ədəbiyyat tarixini yaxşı bilən ədibin uzun müddətli bədii yaradıcılıq axtarışlarının nəticəsi idi. Səməd Vurğun  tənqidçidən daha artıq dərəcə də şair, dramaturq və nəzəriyyəçi idi. Ona görə də məqalənin adının "Səməd Vurğunun ədəbi-nəzəri görüşləri" şəklində verilməsinin daha məqsədəuyğun olduğunu hesab edirik.

Məsud Əlioğlu Səməd Vurğunun "böyük əsərlərin yazılması üçün böyük ədəbi əsərlərin olması vacibdir" fikrinin üzərində geniş dayanmışdır. Tənqidçi Səməd Vurğunun yazıçılarla tənqidçilər arasında əlaqə yaradılması fikrini əsaslandırmaq üçün belə nəticəyə gəlirdi ki, Puşkinin sənət əsərləri Belinski kimi bir tənqidçini ilhamlandıran əsas mənbədir. Bu fikirlərdə doğruluq payı vardır. Çünki ədəbi tənqidi fikrin formalaşması üçün bədii əsərlərin yaranması şərtdir. Mükəmməl yazılan əsər tənqidçinin fikirlərinə də təsir edə bilər. Lakin bu zaman tənqidçinin istedadının və obyektivliyinin də nəzərə alınması vacibdir. Belə ki, Səməd Vurğunun "İnsan", "Aygün" əsərləri yaxşı əsərlər sırasına daxil olsa da, yarandıqları vaxt onlar haqqında yaxşı tənqidi məqalələr yazılmamışdır. Deməli, hər gözəl əsər hər tənqidçidə eyni funksiyanı yerinə yetirə bilmir.

Yazıçı və dramaturqların məqalələri, sənət və ədəbiyyat haqqında fikirlərinə aydınlıq gətirilməsi vacib bir problemi qeyd etməyi qarşıya məqsəd kimi çıxarır. Bu araşdırmalar onu göstərdi ki, ədəbiyyat tarixçisi, ədəbiyyat nəzəriyyəçisi və tənqidçi arasında sərhəddin müəyyənləşməsi ədəbiyyatşünaslığın həmişə problemli məsələləri sırasına daxil olmuşdur. Buna görə də deyə bilərik ki, bir çox yazıçıların ədəbiyyatın nəzəri məsələləri ilə bağlı mülahizələrinin "Ədəbi-tənqidi görüşləri" başlığı altında təhlil edilməsi düzgün nəticə deyil. Çünki bu məqalələr onların tənqidçi kimi səciyyələndirilməsinə əsas vermir. Fikrimizcə, bu tipli yazıların sərlövhəsinin "Sənət və ədəbiyyat haqqında fikirləri" şəklində verilməsi daha düzgün olardı.

Məsud Əlioğlunun 50-ci illərdə apardığı araşdırmalar göstərdi ki, bu illər onun tənqidçilik fəaliyyəti məhsuldarlığı ilə seçilmişdir. Sosioloji tənqidin əsas keyfiyyətlərini özündə cəmləşdirən yaradıcılıq istiqaməti seçməsi təbii və qəbul edilən idi. Çünki ehtiyatlı mövqe tutmaq, rejimin tələblərinə cavab vermək bir tənqidçi kimi Məsud Əlioğlunun da qələmindən yan keçmədi. Ədəbiyyat və incəsənətə marksist ideologiyanın olan təzyiqləri şəraitində tənqidçi öz fəaliyyətini davam etdirmiş, maraqlı və cəsarətli fikirləri ilə 50-ci illərdə öz üslubu olan tənqidçi kimi yadda qala bilmişdir. Lakin bu o demək deyildi ki, tənqidçi yalnız bir istiqamət tutmuş, sırf sovet quruluşuna xidmət edən məqalələr yazmışdır. Obyektiv mülahizələri onun bir çığıra düşüb onun arxası ilə getmədiyini göstərirdi. Əslində onun fəaliyyətində ziddiyyətli bir mərhələ səciyyəsi də diqqətimizi cəlb etmişdir. Bu həm dövrün xüsusiyyətləri, həm də tənqidçi üslubunun formalaşması ilə əlaqədar idi. 50-ci illərin əvvəllərində yazdığı məqalələrlə 50-ci illərin sonlarında yazdığı məqalələrin arasında fərqlər də gözə çarpırdı. Belə ki, ilk məqalələrdə münasibət hədəfi seçdiyi əsərlərin mövzusu və obrazların təhlili üzərində geniş dayanırdısa, 50-ci illərin ortalarından əsas diqqəti bu məsələlərin fonunda nəzəri qənaətlərini əsaslandırmağa yönəltmişdir. Bu da onu göstərir ki, get-gedə inkişaf edən tənqidçi üslubu formalaşmışdır. Buna görə də Məsud Əlioğlunun bu dövrdəki fəaliyyətini axtarış mərhələsi kimi səciyyələndirmək daha düzgün olardı.

## 1.2. Məsud Əlioğlunun tənqidçilik axtarışlarının 60-70-ci illər mərhələsi

Azərbaycan sovet ədəbiyyatının çiçəklənmə mərhələsi 60-ci illərə təsadüf edir. Altmışıncılar nəslinə mənsub olan yazıçılar insanların əmək həyatını təsvir edən, sosializm quruculuğundakı nailiyyətləri göstərən əsərlər yazmaqla yanaşı, cəmiyyətin ictimai-sosial problemlərinə də cəsarətlə müdaxilə edirdilər. Bədii əsərin qəhrəmanı artıq dövrün hadisələri içərisində itib batmır, onun fərdi duyğuları, psixoloji aləmi üzə çıxarılırdı. Bununla yanaşı, ədəbiyyatda siyasi motiv aradan qalxmağa başlayır və sosializm ideologiyasından nisbətən uzaqlaşmağa meyil üzə çıxırdı. Yeni tendensiyanın başlaması ədəbiyyata yeni mövzuların gəlməsinə səbəb olmuşdur. Bu şəkildə baş verən demokratikləşmə prosesinə tənqid biganə qala bilməzdi. 60-cı illərdə ədəbiyyatda insan amilinin güclənməsi, milli-mənəvi dəyərlərə qayıdış ədəbi tənqidin də fəallaşmasına təsir göstərdi. Tənqid artıq bədii irslərdə baş verən dəyişikliyi nəzərə alaraq, öz mövzu istiqamətini müəyyənləşdirməyə, tənqid və təhlil mədəniyyətini yüksəltməyə başlamışdı. Bu azad fikirliliyin izlərini Məsud Əlioğlunun imzasında da görə bilərik. Onun "Ədəbiyyat və incəsənət", "Bakı", "Azərbaycan gəncləri" kimi qəzetlərdə, "Azərbaycan", "Ulduz", "Azərbaycan qadını" kimi jurnallarda dərc olunan elmi məqalələri göstərir ki, tənqidçi 1960-cı ilə qədər "Vəliyev" soyadı ilə yazmış, 1960-cı ildən sonra isə "Əlioğlu" imzasını istifadə etmişdir.

Məsud Əlioğlunun tənqidçilik fəaliyyətinin ikinci mərhələsi 1960-cı ildən başlayır. Tənqidçinin yaradıcılıq istiqamətini "nəyi necə deməsi" məsələsi formalaşdırır. Bu faktor tənqidçinin fəaliyyətinə üslub rəngarəngliyi qatmaqla bərabər yaradıcılıq xüsusiyyətlərini də üzə çıxarır. Eyni zamanda bu cəhətin nəzərə alınması tənqidçinin Azərbaycan ədəbi tənqidinin hansı nəslinə mənsubluğunu səciyyələndirir. Buna əsaslansaq, 60-cı illəri Məsud Əlioğlunun yaradıcılığının ikinci mərhələsi kimi götürmək doğru olardı. Çünki tənqidçinin yazı üslubunda və toxunduğu mövzularda fərqlər müşahidə olunur. Buna görə də Məsud Əlioğlunun 50-ci illərdə "nəyi necə deməsi" ilə 60-cı illərdə "nəyi necə deməsi" arasında fərqi müəyyənləşdirmək bir

tərəfdən dövrün xüsusiyyətlərini aşkara çıxarmaq, digər tərəfdən ədəbi prosesin ümumi mənzərəsi haqqında qısa məlumat vermək baxımından səciyyəvidir.

Romantik məktəbin nümayəndələrinə1956-cı ildən bəraət hüququnun verilməsi bu cərəyanın özünə də münasibəti dəyişmişdir. Məsud Əlioğlunun bu illərdə yazdığı məqalələrdə Azərbaycan romantizminin nümayəndələrinə qayğı və məhəbbəti hiss olunmaqdadır. Məhəmməd Hadi, Abdulla Şaiq, Abbas Səhhət, Hüseyn Cavid yaradıcılığı estetik tənqidin prizmasından təhlil olunmuşdur. Hadinin faciəvi, Şaiqin maarifçi, Səhhətin fədakar şəxsiyyəti düzgün müddəalara əsaslanaraq açılmışdır. Romantiklərin yaradıcılığının vətən eşqi, hürriyyət obrazı, təbiətin təsviri, mədəni tərəqqi, gələcəyə nikbin baxış mövzuları ətrafında təhlili romantizmin əsas mövzular aləmini açmağa kömək etmişdir.

Hadi yaradıcılığına verilən dəyər Məsud Əlioğlunun qələmində də öz real nəticəsini tapmışdır. “Faciəli istedad” birləşməsi şairin şəxsi həyatına və bədii yaradıcılığına yönəlmiş düzgün ifadədir. Yaradıcı şəxsiyyətin faciəvi sonunun mühitin faciəsi ilə əlaqələndirilməsi Hadinin fikir dünyasının genişliyinə yönəlmiş düzgün qənaət idi. Məsud Əlioğlunun Hadi haqqında yazdığı məqalə həcm etibarilə o qədər böyük olmasa da, vacib bir məsələ həll edilmişdir. Hadinin fəlsəfəsinin idealist xarakterini açmağa çalışması vaxtilə bu mövqedə durduğuna görə tənqid edilən şairin yaradıcılığına haqq qazandırırdı. Şairin romantizminin baş obrazı olan hürriyyət məfhumunu tənqidçi özünəməxsus şəkildə açmışdır. O, azadlığın əsasında ruhun dayandığını, şairin hürriyyət eşqinin mahiyyətinə düşüncə azadlığının hopduğunu vurğulamış, şairin yaradıcılığını hürriyyət rəmzi kimi mənalandırmışdır. Hadinin romantizmi üçün səciyyəvi olan kədərin sonsuz olması fikri onun yaradıcılığının ilham mənbəyini üzə çıxarmışdır. Bu kədərdə ruh düşkünlüyünün, bədbinliyin dünyanın təzadlı hallarına qarşı etirazı şəklində qeyd edilməsi gələcəyə ümidlə baxan Hadinin fəlsəfəsinin əvəzsiz olduğuna yaxşı nümunədir.

Məsud Əlioğlu Abbas Səhhət şeirinin mahiyyətinə toxunarkən Vətən məhəbbəti, millət sevgisi məsələsinə aydınlıq gətirmişdir. Belə ki, onun şairin “Vətən” şeirini romantik poeziyanın vətənpərvərlik himni adlandırması Səhhət yaradıcılığının düzgün istiqamətdə təhlilinə gətirib çıxarmışdır. Abbas Səhhət

yaradıcılığının manifesti olan “Şair, şeir pərisi və şəhərli” şeirinin tədqiqata cəlb edilməsi romantizmin nəzəri məsələlərinin həll edilməsinə şərait yaratmışdır. 50-ci illərin tədqiqatlarında “sənət sənət üçündür” nəzəriyyəsi əsas tutularaq, romantiklərin yaradıcılığının həyatla əlaqəsinin kəsilməsi fikirləri romantizm haqqında yanlış mülahizələrin yaranmasına səbəb olmuşdur. Tənqidçi şairin bu əsəri vasitəsilə bədii ədəbiyyatın həyatla əlaqələndirmiş, bu yanlış təsəvvürlərə qarşı çıxmışdır. Belə ki, vətəndaş-şair əlaqəsini, sənətin həyatla bağlılığını mükəmməl şəkildə əks etdirən bu poeziya nümunəsi Abbas Səhhət romantizminin əsas xüsusiyyətlərini əhatə edirdi. Şairin vəzifəsi həyatın simvolu olan şəhərli ilə sənəti təmsil edən şeir pərisi arasında vasitə yaratmaqdır. Tənqidçi bu cəhəti əsas tutaraq, “sənət xalqa xidmət etməlidir” fikrinin üzərində geniş dayanmışdır.

Təbiətə vurğunluq, təbiətin saflığının uşaq psixologiyası ilə uyğunlaşdırılması romantik əsərlərin əsas leytmotivini təşkil etməkdədir. Bu cəhətdən Abdulla Şaiqin uşaq ədəbiyyatının inciləri sırasına daxil olan şeirləri əhəmiyyətlidir. Məsud Əlioğlu Abdulla Şaiqin şeirlərində heyvanlar aləminin canlandırılması məsələsinə aydınlıq gətirmişdir. Bildiyimiz kimi, heyvanların şəxsləndirilməsi təmsil və mənzum hekayələrin əsas mövzusunu təşkil edir. XIX əsrdən Qasım bəy Zakir irsində rast gəlinən bu bədii nümunələr realist qələmin məhsulu idi. Məsud Əlioğlu Abdulla Şaiqin şeirlərini iki cəhəti nəzərə alaraq təhlil etmişdir. Birincisi uşaqlarda sevgi hisslərini aşılamaq üçün yazılan, heyvanların məzlumluğunu təsvir edən şeirlər idi. İkincisi isə tərbiyəvi əhəmiyyəti olan, cəmiyyətdəki nöqsanları tənqid edən mənzum hekayələr idi. Tənqidçinin təhlillərində maraqlı cəhət o idi ki, ikinci qisim şeirləri romantik ədəbiyyatın nümunəsi saymırdı. Şaiqin yaradıcılığında çox az təsadüf edilən bu tipli şeirlərin məzmununa baxdıqda Qasım bəy Zakirin təmsillərindən fərqli olan cəhətləri görmək mümkündür. Düzdür, Şaiqin şeirlərində də yaltaqlıq, saxtakarlıq, tamahkarlıq kimi mənfi keyfiyyətlər tənqid edilirdi, lakin satirik gülüş o qədər kəskin deyildi. Şairin şeirlərində heyvan obrazları arasında aldadılan, məzlum tərəf daha çox gözə çarpırdısa, Zakirdə mənfi keyfiyyətlərin daşıyıcısı olan tərəf diqqət mərkəzində idi. Bu da onu göstərir ki, Abdulla Şaiq qələmi Qasım bəy Zakir qələmi qədər kəskin satirik gücə malik deyildir. Bu şairin müraciət obyekti və mənsub olduğu ədəbi

cərəyanla bağlı idi. Təbiətin təmizliyini üzə çıxarmaq, uşaq dünyasına xeyirxah əməllər aşılamaq əsas məqsəd olduğu üçün romantiklərin bu şeirləri məsumluğu təbliğ edirdi.

Məsud Əlioğlu Abbas Səhhət yaradıcılığındakı ilin fəsillərini bədii obraz səviyyəsində təhlil etmişdir. Bu da tənqidçinin şairin poeziyasına düzgün yanaşması idi. Azərbaycan təbiətinə vurğunluq bütün romantiklərin yaradıcılığına sirayət etmişdir. Amma peyzaj lirikasına Abbas Səhhət qədər fəsil obrazı gətirən yoxdur. Bu şeirlər fəsillərin növbələşməsini xatırladır və insan hissləri ilə vəhdətdə verilir. Tənqidçinin bu dəyişməni görməsi və izaha çalışması Səhhət romatizminin təhlilində ilk addımdır: *"Məqsəd insani meyl və intibahların təbiət lövhələri və fəsillərin mənzərələri ilə münasibətdə nə kimi hallara düşdüyünü, hansı əhval-ruhiyyəyə məruz qaldığını poetik sözün incəliyi ilə izah etməkdir; qış fəslinin gəlişi ilə qəlbdə oyanan izaholunmaz kədərin, yaz fəsli ilə əlaqədar könülləri coşduran sevincin və sağlam, nikbin əhval-ruhiyyənin, payız fəslində tutqunlaşan, bir qədər də bədbinliyə uğrayan mənəvi aləmin əzablarını və yayda qayğısızlıq içərisində məmnunluq duyan bir ürəyin sərbəstliyini – bütün bu rəngarəng, dəyişkən duyğuların səbəblərini aşkara çıxarmaqdır"* [40, s.122].

60-70-ci illərdə romantizm cərəyanına qarşı münasibətin dəyişməsi faktına Məsud Əlioğlunun Cəfər Cabbarlı yaradıcılığına yanaşma tərzinə əsasən müəyyənləşdirə bilərik. 50-ci ildə "Cəfər Cabbarlının ədəbi-tənqidi görüşləri" məqaləsi ilə yaradıcılığının ikinci mərhələsinə aid olan "Cəfər Cabbarlının humanizmi", "Cəfər Cabbarlının romantikası" məqalələri arasında müəllifin təhlil üsulunda və toxunduğu məsələlərdə fərqlər vardır. İlk məqalələrində Cəfər Cabbarlının realizm müstəvisində təhlilinə əhəmiyyət verirdisə, 60-cı illərdə romantik sənətkar obrazı diqqətimizi cəlb edir. Cabbarlının romantizmini aydınlaşdırmaq əsas məqsəd olsa da, tənqidçi şairin ilk əsərlərini iki qismə bölür: romantik şeirlər və satirik üslubda yazılmış poetik nümunələr. Tənqidçi şairi realist şeirlərində Sabir ənənələrinin təqlidçisi kimi təqdim etsə də, romantik üslubda yazdığı şeirlərdə heç kimə bənzəməyən yaradıcılıq orijinallığı tapmışdır. Romantik yaradıcılığında humanizm anlayışının axtarılması şairin lirikasının əsas obrazları olan kimsəsiz,

köməksiz insanlara məhəbbətindən qaynaqlanırdı. Cəfər Cabbarlının "Boranlı qış gecəsi", "Qürub çağı bir yetim" şeirlərində təbiət təsviri ilə bu obrazların acınacaqlı həyatının paralel şəkildə təhlili romantizm mövqeyindən dəyərləndirilmişdir. Bununla da, tənqidçi diqqəti romantik qəhrəmanların faciəli həyatına yönəltmişdir. "Mənim tanrım" şeirinin müəllifin lirikasının manifesti şəkildə təqdimi şairin romantizminin aydınlaşdırılması baxımından əhəmiyyəti böyükdür. Hüseyn Cavidin "Mənim tanrım gözəllikdir, sevgidir" fikri ilə Cəfər Cabbarlının "Bir tanrım var – gözəllik" fikrinin bir-birini tamamlaması doğru istiqamətdə şairin romantik sənətkar kimi təsdiqinə gətirib çıxarmışdır.

Cəfər Cabbarlının "Solğun çiçəklər", "Mənsur və Sitarə", "Aydın", "Oqtay Eloğlu" əsərlərinin qəhrəmanlarını romantik-sentimental əhval-ruhiyyə daşıyıcısı kimi təqdimi vacib bir problemi ortaya çıxarır. Sovet dövründə Cəfər Cabbarlının yaradıcılığında metod mürəkkəbliyi məsələsinə toxunan tənqidçi az idi. Bu problem Məsud Əlioğlunun diqqətindən yayınmamışdır. Cəfər Cabbarlının realist, yoxsa romantik sənətkar olması məsələsində gəldiyi yekun qənaət belə idi: *"C.Cabbarlı sənətin başlanğıc dövründə iki mühüm xüsusiyyəti özündə birləşdirmiş və bu xüsusiyyətlər yazıçının, demək olar ki, yaradıcılıq həyatının axırına qədər bütün əsərlərində həlledici amil kimi diqqəti cəlb edir. Bu da romantizmlə realizmin, başqa sözlə, romantik üslubla realist təsvir üsulunun çox halda birləşməsi, biri digərinin tamamlanması, vəhdət halında meydana çıxmasıdır"* [40, s.309].

Məsud Əliğolunun "Solğun çiçəklər" əsərinin təhlili zamanı "vicdan və mərhəmət" fəlsəfəsinin açılmasında göstərdiyi yanaşma bu əsərlərin romantik ədəbiyyatın nümunəsi kimi qiymətləndirilməsinə gətirib çıxarırdı. Tənqidçi bu əsərlərdə sentimental ruhun olduğunu qəbul edirdi. Lakin onu "izm"lər sırasına daxil etmirdi. Sentimentalizm cərəyanının Azərbaycan ədəbiyyatında yeri haqqında akademik İsa Həbibbəylinin gəldiyi qənaət tənqidçinin bu şəkildə yanaşmasının səbəbini izah edirdi: *"Uzun illər Azərbaycan romantizminin daxilində təmsil olunmuş sentimental ədəbiyyatın dövrün romantik ədəbiyyatından fərqli xüsusiyyətləri də var idi. Hissi-sentimental əhval-ruhiyyənin təsvir və tərənnümü, nisgil və göz yaşlarının diqqətə alınması, məktubdan bədii vasitə kimi istifadə və sair elementlər sentimental*

*ədəbiyyatı fərqləndirirdi"* [71]. Bu fikirləri əsas tutaraq, Cəfər Cabbarlını "Solğun çiçəklər", "Mənsur və Sitarə" əsərlərində sentimentalizm ədəbiyyatının nümayəndəsi kimi görürük. "Aydın", "Oqtay Eloğlu" əsərlərinə gəldikdə isə sentimental ruhdan çox tənqidi realizmin elemetləri vardır: *"Aydın" və "Oqtay Eloğlu" əsərlərində mühit və qəhrəman, şəxsiyyət və cəmiyyət problemlərinin qoyuluşunda və bədii həlli üsulunda bu əlamət qabarıq şəkildə üzə çıxır"* [99, s.125].

Məsud Əlioğlunun yaradıcılıq üslubundakı rəngarənglik 60-cı illərdəki məqalələrində daha çox diqqəti cəlb edir. "Məhəbbət və qəhrəmanlıq", "Füzuli və Üzeyir", "Vaqif və Vidadi", "C.Məmmədquluzadə və S.S.Axundov hekayələri", "Məslək qardaşları" məqalələri orijinal düşüncə tərzi və üslub zənginliyi ilə seçilən tənqidi materiallardır. Bu fərqlilik tənqidçi üslubunun estetik xüsusiyyətindən irəli gəlir. Oxşar və fərqli cəhətləri aşkara çıxarmaq üçün tutuşdurulan ədəbi simalar, məqalələrə seçilən adlar üslubi semantikanın dərinliyindən xəbər verir.

Məsud Əlioğlu monoqrafik səciyyə daşıyan geniş həcmli "Məhəbbət və qəhrəmanlıq" məqaləsində şifahi xalq ədəbiyyatının nümunələri əsasında "məhəbbət" və "qəhrəmanlıq" anlayışları haqqında təsəvvürlərimizi vahid mərkəzə - xalqa yönəldirdi. "Kitabi-Dədə Qorqud", "Koroğlu" və aşıq yaradıcılığı əsasında bu iki anlayış – məhəbbət və qəhrəmanlıq bədii təcəssümünü tapmışdır: *"Məhəbbət və qəhrəmanlıq! Budur xalqın dastanlar və aşıq yaradıcılığı vasitəsilə əsrlərin keşməkeşindən və zamanın çətin sınaqlarından keçirib gətirdiyi başlıca fəlsəfi fikir qaynağı. Məhəbbətlə qəhrəmanlıq o məqamda birləşir və yüksək məna kəsb edir ki, şəxsiyyət xalqın, elin və ümumən insanların azadlığı, sədaqəti yolunda hər bir fədakarlığa hazır olur"* [47, s.51].

Tənqidçi üç hissədən ibarət olan məqaləni "Kitabi-Dədə Qorqud" dastanın təhlili ilə başlamışdır. Əsrlərin sınağından çıxmış Dədə Qorqud obrazı canlı abidə kimi təqdim edilmiş, Qorqud atanın dediyi nəsihətlər fonunda kamil şəxsiyyət timsalı canlandırılmışdır. Tənqidçinin tədqiqatında üç xüsusiyyəti özündə birləşdirən Dədə Qorqud obrazına rast gəlirik. Alim, həkim-filosof və müəllim-tərbiyəçinin bir müdrikin şəxsində cəmləşdirilməsi Dədə Qorqud fəlsəfəsinin təsir gücünü göstərən faktor idi. Dədə Qorqudun elmin sirlərini araşdırdıqda alim, insanın psixoloji-ruhi

aləmini tədqiqə başladıqda həkim-filosof, etika məsələləri ilə məşğul olduqda müəllim-tərbiyəçi kimi dəyərləndirilməsi tənqidçinin ona yanaşmasında yeni baxış idi.

Məqalədə “Kitabi-Dədə Qorqud” dastanından gələn ideyaların “igidlik yaşamağa və yaşatmağa qadir olmaqdır”, “sədaqət düzlükdən keçir”, “məhəbbət qalibiyyətdir” motivləri əsasında qruplaşdırılması, “Koroğlu” dastanının fəlsəfəsinin “dəlilik – hünərdir”, “gözəllik və həyat idealı”, “məhəbbət – ağılla hissin ahəngdarlıq vəhdətidir”, “igidin arxası və köməyi”, “mütəfəkkir Koroğlu” bölgüsü əsasında təhlili, aşıq yaradıcılığının “məhəbbət – gözəllik” və “kədər – üsyan” hikmətləri əsasında açılması xalq təfəkkürünün etnoqrafik qatını üzə çıxarırdı. Bu məqalədə dastanın “Dirsə xan oğlu Buğacın boyu”nda qəhrəmanlıq yolu, “Salur Qazanın evinin yağmalandığı boy” və “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”da məhəbbət və qəhrəmanlığa aparan sədaqət və düzlük yolu, “Bayburanın oğlu Bamsı Beyrək boyu”nda məhəbbət xətti diqqətə çatdırılırdı.

Dastandakı boyların təhlili zamanı məhəbbət və qəhrəmanlığa gedən yolda “sınaq” məfhumu diqqəti cəlb edir. Tənqidçinin fikrincə, Dirsə övladsızlığın sınağından məhəbbətin gücü ilə çıxır, Buğac isə qarşısına çıxan imtahandan keçərək qəhrəmanlıq məqamına yüksəlir. Onun insanın öz taleyini dəyişə bilməsi ideyasının təsdiqinə çalışması “Dirsə xan oğlu Buğacın boyu”nun təhlilinin əsasını təşkil edirdi. Atanın böyüklüyü, ananın müqəddəsliyi məsələsinə toxunulmasını dastanın bütün boyları üçün səciyyəvi hesab etmək olar.

Məsud Əlioğlu “Salur Qazanın evinin yağmalandığı boy” və “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”larında qohumluq əlaqələrinin təhlili fonunda fikri təcrübədə təsdiq etməyin tərəfdarı kimi çıxış etmişdir. Belə ki, müəllif Salur Qazanın kamil şəxsiyyət, Burla Xatunun sabitlik, Uruzun şücaət rəmzi kimi isbatını həyatın sınağından keçdikdən sonra olduğunu qəbul edir, boylarda hadisələrin gərgin vəziyyətlərdə verilməsini bu üç surətin xarakterlərinin açılmasına kömək etdiyini vurğulayırdı. Tənqidçinin gələcək nəsillər üçün nümunə olan “ana namusu, ana müqəddəsliyi” fikrinin üzərində dayanması boyların əsas ideyasının açılmasına xidmət edirdi.

Xalq qəhrəmanı, aşıq, filosof kimi diqqətə çatdırılan Koroğlu obrazı da Məsud Əlioğlunun qələmində kamil şəxsiyyət səviyyəsinə yüksəlirdi. “Koroğlu” dastanının təhlili zamanı irəli sürülən sıralama mütəfəkkir Koroğluya gedən yolu göstərirdi. Onun Dəmirçioğlu, Giziroğlu və digər dəlilərə olan münasibəti, Nigara olan eşqi, bu eşqin ağılla, Koroğlunun cəsarətinin Qıratla, Misri qılıncla bağlanması, varis məsələsində doğmalıq və oğulluq anlayışlarına aydınlıq gətirilməsi Koroğlunun xalqın yaddaşında ali və nəcib keyfiyyətlərə malik bir şəxsiyyət kimi qaldığını sübut edirdi. Məsud Əlioğlu ona görə düzgün qənaətə gəlmişdir ki, Koroğlu və Nigar məhəbbətini məşhurlaşdıran əsas səbəb bu məhəbbətin ağılla hissin vətdətindən ibarət olmasıdır. Tənqidçinin “dəlilik” anlayışının izahı məhəbbət və qəhrəmanlığın vəhdətini təcəssüm etdirən “Koroğlu” dastanının idraki zənginliyinə işarədir: *“Sərkərdələrin “Dəli” adlandırılmasının fəlsəfi rəmzi mənası belədir ki, dəlilik, gözəllik və təravəti adilikdə dərk olunan qeyri-adilikdir. Dəlilik – fövqəladəliyi sadəlikdə yaşadan müdriklikdir”* [47, s.27].

Tənqidçi “Koroğlu” dastanında başlıca meyar kimi məhəbbəti götürmüşdür. Bir əlində qılınc, digər əlində saz tutan Koroğlunun əsas köməkçisi sözdür. Güc işə yaramayanda daha təsirli silah olan söz köməyə çatır. Deməli, tənqidçi məhəbbət dedikdə sözü, şeiri, qəhrəmanlıq dedikdə gücü, qüvvəti nəzərdə tuturdu. Məsud Əlioğlu mənəvi silah funksiyasını yerinə yetirən məhəbbətin təsiri nəticəsində qazanılan uğurun tərəfdarı kimi çıxış etmişdir. Onu da qeyd etmək lazımdır ki, dastanlarda məhəbbətə gedən yol qəhrəmanlıqdan keçir. Buna görə də tənqidçi cəngavər Koroğlu ilə aşıq Koroğlunu vəhdətdə təhlil etmişdir. Məsud Əlioğlunun təhlillərindən belə nəticə hasil olur ki, məhəbbət çoxşaxəli anlayışdır. Fədakarlıq, gözəllik, doğruluq, cəsurluq, zəriflik, sədaqət məfhumlarını əhatə edən məhəbbət son nəticədə ağılla hissin ahəngdarlığından formalaşmışdır.

Totalitar rejiminin xalq yaradıcılığına və klassik irsə laqeydliyi bu tipli məqalələrin yazılmasını azaltmışdı. Çünki bir xalqın inkişafına mane olan əsas amil onun tarixi keçmişini unutdurmaqdır. Tarixini itirən gələcəyə sağlam əsaslarla irəliləyə bilməz. Bunun nəticəsi idi ki, 60-cı illərə qədər olan tədqiqatlarda müasirlik pərdəsi altında sovet rejiminə uyğun araşdırmalar aparılırdı. Xalqın adət-ənənələrini,

milli mənsubiyyətini, dünyagörüşünü əhatə edən “Kitabi-Dədə Qorqud” dastanı da ideoloji basqıdan kənarda qala bilmədi. Milli ədavəti qızışdırmaqla damğalanan bu abidənin məcazi mənada bağışlanması 60-ci illərə təsadüf edirdi. Düşüncə demokratiyasının yaratmış olduğu fürsətdən istifadə edən Məsud Əlioğlunun klassik irslə bağlı araşdırmalara meyl göstərməsi bu səbəblə bağlı idi.

Məsud Əlioğlu “Məslək qardaşları” məqaləsində Mirzə Ələkbər Sabir və Cəlil Məmmədquluzadə yaradıcılığına müraciət edir, Sabir şeiri ilə Mirzə Cəlil məqalələri arasında tutuşdurmalar aparırdı. Poeziya ilə publisistika arasında bağlılığın təhlil edilməsi maraqlı yanaşma tərzini ortaya çıxarırdı. Məqalənin başlığında tənqidçinin Şeyx Məhəmməd Xiyabaninin “Məsləkdaşlıq qardaşlıq törədir. İki məsləkdaş iki qardaş deməkdir” fikrini epiqraf kimi gətirməsi hər iki sənətkarın əqidə dostluğuna bariz işarədir. Mirzə Ələkbər Sabirin *“Gəlirəm yazmağa bi kəlmə - tutursan əlimi /Qorxuram, ya nə üçün, - çünki kəsirsən dilimi!”* [40, s.251] misraları ilə Cəlil Məmmədquluzadənin *“O ki qaldı siyasi məsələlər, bu barədə dilim lal olsun; həmin əsrin senzorunun tələbatı o qədərə sərt idi ki, siyasət nədir ki, siyasətin qorxusundan “s” hərfini yazmağa cürət eləməzdik”* [40, s.251] fikri arasında ideya yaxınlığının qeyd edilməsi Sabir və Cəlil Məmmədquluzadə yaradıcılığı üçün səciyyəvi olan vacib bir məsələni ortaya qoyurdu: Doğru danışmaq. *“Böyük Sabiri tapan, tanıtdıran, yüksəldən onun məslək qardaşı, böyük demokrat Cəlil Məmmədquluzadə olmuşdur”* [40, s.264] fikri göstərir ki, Cəlil Məmmədquluzadə öz əqidə yoldaşını kəşf etmişdir.

Tənqidçinin “Məfkurə dostları” məqaləsində isə Sabir və Mirzəli Möcüz yaradıcılığı qarşılaşdırılır, ortaq fikirlər üzə çıxarılırdı. Bu məqalədə yaradıcılıqların qarşılaşdırılması fonunda Şimali və Cənubi Azərbaycan məsələsinə toxunulduğunun da şahidi oluruq. Cəhalət və nadanlığın xalqın inkişafına törətdiyi maneələrin, elmin cəmiyyətin tərəqqisinə göstərdiyi təsirin tərənnümü Sabir ənənələrinin o tayda davamçısı Möcüzün üzərinə düşürdü. Məsud Əlioğlu Sabir satirasının “Qırmızısaqqal” obrazına qarşılıq olaraq Möcüz yaradıcılığında “Qarasaqqal” obrazını tapıb çıxarırdı. Tənqidçi *“Sabir və Möcüz, azadlıq və inqilab aşiqləridir”* [147, s.127] fikrinin üzərində geniş dayanırdı.

Məsud Əlioğlu "Məslək qardaşları" məqaləsini 1962-ci ildə, "Məfkurə dostları" məqaləsini isə 1950-ci ildə yazmışdır. Hər iki araşdırmanın ortaq tədqiqat obyekti Mirzə Ələkbər Sabirin yaradıcılığıdır. Sabirlə Mirzəli Möcüzü bir-birinə bağlayan ideologiya yaxınlığı, Sabir və Cəlil Məmmədquluzadə arasında əqidə, dünyagörüş yaxınlığı var idi. Möcüzlə paralel şəkildə Sabir satirasının əsas tənqid hədəfləri sırasına daxil olan Şərq xalqlarının vəziyyəti, imperializmin müstəmləkə siyasəti təhlil olunurdusa, Cəlil Məmmədquluzadənin əqidə dostu Sabiri daxili düşmənlər maraqlandırırdı. Birinci məqalədə ("Məslək qardaşları") söz və fikir azadlığının boğulması məsələsi diqqətdə idisə, ikinci məqalənin ("Məfkurə dostları") əsas predmeti dini xurafat, cəhalətin tənqidi məsələsi idi.

Məsud Əlioğlu Vaqif və Vidadi şeirinin mahiyyətini açanda daha çox müqayisələrə önəm verir, eyni problemə müraciət edən şairləri doğmalaşdıran, qoşalaşdıran səbəbləri üzə çıxarmağa çalışır, Vaqif şeirlərinə xas olan nikbinlik fəlsəfəsi Vidadi poeziyasının mahiyyətinə hopan kədər fəlsəfəsi iki sənətkarın məşhur deyişmələri kimi qarşı-qarşıya qoyulurdu. Bu məqalədə hər iki şairin "Durnalar" şeirində həyat hadisələrinə poetik yanaşma tərzi diqqət mərkəzinə çəkilmişdir. Həyat sevinci timsalı olan "Durnalar" ilə düşündürücü kədəri özündə birləşən "Durnalar"ın təhlili həyat hadisələrinə fərqli müstəvidən baxan şairlərin yaradıcılıq tendensiyasını aşkarlamaqdadır: *"Həyat hadisələrini, insanın canlı meyil və ehtiraslarını çox incəliklə mənalandırıb, ümumiləşdirmək cəhətdən Vaqif şeiri ilə Vidadi poeziyası arasında ruhi bir yaxınlıq vardır"* [40, s.76].

Məsud Əlioğlu "C.Məmmədquluzadə və S.S.Axundov hekayələri" məqaləsində hər iki nasirin yaradıcılıq üslubuna diqqəti yönəldirdi. Bu zaman tənqidçi müqayisəli təhlil metodunu əsas götürməsə də, onların yaradıcılıqları arasında olan fərqlər ortaya çıxırdı. *"Realist satirik yazıçılardan (C.Məmmədquluzadə, Ə.Haqverdiyev) fərqli olaraq, S.S.Axundovun mübarizəsi, tamamilə başqa istiqamətdə olmuşdur. O, müsbət meyillərin və nurlu fikirlərin intişarına daha artıq diqqət yetirmiş və eybəcərliklərə, yaramaz hallara qarşı açılan atəşin istiqamətini romantik bir yolla aparmışdır"* [40, s.244] fikri göstərirdi ki, tənqidçi nasirin yaradıcılıq metodunu tənqidi realizmin nümayəndəsi Cəlil

Məmmədquluzadədən fərqləndirirdi. Bu da onun materiala doğru yanaşma tərzi idi. Çünki Süleyman Sani Axundov mövzu və problematika baxımından tənqidi realistlərə yaxınlaşsa da, bu problemlərin həlli zamanı tutduğu islahatçılıq yolu onun maarifçi realizmin nümayəndəsi kimi ədəbiyyatda tanınmasına kömək edirdi.

Tədqiqatçılar tərəfindən Məsud Əlioğlu yaradıcılığına münasibət həmişə eyni olmamışdır. Tənqidçinin fəaliyyətinin elmi səviyyəsi haqqında ortaq fikirlər də nəzərə çarpmır. Xüsusən, 1958-ci ildən sonra yazılan araşdırmalarda tənqidçinin məqalələrində ilk yazılarına nisbətən elmiliyin aşağı düşdüyü fikri irəli sürülürdü: *"Qəribə olsa da, Məsud Vəliyev tənqidə addımlarını atmağa başlayanda indikindən maraqlı və peşəkar yazırdı"* [173, s.95]. Elçin Əfəndiyev bu tarixi 60-cı illərin ortalarından götürürdü [33]. Bu fikirlərlə müəyyən qədər razılaşmaq mümkün deyil. Düzdür, Məsud Əlioğlunun irsində elmi cəhətdən zəif, tələsik yazılan məqalələr də vardır. Lakin bu yazıları hər hansı dövrə aid etmək mümkün deyil. Çünki yaradıcılığın hər bir mərhələsində zəif və güclü məqalələrə rast gələ bilərik. 50-ci illərdə Məsud Əlioğlu irsində dünya ədəbiyyatı və ədəbi əlaqələrlə bağlı araşdırmalara rast gəlinsə də, tənqidçinin bu sahədə apardığı tədqiqatlar çox azdır və yaxşı səviyyədə deyil. Maksim Qorki, Lev Nikolayeviç Tolstoy, Pavel Blyaxinin, Nikolay Alakseyeviç Nekrasov haqqında yazılan məqalələrdə tənqidçinin elmi ümumiləşdirmə bacarığı parlaq şəkildə görsənsə də, digər məqalələri ilə müqayisədə dərin təhlil ustalığı nəzərə çarpmırdı. 60-cı illərdə yazdığı "Samirə, Aydın və başqaları", "Tarixi həqiqət və onun bədii həlli" məqalələri haqqında da həmin sözləri demək mümkündür. Məsud Əlioğlunun 50-ci illərdə Osman Sarıvəlli, Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov, Səməd Vurğun haqqında yazdığı məqalələrlə 60-cı illərdə Məhəmməd Füzuli, Hacı Kərim Sanılı, Məhəmməd Hadi, Cəfər Cabbarlı haqqında yazdığı məqalələr arasında böyük fərq yoxdur. Bu tədqiqatların hər birində elmilik dərəcəsi yüksək səviyyədə idi. Bu günün prizmasından baxdıqda deyə bilərik ki, 60-70-ci illər mərhələsi Məsud Əlioğlunun tənqidçilik fəaliyyətinin yetkin çağlarıdır. Hər sənətkarın ədəbi prosesdə tanıdan yaradıcılıq abidəsi vardır. Məsud Əlioğlunun da yaradıcılıq manifesti "Hüseyn Cavidin romantizmi" monoqrafiyasıdır. Bu monoqrafiya göstərdi ki, Məsud Əlioğlu

Hüseyn Cavid yaradıcılığını sosioloji yanaşmadan xilas edə bilmişdir. Elə bu faktın özü sübut edir ki, tənqidçi fəaliyyətinin hər bir mərhələsində öz istedadını göstərə bilmiş, ədəbiyyatşünaslıq üçün qiymətli elmi örnəklər qoyub getmişdir.

Məsud Əlioğlunun bir-birinə antiteza təşkil edən yaradıcılıq mərhələsi haqqında aşağıdakı qənaətə gəlməyi məqsədəuyğun hesab edirik:

| 50-ci illər mərhələsi | 60-70-ci illər mərhələsi |
| --- | --- |
| ↓ | ↓ |
| 1. Sosioloji tənqid | 1. Estetik tənqid |
| 2. Realist üslub | 2. Romantik üslub |
| 3. Müasirliyə meyl | 3. Klassik irsə qayıdış |

Ədəbi şəxsiyyətlərin yaradıcılığının mərhələ təsnifatını aparmaq onların fəaliyyətinin səciyyəvi cəhətlərini nəzərə çatdırmaq cəhətdən mühüm əhəmiyyətə malikdir. Çünki dövrün ümumi mənzərəsi bu və ya digər şəkildə tənqidçinin fəaliyyətinə də təsir göstərir. 60-cı illərdə ədəbiyyatımızda baş verən dəyişikliklər ədəbi proses də görsənməyə başladı. Bədii əsərlərin əsas mövzusu olan insan və şəxsiyyət amilinin inkişaf dinamikasına diqqət ədəbi tənqidin təhlil istiqamətinə də təsirsiz qalmadı. Bunun bariz nümunəsini Məsud Əlioğlunun fikirlərində görmək mümkündür. Estetik tənqidin prinsiplərinə meyl etməsi tənqidçinin üslubunun sabitləşməsinə səbəb olmuş, bir tənqidçi kimi yaradıcılığının kamillik mərhələsinə qədəm qoymuşdu.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas müddəalar və elmi nəticələr "60-cı illərin ədəbi prosesində Məsud Əlioğlunun yeri və mövqeyi" [86], "Ədəbi tənqiddə Məsud Əlioğlu imzası" [89], "Süleyman Sani Axundov yaradıcılığı Məsud Əlioğlunun tədqiqində" [98] adlı məqalələrdə öz əksini tapmışdır.

# II FƏSİL

# ƏDƏBİ TƏNQİDİN MÜASİRLİK AXTARIŞLARI

## 2.1. Ədəbi-bədii təcrübənin inkişafında ənənə və novatorluğun tənqidi dərki

Müasirlik məzmun etibarilə geniş və çoxşaxəli bir anlayışdır. Estetik kateqoriya kimi müasirlik tarixiliklə vəhdətdə, qarşılıqlı əlaqədə inkişaf edir. Fəlsəfi mahiyyətinə görə müasirlik insanın şüurunda formalaşan düşüncə tərzidir. Azərbaycan ədəbiyyatında müasirlik anlayışı əsas problem kimi XIX əsrdən meydana çıxmışdır. Bu dövrdə Qərbə olan meyl müasirlik pərdəsi altında qələmə alınırdı. XX əsrin əvvəllərində bu tendensiya başqa müstəvidə inkişaf etdirilir, dini və milli zəmin nəzərə çatdırılırdı. XX əsrin ortalarından bu anlayış daha çox nəzəri problemlərlə bağlı tədqiqata cəlb edilir, ədəbi tənqiddə ənənə və novatorluq məsələsi ortaya çıxarılırdı.

60-cı illərdə ədəbiyyatda özünü göstərən demokratikləşmə prosesinin kökünün 50-ci illərdən gəldiyini Məsud Əlioğlunun tənqidi irsində aydın görmək mümkündür. Onun 50-ci illərdə dövrü mətbuatda çap etdirdiyi məqalələri 60-cı illər tənqidimizin nəzəri səviyyəsinin güclənməsinə təsir göstərdi. Bir qayda olaraq daim ədəbi prosesin önündə olan tənqidçi 1956-cı ildə “Təbliğatçı” jurnalında Səməd Vurğunun “Aygün” poeması haqqında məqalə dərc etdirmişdir. Poema çap olunduğu ildən başlayaraq, 80-ci illərə qədər əsər haqqında müxtəlif fikirlər irəli sürülürdü. Yazılan ilk məqalələrdə əsərə qarşı yönəlmiş qeyri-obyektiv münasibət diqqəti cəlb edirdi. Bu yazılarda mübahisəli, vulqar sosioloji meyllər müşahidə olunurdu. “Aygün”ün ədəbiyyat səhnəsinə gəlişi Səməd Vurğuna qarşı hücumların artmasına bəhanə oldu. Bu baxımdan Mirzağa Quluzadənin tənqidi məqaləsi ilk yanaşma kimi əhəmiyyətli olsa da, əsərin məzmun və ideyasına birtərəfli baxışı da ortaya çıxarırdı. Məqalədə əsərdə təsvir edilən hadisələrin və obrazların sovet həyatı üçün səciyyəvi olması,

əsərin baş qəhrəmanlarının daxili təkamül yolunun həqiqətə uyğunluğu və tipikliyi məsələsinə qarşı kəskin münasibət göstərilirdi.

Mirzağa Quluzadə diqqəti Əmirxanın dəyişmə prosesinə yönəldir, bu dəyişikliyin süni yolla getdiyini, şəraitinin və səbəbinin göstərilmədiyini diqqət mərkəzinə çəkir, bu prosesin kollektivdən kənar baş verdiyini göstərirdi. Tənqidçi "daxili təkmilləşmə" ifadəsini irəli sürməklə sovet ədəbiyyatı üçün səciyyəvi mövzular sırasına daxil olan əməyin bu prosesə təsirini inkar edirdi. Bununla da, şairi Əmirxana rəğbət bəsləməkdə ittiham edir, hətta daha irəli gedərək poemanın qadın qəhrəmanı Aygünün nöqsanlı çıxmasının səbəbini Əmirxanın sovet əxlaqına uyğun olmayan görüşlərini müəllifin ifşa etməməsi ilə əlaqələndirirdi.

Tənqidçi Aygünün tipikliyi məsələsini izah edərkən qadın obrazının fikir və hisslərini sovet gerçəkliyi üçün səciyyəvi saymır, bu qadının öz ərinə güzəştə getməsini, onu bağışlamasını şairin qadına münasibətdə köhnə dünyagörüşünə malik olması ilə bağlayırdı. Eyni zamanda, Səməd Vurğunun Aygün obrazını səbirli olmağa çağırmasını şairin Əmirxanın köhnə fikirlərinin müdafiə etməsi ilə əlaqələndirilməsi birtərəfli tənqidçi mövqeyini nümayiş etdirirdi. "Tay-tuşumdan gerimi qalım?" sualının əsas gətirərək Aygünü xarakter olaraq zəiflikdə ittiham etmək obrazı gözdən salmaq deməkdir. Belə qadın obrazının yaradılması ilə Səməd Vurğunun sovet gerçəkliyini əks etdirə bilməməsini onun nöqsanı kimi göstərirdi: *"Bir sıra gözəl mənəvi keyfiyyətlərinə baxmayaraq, ictimai bir tip, xarakter, bir obraz olmaq etibarilə Aygün də sovet oxucularını təmin edə bilməz. Çünki o, sovet adamlarına xas olan mübarizlik, prinsipiallıq, ardıcıllıq keyfiyyətlərinə, köhnəliklə barışmazlıq sifətlərinə malik deyildir"* [81].

Məqalənin sonunda Səməd Vurğunun "İnsan" pyesinin adının çəkilməsi, partiya tənqidinin yada salınması dramaturqa qarşı yönələn haqsız təzyiqlərin ilk olmadığını göstərirdi. Digər tərəfdən realizmdən uzaq, mücərrəd fəlsəfəçilikdə ittiham edilən bu pyesin adının qeyd edilməsi məqalənin yazılma məqsədini sübut edirdi. 50-ci illərdə Səməd Vurğuna qarşı yönələn tənqidi məqalələrin yazılması səbəbsiz deyildir. Bu məqalələrdən sonra şairin təqiblərə məruz qalması irəli sürülən iradların reallığı əks etdirmədiyini nəzərə çatdırırdı. Onu da qeyd edək ki, Səməd

Vurğun özü bu məsələyə aydınlıq gətirmiş, Mirzağa Quluzadənin ittihamalarına əsərdən gətirilən misallarla cavab vermiş, Əmirxana ümidsiz bir varlıq kimi baxmadığını, islahının mümkünlüyünü təsvir etməklə sovet cəmiyyətinin yenidən tərbiyə prinsiplərini əsas götürdüyünü vurğulamışdır. Əslində, Səməd Vurğunu müdafiəyə qalxan yazıçı və tənqidçilər də az deyildi: *"Şairin müasirlərindən Mehdi Hüseyn, Osman Sarıvəlli, Süleyman Rəhimov, Əli Vəliyev, Zeynal Xəlil ayrı-ayrı yığıncaqlarda obyektivlik göstərmiş, "Aygün"ü və onun müəllifini müdafiə etmişlər. Lakin həmin vaxtlar şairi müdafiə edən məqalənin dərcinə imkan verilməmişdir"* [18, s.129]. Adilxan Bayramovun bu fikirlərində doğruluq payı var idi. Stalinin ölümündən sonra Səməd Vurğunun üzərindən təzyiqlər qalxır. Bu şəraitdən ilk istifadə edən tənqidçi Məsud Əlioğlu olmuşdur. Tənqidçi "Aygün" poemasının əsas ideya və məzmununu ortaya çıxaran məqalə yazmışdır. Həmin illərdə Qasım Qasımzadə, Məmməd Arif də poemanın müdafiəyə qalxan məqalələrin çapına nail olmuşdur. Lakin sənətkar ömrü bu hadisələrin şahidi olmamış, Səməd Vurğunun ölümündən sonra çap olunan bu məqalələr "Aygün" poemasına ikinci bir həyatı bəxş etmişdir.

Məsud Əlioğlu öz məqaləsində Mirzağa Quluzadənin fikirlərinə əks mövqe tutur, əsərə qarşı yönəlmiş tənqidlərlə razılaşmadığını vurğulayırdı. Onun Əmirxana və Aygünə yanaşma tərzi əsərin mövzu və ideyasını tam açırdı. Tənqidçi düzgün olaraq qeyd edirdi ki, Səməd Vurğun əsərdə müasir ailə necə olmalıdır, hansı əxlaq qaydaları çərçivəsində yaşamalıdır, qarşıya çıxan maneələri necə aradan qaldırmalıdır kimi vacib məsələlərin həll etməyə çalışmış və bunun öhdəsindən gələ bilmişdir.

Məsud Əlioğlunun məqalədə toxunduğu mövzular Mirzağa Quluzadənin fikirlərinə münasibət bildirmək xarakteri daşıyırdı. Belə ki, tənqidçi Mirzağa Quluzadə kimi Əmirxanı tədrici dəyişmə prosesində, daxili inkişafda göstərmişdir. Lakin ondan fərqli olaraq, Əmirxanın mənəvi həyatında əmələ gələn dəyişikliyi əmək prosesindən tədric etməmişdir. O, bu fikirdədir ki, Səməd Vurğun poemada Əmirxanı nümunəvi sovet adamı kimi göstərməyə çalışmamış və məqsədi də bu olmamışdır. Buna görə də tənqidçi Əmirxana ziddiyyətli obraz kimi yanaşırdı. O, Əmirxanı tamamilə yararsız, islahı mümkün olmayan, yaramaz adam kimi təhlilini doğru

qənaət hesab etmir, onu bu vəziyyətə salan düzgün tərbiyə, məqsədsizlik kimi cəhətləri aşkara çıxarmağı qarşısına məqsəd qoyurdu. İstər Aygünün, istərsə də, Əmirxanın dəyişmə prosesinin sovet ideologiyası və əxlaqı ilə bağlanması Mirzağa Quluzadənin fikirlərini təkzib edirdi.

Məsud Əlioğlu Aygünü həyatımız üçün səciyyəvi qəhrəman hesab etməyənlərin mövqeyi ilə razılaşmamış, Səməd Vurğunun sənətkar mövqeyini dəstəkləmişdir. O, Aygünün Əmirxana güzəştə getməsinin səbəbini onun isməti, namusu ilə əlaqələndirir, Mirzağa Quluzadənin əksinə olaraq, bunu obrazın daxili keyfiyyətlərinin müsbətliyi ilə bağlayırdı: *"Aygün təbiətli qadınlar həmişə alovlanmazlar, onlarda böyük hövsələ, möhkəm və kəskin iradə olur. Hər kiçik şey, xırda-xuruş sözlər belə qadınları yerindən oyatmaz. Lakin onlar hərəkətə gəldikdə, inada düşdükdə, hər işi görməyə qadir olarlar. Belə qadınlar sevgidə möhkəm, mübarizədə ardıcıl, fikirdə sabit, əqidədə düzdürlər"* [158, s.81].

Əsərin əvvəlində Aygünün passiv göstərilməsi tənqidçini də qane etmirdi. Buna görə "Aygünü əri təhqir etməsəydi, öz ideallarını gerçəkləşdirə biləcəkdirmi?" sualı Məsud Əlioğlunu da düşündürürdü. O, belə nəticəyə gəlir ki, Aygünün qarşısında iki yol vardır. Birinci yol hər şeylə barışıb, ərinin hərəkətlərinə göz yummaqdırsa, ikinci yol öz ideallarının arxası ilə getməkdir. Tənqidçi doğru olaraq qeyd edirdi ki, Aygün ikinci yolu seçməklə şairin müqəddəs qadınlıq haqqındakı ideallarını təcəssüm etdirən obraz səviyyəsinə yüksəlmişdir.

Qadın mövzusu ədəbi tənqidin bütün dövrlərində əsas problem kimi diqqəti cəlb etməkdədir. Qadın obrazları ədəbiyyatın hər bir mərhələsində milli koloritin əsas cizgilərini özündə cəmləşdirirdi. XIX əsrə qədər yazılan əsərlərdə qadın gözəlliyi aparıcı mövzu idisə, XIX əsrdən qadına münasibət dəyişirdi. Bu dövrdən qadın azadlığı mövzusu aparıcı mövqeyə keçirdi. 60-cı illərdə milli ənənə və ədəbi ənənə məfhumu arasındakı qarışıqlığın həlli prosesində diqqət qadın surətlərinin üzərinə yönəlmişdir. Bu sərhəddin müəyyənləşməsi istiqamətində mübahisələrin yer aldığı bir vaxtda Məsud Əlioğlu "Səriyyə haqlıdırmı?", "Sevildən Saçlıya", "Nəsrimizdə qadın azadlığı mövzusu (30-cu illər)" məqalələri ilə ədəbi ictimaiyyətin diqqətini cəlb edirdi. Xüsusilə, onun 1961-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çap olunan

“Səriyyə haqlıdırmı?” məqaləsi dövrü mətbuatda silsilə məqalələrin yazılmasına səbəb olmuşdur. İlyas Əfəndiyevin “Körpüsalanlar” povestinin baş qəhrəmanı olan Səriyyə obrazı ədəbiyyata yeni bir mübahisə predmeti gətirmişdir. Məmməd Arif, Seyfulla Əsədullayev, Cəlal Məmmədov, Məmməd Cəfər Cəfərov, İslam İbrahimov, Elçin kimi tənqidçilər tərəfindən Məsud Əlioğlunun tənqiddə qaldırdığı bu problemə müxtəlif münasibətlər bildirilmişdir. Məsud Əlioğlu “Körpüsalanlar”a tamamilə yeni mövqedən yanaşırdı. Belə nəticəyə gəlirdi ki, İlyas Əfəndiyev qəhrəmanların hiss və duyğularına, əxlaq normalarına fikir verdiyi üçün dövrün aktual mövzusu olan əmək cəbhəsi arxa planda qalmışdır. Əsərin sərlövhəsi də ilk baxışdan əməklə bağlı bir prosesi xatırlatsa da, burada “körpüsalanlar” ifadəsi məcazi mənada işlənmişdir. Müəllif bu ifadənin əsasında əsərin qəhrəmanlarını bir-birinə bağlayan mənəvi körpülərdən söhbət getdiyini diqqət mərkəzinə çəkmişdir.

Məqalədə tənqidçini düşündürən bir sual ortaya çıxır: Səriyyə kimi qızlara həyatımızda təsadüf edilirmi? O, bu sualı iki cəhətə görə cavablandırır. Bir tərəfdən Səriyyənin körpüsalanlarla ova getməsi, dağüstü parkda restoranda ona sataşan oğlana şillə vurmasını məişətimiz üçün nümunəvi bir hərəkət sayılmadığını irəli sürmüş, dövr üçün aktual olmayan, milli ənənədən kənara çıxan hərəkətlər kimi qiymətləndirmişdir. Digər tərəfdən onu hisslər aləmininə görə dəyərləndirmiş və belə nəticəyə gəlimişdir ki, *“bir sıra ifrat sərbəstliyini, real görünməyən hərəkətlərini nəzərə almasaq, deyə bilərik ki, romantik təbiətini həmişə mühafizə edib saxlayan belə qızlar müasir həyatımızda vardır”* [53].

Məsud Əlioğlu Səriyyənin əri Adildən uzaqlaşmasının səbəbini yazıçı tərəfindən real təsvir edildiyini qeyd edirdi. Çünki Adilin soyuqqanlı münasibəti, şöhrətpərəstliyi qəlbi həyat eşqi ilə yanan Səriyyəni təmin edə bilməzdi. Onun fikrincə, ərinin soyuq münasibətlərindən bezən qadın ondan uzaqlaşmaqda haqlıdır. Tənqidçi Səriyyənin Qəribcana olan münasibətində bayağılıq görür, müəllif bu yaxınlaşmanın əndazə və ölçü çərçivəsində verilməsini daha məqsədəuyğun hesab edirdi. Və belə nəticəyə gəlirdi ki, bu yaxınlaşma süni şəkildə baş vermiş, onların məhəbbətini doğuran səbəblər real şəkildə göstərilməmiş, onları bir-birinə bağlayan amillər birtərəfli təsvir edilmişdir. Müəllif Səriyyənin məhəbbətinin keçici bir hiss

olduğunu irəli sürmüşdür. Bu hiss ərinin onun qəlbində yaratdığı boşluğu dolduran qadınlıq ehtirasıdır. Tənqidçiyə görə İlyas Əfəndiyev Səriyyə ilə Qəribcanın əxlaq normalarına uyğun olmayan münasibətlərini ideal kimi təsvir etdiyi halda, Adili gözdən salmağa çalışmış, oxucuda ona qarşı nifrət hissi oyatmışdır. Məsud Əlioğlu hər bir obrazın fərdi xüsusiyyətlərini nəzərə almış və Adili də müsbət qəhrəmanlar sırasında görmüşdür. Əslində, tənqidçinin hər üç obrazı müsbət tip kimi qeyd etməsi doğru yanaşma idi. Buradan belə nəticə çıxır ki, ədəbiyyata gələn bu yeni obrazları tənqidçi də qəbul etmişdir.

Tənqidçinin *"Əsərdə Səriyyənin ifrat dərəcədə müstəqilliyini, sərbəstliyini göstərən səhnələr (ayı ovu, lopux oyunu, dağüstü parkda, restoranda olan əhvalat və s.) yenilik kimi verilən bu hadisə və vəziyyətlər həyatımız, məişətimiz üçün nümunə sayıla bilməz, onun tərbiyəvi estetik əhəmiyyəti də yoxdur"* [53] sözləri dövrü mətbuatda etirazlara səbəb oldu. İslam İbrahimov Məsud Əlioğlunun bu fikirlərinə qarşı çıxaraq, İlyas Əfəndiyevin sənətkar mövqeyini müdafiəyə qalxdı: *"Müəllif Səriyyəni başqalarına nümunə göstərmir, oxucularımızı onun ardınca getməyə çağırmır. Həyatda yaranmış yeni bir xarakteri haqlı olaraq ədəbiyyata gətirir"* [76, s.185].

Elçin "Tənqid və nəsr" əsərində Məsud Əlioğlunun ədəbiyyata gətirdiyi "Səriyyə haqlıdırmı?" sualına aydınlıq gətirmiş, onun fikirlərində ziddiyyət olduğunu irəli sürmüşdür. O, Məsud Əlioğlu ilə ona görə razılaşmır ki, tənqidçi bir tərəfdən Səriyyənin Adildən uzaqlaşmasını doğru sayır, digər tərəfdən isə onun öz ərindən ayrılıb başqasını sevməsi ilə barışa bilmir. O, Səriyyənin hərəkətlərində əxlaq çərçivəsindən kənara çıxma faktının olmadığını belə qiymətləndirirdi: *"Səriyyənin bir sıra hərəkətləri ayrı-ayrı adamların xoşuna gəlməyə bilər – bu onların dünyagörüşündən, təbiətlərindən, xarakterlərindən asılıdır, necə ki, başqaları bunda heç bir "qeyri-adi" iş görməz. Lakin elə bilirik ki, bu hərəkətlər ədəbi tənqidə Azərbaycan bədii nəsrində "əxlaq pozuntuları" görməyə və bu dərəcədə narahat olmağa əsas vermir"* [33, s.33].

Cəlal Məmmədov isə Məsud Əlioğlunun əsərin qəhrəmanları ilə Çernişevskinin "Nə etməli?" əsərinin obrazları arasında oxşarlıq tapmasını, Adil və

Səriyyəyə tənqidçinin yanaşma tərzini düzgün hesab etmir: *"Məsud Vəliyev belə hesab edir ki, Səriyyə özünü çox azad aparır, Adil isə bir insan kimi Səriyyədən arxada qalmır. Müəllif boş yerə oxucuların qəzəb və nifrətini Adilin üzərinə yönləndirir"* [171].

Məsud Əlioğlunun "Səriyyə haqlıdırmı?" məqaləsi dövrün ədəbi prosesi tərəfindən tənqidlərə məruz qalsa da, əsərin ideya-məzmun və sənətkarlıq xüsusiyyətlərinin üzə çıxarılmasında mühüm rol oynamışdır. "Azərbaycan qadını" jurnalında oxucu Zeynəb Ramazanovanın jurnalın redaksiya heyətinə göndərdiyi "Siz necə baxırsınız?" başlıqlı məktubu çap olunmuşdur. *Məktubdakı "Cəmiyyətimiz üçün səciyyəvi olmayan, adi əxlaq normalarını gözləməyən Səriyyə gənclərimizin tərbiyəsində nə kimi rol oynaya bilər? Belə bir surətin bədii əsərə gətirilməsi nə dərəcədə düzgündür?"* [116, s.22] fikirləri əsas tutularaq, jurnal öz səhifələrində yeni bir müzakirə mövzusu açmağa qərar vermişdir. Jurnalın 10-cu sayında "Səriyyə haqlıdırmı?" başlığı altında üç oxucu məktubu nəşr olunmuşdur. Bu məktubların müəllifləri Məsud Əlioğlunun davamçıları idilər. Bu da onu göstərirdi ki, Səriyyə kimi yeni obrazı ədəbi mühit qəbul etsə də, oxucu kütləsi dərk edə bilmirdi. Çünki milli ənənə o qədər güclü idi ki, ədəbi ənənə onu üstələyə bilmirdi. Təriqə Mikayılovanın *"Mənə elə gəlir ki, Səriyyənin körpüsalanlarla ova getməsi, şərab içməsi azərbaycanlı qadınlara xas olan hərəkət deyil. Oxucu belə bir surətdən necə nümunə götürə bilər"* [115, s.18], Arifə İsmayılovanın *"Nədənsə yazıçı Adili oxucunun gözündən salmağa çalışmışdır. Lakin buna nail ola bilməmişdir"* [115, s.18], Rayihə Xəlilovanın *"Mənə elə gəlir ki, öz ləyaqətli ərini atan, ailə həyatını pozan Səriyyə kimi surətlər gənclərə müsbət təsir bağışlaya bilməz"* [115, s.18] cümlələri eyni ilə Məsud Əlioğlunun məqaləsindən götürülmüşdür.

Məmməd Cəfər Cəfərov "Azərbaycan qadını" jurnalına göndərilən bu məktublar barədə "Bir mübahisə münasibətilə" başlıqlı məqalə yazmışdır. Məqalədə "Səriyyə haqlıdırmı?" sualına mənfi rəy verən oxucuların fikirlərinə münasibət bildirilir, bu fikirlər onu qane etmirdi. Bununla belə, bu mübahisələrin səbəbləri də izah olunurdu: "*Mübahisənin belə şəkil almasına müəllif özü də imkan yaratmışdır; əsərdə Səriyyənin Adilə görə üstünlüyünü, qabaqcıl qadınların tipik xüsusiyyətlərini*

*kəşf edə bilməmişdir. İkinci tərəfdən, İlyasın qız qəhrəmanları: "Söyüdlü arx"da Nuriyyə, "Dağlar arxasında üç dost"da Səlimə, "Körpüsalanlar"da Səriyyə hələ hər cəhətdən yeni qabaqcıl insan kimi formalaşmamış adamlardır. Bunların mənəviyyatında, xoşbəxt ailə, şəxsi səadət haqqında arzularında nə isə bir qeyri-müəyyənlik vardır"* [27, s.159].

Məsud Əlioğlu 1962-ci ildə "Azərbaycan" jurnalında çap etdirdiyi ""Sevil"dən "Saçlı"ya" adlı məqaləsində bu məsələyə yenidən toxunmuş, öz fikirlərini dəyişməmiş, Səriyyə obrazını "Söyüdlü arx" romanının baş qəhrəmanı Nuriyyə ilə müqayisə etmişdir: *"Nuriyyədən fərqli olaraq, Səriyyə, nə müasir həyatla, nə də milli adət və ənənələrlə bağlanan, açıq-saçıq, ipə-sapa yatmayan, hərcayi bir qızdır"* [52, s.240].

Tənqidçinin qadına münasibətdə Azərbaycan xalqının qəhrəmanlıq tarixinə qayıtması, tarixin səhifələrində müqəddəs yer tutan Taclı xanım, Tuti Bikənin, Rüstəmənin, Nigarın, Həcərin adının qeyd edilməsi zəngin milli ənənədən xəbər verirdi. Ədəbiyyat və mədəniyyət sahəsində mühüm xidmətləri olan Məhsəti, Natəvan, Həmidə xanımın adının ehtiramla çəkilməsi Azərbaycan qadınının tərəqqi və inkişaf səviyyəsini ortaya çıxarırdı. Sovet dövründə fəaliyyət göstərən Şəfiqə xanım Əfəndizadə, Hənifə xanım Zərdabi, Xədicə xanım Ağayeva, Mədinə xanım Qiyasbəyli, Ayna xanım Sultanova kimi qadınların "vətənpərvər qadınlar" kimi xatırlanması real və obyektiv qənaət idi. Məqalənin yazıldığı il (Söhbət 1962-ci ildən gedir – N.M.) sovet rejiminin yumşalma illərinə təsadüf etsə də, qəhrəmanlıq tarixinə müraciət edilməsi tənqidçi obyektivliyinin bariz nümunəsi idi. Belə ki, XIX əsrdən başlayaraq bədii əsərlərdə qadının müti, zəif varlıq kimi göstərilməsi ədəbi ənənə çərçivəsində gedirdi. XX əsrin 30-cu illərindən "Sovet qadını" anlayışı ədəbiyyatda yer almağa başladı. Bununla da, Azərbaycan qadınının qəhrəmanlıq tarixi unudulur, qadına münasibətdə milli ənənə nəzərə alınmırdı. Məsud Əlioğlunun Nizami Gəncəvinin "İskəndərnamə" əsərində Nüşabənin dilindən səslənən "Aslanın erkəyi, dişisi olmaz" deyiminin qabardılması tarixi yaddaşı təzələyirdi. Elə buradaca "Keçmişdə qaçaqlar" əsərinin bəy ailəsinə mənsub, qaçaqçılıq hərəkatına qoşulan Ziynət xanım, Səadət xanım kimi qadın obrazlarının təsviri zəngin tarixi ənənəni yada

salırdı. Deməli, Azərbaycan qadını sadəcə qul, muti vəziyyətdə yaşamır, yeri gəldikdə öz hüququ uğrunda mübarizə aparmağı bacarırdı. Bu sıraya daxil olan Pəricahan xanımın ("Laçın yuvası"), Gülbaharın ("Anamın kitabı") adının "prinsipial qadın" kimi qeyd edilməsi maraqlı nəticə idi.

Tənqidçi Azərbaycan qadınının köləlikdən xilas yolunu sosialist inqilabı ilə bağlayırdı. Çünki *"inqilabın milli ədəbiyyatda aşkarladığı ən incə, təzadlı mətləblər "qadın mövzusu"nda yazılan əsərlərdə qabarıqdır"* [57, s.134]. Tənqidçinin bu istiqamətdə Cəfər Cabbarlı yaradıcılığını təhlil etməsi ədəbi gerçəkliyi əks etdirirdi. Qadının cəmiyyətdəki vəziyyəti ədibin fəaliyyətinin bütün mərhələlərində aktual idi. Tənqidçi onun hekayələrini Sevilə gedən yolda ilkin axtarışlarının nəticəsi kimi qiymətləndirirdi. Məsud Əlioğlu Azərbaycan ədəbiyyatında qadın obrazlarının təkamül yolunu üç bölgü ətrafında təhlil edirdi:

1. Azərbaycan qadının azadlığı uğrunda axtarış aparması mərhələsi
2. Sevil mərhələsi
3. Saçlı mərhələsi

Məsud Əlioğlu qadının mənəvi təkamül yolunu realist ədəbiyyatın yaranması ilə bağlayırdı. Birinci istiqamətdə qruplaşdırılan, mülkədar ailələrində yetişən qadınların inkişaf yoluna nəzər yetirən tənqidçinin bu qadınların axtardıqları azadlığı sevdikləri insana qovuşmaqda tapmasını qeyd etməsi məhdud təhlil idi. Yəni həmin dövrdə yazılan əsərlərdə yalnız hüquqları əlindən alınan qadınlar təsvir edilmirdi. Öz hüququnu müdafiə edən, yeri gəldikdə sözünü deməkdən çəkinməyən qızlar da var idi. Məsud Əlioğlu da bu qadınları görürdü, lakin bu tipli qızların azlığı onu qane etmirdi. Ona görə də Sevilə qədərki dövrü "axtarış dövrü" adlandırırdı. Doğurdan da, bu dövrdə yaranan əsərlərdə qadınlar öz hüququnu dərk edib, çıxış yolunu tapmağa çalışırdılar. Bu inkişaf yolunun çətinliyini tənqidçi ictimai mahiyyət daşıması ilə əlaqələndirirdi. Tənqidçi bu istiqaməti təhlil edərkən milli ənənə üzərində dayanır: *"Qızlar göz açıb analarını və nənələrini kölə vəziyyətində, həmişə başıaşağı və dinib-danışmayan görmüşdülər"* [52, s.230]. Deməli, nə qədər dövrün qanunları ilə barışmayan qadınlar olsa da, adət-ənənənin zəncirindən xilas olmayan qadın obrazlarının təsviri bu dövrün əsərlərində üstünlük təşkil edirdi.

Məsud Əlioğlunun qeyd etdiyi kimi, Sevil obrazı təkamül yolunda ikinci dövrün məhsulu idi. Məqalənin adından göründüyü kimi, Azərbaycan qadınlığının şüurca inkişaf yolu "Sevil"dən başlayır. Bu iki anlayışın qovşağında "İki Sevil" konsepsiyasının irəli sürməsi onun təhlilini düzgün istiqamətə aparırdı. Belə ki, əsərin birinci və ikinci pərdələrində Sevil XIX əsrin qadınlarını xatırladırdı. Üçüncü və dördüncü pərdələrdə tədricən dəyişən Sevil obrazı Azərbaycan qadınlığının inkişafında keçid mərhələsini təşkil edirdi.

Məsud Əlioğlu Sevildən Saçlıya gedən xətt üzərində Gülüş, Almaz, Gülsabah, Həyat kimi qadın obrazlarının inkişaf yoluna nəzər yetirirdi. Bu qızların hər biri Sevilin yolunu davam etdirməklə yanaşı, özünəməxsus inkişaf yolu keçmişdir. Gülüşdə üsyankar ruh əsas idisə, Almaz mübariz qadın kimi yadda qalırdı. Rüxsarə də Almaz, Həyat kimi işləmək üçün rayona gedir, qarşısına maneələr çıxır. Amma o, bu qızlardan fərqlənirdi. Bu fərq onun inkişaf yolunda üzə çıxırdı ki, Məsud Əlioğlu bu cəhəti doğru və yerində təhlil etmişdir. Deməli, Almaz, Həyat eyni yolun ayrı-ayrı mərhələləri idisə, Saçlı yeni bir yolla irəliləyirdi: *""Saçlı" yolu deyərkən, gənc, təcrübəsiz bir azərbaycanlı qızının xasiyyətindəki zəifliklə, qismən ailə tərbiyəsindən və həyatdan gələn qüsurlar nəticəsində mənəvi böhranlar və şübhələr keçirməsi, ən nəhayət, daxili inamı və öz qüvvəsini dərk etməsi sayəsində bir daha yenidən həyata qayıtmasını nəzərdə tutmaq lazımdır"* [52, s.239].

Sevil və Saçlı Azərbaycan qadınlığının fərqli dövrlərinin məhsulu idi. Ərini "Allahın kölgəsi" sayan Sevilin birdən-birə dəyişməsi,"Mən isə artıq əvvəlki Sevil deyiləm" deyərək, nicat yolunu sosializm quruluşunda tapması mövcud ədəbiyyatın yekun qənaətini əks etdirirdi. Saçlı da romanının əvvəlində Sevil kimi sadəlövhlüyü, daxili təmizliyi, mülayimliyi ilə diqqəti cəlb edirdi. Məmməd Cəfər Cəfərov bu barədə belə yazırdı: *"Lakin bütün bunlarla bərabər romanın birinci hissəsində əvvəldən axıra qədər Rüxsarənin aciz göstərilməsi və ümumiyyətlə Rüxsarədə Azərbaycan qadınlığına xas olan əsl Həcər təbiətinin və sovet qızlarına xas olan mübariz ruhun gec baş qaldırması "Saçlı"nın əsas nöqsanlarından sayılmalıdır"* [29, s.159].

Tarixi həqiqət və bədii gerçəklik anlayışının bu iki qadın tipinə uyğunluğu məsələsinə baxdıqda fərq daha çox ortaya çıxırdı. Saçlıda tarixilik daha qabarıq idisə, Sevildə bədii gerçəklik tarixliliyi üstələyirdi. Tarixi gerçəkliyi əks etdirən Saçlı əsərin əvvəlində Sevilə qayıdışın bədii təzahürü idi. Bu cəhətdən onların keçdiyi inkişaf yolu bir-birinə bənzəsə də, Sevilin yolu Saçlının yolu ilə eyni deyildir. Sevil və Saçlı arasında olan fərqin ortaya çıxarılması istiqamətində tənqidçinin apardığı araşdırmalar düzgün idi. Məsud Əlioğlu tərəfindən iki obraz arasındakı fərqin müəyyənləşdirilməsi qadın obrazlarının düzgün dərk edilməsindən xəbər verirdi: *"Sevil öz dövründə, konkret tarixi-ictimai şəraitdə birdən-birə qeyzə gəlib partlayan və hər tərəfə alov saçan vulkana bənzəyirdi. "Saçlının yolu" isə belə deyildi. Saçlı – Rüxsarə, tədriclə alışan və get-gedə alovlanan bir tonqala bənzəyirdi. İlk baxışda onun daxili hərarətini, içərisində gizlin-gizlin közərən qığılcımları seçmək çətin idi"* [52, s.237].

Nəticədə Məsud Əlioğlu bu məqalələrinə görə ("Səriyyə haqlıdırmı?" və "Sevil"dən "Saçlı"ya" məqalələri nəzərədə tutulur – N.M.) "arxaik düşüncə sahibi" kimi dəyərləndirildi, "subyektivizmdə" ittiham olundu, onun haqqında "milli məhdudluq mövqeyində dayanması, milli xarakterin inkişaf dialektikasını nəzərə almaması" [58, s.121] kimi fikirlər irəli sürüldü. Məsud Əlioğlunun hər iki məqaləsi həmin dövrdə birmənalı qarşılanmadı, bu yazılar KP MK-nın 30 avqust 1962-ci il tarixli plenumunda tənqidə məruz qaldı. "Respublikanın partiya təşkilatlarında ideoloji işi Sov.İKP XXII qurultayının qarşısında qoyduğu vəzifələr səviyyəsinə qaldırmalı" başlıqlı məqalədə qurultay haqqında məlumat verilir, qadın obrazlarına qarşı yönəlmiş milli ənənə məsələsinə münasibət bildirilir, tənqidçinin bu fəaliyyətinə qarşı vaxtında münasibət bildirilməməsinə görə Yazıçılar İttifaqı da ifşa olunurdu: *"Tənqidçi Məsud Vəliyev "Azərbaycan" jurnalında dərc etdirdiyi bir məqaləsində İlyas Əfəndiyevin "Körpüsalanlar" povestini ona görə pisləmişdir ki, povestin müəllifi ailədə yeni münasibətləri, qadınların hüquq bərabərliyini müdafiə edir. Məsud Vəliyev isə belə bir hərəkəti guya Azərbaycan ailəsinin mənəvi dayaqlarını sarsıdan zərərli meyl hesab edir"* [110]. Mərkəzi Komitənin Yazıçılar İttifaqına tutduğu bu iraddan bir ay sonra Yazıçılar İttifaqının partiya təşkilatının keçirdiyi

yığıncaqda tənqidçiyə qarşı yönəlmiş tənqidlərin haqlılığı məsələsinə toxunulmuşdur [78]. Bu tənqiddən sonra "Azərbaycan" jurnalının 1963-cü il sayında çap olunan "Ədəbiyyatımız yeni yüksəliş yollarında" adlı baş məqalədə "Azərbaycan" jurnalı ""Sevil"dən "Saçlı"ya" və "Ədəbiyyat və incəsənət" qəzeti "Səriyyə haqlıdırmı?" məqalələrini çap etdirdikləri üçün tənqidə məruz qalır [35, s.6-7]. Bu da "Azərbaycan" jurnalının ehtiyatlı mövqe tutması ilə bağlı idi. Bunun nəticəsi idi ki, həmin ildə jurnalda Məsud Əlioğlunun heç bir məqaləsi çap olunmamışdır. 1964-cü ilin 7-ci sayından tənqidçinin məqalələri yenidən çap olunmağa başlamışdır.

Məsud Əlioğlu 1967-ci ildə qadın mövzusuna yenidən qayıtmışdır. Həmin ildə Azərbaycan qadınlarının qurultayının keçirilməsi Azərbaycanda qadın hərəkatının inkişafında mühüm mərhələ oldu. Azərbaycan nəsrində qadın azadlığı mövzusunun 30-cu illərlə məhdudlaşdırılması real idi. Sovet ədəbiyyatında inqilabi mövzudan söhbət gedəndə ilk öncə diqqət qadın probleminə yönəldilirdi. Çünki öz hüquqlarını tanımayan Azərbaycan qadınının təsviri mövcud quruluşa xidmət edirdi. Elə təsəvvür yaradılırdı ki, qadının azadlığının fərqinə varılması Sovet hakimiyyəti illərində olmuşdur. Əslində bədii əsərlərdə qadının inqilablaşdırılması məsələsi üst qatda gedirdi. Dərininə vardıqda sənətkarları yalnız qadının taleyi maraqlandırırdı.

Tənqidçi 30-cu illər bədii nəsrində təsvir edilən qadın azadlığı problemini üç mövzu ətrafında qruplaşdırırdı:

1. Azərbaycan qadınlarının inqilabdan əvvəlki və inqilab illərindəki həyatı

2. Sovet hakimiyyəti və sosializm quruculuğu illərində qadının mənəvi-siyasi inkişaf yolu

3. Müasirləşmək pərdəsi altında məişətdə və ailə-əxlaq münasibətlərində əmələ gələn ziddiyyətlər [50, s.196].

İnqilabdan əvvəlki dövrdə qadınların həyatını təsvir edən əsərlər sırasında Cəfər Cabbarlının "Aslan və Fərhad", "Mənsur və Sitarə", "Dilbər", "Gülər", Əli Vəliyevin "Həmayilin qızı", "Gülara", Hüseyn Mehdinin "Bahar suları", Əbülhəsənin "Boşandı", Seyid Hüseynin "Şirinnaz", "Gilan qızı", "Sarıköynək", "Həzin bir xatirə" əsərlərinin təhlil edilməsi qadın məsələsinə tənqidçinin düzgün istiqamətdən

yanaşmasını göstərirdi. Bu əsərlərdə qadının köləliyinin burjua əxlaqı, şəriət ehkamları ilə bağlanması sovet rejiminin həmin dövrə olan münasibəti ilə səsləşirdi.

Tənqidçinin Şərq qadının zülm və əsarətdən azad olmasında həlledici mərhələ kimi Sovet hakimiyyəti illərini götürməsi həmin illərdə görülən bir sıra tədbirlərlə bağlı idi. 1921-ci ildə Azərbaycan qadınlarının ilk qurultayının keçirilməsi, ilk qadın klubunun bu dövrdə yaradılması, 1923-cü ildə "Şərq qadını" jurnalının nəşrə başlaması Azərbaycanda qadın hərəkatı tarixində mühüm tədbirlər idi.

Tənqidçi "Sovet qadını"nın yeniliyə münasibətini iki istiqamətdə görür, köhnəliyə qarşı qadında baş qaldıran təkamül prosesini birinci istiqamət, qadının şüurunda əmələ gələn yeniliyi isə ikinci yol kimi ayırmaqla əvvəlki illərdə yazdığı məqalələrindəki fikirlərini davam etdirirdi. Azərbaycan qadınının təkamülü prosesinin "Sevil" əsərindən başlaması problemin həllində özünün real əksini tapırdı. Sovet hakimiyyəti və sosializm quruculuğu illərində qadının mənəvi-siyasi inkişaf yolu mövzusunda yazılan əsərlərdə burjua həyat tərzinin tənqidi və inqilabçı qadınların təsviri məsələsi ön planda dayanırdı. Qadının həddindən artıq inqilabiləşdirilməsi Böyükağa Talıblının "Erkək Tükəzban" əsərində özünü göstərirdi. Qantəmirin də "Zeynəb Tükəzbanova" hekayəsində bu mövzuya müraciət etməsi Tükəzbanlar nəslini ədəbiyyata gətirmişdi. Tənqidçi Tükəzbanların təsvirində ifrata varıldığını görürdü. Bu tipli qadınların təsvirinin qadının zərifliyi haqqında fikirləri alt-üst etdiyini vurğulayır, onları "birdən-birə sərbəst buraxılmış yaya" bənzədirdi.

Nəzərdən keçirdiyimiz məqalələrdə Məsud Əlioğlu yüksək ailə prinsiplərinə sadiq qalmış, ailənin bəzəyi olan namus və sədaqət kimi keyfiyyətlərə üstünlük vermişdir. Onun fikrincə, yenilik naminə milli xüsusiyyətləri unutmaq olmaz. O, real həyatdan uzaq, milli psixologiya ilə əlaqəsi olmayan yeniliyi qəbul etmirdi. Ona görə də qadın mövzusunda yazılmış əsərlərə qarşı münasibəti fərqli idi. Tənqidçi Aygünün yolunu bəyənirdi. Çünki Aygün öz böyük bacısı Sevilin yolunun davamçısı idi. Onlar yeni cəmiyyətdə öz hüquqlarını dərk etmiş və bu yolda mübarizə aparmış, nəticədə qələbə çalmışlar. Səriyyə isə tamam başqa bir yoldadır. Onun yolu nə Sevilin, nə də Aygünün yoluna bənzəyir. Çünki o, hüquqsuz bir qadın deyildir. Həm də tənqidçinin

Səriyənin hərəkətlərini doğru hesab etməməsində müəyyən məqsəd güdülür. Tənqidçi oxucu ilə yazıçı arasında körpü yaradan bir faktordur, ictimai rəyə təsir etmək gücündədir. Müəllif ”Səriyyə haqlıdırmı?” sualına müxtəlif tərəflərdən cavab axtarırdı. 60-cı illər nəsrində yeni tendensiya qadının mənəvi keyfiyyətlərini üzə çıxarmaq olduğu üçün tənqidçi də obraza psixoloji aspektdən yanaşmağa çalışsa da, bunun öhdəsindən gələ bilməmişdir. Əxlaq anlayışı mənəviyyat məfhumunu üstələdiyi üçün Səriyyə obrazı tənqidçi tərəfindən bu şəkildə qarşılanmışdır. Tənqidçinin fikirlərində mübahisəli məqamlar da vardır. O, Səriyyə kimi azad düşüncəli, ağıllı bir qadının Adil kimi bir insanı qəbul edə bilməyəcəyi fikri ilə razılaşırdı. Bununla belə, Səriyyənin çıxış yolunu Qəribcanla çıxıb getməsində tapmasını düzgün istiqamət hesab etmir, bunun əxlaqi cəhətdən müəllif tərəfindən əsaslandırılmadığını irəli sürürdü. Ona görə də tənqidçi ədəbiyyatımız və tənqidimiz üçün yeni olan bu mövzunu təhlil edərkən ehtiyatlı mövqe tuturdu. Lakin onu da unutmaq olmaz ki, bədii əsərlər həyatı əks etdirməklə yanaşı, yazıçı təxəyyülünün məhsuludur.

Qadın-ana hüququnun sovet ədəbiyyatında öz əksini tapmasına Məsud Əlioğlunun bu şəkildə münasibəti Azərbaycan qadınlığının inkişaf tarixinə qısa bir nəzərdir. Qadının vəziyyəti, hüquqları, qadın emansipasiyası Məsud Əlioğlunun qələmində tarixi inkişafın fonunda təhlil olunmuşdur. “Aygün”, “Körpüsalanlar” əsərilərinə münasibətdə sərbəstliyə meyl edən, cəsarətli tənqidçi imzasını görmək mümkündür. Təqiblərə məruz qalan Aygün obrazına obyektiv münasibət nümayiş etdirməsi qərəzsiz tənqidçi şəxsiyyətindən xəbər verirdi. Səriyyə obrazına tərəddüdlü münasibətin təzahürünü görürük. Çünki tarixilik nöqteyi-nəzərindən baxdıqda, Səriyyənin sərbəsliyi bizim mentalitet üçün yad təsir bağışlayırdı. Müasirlik cəhətdən yanaşdıqda, İlyas Əfəndiyevin uğuru onda idi ki, müasir dövrümüz üçün aktual olan bir mövzunu XX əsrin 60-cı illərində yazmışdır. Məsud Əlioğlunun bu təhlilləri ədəbi-tənqidi fikir tariximizə təsirsiz qalmamışdır.

## 2.2. Məsud Əlioğlunun tənqidində müasir ədəbi prosesin yaradıcılıq problemləri

Məsud Əlioğlu ədəbi tənqidin bir çox janrlarına müraciət etmişdir. Monoqrafiya, məqalə, resenziya, problem yazılar, ədəbi oçerklər tənqidçinin istedadının çoxtərəfliliyindən xəbər verirdi. Bu janrlar içərisində kitablar haqqında yazdığı rəylər məhsuldarlığı və fəal tənqidçi mövqeyi ilə diqqəti cəlb edirdi. Bu janr tənqidçidən obyektiv yanaşma tələb edir. Yəni müəllif ədalətli olmalı, subyektivliyə yol verməməlidir. Çünki resenziya müəllifi kitab, səhnə əsəri, film haqqında yalnız məlumat vermir, oxucunu müəyyən istiqamətə yönəldir, ona təsir etməyi bacarır, əsərdə qoyulan ideyanın açılmasına kömək edir. "Həyat – yazıçı – bədii əsər – oxucu" münasibətlərində resenziya müəllifi bədii əsər ilə oxucu arasına girir. Buna görə də *"resenziya ədəbi tənqidin müəllifdən çox oxucuya ünvanlanmış janrlarından sayılmaqdadır"* [117, s.16].

"Azərbaycan" jurnalının səhifələrində yeni nəşr olunan kitablar haqqında məlumat xarakterli məqalələrin çapı xüsusi yer tutmuşdur. Bu istiqamətdə ilk addım Əmin Abidə məxsus idi. 1928-ci ildə onun Əli Nəzminin "Sijimqulunamə" adlı kitabına yazdığı resenziyası jurnalın üçüncü nömrəsində nəşr olunmuşdur. Müxtəlif illərdə Məmməd Arifin, Nazim Axundovun, Adil Babayevin, Məmmədəli Əsgərovun, Akif Kazımovun, Əli Nazimin, Məmməd Rahimin, Mikayıl Rəfilinin, Orucəli Həsənovun, Cəfər Xəndanın, İmamverdi Əbilovun resenziyaları jurnalda yer almışdır. 1950-ci ildən başlayaraq, Məsud Əlioğlunun "Azərbaycan" jurnalında və "Ədəbiyyat və incəsənət" qəzetində resenziyaları çap olunmuşdur. Balaş Azəroğlunun "Savalan", Adil Babayevin "Gənclik illəri", Zeynal Xəlilin "İki dünya", Qasım Qasımzadənin "Ürək döyüntüləri", Məhərrəm Əlizadənin "Kədər və sevinc" kitabları haqqında yazdığı rəylər "Azərbaycan" jurnalında, Mirvarid Dilbazinin "Qardaşlar", Bəxtiyar Vahabzadənin "Ədəbi heykəl", Qasım Qasımzadənin "Bizim dağlar", Ənvər Məmmədxanlının seçilmiş əsərləri, Məmməd Faiqin "Mənə desələr ki..." kitabları haqqındakı fikirləri isə "Ədəbiyyat və incəsənət" qəzetində işıq üzü görmüşdür.

Dövrün ədəbi yaradıcılıq axtarışlarını daim izləyən, Azərbaycan poeziyasının vəziyyəti ilə həmişə maraqlanan Məsud Əlioğlunun Balaş Azəroğlunun "Savalan", "Elə oğul istəyir Vətən" şeirlər kitabı, 1970-ci ildə isə iki cilddə çap olunan "Seçilmiş əsərlər"i qələmindən yan keçməmişdir. Əvvəlcə kitabların daxili xüsusiyyətləri haqqında məlumat vermiş, sonra şairin şeirlərinin mahiyyətini təhlil etmişdir. Bununla da, müəllif həm oxucunu kitablarla, həm də şairin yaradıcılığı ilə yaxından tanış etmişdir. "Savalan" şeirlər kitabında şairin on üç şeiri toplanmışdır. Tənqidçi kitabdan verilən şeir nümunələri vasitəsilə şairin mövzular aləmini açmış, şeirlərinin əsas xüsusiyyətlərini qeyd etmiş, şairin yaradıcılığının yeni keyfiyyətlərini üzə çıxarmışdır. Məsud Əlioğlu kitaba daxil olan şeirləri təhlil edərkən, başlıca olaraq bu mövzuların üzərində ətraflı dayanmışdır:

a) Milli qürur hissinin təbliği

b) Düşmənə qarşı nifrət hissinin tərənnümü

c) Azadlıq ideyalarının tərənnümü

ç) Mübarizəyə çağırış

Ədib şairin bütün yaradıcılığı üçün səciyyəvi olan əsas cəhəti önə çıxarmağı bacarmışdır: *"Azəroğlunun şeirlərində ümumiyyətlə lirik bir səmimiyyət vardır. Şair poetik bir ehtirasla həyat həqiqətinin səciyyəvi sahəsini parlaq misralarla tərənnüm edə bilir"* [128, s.154].

Tənqidçinin şairin "Elə oğul istəyir Vətən" kitabındakı şeirləri "Azadlıq eşqi", "Vətən sevgisi və xalq məhəbbəti" və "Həyat eşqi, insanpərvərlik və sülh arzuları" başlıqları altında təhlilə cəlb etməsi şairin lirikasının əsas mahiyyətini ortaya çıxarırdı. O, Balaş Azəroğlunu "Alovlu manifest", "Axtarıcı sənətkar", "Fikirlər şairi" adlandırmaqla şairin yaradıcılıq yolunu düzgün müəyyənləşdirirdi. Şairin lirikasında aşiqanə məzmunlu şeirlərin təsirli olduğunu hesab etsə də, haqlı olaraq bu tipli şeirləri onun üslubu üçün səciyyəvi saymır, onu böyük həqiqətlərin tərcümanı kimi dəyərləndirir, şairin bu kitabda artıq öz üslubunu tapdığını vurğulayırdı.

Balaş Azəroğlunun 1970-ci ildə iki cilddə çap olunan "Seçilmiş əsərləri"nin I cildində şairin 1937-1959-cu illərdə, II cildində isə 1960-1968-ci illərdə yazdığı şeirlər toplanmışdır. Məsud Əlioğlu kitaba daxil olan şeirləri "Vətənpərvərlik

ruhunda yazılan şeirlər", "Xalq həyatından bəhs edən şeirlər", "Aşiqanə şeirlər" və "Satirik məzmunlu şeirlər" mövzuları ətrafında təhlil etmişdir. Balaş Azəroğlu şeirlərinin bu bölgü ətrafında qruplaşdırılması inandırıcı səslənir və şairin yaradıcılığını tam şəkildə əhatə edirdi. Tənqidçinin işlətdiyi "Xalq şairi", "Vətəndaş şair" ifadələri də şairin şeirlərinə və şəxsiyyətinə verdiyi dəyərin ifadəsidir. Aşiq obrazının yeni tərzdə işlənməsini şairin şeirinin müasirlik duyğusu ilə əlaqələndirilməsi elmi həqiqətə uyğun gəlirdi. Vəfalı aşiq, vətəndaş aşiq obrazının ön plana çəkilməsi şairin yaradıcılığı üçün səciyyəvi olan xalqa məhəbbət və mübarizə əzmi kimi xüsusiyyətlərin qabardılmasına gətirib çıxarırdı. O, şairin 1955-1967-ci illərdə yazdığı şeirləri qələmə alınan mövzuların yeniliyi baxımından ayrıca bir mərhələ hesab edirdi. Elə buradaca kitaba daxil olan son şeirlərində sənətkarlıq cəhətdən ciddi nöqsanlar tapır, lazımsız yerə uzadılmış fikirləri, nəsrə məxsus elementləri aşkar edir, quru təsvirçiliyi şairin lirikasının zəif cəhətləri sırasında göstərirdi. Halbuki, həmin şeirlərin daxil olduğu "Elə oğul istəyir Vətən" kitabında ciddi qüsurlar görməmişdir. Bu zəif cəhətlərin qeyd edilməsi şairin istedadının inkar edilməsi deyil, obyektiv yanaşmanın tələbidir. Buna görə də deyə bilərik ki, tənqidçi şairin yaradıcılığının əsas xüsusiyyətləri haqqında düzgün qənaətə gəlirdi: *"Döyüşgənlik, fəallıq və mübarizlik yüksək ideallara çağıran sənətin başlıca məfkurəvi-estetik xüsusiyyətləridir. Azəroğlunun şeirləri bu cəhətdən də diqqətəlayiqdir ki, mahiyyəti-mənası mühüm mövzuları əhatə edir, həm də həmin mövzuların bədii-poetik həllini verir"* [54, s.196].

Resenziya oxucuya ünvanlanmış janr olduğu üçün 3 əsas xüsusiyyəti nəzərə almaq lazımdır:

a) Kitabla tanış olmuş oxucular

b) Kitabla tanış olacaq oxucular

c) Kitabla yalnız resenziya vasitəsilə tanış olacaq oxucular

Buna görə də janra müraciət edən tənqidçi kitabın təhlili zamanı bu xüsusiyyətləri diqqət mərkəzində saxlamalıdır. Məsud Əlioğlu bu bölgünü nəzərdə saxlayan tənqidçilər sırasındadır. 1952-ci ildə Zeynal Xəlilin çap olunan "İki dünya" şeirlər kitabı haqqında tənqidçinin ətraflı təhlilləri şairin şeirlərinin əsas cizgilərini

üzə çıxarırdı. Kitabda şairin şeirləri "Moskva şeirləri", "Kənd lövhələri" və "Türkiyə haqqında şeirlər" başlıqları altında qruplaşdırılmışdır. Bura daxil olan şeirlərin hər biri haqqında qısa məlumat verən tənqidçi oxucuda şairin yaradıcılığı haqqında müəyyən təsəvvür yaradır, kitabı görməyən oxucunu da məlumatlandırırdı. Məsud Əlioğlu ədəbi prosesdə özünü göstərən yeniliklərə laqeydlik göstərmir, tənqidçi kimi professional yanaşma bacarığını ortaya qoyurdu. O, bu yeni hadisələri qayğı ilə qarşılamaqla yanaşı, təhlillərində çatışmazlıqları da qeyd etməyi özünə borc bilirdi. Bu təhlillərdə əsərlərin yeniliyi göstərilir, bəzən ifadələrin seçilməsində diqqətli olunmadığına, fikir dolaşıqlığına, sənətkarlıq qüsurlarına, təkrarlara yol verildiyinə görə sənətkarlar tənqid olunurdu. Onun bu təhlilləri inandırıcı təsir bağışlayır, kitab müəllifinə müəyyən istiqamətdə yol göstərirdi. Ədəbi tənqidin əsas janrı sayılan resenziyanın tələbi də bundan ibarətdir. Tənqidçi kitabdakı şeirləri şairin ilk təəssüratının nəticəsi kimi qiymətləndirir, onun təsvir etdiyi hadisələrə kənardan yanaşmasını düzgün hesab etmir, şeirlərində I şəxsin dilindən danışmasına görə tənqid olunmasını haqlı hesab edirdi: *"Birinci onu qeyd etmək lazımdır ki, şairdə "mən" anlayışı həddindən artıq qabarıq və mübaliğəli bir şəkildə təzahür edir və hətta, bir növ, lovğalığa gəlib çıxır.... Digər tərəfdən "mən" deyə öz fərdi duyğularını ifadə edərkən, bəzən, onun səmimiyyətinə inanmırıq, çünki bu duyğuların ifadəsində, nə isə, bir laqeydlik, yeknəsəqlik hiss edirik"* [162, s.172].

Zeynal Xəlilin çap olunan hər bir kitabı elmi mühitin diqqətini cəlb etmişdir. Orucəli Həsənov, Cəfər Xəndan, Faiq Məmmədov, Firuz Əhmədov bu kitablar haqqında müxtəlif fikirlər söyləmişdir. Onun "İstək" adlı ilk şeirlər kitabı 1936-cı ildə çap olunmuşdur. Orucəli Həsənov şairin ilk şeirlər kitabı haqqında "İstəyi həqiqətə çevrilməlidir" başlıqlı resenziya yazmışdır. Bu resenziyada şairin şeirləri haqqında olan təhlillər Məsud Əlioğlunun fikirləri ilə səsləşirdi. O da Zeynal Xəlilin şeirlərində özünü göstərən qüsurların səbəbini şairin həyatdan kənarda dayanması ilə əlaqələndirir, buna görə də onun yaradıcılığında inandırıcılığın az olduğunu qeyd edirdi: *"Şeirlərin çoxusu elə bil ki, tələsik çəkilmiş eskizlərdir. "Şairin albomunu" vərəqləyin. Orada qətiyyən nə tema, nə fikir, nə də kompozisiya vəhdəti yoxdur"* [72, s.58].

Cəfər Xəndanın təhlillərində də həmin fikirlərə təsadüf olunur. O, şairin 1948-ci ildə nəşr olunan “Etibar” kitabı haqqında yazdığı rəydə bu məsələyə belə aydınlıq gətirirdi: *“Bizcə belə inandırıcı olmayan şeirlərin yaranması, təsvir olunan hadisənin yaxşı öyrənilməməsi nəticəsidir”* [74, s.156]. Bununla belə, Cəfər Xəndan şairin bəzi şeirlərində mövzunun bədii surətin vasitəsilə oxucuya təqdim olunmasını şeirlərin inandırıcı çıxmasına səbəb olduğunu qeyd edirdi. Bu fikirlər Məsud Əlioğlunun Zeynal Xəlilin yaradıcılığı üçün səciyyəvi hesab etdiyi “mən” anlayışı haqqında fikirləri ilə üst-üstə düşürdü.

Məsud Əlioğlu şeirdə quru təsvirçiliyi məqbul hesab etmirdi. Şairin tərənnüm etdiyi hadisələrin içinə girməsini, əsərin qəhrəmanına çevrilməsini şeirin təsir gücünü artıran faktor kimi qeyd edirdi. Onun təhlillərindən görürük ki, şeirdə süjetin olmasını, bədii obrazın vasitəsilə mövzunun oxucuya çatdırılmasını əsas tələb kimi irəli sürürdü. Buna görə də şeirdə yalnız birinci şəxsin dilindən danışılması ilə razılaşmırdı: *“Elə ki müəllifin özü danışır, şeir zəifləyir və təsir gücünü itirir”* [143].

Tənqidçi şeirlərin qısa məzmununu təhlil etməklə işini qurtarmış hesab etmir, sənətkarın ədəbi prosesdə mövqeyini müəyyənləşdirir, konkret faktlara əsaslanaraq ədibin yaradıcılığının əsas xüsusiyyətlərini göstərir, vacib məsələləri elmi mühitə xatırladırdı. Qasım Qasımzadənin “Ürək döyüntüləri” kitabı haqqında yazdığı rəydə bu xüsusiyyəti görmək mümkündür. Kitabda “Ana torpaq”, “Səyahət dəftərindən”, “Şadlıq və kədər”, “Ürək döyüntüləri”, “Qayıtmasın o günlər” başlığı altında şairin şeirləri və “Solmaz çiçəklər” poeması toplanmışdır. Məsud Əlioğlu “Ana torpaq” bölgüsünə daxil olan şeirlərində müasir həyatın və insanın yeni xüsusiyyətlərini görür, “Səyahət dəftərindən” başlığı altında verilmiş şeirlərdə ictimai məsələlərə toxunulmasını yüksək qiymətləndirir, “Şadlıq və kədər” başlıqlı şeirlərdə həyata bağlılıq, nikbinlik kimi xüsusiyyətlərin aydın lövhələr vasitəsilə əks etdirilməsini şairin uğuru hesab edir, “Ürək döyüntüləri” hissəsində olan şeirlərdə saf məhəbbəti, bayağı hisslərdən uzaqlaşıb, əxlaqi-tərbiyəvi əhəmiyyətli fikirləri qələmə almasını diqqətəlayiq hadisə kimi qiymətləndirirdi. Kitaba daxil olan “Solmaz çiçəklər” poemasını sənətkarlıq cəhətdən maraqlı hesab etsə də, poemada qoyulan məsələnin

bəsitliyini, mövzunun günün tələbləri baxımından səciyyəvi olmadığını və poema janrının çərçivəsindən aşağı olduğunu ön plana çəkirdi.

Məsud Əlioğlu onun bütün kitablarında xalq üçün döyünən ürəyə sahib olan şairin izlərini axtarıb tapmışdır. O, yaradıcılıq axtarışları, fikir təzəliyi, yığcamlıq, konkretlik, təbiilik kimi keyfiyyətləri qeyd etməklə, şairin sənətkarlıq xüsusiyyətlərini düzgün müəyyənləşdirmiş, onun poeziyasının vacib məsələlərinə diqqəti yönəltmişdir. Bütün bunlar göstərir ki, tənqidçi Qasım Qasımzadənin yaradıcılığına dərindən bələd olmuşdur. Onun şair haqqında fikirləri də bunu sübut edirdi: *"Q.Qasımzadənin şeirlərində məzmun müxtəlifliyi geniş yer tutur. Onun müşahidə obyekti məhdud bir dairədə fırlanmır. Bu da müəllifin dünyabaxışındakı genişliklə əlaqədardır. Daima yaradıcılıq axtarışları aparan, deyilməmiş fikirləri özünəməxsus bir tərzdə ifadə etməyə çalışan şair, hər yeni əsərində oxucuların ruhunu oxşayan, onların zövqünə uyğun gələn hadisə və məsələlərdən yazır"* [161, s.215].

Bu təhlillərin elmi-nəzəri əhəmiyyəti böyükdür. Çünki bu kitablar haqqında yazılan resenziyalar 50-60-cı illər Azərbaycan poeziyasının inkişaf dinamikası haqqında məlumat verirdi. Məsud Əlioğlunun yazdıqlarından belə bir qənaət hasil olur ki, o, Azərbaycan şeirinin forma və xüsusiyyətləri, şairlərin Azərbaycan poeziyasında yeri və rolu haqqında doğru biliklərə sahib tənqidçidir.

XX əsrin əvvəllərində tənqid yalnız ədəbiyyatla məhdudlaşmır, teatr sahəsini də əhatə edirdi. Teatr tənqidi teatrın inkişafı, dram əsərlərinin səhnəyə qoyulması ilə sıx bağlı idi. Bu istiqamətdə resenziyalar, məqalələr yazılırdı. Əsrin əvvəllərində Seyid Hüseyn, Hacı İbrahim Qasımov, Üzeyir Hacıbəyov, Eynəli bəy Sultanov, Rəhim bəy Məlikov, Hüseyn Minasazov kimi teatrşünaslar fəaliyyət göstərirdilər. Teatrı yaxşı bilən resenziya müəlliflərindən danışarkən Məsud Əlioğlunun da adını çəkmək olar. Düzdür, o, teatr tənqidçisi deyildi, əsas fəaliyyəti ədəbiyyatla bağlı idi. Bununla belə, səhnəyə qoyulan teatr tamaşalarını dəyərləndirir, bu tipli tədqiqatları obyektivliyi ilə seçilirdi. Onun Cəfər Cabbarlının "Aydın", "Oqtay Eloğlu", Bəxtiyar Vahabzadənin "Yağışdan sonra", İlyas Əfəndiyevin "Unuda bilmirəm" əsərlərinin tamaşaya qoyulması haqqındakı fikirləri "Ədəbiyyat və incəsənət" qəzetində işıq üzü

görmüşdür. Müəllifin 1968-ci ildə çap olunan "Tənqidçinin düşüncələri" kitabında Mehdi Hüseynin "Cavanşir", Nazim Hikmətin "Şöhrət, yaxud unudulmuş adam", Hüseyn Cavidin "Səyavuş" əsərlərinin teatr səhnəsində oynanılması haqqında rəyləri toplanmışdır.

Məqalələrdə aktyor oyunu, rejissor işi təhlil olunur, əsərin müəllifi ilə rejissorun işi qarşılaşdırılır, əsərin mövzu və ideyasını, bədii surətlərini aktyorların necə canlandıra bilməsi məsələsi diqqət mərkəzinə çəkilirdi. Ələsgər Ələkbərov, Əli Zeynalov, Rza Əfqanlı, Atamoğlan Rzayev, İsmayıl Osmanlı, Mustafa Mərdanov, Məcid Şamxalov, Həsənağa Salayev, Əli Qurbanov, Ağadadaş Qurbanov kimi aktyorların, Hökümə Qurbanova, Nəcibə Məlikova, Əzizə Məmmədova, Leyla Bədəlbəyli, Məhluqə Sadıqova, Fatma Qədri kimi aktrisaların rollarından, Adil İsgəndərov, Ələsgər Şərifov, Əşrəf Quliyev kimi rejissorların fəaliyyətindən bəhs olunurdu.

Ədəbiyyatla teatr bir-biri ilə bağlı olan, bir-birinə təsir edən, qarşılıqlı əlaqədə inkişaf edən sahələrdir. Səhnə üçün lazım olan materialı bədii ədəbiyyat yaradır. Belə ki, dramaturq və rejissor bədii əsərin oxucuya və tamaşaçıya çatdırılmasında eyni funksiyanı yerinə yetirir. Səhnəyə qoyulan dram əsərinin müvəffəqiyyətli alınmasında rejissorun əməyi böyükdür. Çünki dramaturq tərəfindən yazılan əsərə rejissor ikinci həyatı verir. Dramaturqun oxucuya demək istədiyi mövzu və ideyanı rejissor aktyorlar vasitəsilə tamaşaçının gözü önündə canlandırır. Buna görə də rejissor çalışmalıdır ki, səhnələşdirdiyi bədii əsərin mahiyyətinə toxunmasın. Rejissordan bu vacib xüsusiyyətləri tələb edən Məsud Əlioğlu Cəfər Cabbarlının "Oqtay Eloğlu" tamaşasının təhlili zamanı bədii əsərlə dramın səhnə həyatını qarşılaşdırırdı. O, Cəfər Cabbarlının dramda sənətkar və xalq, vətəndaş və cəmiyyət, şəxsiyyət və zaman kimi problemləri aydınlaşdırmağa çalışdığını deyir, rejissor Əşrəf Quliyevin isə tamaşada qabartmaq istədiyi problemi belə müəyyənləşdirirdi: *"Rejissor xalq və sənətkar problemini ön plana çəkmiş, Oqtayın bütün fəaliyyətinin xalq ilə qırılmaz tellərlə bağlılığını göstərmişdir"* [51]. Eləcə də, "Məhəbbətin qüdrəti" məqaləsində rejissorlar Adil İsgəndərov və Ələsgər Şərifovun "Şeyx Sənan" əsərini tamaşaya qoyarkən məhəbbət xəttini qabarıq şəkildə göstərmələrini düzgün

hesab etsə də, yuxu səhnəsinin çıxarılmasının anlaşılmazlığa gətirib çıxardığını vurğulamışdır.

Məsud Əlioğlunun teatrla bağlı görüşləri onun teatr sənətinin nəzəriyyəsi ilə maraqlandığını ortaya çıxarırdı. Çünki tədqiqatlarında yalnız aktyorların fəaliyyətini qiymətləndirmir, səhnə tərtibatı, rəssam işi, bəstəkarın musiqisi haqqında fikirlər irəli sürürdü. Tənqidçi "Şeyx Sənan" tamaşasının müvəffəqiyyətli olmasında, əsərin ideyasının çatdırılmasında Nüsrət Fətullayevin və İsmayıl Axundovun rəssamlıq fəaliyyətinin böyük rol oynadığını qeyd edirdi. Eləcə də bəstəkar Fikrət Əmirovun tamaşada istifadə etdiyi xalq musiqisinin, Azərbaycan muğamlarının əsərdəki şeirlərin mənasına və ruhununa uyğun olduğunu vurğulayırdı. O, səhnənin quruluşunun pyesin məzmununa uyğun şəkildə qurulmasını əsas tələb kimi irəli sürür və fikirlərini belə izah edirdi: *"Nazim Hikmətin "Şöhrət, yaxud unudulmuş adam" pyesinin tamaşası qaranlıqla başlayıb, işıqlı bir finalla bitir. Əsərdəki hadisələrin tənasübünü düzgün ifadə edən bu simvolik məna müəllifin təbliğ etdiyi fikirlərin təntənəsi kimi səslənir"* [55, s.163].

XX əsrin əvvəllərində teatrla bağlı yazılan məqalələrdə təsvirçilik, qərəzçilik, qeyri-obyektivlik ənənəsi güclü idi. Kamal Talıbzadə məqalələrdə özünü göstərən təsvirçilik meyllərinin güclü olmasını haqlı olaraq, teatr tənqidinin yeni yaranması və müəlliflərin zəif nəzəri biliklərə malik olması ilə əlaqələndirirdi. Bununla belə, o, teatrın nöqsanlarının doğru göstərildiyini qeyd edir və fikirlərinə belə aydınlıq gətirirdi: *"Həqiqətdə realizmdən uzaqlaşan" müəlliflər, pyeslərin ictimai mənasına əhəmiyyət verməyib "sənət sənət üçündür" düsturu ilə yazanlar, "üç kəlmə söz deyib, üç dəqiqə pauza saxlayıb gözünü suflyor butkasına tikən aktyorlar" məqalələrdə tənqid olunurdu"* [120, s.41]. Tənqidçinin əsrin əvvəlləri üçün səviyyəvi hesab etdiyi təsvirçilik meylləri əsrin ortalarında bu qədər qabarıq deyildi. Bu teatr sahəsində nəzəri elmin inkişafı ilə bağlı idi. Məsud Əlioğlunun təhlillərində də bunu açıq-aydın görmək mümkündür. O, quruluşçu rejissor Ələsgər Şərifovun "Səyavuş" əsərini teatrın səhnəsində tamaşaya qoyarkən Səyavuşun faciəsini şəxsi çərçivə ilə məhdudlaşdırmamasını, sarayın içüzünü geniş şəkildə göstərməsini düzgün hesab edir. Baş obraz Səyavuş rolunu canlandıran Ağadadaş Qurbanovun obrazı xalq

qəhrəmanı səviyyəsinə qaldırmasını yüksək qiymətləndirirdi. Tənqidçi Hüseyn Cavidin əsərində igid, əsilzadə, həqiqət tərəfdarı kimi xüsusiyyətlərə malik olan Səyavuşun həssas bir aşiq obrazını görür, dramaturqun da bu cəhətə xüsusi fikir verdiyini göstərirdi. Lakin aktyorun ifasında hissiyatlı bir aşiq obrazına təsadüf etmir, bunu onun zəif cəhəti kimi göstərirdi. Deməli, Məsud Əlioğlu tədqiqatlarında təsvirçilik və qeyri-obyektivlikdən uzaqlaşmağa çalışır, təhlil etdiyi hər bir məsələnin müsbət və mənfi xüsusiyyətlərini göstərməyi bacarırdı: *“Lakin aktyor Səyavuşun xasiyyətində, görüşlərində və mənəviyyatında sabitləşmiş ziddiyyətləri və müxtəlifliyi bəzən yaddan çıxarır, onun faciəsinin mürəkkəbliyini, müdhişliyini və dərinliyini bütünlüklə aça bilmir”* [55, s.171].

Resenziya yazmaq tənqidçidən yüksək bacarıq tələb edir. Resenziya müəllifi kimi yazdığı səhnə əsərini nöqsanları ilə birlikdə təhlil edib oxucuya təqdim etmək hər tənqidçinin işi deyildir. Qərəzli fikirlər, subyektiv hisslərə qapılıb tədqiqat obyektini tənqid etmək Məsud Əlioğlu yaradıcılığına yaddır. O, tənqidçilik fəaliyyətində doğru istiqamət tutub, öz tədqiqat predmetinə düzgün yanaşmışdır. Məsud Əlioğlunun incəsənətə olan marağı bu tipli yazıların yazılmasına səbəb olurdu. Müasirlik mövqeyində dayanması ədəbi prosesə öz təsirini göstərirdi. Təsadüfi deyildir ki, vəfatından əvvəl “Azərbaycan gəncləri” qəzetində çap olunan son məqaləsi teatra həsr olunmuşdur. [1, s.81]. Bu məqalə İskəndər Çoşqunun “Söhrab və Rüstəm” mənzum dramının teatr səhnəsində oynanılması ilə bağlı idi.

Bu baxımdan Akademik İsa Həbibbəylinin *“Məsud Əlioğlu universal ədəbiyyatşünaslıq təfəkkürünə malik görkəmli alim olub”*[8] fikri tənqidçinin ədəbi prosesdə yerini və əhəmiyyətini sübut edirdi. Çox az tənqidçi tapmaq olar ki, tədqiqat apardığı sahə çoxşaxəli olsun. Məsud Əlioğlu o tənqidçilərdən idi ki, tədqiqat predmetinə diqqətlə yanaşır, bədii yaradıcılıqda sənətkarlıq məsələlərinə daha çox diqqət yetirir, geniş müqayisələrə və təhlillərə üstünlük verirdi.

### 2.3. Azərbaycan poeziyası və nəsrində sənətkarlıq məsələləri

Azərbaycan poeziyasının XX əsrdə inkişaf tarixinə nəzər yetirdikdə ziddiyyətli dövrün nəticəsi olaraq, fərqli mənzərə aşkar olunurdu. Əsrin 20-30-cu illərində

proletar ədəbiyyatın basqısı, vulqar sosioloji təsir poeziyada öz əksini tapırdı. Bu illərdə şairlərin novator axtarışları birmənalı qarşılanmadı. MK-nin "Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında" 23 aprel 1932-ci il tarixli qərarı ədəbiyyat sahəsində siyasi faktoru daha da gücləndirdi. 1937-ci il represiya dalğasından Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Əli Razi, Hacı Kərim Sanılı kimi şairlər yaxasını qurtara bilmədilər. Məsud Əlioğlunun Mikayıl Müşfiq haqqında yazdığı oçerki 50-ci illərdə şairin yaradıcılığına yenidən qayıdış idi. Azərbaycan ədəbiyyat tarixinin 1957-ci il nəşrinə daxil olan bu hissə [14] sosioloji tənqidin tələbləri baxımından yazılsa da, Mikayıl Müşfiq poeziyasının əsas xüsusiyyətləri tənqidçi tərəfindən açıla bilmişdir. Yeni bəraət hüququ almış şairin yaradıcılığının yüksəliş mərhələsini sosializm quruluşu ilə bağlaması, sosializm ideyalarının təbliğatçısı kimi təqdimi tənqidçinin ehtiyatlı mövqeyini nümayiş etdirirdi. Bununla belə, Məsud Əlioğlunun bəzi məqamlarda cəsarətli fikirlərinə də təsadüf olunur. "Tar" şeiri haqqında irəli sürülən fikirlər şairin lirikasının dərin məna qatını üzə çıxarmaq baxımından əhəmiyyətlidir. Tarın neylə əlaqələndirilməsi tara qarşı yönələn mənfi baxışlara tutarlı bir cavab idi. Bu iki musiqi alətinin adının çəkilməsi Azərbaycan musiqi mədəniyyətinin qədim tarixə malik olduğunu göstərən faktordur.

Mikayıl Müşfiqin anadan olmasının 60 illiyi münasibətilə Məsud Əlioğlunun yazdığı "Şairin romantikası haqqında" məqaləsi şairin poeziyasının əsas qayəsini üzə çıxarmaq məqsədi daşıyırdı. Esse xarakteri daşıyan bu yazıda tənqidçinin sərbəst ifadə tərzi hiss olunmaqdadır. Klassik Şərq şeirinin və aşıq yaradıcılığının təsirinin vurğulanması şairin "poeziyanın canlı qəhrəmanı" kimi səciyyələnməsinə gətirib çıxarırdı. Şairin lirikasında həyatsevərlik əlamətlərinin önə çəkilməsi, onun "Həyat sevgisi" adlı şeirinin böyük əməllər uğrunda mübarizə aparan şairin yaradıcılıq etirafı kimi qeyd edilməsi Mikayıl Müşfiqin həyatdan nakam getməsinə işarə idi.

Hacı Kərim Sanılı yaradıcılığının 60-cı illərdə sistemli şəkildə araşdırılmasına ehtiyac var idi. Belə bir şəraitdə "El şairi" kimi ədəbiyyatda iz qoyan Hacı Kərim Sanılı yaradıcılığına Məsud Əlioğlu müraciət edirdi. Şairin yaradıcılığının əsas mövzuları "Nə gözəldir Azərbaycan elləri", "İsmət qorumaq, məhəbbət gözəlliklə birləşmək üçün insana verilmişdir", "Cəmiyyətdən qaçanlar" başlıqları altında

verilmiş fəsillərdə aydın nəzərə çarpırdı. “Qolçomaq şairi”, “kiçik burjua şairi”, “keçmişi idealizə edən”, “yeniliyi dərk etməkdən uzaq” kimi sözlərlə şairə qarşı yönəlmiş birtərəfli münasibətin əsassız olduğunu göstərməklə tənqidçi Sanılı yaradıcılığına bəraət hüququ vermiş olur, Məsud Əlioğlu bir şəxsiyyət kimi şairə olan heyranlığını gizlədə bilmirdi. Məqaləyə maraqlı bir vasitə ilə başlayırdı. “Qartalın ölümü” kiçik bir hekayəni xatırladırdı. Bu hekayənin qəhrəmanı qartalın ölümünün NKVD zirzəmisində dünyasını dəyişən şairin ölümünə bənzədilməsi tənqidçinin şairin şəxsiyyətinə verdiyi dəyərdən xəbər verirdi: *“Bu orijinal sənətkarın qüvvətli iradəsi, əyilməz təbiəti və onun canlandırdığı qəhrəmanlarının, təqib etdiyi ideallarının doğruluğu və yüksəkliyi daima mənə cavan qartalın qəhrəmana layiq ölümünü xatırladır”* [55, s.55].

Şairin “Aran köçü”, “Namus davası” və “Trut qaçaqları” poemalarının geniş təhlilini verən tənqidçinin emosional üslubu diqqəti cəlb edir. “Aran köçü” əsərinə görə Sanılı keçmiş kəndi tərifləməkdə ittiham olunurdu. Məsud Əlioğlunun bu barədə fikirləri əsl tənqidçi mövqeyini aşkara çıxarırdı. O, bu cür iradların elmi əsası olmadığını vurğulamaqla, əsas diqqəti əsərdə toxunulan problemlərə yönəldirdi. Dörd məsələnin şərhi üzərində dayanan müəllif Sanılının ədəbiyyatdakı sənətkar mövqeyini göstərməyə çalışırdı:

1. Xalq məişət və adətlərinin təsviri
2. Peyzajların, təbiət lövhələrinin təsviri
3. Əsərin forma xüsusiyyətləri, dili və üslubu
4. Şairin ifadə etdiyi əsas qənaətlər

Köçəriliyin milli koloritin əsas xüsusiyyəti kimi tarixi ənənə faktoru ilə bağlanması, “Kitabi-Dədə Qorqud”, “Koroğlu” dastanlarından gələn xalqın köç adətinin təbiət gözəllikləri ilə vəhdətdə təhlili tənqidçinin əsərin estetik mahiyyətini düzgün dərk etdiyini göstərirdi. Azad fikirli, ürəyi geniş, səxavətli, sədaqətli, səmimi adam olmağın, bir sözlə yaxşı adam olmağın köçəriliklə, təbiətlə əlaqələndirilməsi həmin həyatın müsbət keyfiyyətlərinin şişirdilməsi ilə nəticələnirdi: *“Azərbaycan ərazisində yerləşən kənd, oba və mahalların, bu yerlərin coğrafi şəraitinin və iqliminin özünəməxsus təbii gözəlliklərinin söz fırçası ilə rəsmi o qədər dolğun və*

*realdır ki, sanki əsər bütünlüklə çöl çiçəklərindən bağlanmış bir güldür. Bu çiçəklərin hər birini qoxladıqda, nə vaxtsa, uzaq keçmişdə olmuş xatirələr bir-bir yada düşür"* [55, s.63] cümlələri tənqidçinin emosional yazı üslubuna malik olduğunu göstərirdi. Məsud Əlioğlunun *"Aran köçü"ndə canlı danışıq dilinin bütün müsbət, gözəl keyfiyyətləri də öz ifadəsini tapmışdır"* [55, s.65] fikri sənətkarın yaradıcılığının əsas qayəsini göstərirdi.

"Namus davası" poemasında əxlaq və vətənpərvərlik keyfiyyətlərinin vəhdətdə təhlili, Cavad xanın əxlaqi cəhətdən şəxsiyyətinin zəif cəhətlərinin, *"Cavad xanın xarakterində məhz bu keyfiyyət – qeyrət damarı çatışmır"* [55, s.73] sözlərinin bədii həlli, Nəsib Sultanın xəyanəti iki hökmdar obrazına qarşı qoyulmasında üzə çıxırdı. "Namus" sözünün iki aspektinin aşkar edilməsi əsərin bədii estetik mahiyyətini tam əhatə edirdi. Tənqidçi "qadın namusu" və "vətən namusu" qeydini çəkmək, xalqın qeyrətini, ismətini üstün tutmaq kimi xüsusiyyətlərin hər iki hökmdarda zəif olduğunu sübuta yetirə bilirdi.

Milli korolitin, xəlqiliyin Sanılı yaradıcılığında geniş yer aldığı əsər "Turut qaçaqları" poemasıdır. Buna görə də tənqidçi bu qənaətə gəlirdi ki, *"Turut qaçaqları" poetik yazılışı, realist ifadə gücü və yığcamlığı etibarilə Sanılının ən qüvvətli əsəridir"* [44, s.201]. Tənqidçinin qaçaqçılıq hərəkatının mahiyyətini açmağa çalışması tarixi gerçəkliklə səsləşirdi. Qaçaqçılığın milli-azadlıq hərəkatının davamı kimi qeyd edilməsi mövzunun tarixiliyini ortaya çıxarsa da, Məsud Əlioğlu poemanın bu istiqamətdə yazılmadığı qənaətinə gəlirdi. O, qaçağın daxili keyfiyyətlərini əsas tədqiqat obyektinə çevirirdi. Qaçağın alicənablığı, əqidəsi, həyat fəlsəfəsi, ölümü kimi xüsusiyyətlərin önə çəkilməsi poemanın əsas ideyasını anlamağa kömək edirdi. Məsud Əlioğlu poemada qaçaqçılıq hərəkatının milli azadlıq hərəkatı səviyyəsinə qalxmadığını, kəndli üsyanlarını xatırlatdığını vurğulayır, poemada bədii həqiqət və həyat həqiqətlərinin yaxşı əlaqələndirilməsi qənaətinə gəlirdi.

Qaçaqçılığın üç nəslə (divanə qaçaqlar, eşq divanələri, cəngavər qaçaqlar) bölünməsi tənqidçinin mövzuya yanaşmasının maraqlı cəhəti idi. Sufilik təriqətinin nümayəndələrinin divanə mütəfəkkir, Məcnun, Kərəm, Veys, Yusif kimi obrazların eşq divanələri kimi təqdimi ədəbi tənqid sahəsində yenilik idi. Eyni zamanda hər üç

nəslə aid etdiyi qaçaqların cəmiyyətdən uzaqlaşıb təbiətin qoynuna sığınmasının təsviri şairin toxunduğu əsas fikirləri əhatə edirdi.

Məsud Əlioğlu yaradıcılıqda novatorluq axtarışlarının tərəfdarı kimi çıxış edir, təhlillərini də bu istiqamətdə aparırdı. Hər bir sənətkarın ədəbiyyatda öz yeri və mövqeyi olur. Ənənə nə qədər güclü olsa da, yenilik öz yerini tutmağa çalışır. Lakin hər yenilik də özünə yer tuta bilmir, zaman keçdikcə yaddan çıxır. Sənətkarın bu duyğusunun önə çıxarılmasında tədqiqatçının rolu böyükdür. Məsud Əlioğlu bu vacib məsələnin öhdəsindən gəlməyi bacarırdı. Hacı Kərim Sanılı yaradıcılığına az əhəmiyyət verildiyi bir zamanda şairin ədəbiyyat tarixindəki mövqeyini və təkrarsızlığını düzgün təyin etməyə üstünlük verirdi: *"H.K.Sanılının bir şair-sənətkar olaraq poeziyada ana dilinin xalqın geniş təbəqəsinin asanlıqla anlaya biləcəyi söz, ifadə və istilahların möhkəmləndirilməsinə, zənginləşdirilməsinə çalışması və xalq bədii təfəkkürü ilə poeziyadakı bədii təfəkkür arasında yaranmış sədləri ortadan qaldırmağa çalışması onun tərəfindən novatorluq idi"* [55, s.105].

Məsud Əlioğlu "Osman Sarıvəllinin yaradıcılığında sənətkarlıq xüsusiyyətləri" məqaləsində şairin şeirlərinin sənətkarlıq cəhətdən fərdiliyini üzə çıxarmağı bacarmışdır. Şairin "Tut ağacı", "Gətir, oğlum, gətir", "Bənövşə" əsərlərinin Azərbaycan poeziyasının yenilik keyfiyyəti ilə zənginləşməsində əhəmiyyəti böyükdür. Bununla belə şairin yaradıcılığı az araşdırılmış, ədəbi irsinə lazım olan dəyər verilməmişdir. Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahimlə eyni dövrdə yaradıcılığa başlasa da, onlar qədər ədəbi mühitdə tanınmamışdır. Bunun nəticəsi idi ki, Osman Sarıvəllinin yaradıcılıq üslubunun orjinallığı və fərqli yazı üslubu Məsud Əlioğlunun tədqiqatından kənarda qalmır. Şairin zəngin yaradıcılığı tənqidçinin qələmində öz real əksini tapmaqdadır. Tənqidçi şairin şeirlərinin ideyasına toxunur, sözdən qənaətlə istifadə etməsini, mövzu seçimində olan bacarığını, aydın fikirliliyini şairin istedadı ilə əlaqələndirirdi.

Osman Sarıvəlli 30-cu illərin ziddiyyətli bir vaxtında yaradıcılığa başlamışdır. 1934-cü ildə çap olunan "Dəmir sətirlərim" adlı şeirlər kitabı həmin dövrdə o qədər də diqqəti cəlb etmir. Tənqidçi bu kitaba daxil olan şeirlərdə şairin məna gözəlliyindən çox, forma xüsusiyyətlərinə əhəmiyyət verməsini onun istedadının

lazımı səviyyədə olmaması ilə əlaqələndirirdi. Məsud Əlioğlu şairin yaradıcılığını dörd mövzu (kənd mövzusu, cənub mövzusu, beynəlxalq mövzu, müharibə mövzusu) ətrafında təhlil etsə də, yaradıcılığının əsasında dayanan kənd təsvirinə daha çox yer ayırırdı. Şairin "Tut ağacı", "Gətir, oğlum, gətir", "Bənövşə" şeirinin simvolikasının təsviri onun şeir üslubunun həyatiliyini ifadə etməyə kömək edirdi. Tənqidçinin kəndin uşaq təravətini təcəssüm etdirən "Tut ağacı" şeirinin simvolikasını açması şairin lirikasının dərinliyini üzə çıxarırdı. *"Tut ağacı" itirilən, lakin yaşayan bir məhəbbətin şahididir"* [153, s.136] deməklə saçlarına dən düşən şairin gənclik xatirəsinin izləri kimi mənalandırılırdı. Şairin bənövşə obrazının da rəmzi səviyyəyə qaldırılması Osman Sarıvəlli sənətkarlığının incə qatlarından xəbər verirdi. Xüsusilə, bu istiqamətdə Vaqifin xatırlanması şairin yaradıcılığının xalqa bağlılığının açılmasına xidmət edirdi. Dərdli şairin xalqın oyanışını təmsil edən bənövşəyə müraciəti xalqın kədərinin böyüklüyünü göstərən bir vasitədir.

İstedadlı şair ədəbiyyata öz orijinal və yeni fərdi üslubu ilə gəlir. Zamanla şairin bu yenilik onun imzasına çevrilir. Osman Sarıvəlli deyəndə ilk öncə "Gətir, oğlum, gətir" şeiri yada düşür. Çünki bu şeir onun yaradıcılığının sütunudur: *"O.Sarıvəllinin "Gətir oğlum, gətir" poeması koloritli, milli mündəricəli, ictimai-fəlsəfi məzmunlu və müasir ideyalı əsərdir"* [61, s.74].

Osman Sarıvəlli kənddə yəhər üstündə böyüyən ata ilə şəhərdə beşikdə yatan oğlun bir-birindən fərqli həyat fəlsəfəsini göstərməklə onları bir-birinə qarşı qoymurdu. Məsud Əlioğlu belə qeyd edirdi ki, şair səliqəli şəhər həyatından çıxış edərək kəndin ağır mənzərəsini qabartmaq istəmişdir. Əsərin Azərbaycan ədəbiyyatı üçün əhəmiyyəti Məsud Əlioğlunun bu sözləri ilə açılır: *"Gətir, oğlum, gətir" şeiri sənətkarlıq cəhətdən Osman Sarıvəllinin, demək olar ki, ən qüvvətli, bitkin, ictimai məna etibarilə qiymətli əsərlərindən biridir. Bu şeir poeziyamızın heç zaman köhnəlməyən, həmişə parlayan saf bir incisidir"* [153, s.140].

Osman Sarıvəllinin cənub mövzusuna daxil olan "Dəvə karvanı", "Panamalı dilənçi", "Körpə quzu", "Birinci dərs", "Təbriz gözəli", "Son qar", "Məhbusların söhbəti" şeirlərində bir-birinə bənzəməyən ifadə və forma axtarışlarının olmasının qeyd edilməsi reallığı əks etdirirdi. Süjetli lirikanın nümunəsi olan "Ad günü"

şeirində fəlsəfi mənanın üzə çıxarılmasında, “Təqvimin son günü” şeirində sadəliyin arxasında dayanan mürəkkəb və dərin məna qatının göstərilməsində məqsəd şairin bütün yaradıcılığı üçün səciyyəvi olan düşündürücülüyü qabartmaqdır.

“Xalq üçün yaşayıb-yaratmalı” ifadəsi Azərbaycan ədəbiyyatında böyük izlər buraxan, novator şair kimi tanınan Rəsul Rzanın anadan olmasının 70-ci ildönümü ilə əlaqədar olaraq SSRİ Ali Soveti Rəyasət Heyətinin şairə Sosialist Əməyi Qəhrəmanı fəxri adı verməsi münasibətilə Ümummilli Lider Heydər Əliyevin çıxışının başlığıdır [59]. Bu ad Rəsul Rza yaradıcılığının əsas qayəsini ortaya çıxarır. Şairi bir sənətkar kimi yüksəkliklərə qaldıran başlıca səbəb də xalq üçün döyünən ürəyə sahib olmasındadır. Bu cəhətdən Məsud Əlioğlunun Qulu Xəlilovla birlikdə 1960-cı ildə yazdığı “Rəsul Rza” monoqrafiyasının elmi əhəmiyyəti böyükdür. Şairin anadan olmasının 50-ci ildönümü münasibətilə Məsud Əlioğlunun “Azərbaycan müəllimi” qəzetində “Düşündürən poeziya” başlığı altında məqaləsi çap olunmuşdur. Belə ki, həmin il ədib “Xalq şairi” adı ilə təltif olunmuşdur.

Monoqrafiyanın əvvəlində şairin həyat yoluna qısa nəzər salınır, onun bir sənətkar kimi böyüməsinə kömək edən Göyçay mühiti və savadlı ailə ortamı yaddan çıxmırdı. Monoqrafiyada Rəsul Rzanın müxtəlif illərdə yazdığı şeirlər, poemalar təhlil edilir, şairin yaradıcılığı Sovet ideologiyasının tələbləri baxımından tədqiq olunur, onun poetik irsinə sinfilik nöqteyi-nəzərindən yanaşılırdı. Rəsul Rza “Kommunist şair”, “Sovet şairi” kimi qələmə alınırdı.

Məsud Əlioğlu şairin yaradıcılığına müxtəlif cəhətdən yanaşır, janr və mövzu baxımından təhlil edirdi. Bu cəhətləri nəzərə alaraq, Rəsul Rza yaradıcılığının əsas mövzularını bu şəkildə müəyyənləşdirə bilərik:

1. Xalq həyatını əks etdirən poetik nümunələr
2. Beynəlxalq mövzuda yazılmış əsərlər
3. Aşiqanə lirik şeirlər
4. Təbiət təsvirinin yer aldığı əsərlər

Yaradıcılığının ilk illərində şair “Bolşevik yazı”, “Qanadlar”, “Lenin”, “Mayakovskiyə”, “İki lövhə” şeirlərini yazır. “Bolşevik yazı” şeirini məfkurəvi istiqamətinə və bədii ifadə qüvvəsinə görə Rəsul Rza yaradıcılığının manifesti kimi

qeyd etməkdə tənqidçi haqlıdır: *“Yeniliyi duyan və ehtiraslı bir ürəklə qəbul edib alqışlayan qabaqcıl fikirli bir şair olaraq Rəsul Rza bildi ki, onun poetik talantının və yaradıcılıq ideallarının mənbəyi “Bolşevik yazı”dan başlayır”* [137, s.3].

Məsud Əlioğlu şairin şeirinin mahiyyətində müasirlik, aktuallıq, canlılıq, döyüşkənlik kimi keyfiyyətlər tapır, şairin poetik irsinin yeniliyi və orijinallığı üzərində dayanır, onun vətənpərvərlik poeziyasının ruhunda olan xalqın tarixi keçmişi ilə bağlı mərdlik əlamətlərinin, xalqın müasir həyatının, milli qürur hissinin tərənnümünü ön plana çəkirdi. Tənqidçi şairin şeirlərində bədii təsvir və ifadə vasitələrinin işlənmə məqamlarına xüsusi diqqət ayırır, alleqoriya və rəmzin sənətkarın yaradıcılığında özünəməxsus yer tutduğunu vurğulayır, şeirlərində özünü göstərən satirik və yumoristik xüsusiyyətlərin tərbiyəvi əhəmiyyətini qeyd etməyi unutmurdu.

Rəsul Rzanın beynəlxalq mövzuda yazdığı İspaniya, Almaniya, Çin, Həbəşistan həyatını əks etdirən əsərlərində yeni bir keyfiyyət üzə çıxır. Bu mərhələdə “sovet şairi” “tribun şairi” kimi özünü göstərir: *“Mövzuya uyğun olaraq şairin üslubu, ifadə vasitələri də dəyişir. Axıcı təhkiyəni kəskin publisistika, təsvir üsulunu inqilabi tribunluq əvəz edir”* [156, s.30].

Yaradıcılığının təxminən on ilini bu mövzuya həsr edən şair azadlıq vurğunu kimi Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur. Məsud Əlioğlu onun bu xüsusiyyətini üzə çıxarmağı bacarmış, şairin “Almaniya”, “Hilal”, “Çapey”, “Haray dostları”, “Si-Ay”, “Madrid”, “Həbəşistan”, “İnqalesyo” əsərlərində mövzunun işlənmə xüsusiyyətlərinə öz münasibətini bildirmişdir. Tənqidçi “Almaniya” poemasının təhlili zamanı müstəmləkə zülmünə məruz qalmış xalqın həyatında baş verən ağır vəziyyətin təsvirini qabardırsa, “Çapey”, “Haray dostları” şeirlərində xalqların azadlıq mübarizəsinin tərənnümünə diqqət yetirirdi. Rəsul Rzanın yaradıcılığında elə əsərlər vardır ki, orada həm qəhrəman xalqın ağır vəziyyətini, həm də öz azadlıqları uğrunda apardığı mübarizəni görmək mümkündür. Məsud Əlioğlu şairin “Madrid”, “Həbəşistan”, “İnqalesyo” əsərlərində bu reallığın təsvirinə xüsusi yer ayırırdı.

Rəsul Rzanın 1941-ci ildə "Hilal" poeması çap olunur. Təbrizdə müstəmləkə zülmü əleyhinə yazılmış bu əsər haqqında elmi ictimaiyyətin tutarlı bir məlumat verməməsi tənqidçi üçün təəccüblü görsənir. Çünki sənətkarlıq xüsusiyyətlərinə görə poema şairin yaradıcılığının qiymətli örnəklərindən biridir. Bu illərdə Rəsul Rza Təbrizə səfər etmiş, "Vətən yolunda" qəzetində fəaliyyət göstərmiş, "Azərbaycan" jurnalının baş redaktoru olmuşdur. "Hilal" poeması da Şimalda Təbrizə həsr olunmuş ilk poema idi. Rəsul Rzanın bu tarixi xidməti danılmazdır. Bununla yanaşı, əsərin qəhrəmanının Azərbaycanın birliyi ideyasını tələb etməsi Rəsul Rza yaradıcılığının xəlqi mahiyyətini üzə çıxarırdı. Düzdür, Cənubi Azərbaycanda "Vətən yolunda" qəzetinin çap olunması Sovet təbliğatının əsas hədəfinin baş tutması üçün vacib idi. Belə ki, xalqa milli birlik ideyasını təbliğ etməklə, Cənubda yaşayan azəriləri də Sovet ittifaqına birləşdirmək əsas məqsəd idi.

Məsud Əlioğlu Rəsul Rzanın poema yaradıcılığına toxunur, "Lenin", Füzuli", "Qayıtmadı", "Təranənin oyuncaqları", "Səkil və Çəkil", "Heyvanların yuxusu" poemalarının olduğunu qeyd edirdi. Müəllif Rəsul Rzanın Mikayıl Müşfiq haqqında "Qayıtmadı" adlı poema yazdığını vurğulayırdı. Şairin "Qızılgül olmayaydı" poemasını Mikayıl Müşfiqə həsr etdiyi bizə məlumdur. Amma "Qayıtmadı" adlı poemanın olması ilk dəfə bu monoqrafiyada işıqlandırılır. Əsərdən verilən parçalardan aydın olur ki, "Qayıtmadı" poeması Mikayıl Müşfiqə həsr olunan ikinci bir əsər deyil, "Qızılgül olmayaydı" poemasının özüdür.

Tənqidçi şairin "Lenin" poemasını tərcümeyi-hal səpkili əsər adlandırmaqda yanılmırdı. Poemanın şairin poetik imkanlarını əks etdirən əsər kimi dəyərləndirilməsi tam reallığa uyğundur. Poemanı *"təkcə sənətkarlıq cəhətdən təhlil etmək üçün ayrıca bir əsər yazmaq lazımdır"* [156, s.85] deyən Məsud Əlioğlu əsərin hər bir fəsli haqqında qısa məlumat verir, əsəri xalq eposuna bənzədirdi. Poemanın təhlilində tənqidçinin düzgün yanaşma tərzi ortaya çıxırdı: *"Lenin" poeması siyasi dəyər və bədii keyfiyyəti etibarilə ədəbiyyatımızda böyük və müvəffəqiyyətli bir hadisədir"* [157, s.160].

Monoqrafiyadan sərbəst şeir haqqında qiymətli faktlar əldə edirik. Əsərin yazıldığı illərdə sərbəst şeirin əsas estetik prinsipləri tədqiq olunmamışdı. Bu vəznə

münasibət birmənalı deyildi, mahiyyəti tam şəkildə izah olunmurdu. Sərbəst şeir dedikdə, məzmun ön plana çəkilir, vəzn, ölçü, qafiyə, ritm kimi elementlər inkar edilirdi. Belə bir şəraitdə sərbəst şeirin tələblərinin geniş şəkildə izah edilməsi monoqrafiyanın əhəmiyyətini üzə çıxarırdı. Məsud Əlioğlu şərbəst şeirin nəzəri xüsusiyyətlərinə də toxunur, Azərbaycan poeziyasında vəznin inkişaf dinamikasına nəzər salırdı. Şeirdə məzmun və formanın vəhdəti məsələsinə aydınlıq gətirir, sərbəst şeirdə vəzn, ölçü, qafiyə, ritm kimi tələblərin labüdlüyü məsələsini elmi cəhətdən əsaslandırır, sərbəstlik dedikdə, şeirin bu tələblərdən məhrum edilməsi kimi başa düşülməsi fikrini inkar edirdi. Rəsul Rzanın "Ata", "Yersiz məzəmmət", "Ərk qalası" şeirləri əsasında sərbəst şeirin mahiyyəti düzgün açılırdı. Onun 30-40-cı illərdə yazdığı şeirlərində formaya daha çox üstünlük verdiyi fikri irəli sürülür, 60-cı illərdə isə ədibin düzgün istiqamət seçərək forma və məzmunu bir-biri ilə tamamlayan şeirlər yazdığı, "Ərk qalası" şeirinin sərbəst şeirin tələblərinə tam cavab verdiyi söylənilirdi.

Azərbaycan ədəbiyyatında sərbəst şeirin XX əsr hadisəsi kimi qeyd edilməsi fikri ilə razılaşılmır, bu vəznin tarixi daha qədimlərə aparıb çıxarılır, milli zəminə bağlanılır, "Kitabi-Dədə Qorqud" dastanındakı şeir parçalarını bu formanın ilk nümunələri hesab edilirdi: *"Heç şübhəsiz, yeni məzmunlu şeirə müraciət 20-ci illərdə başlanan yeni hərəkat V.Mayakovski, N.Hikmət, S.Vurğun, R.Rza ənənələri ilə bağlansa da, sərbəst şeirin tarixi ən azı Dədə Qorqud dastanlarından götürülməlidir. Düzdür, tədqiqatçılar həmin abidələrdə bu günkü mənanı ifadə edən sərbəst şeir məfhumunu bir qədər çəkinə-çəkinə işlətsələr də, bunu danmaq mümkün deyildir ki, istər Dədə Qorqud şeirləri, istərsə də bu günkü sərbəst şeirin ritm – melodik əsasları əslində eyni sistemə, ən əvvəli isə ana dilimizin xüsusiyyətlərinə əsaslanır"* [60, s.207].

Tənqidçi Azərbaycan poeziyasında sənətkarlıq məsələlərinə müasirlik mövqeyindən yanaşmış, gənc şairlərin yaradıcılığını diqqət mərkəzində saxlamış, onların yaradıcılıq axtarışlarına qayğı ilə yanaşmışdır. "Gənc şairlərin əsərlərində sənətkarlıq məsələlərinə dair" məqaləsində ədəbiyyata yeni gələn bu şairləri iki mərkəzdə təhlil edirdi. Əli Kərimli, Bəxtiyar Vahabzadə, Hüseyn Hüseynzadə kimi

gəncləri fəal şairlər, Qabil İmamverdiyev, Adil Babayev, Nəbi Babayev, İslam Səfərli kimi şairləri ləng şairlər kimi dəyərləndirirdi. Bununla hər birinin müstəqil üsluba malik olduğunu üzə çıxarmağa çalışırdı. Əli Kərimlin "Zoya kimi", "İki sevgi", "Poçtalyon", "Kür, sənə bənzəyən nəğməm olaydı" şeirlərində standartlardan uzaq olub, düzgün yol seçməsini, həyat hadisələrinin inandırıcı tərənnüm edilməsini, sünilikdən uzaq olmasını xüsusi qeyd edirdi. Məsud Əlioğlu Bəxtiyar Vahabzadənin yaradıcılığını iki mərhələyə bölür. Birinci mərhələni 1948-1951-ci illəri "durğunluq dövrü", ikinci mərhələni 1952-1954-cü illəri "yenilik dövrü" kimi səciyyələndirirdi. Tənqidçi ədəbiyyata yeni qədəmlərini atan şairlərin yolunu belə qiymətləndirirdi: *"Sevinc hissi ilə demək lazımdır ki, bizim gənc şairlərin əksəriyyəti ədəbiyyata keçilməmiş yollarla gəlib çıxmışdır"* [141, s.3].

"Şəhriyarın düşüncələri" məqaləsində tənqidçi şairin "Heydərbabaya salam" şeirini şairin yaradıcılıq etirafı, həyat axtarışlarının yekunu kimi təqdim edirdi. Əsərin ideya-məzmun, sənətkarlıq xüsusiyyətlərini təhlil edən tənqidçi əsərin doğma ana dilində yazıldığı üçün bu qədər yayıldığını etiraf edir və bununla da Şəhriyar dühasinin xəlqi mahiyyətini üzə çıxarmış olurdu. *"Azərbaycanda ədəbiyyat senzoru, fikir yasaqları dövründə şifahi söhbətlər şəklində izhar olunmuş gizli bir ədəbiyyat mərhələsi də mövcud olub. Məsələn, mən bilirəm ki, Şəhriyarın adını Azərbaycanda fikir dövriyyəsinə qatanların ən fədakarı Məsud Əlioğludur. İndi atamdan mənə qalan əmanətlər içində "Heydərbabaya salam"ın Məsud Əlioğlunun oxusundan keçib göy qələmlə redaktə olunmuş nadir nüsxəsi də var..."* [122]. Şəhriyarın təbiətində olan iki başlıca xüsusiyyətin – millilik və bəşəriliyin vəhdət halında araşdırılması şairin yaradıcılığına verilən qiymətdən irəli gəlirdi. Əsər haqqında şairin yekun qənaəti belə idi ki, "Heydərbabaya salam" yeganə sənət incisidir ki, Şəhriyar bu əsərdə özünü tapmışdır.

XX əsrdə klassik irsin layiqli davamçısı Əliağa Vahidin anadan olmasının 75-ci illiyi münasibətilə tənqidçi "Vahidin könül dünyası" məqaləsini yazmışdır. Əliağa Vahid qəzəl janrına yenidən vətəndaşlıq hüququ verdiyi kimi, Məsud Əlioğlu da Əliağa Vahid yaradıcılığının timsalında qəzəl janrını əsrlərin sınağından keçmiş ecazkar möcüzə kimi təqdim edir: *"Qəzəl yazmaq bacarığı xalq təfəkkürünün*

*itiliyinə, vüsətli fikirləri söz, misra və beytlə ifadəyə gətirmək qabiliyyətinə dəlalət edir. Digər tərəfdən həmin müdrik təfəkküryanar bir qəlbin hərarəti ilə - səmimiyyət və saflıq dolu xalq mənəviyyatınınsönməz odu ilə qızınır"* [40, s.161].

Füzuli ənənələrinin davamçısı kimi ədəbiyyatda tanınan şairin poeziyasının "ayrıca məktəb" kimi qeyd edilməsinin, "bu məktəbin yaradıcısı da, davamçısı da şairin özüdür" sözünün arxasında Vahid şeirinin açılmayan sirləri dayanırdı. Vahidin qəzəllərinin yeniliyi eşq və gözəllik məfhumunun işlənmə keyfiyyətində aşkarlanırdı. Tənqidçi Vahidin qəzəllərində klassik ədəbiyyatdan gələn "aşiq-məşuq", "pərvanə-şam", "gül-bülbül" ibarələrinin real, ictimai müstəvisinə daha çox önəm verir, düşündürücü, idraki əhəmiyyəti diqqətə çatdırırdı.

Hüseyn Arifin Məsud Əlioğlu haqqında yazdığı misralar tənqidçi qələminin şair irsinə verdiyi dəyəri ortaya çıxarır:

*Məsud istiqanlı, alovlu, kövrək,*
*Bizimlə oturdu, bizimlə durdu.*
*Şeirimi oxuyub tərifləyəntək,*
*Deyərdim: - Həqiqi tənqidçidir bu!* [11, c.2, s.232].

Məsud Əlioğlunun "Adil Babayevin şeirləri", "Əhməd Cəmilin şeirləri", Balaş Azəroğlu yaradıcılığına həsr olunmuş "Şairin istəkləri", Əli Tudənin şeirləri haqqında yazdığı "Vətənpərvər şair", "Vahidin könül dünyası", "S.Rüstəmin şeirləri haqqında", "Zeynal Xəlilin yeni şeirləri", H.Billurinin yaradıcılığı haqqında "Şair, həqiqət və gözəllik" məqalələri Azərbaycan  poeziyasının inkişaf yoluna qısa bir səyahətdir. Bu məqalələrdə qoyulan problemlər bir-birini təkrar etmirdi.

XX əsrin 40-60-cı illərində nəsrin problemləri ədəbi tənqidin diqqət mərkəzində olmuşdur. Məmməd Arifin, Məmməd Cəfər Cəfərovun, Cəfər Cəfərovun, Mehdi Hüseynin, Mirzə İbrahimov bu problemlərlə bağlı silsilə məqələləri çap olunmuşdur. Bu siyahıya Məsud Əlioğlunun da adını daxil edə bilərik: *"Bu dövrkü Azərbaycan ədəbi tənqidində nəsrimizlə əlaqədar mütəmadi çıxış edən ən məhsuldar tənqidçilər Məsud Əlioğlu (Vəliyev) və Qulu Xəlilov idi"* [33, s.14]. Onun müxtəlif illərdə yazdığı "Nəsrimiz ətrafında mübahisələr", ""Mehman" povesti haqqında", "Povestlərimizdə sənətkarlığın bəzi məsələləri haqqında", "Müasir həyat və

hekayələrimiz", "Seyid Hüseynin hekayələri", "Bədii nəsrimizdə konflikt, xarakter, kolorit məsələlərinə dair" elmi-nəzəri məqalələri bədii nəsrin ümumi mənzərəsi haqqında məlumat verirdi.

"Azərbaycan Sovet nəsri" kimi adlandırdığımız 1920-1990-cı illər prozası müxtəlif mərhələlərə bölünürdü. Məsud Əlioğlu "Azəri sovet nəsrinin inkişaf yolları" mövzusunda filologiya üzrə elmlər doktorluğu işində 1920-1940-cı illərdə yaranan bədii nəsr nümunələrini dəyərləndirir, 1920-1925-ci illəri nəsrin təşəkkül mərhələsi, 1930-1940-cı illəri isə formalaşma və inkişaf mərhələsi kimi qeyd edirdi. Onun tədqiqatının əsasını nəsrdə özünü göstərən problemlər, sənətkarlıq və üslub xüsusiyyətləri təşkil edirdi. Məsud Əlioğlu sovet nəsrini klassik nəsrin ənənələri, nəsrin məzmun və forma axtarışları, sosialist realizminin əsaslandırılması, ailə-əxlaq və qadın azadlığı problemi və tarixi roman janrı məsələsi ətrafında təhlil edirdi.

Məsud Əlioğlu Partiyanın 1932-ci il tarixli "Ədəbi-bədii təşkilatların yenidən qurulması" haqqında qərarının, 1934-cü ildə keçirilən I Ümumuittifaq sovet yazıçılarının qurultayının, 1939-cu ildə keçirilən Azərbaycan sovet prozasının I konfransının nəsrin inkişafı baxımından əhəmiyyətini yüksək qiymətləndirirdi. Tənqidçi həmin illərdə çap olunan elmi-tədqiqat əsərlərinin əhəmiyyətini, tənqidçilərin fəaliyyətini qeyd etməyi unutmur, Hüseyn Mehdinin "Ədəbi döyüşlər", Ə.Hidayətin "Nəsrimiz yüksəliş yollarında" monoqrafılarına istinad edərək öz fikirlərini əsaslandırırdı.

Məsud Əlioğlu 20-30-cu illərin tənqidində nasirlərin üç qrupda birləşdirilməsi fikri ilə qismən razılaşırdı. Tənqidçinin fikrincə, bu cür bölgülər zamanı xronologiya, yaradıcılıq metodu və üslub fərqləri nəzərə alınmalıdır. Buna görə də müəllif bu bölgüdə dolaşıqlıq görür, tənqidçilərin hansı prinsiplərə əsaslandığını müəyyənləşdirə bilmirdi. "Köhnə yazıçılar" qrupuna daxil edilən Y.V.Çəmənzəminli, S.Hüseyn, Q.Əfəndiyev kimi nasirlərin fəaliyyətinin məhdudlaşdırılması ilə razılaşmır, həmin yazıçıların sosializm quruculuğu dövründə də fəal yaradıcılıqla məşğul olduğunu vurğulayırdı. "Kommunist yazıçılar" qrupuna aid edilən M.S.Ordubadi, T.Ş.Simurq, H.B.Nəzərli, B.A.Talıblı kimi nasirlərin yaradıcılığının əsas hissəsinin inqilabdan əvvələ düşdüyünü vurğulayırdı. Üçüncü qrupda "yeni proletar nəsrinin ilk yazıçıları"

kimi qeyd edilən Ə.Əbülhəsən, S.Rəhman, Mir Cəlal, Ə.Vəliyev, M.Hüseyn və Ə.Məmmədxanlının adını çəkirdi. Bəzi məqamlarda bu qruplaşma ilə razılaşmasa da, müəllif öz tədqiqatını bu bölgü ətrafında aparırdı.

Tənqidçi Azərbaycan sovet nəsri ətrafında olan mübahisələri bu şəkildə müəyyənləşdirirdi:

1. Roman janrının yaranması və müsbət qəhrəman problemi
2. Satira, yumor və onun müasir nəsrdəki mövqeyi
3. Tarixi roman janrı və onun inkişaf yolları
4. Müasir nəsr əsərlərində üslub fərqləri, lirik-romantik nəsr, realizm, naturalizm, psixologizm, sxematizm əleyhinə mübarizə [129, s.44-45].

1930-cu illərdən sonra roman janrına müraciət edilməsi dövrün tələbləri ilə bağlı idi. Çünki kiçik janrlarda sinfi problemləri qələmə almaq çətin idi. Roman janrı isə dövrün mövzularını işıqlandırmaq baxımından geniş imkanlar açırdı. Tədqiqatçının da romanın yaranma səbəbini zamanla, dövrlə əlaqələndirməsi doğru qənaət idi: *"Hekayənəvislik və qismən də povest klassik-realist nəsrdə əsas yeri tutduğu halda, ictimai roman növü müasir nəsrin mühüm yaradıcılıq nailiyyəti idi. Cəmiyyətin həyatında yeni bir dövrün – istismarçı siniflərin yıxılması və proletar inqilabının qalib gəlməsi dövrünün başlanması ictimai həyatda, məişətdə və şüurlarda o qədər dəyişiklik yaratmışdı ki, bunların hekayə, novella və povest kimi nisbətən kiçik formalarda bütün mürəkkəbliyi, genişliyi və dərinliyi ilə əks etdirmək mümkün deyildi. Yeni dövrün yaranması ilə bir sırada xalqın həyatında, mənəvi aləmində müşahidə edilən çox mühüm, ciddi həqiqətləri canlandırmaq üçün roman kimi əhatəli növə daha artıq ehtiyac hiss edilirdi"* [49, s.174-175].

Məsud Əlioğlu bu dövrdə yaranan roman janrını mövzusuna görə 3 qrupda – sosialist inqilabı uğrunda gedən çarpışmaları təsvir edən romanlar, sinfi mübarizə dövrünün kəskinliyini əks etdirən romanlar, mühüm inqilabi-siyasi hadisələrdən alınmış və tarixi mövzuda yazılmış romanlar – sistemləşdirirdi. Birinci qrupa "Dirilən adam", "Dünya qopur", "Daşqın", "Şamo", "Bir gəncin manifesti", ikinci qrupa "Yoxuşlar", "Tərlan", "Qəhrəman", üçüncü qrupa isə "Dumanlı Təbriz", "Qızlar

bulağı", "Qan içində" romanlarını daxil edirdi. Tənqidçinin bu bölgüsü 30-cu illərdə yaranmağa başlayan romanların tipologiyası haqqında sistemli məlumat verirdi.

Sovet nəsrinin mübahisələrə səbəb olan əsas problemlərindən biri də "müsbət qəhrəman" məsələsidir. Nəsr ətrafında gedən müzakirələrdə "müsbət qəhrəman" probleminin izahında ziddiyyətli fikirlərə təsadüf olunur. Dövrün ədəbi tənqidi bu fikirdə idi ki, mənfi surətlər müsbət surətlərə nisbətən daha canlı verilmişdir. Məsud Əlioğlu bu fikirlərdə doğruluq payı görsə də, razılaşmadığı məqamlar da mövcud idi. Tənqidçi müsbət qəhrəmanın sxematik, quru təsvir edilməsinin səbəblərini axtarır, bunu obrazları yetişdirən şəraitin fonunda araşdırırdı. O, haqlı olaraq, müsbət qəhrəman kimi verilən tipləri ədəbiyyatımız üçün yeni hadisə hesab edirdi. Doğrudan da, sovet ədəbiyyatının müsbət bədii tip kimi qələmə alınan obrazları ədəbi tənqid üçün yeni idi. Yeninin köhnəyə qarşı mübarizəsi öz hüquqlarını itirən köhnənin (Sovet ədəbiyyatşünaslığında köhnə quruluşu təmsil edən mənfi tip – N.M.) fəallığına səbəb olurdu. Buna görə də mənfi tip kimi verilən əvvəlki dövrün insanları tez qəbul olunur, müsbət tip kimi verilən Sovet quruluşunun qəhrəmanları isə özünə yer tutmağa çalışırdı. Məsud Əlioğlunun bu təhlillərində çatışmayan əsas xüsusiyyət o idi ki, tənqidçi dövrün ideal müsbət qəhrəman yaratmaq cəhdini unudurdu. Müsbət surət nöqsansız olmalı, hamıdan seçilməlidir. Bu tələbin özü qəhrəmanın cansız yaradılmasına gətirib çıxarırdı.

Məsud Əlioğlunun "Mehman" povesti haqqında yazdığı məqalə ədəbi tənqiddə müsbət qəhrəman məsələsinin müzakirəsində yeni konsepsiya yaratdı: "İki Mehman" konsepsiyası. Bu konsepsiya uzun müddət ədəbi tənqidin diqqət mərkəzində olmuşdur. Onu da qeyd etmək lazımdır ki, əsərin yazılmasından bir il sonra (1945-ci il) Məmməd Arif "Mehman" povestində müsbət qəhrəman məsələsinə aydınlıq gətirmişdir. Məsud Əlioğlunun tədqiqatının yeniliyi onda idi ki, əsərin müsbət obrazına iki prizmadan baxırdı: *"Beləliklə, qarşımızda iki Mehman dayanmışdır. Birisi gözəl arzularla yaşayan, şirin xatirələri ilə oxucunu təsirləndirən tələbə Mehman, digəri isə yalnız qanun məcəlləsinə çevrilib rayona gələn və sırf təcrübi bir işlə məşğul olan soyuq bir hüquq işçisi"* [145, s.160]. Tənqidçinin bu fikirlərində Elçin doğruluq payı görür, Məsud Əlioğlunun tələbə Mehmanın kədəri, sevinci,

arzusu olan bir insan kimi təhlilini haqlı sayır, prokuror Mehmanın təhlili haqqında belə yazırdı: *“ikinci Mehman (prokuror Mehman – N.M.) bədii surətlikdən çıxıb müqəvva “müsbət qəhrəmana” çevrilir. Başqa sözlə desək o, artıq “konkret, canlı bir insan deyil, “mücərrəd müsbət insan keyfiyyətləri haqqında doqmatik məntiqi mülahizələrin ifadəsidir” və güclü bədii surət səviyyəsinə yüksələ bilmir, çünki bu yerdə yazıçı fantaziyası qeyri-təbiidir, canlı həyatdan ayrılıb, təfəkkür çılpaqlaşıb, sxematizmə yuvarlanıb”* [33, s.260].

Məsud Əlioğlunun prokuror Mehmana yanaşması dövrün ədəbi tənqidinin müsbət qəhrəman məsələsinə baxışını açıq-aydın göstərirdi. Ədib birinci Mehmanı (Tələbə Mehman nəzərdə tutulur – N.M.) daha canlı görsə də, tədqiqatında tələbə Mehmanın təhlilinə təsadüf olunmur. Bunun səbəbini onun öz sözləri ilə izah edə bilərik: *“Yəni yazıçını məşğul edən əsasən tələbə Mehman deyil, prokuror Mehmandır”* [145, s.160]. Buna görə də öz təhlillərini bu istiqamətdə aparır, hüquq işçisi Mehmanın Züleyxa ilə, anası Xatunla, Şəhla Mamayeva ilə münasibətlərinə aydınlıq gətirirdi.

Tənqidçinin məqalədə bir-birinə zidd olan fikirlərinə də rast gəlirik. Belə ki, o, bir tərəfdən ikinci Mehmanın həyat yoldaşı Züleyxa ilə, anası Xatunla münasibətlərində soyuqluq görürdü. Digər tərəfdən isə onun *“Mehman müsbət, yeni adamların zəif, xain və hiyləgər düşmən qüvvələrin isə qızğın fəaliyyət göstərdiyi bir şəraitdə çalışır. Məhz buna görə də Mehman dərin düşüncələrə qapılır, bəzən ruhdan düşür, çox zaman da əsəbiləşir, kabinetdə yatır və sairə...”* [145, s.167] fikirləri sübut edir ki, ikinci Mehman da həyati, canlı bir obrazdır, onun hissləri vardır. Həmçinin, müəllif belə bir iddia irəli sürür ki, Züleyxadan ayrılan, yaşadıqlarına görə iztirab keçirən vicdanı təmiz prokuror yalnız əsərin sonunda təbii obraz səviyyəsinə qalxır. Bu fikrin özü də bir daha təsdiq edir ki, hər iki Mehman qüsurları ilə birlikdə realist cizgilərə malik bir obrazdır: *“prokuror Mehman”ın (“İkinci Mehman”ın) məzmunu məhz “canlı həyatdan” gələn boyalarla qüvvətlidir. Bunu biz Mehmanın hər dəfə “mənfi”lərin simasında cəmlənmiş sosial gerçəkliklərlə üzləşməsində duyuruq, görürük”* [57, s.177].

Tehran Əlişanoğlunun bu fikirləri göstərir ki, istər tələbə Mehman, istərsə də prokuror Mehman vahid Mehman obrazını ümumiləşdirən cizgilərdir. O, “İki Mehman” konsepsiyasını bu illərin nəsri üçün səciyyəvi olan plakat üslubu ilə bağlayır, sxematizmi müsbət surətin mövcudluq üsulu kimi qiymətləndirirdi: *“Belə ki, oxucunun yaddaşına çökən nə “birinci”, nə də “ikinci” Mehmandır, məhz S.Rəhimovun irəli sürdüyü problemin həlli kimi örnək verdiyi Mehmandır”* [57, s.178].

Bədii nəsr nümunələrində tələb olunan “Müsbət qəhrəman necə olmalıdır?” sualının cavabı belə idi: öz şəxsi arzularından, həyatından imtina edib, kollektivin rifahı, taleyi ilə maraqlanmalıdır. Qəhrəmanın subyektiv hissləri, duyğuları, xəyalları, bir sözlə, məhəbbət xətti arxa plana keçməlidir.

Məsud Əlioğlunun satirik hekayəni XX əsr hadisəsi kimi qeyd etməsi elmi həqiqətə uyğundur. Cəlil Məmmədquluzadə və Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılıqlarında rast gəlinən satirik nəsr 1930-cu illərdə də geniş yayılmışdır. Lakin sosializm realizminin bədii cərəyan kimi formalaşması satirik hekayə janrının inkişafına mane olurdu. Tənqidçi satira və yumorun nəsrdə mövqeyini aydınlaşdırmaq məqsədilə Sabit Rəhmanın yaradıcılığına müraciət edirdi. Bu dövrdə nasirin satirik hekayəyə müraciətini yüksək qiymətləndirir, ədəbiyyat üçün lazımlı bir janr olduğunu təsdiq etməsini onun uğuru hesab edirdi. O, H.Mehdinin S.Rəhmanın yaradıcılığında yumordan satiraya doğru inkişaf yolu keçdiyi fikri ilə, Ə.Hidayətin yumor və satiranın nasirin yaradıcılığının təbiətindən doğması mülahizəsi ilə razılaşırdı. Lakin onların satirik hekayənin qəhrəmanı kimi mənfi obrazı götürməsi fikrində mübahisəli məsələlər görürdü. İlk öncə tənqidçi satirada müsbət ideya da axtarır, bunsuz mənfiliyə qarşı mübarizə metodunu tapa bilmirdi. O, S.Rəhmanın hekayələrində müsbətin mənfiliyin içərisində itdiyini, onun mənfi obrazlarını sinfilik nöqteyi-nəzərindən yaratdığından müsbət surətlərin sxematik çıxdığını vurğulayırdı.

Bizim fikrimizcə, Məsud Əlioğlunun nəsrdə satira və yumorun mövqeyini, sərhəddini müəyyənləşdirmək baxımından Sabit Rəhman yaradıcılığına müraciət etməsi doğru yanaşma idi, amma bu problemin həllinə tam şəkildə nail ola bilmirdi. Belə ki, o, bu məsələyə az yer ayırır, yalnız dövrün tədqiqatçılarının fikirlərinə istinad

edərək məlumat verməklə kifayətlənirdi. Halbuki, S.Rəhman gülüşü 30-cu illərdə Mirzə Cəlil və Sabir ənənələrinin davamı idi. Bu hekayələrin mahiyyətində satirik tənqid güclü idi.

Tədqiqatçı Məmməd Səid Ordubadinin və Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığında tarixi həqiqətin bədii həqiqətə necə uyğunlaşdırıldığı məsələsini araşdırır, hər bir janrın xüsusiyyətlərini nəzərə alaraq düzgün qənaətə gəlirdi. Müəllif Azərbaycan ədəbiyyatında tarixi mövzuda yazılmış bədii nəsr nümunələrinin az olmasının səbəbini iki amillə izah edirdi: Birinci amil kimi bədii nəsrin Azərbaycan ədəbiyyatında çox gec yer tutmasında, ikinci amil kimi isə xalqın öz tarixi keçmişi haqqında aydın təsəvvürə malik olmaması və bu imkanın məhdudlaşdırılmasında görürdü. Buna baxmayaraq, tənqidçi tarixi mövzuda yazılmış iki romanın bədii nəsrin inkişafı üçün əhəmiyyətini yüksək qiymətləndirirdi. Xanlıqlar dövrünün bədii mənzərəsini əks etdirən Yusif Vəzir Çəmənzəminlinin “Qan içində” romanını, inqilabi mövzuda yazılmış Məmməd Səid Ordubadinin “Dumanlı Təbriz” əsərini tarixi romanın ilk nümunəsi kimi yüksək qiymətləndirirdi.

“Dumanlı Təbriz” əsərində inqilabın mahiyyətini, səbəbini, əsərdən çıxan nəticəni düzgün dəyərləndirən müəllifin fikrincə, M.S.Ordubadi bir-birinə uyuşmayan tarixi hadisələri, mürəkkəb məsələləri nisbətən dar çərçivəyə – 1905-1911-ci illər İran inqilabının əhatə dairəsinə yerləşdirməyə çalışmış, üzərində geniş dayandığı siyasi problemlərin inqilaba nə dərəcədə təkan verdiyini şərh etmişdir. Tənqidçi əsərdə təsvir olunan hadisələrdə fəal iştirak edən xalqın psixologiyasını, inqilabın qüvvətli və zəif cəhətlərini göstərir, inqilabda iştirak edən tarixi şəxsiyyətlərin realist təsviri, imperialist müdaxiləsinin, daxili irticanın ifşası, romanın üslubi xüsusiyyətləri üzərində geniş dayanır, bu məsələlərin təhlili zamanı tarixilik prinsipindən çıxış edirdi. Bu araşdırmada tarixi həqiqətlərə müəllif münasibəti açıq-aydın hiss olunurdu. Tənqidçi fəhlə sinfinin inqilabda iştirak etməməsini, milli şüurun və azadlıq istəyinin lazımı səviyyədə olmamasını, inqilabın mahiyyətini düzgün başa düşməyən müxtəlif zümrələrin iştirakını və inqilaba rəhbərlik edənlərin birtərəfli dünyagörüşünü bu hərəkatın zəif cəhətləri kimi qeyd edir, tarixi gerçəkliyi nəzərə alaraq əsəri dəyərləndirirdi.

Tarixi mövzuda yazılmış əsərlərdə tarixin izini müxtəlif şəkildə görmək mümkündür. Elə əsərlər var ki, hadisələr tarixi səciyyə daşısa da, obrazlar yazıçı təxəyyülünün məhsulu olur. Bəzən də həm hadisə, həm də obraz tarixi həqiqətlərlə üst-üstə düşür. Bu zaman yazıçının tarixi prosesə münasibəti ortaya çıxmağa başlayır. Müəllifin tarixi şəxsiyyətə obyektiv yanaşması bədii əsərin düzgün qiymətləndirilməsinə gətirib çıxarır. Tarixi roman janrı qəhrəmanın əsas cizgilərinin açılmasına kömək edir. *"Birincisi, ona görə ki, tarixi romanlarda konkret tarixi şəxsiyyətlər, yaxud təsvir olunan dövrün ümumi ruhunu özündə əks etdirən, bədii təxəyyülün məhsulu olan obrazlar yaradılır. Həmin obrazlar tarixin hətta tarixçilər tərəfindən çox az işıqlandırılan dövrü üzərinə gur işıq salır, necə deyərlər, qara örtüyü qaldırırlar. İkincisi, tarixi şəxsiyyətin bütün tragizmini, öz dövrünə görə haqlı olub-olmadığını aydınlaşdırırlar"* [4, s.87].

Məsud Əlioğlu əsərdə tarixi şəxsiyyətlərin təsviri zamanı yazıçının həqiqətə sadiq qaldığını vurğulasa da, Səttar xan obrazını canlandırarkən müəllifin xəsislik etdiyi, obrazın təsvirində təhriflərə yol verdiyi qənaətinə gəlirdi. O belə nəticəyə gəlirdi ki, buna görə də Səttar xan sadəlövh və fəaliyyətsiz bir insan kimi nəzərə çarpır. Böyük bir inqilabı idarə edən, böyük bir xalq kütləsini arxasınca aparan bir tarixi simanın başqalarından məsləhət alması, öz qərarlarında yanılması kimi faktları tarixi əsər üçün nöqsan sayırdı: *"Ümumiyyətlə, müəllifin tarixi şəxsiyyətləri və hadisələri dərk etmək və canlandırmaq prinsipində müəyyən qədər yanlışlıq və qeyri-obyektivlik vardır. Əsər olduqca mühüm siyasi-tarixi hadisələrlə zəngin olan ciddi bir mövzuya həsr edildiyi halda yazıçının lüzumsuz təfərrüatları və yüngül vəziyyətləri təsvir etməsi, bədii reallıqdan büsbütün uzaq, sərbəst manerası bu ciddiyyəti pozmuş, romanın siyasi kəskinliyini və ictimai pafosunu xeyli zəiflətmişdir"* [39, s.88].

Sənətkar tarixi həqiqəti bədii əsərin əsas mövzusu seçdiyi zaman qarşısında müəyyən məqsədlər qoyur. Bu məqsəddən asılı olaraq, tarixi prosesə və bədii əsərin qəhrəmanına müstəqil şəkildə yanaşır. Deməli, yazıçı alimdən fərqli olaraq tarixi hadisələri bütün dəqiqliyi ilə, sənədlər əsasında əks etdirmək vəzifəsindən azaddır. Bu şərtlə ki, bədii surətlər tarixi hadisələrin və faktların mahiyyətini təhrif etməsin. Yazıçı tarixi həqiqətə bədii təxəyyülün məhsulu kimi toxunduqda canlandırdığı

dövrün mənzərəsini və tarixi şəxsiyyətin portretini olduğu kimi saxlamalıdır. Yeri gəldikdə tarixi romanın qəhrəmanının müsbət keyfiyyətləri ilə yanaşı, zəif cəhətlərini də təsvir etməyi bacarmalıdır. Çünki tarixi şəxsiyyət nə qədər böyük amallar uğrunda mübarizə aparsa da, fərdi keyfiyyətləri olan bir insandır. Bədii əsəri tarixi mənbədən fərqləndirən cəhət də elə budur. Digər tərəfdən keçmişi idealizə etmək də düzgün deyil. Tarixi hadisələrin mahiyyətini olduğu kimi göstərməklə ifrata varmamaq tarixi əsərlər üçün əsas şərtdir.

Romanda Səttar xan bəzi məqamlarda ziddiyyətli bir obraz kimi təsvir edilmişdir. O, nə qədər qorxmaz, iradəli, əyilməz bir qəhrəman kimi göstərilsə də, bəzən kənarın məsləhəti olmasa, səhv qərarlar verir, çıxılmaz vəziyyətdə tərəddüd edirdi. Taxıl məsələsini əncümədə qoyub həll etmək təklifi ortalığa gəldikdə Ordubadi Səttar xan haqqında bu sözləri yazırdı: *“Səttar xan məsələni əncümədə qoymaq üçün bir söz demədi. Həmişə əncümən məsələsi aralığa gəldikdə o susurdu. Bir inqilab diktatoru kimi hərəkət etməkdən qorxurdu. İxtilaf meydana çıxacağından ehtiyat edirdi”* [106, k.1, s.55]. Amma onun bir tarixi sima kimi əsas səciyyəvi xüsusiyyəti o idi ki, xalqına arxalanır, xalqın səadəti uğrunda mübarizə aparırdı. Məmməd Səid Ordubadi romanda onun bu keyfiyyətlərini yüksək səviyyədə qələmə almışdır.

Ədəbiyyatşünas yazıçının inqilabi mövzuda əsər yazmasını yüksək qiymətləndirsə də, əsərdə tarixi həqiqətlə uzlaşmayan cəhətlərin olduğunu vurğulayırdı. O, milli azadlıq hərəkatının gücləndiyi bir vaxtda inqilab rəhbərlərinin təsvir edilməməsini, inqilabçıların romanın əsas hissəsində passiv göstərilməsini inandırıcı hesab etmirdi. Lakin bunun əksinə olaraq, Əbülhəsən obrazının təsvirində uydurma cizgilərin çoxluğu onun diqqətini cəlb edirdi. Düzdür, müəllifin dediyi kimi, bu obrazda realizm ünsürləri var. Bir inqilabçı kimi hadisələri dərk etməsi, öz fikirləri ilə mübarizəyə köməyi real görünür. Amma bəzi məqamlarda qeyri-real görünən cizgilər də tənqidçinin diqqətindən yayınmırdı. O, heç kimin cürət etmədiyi qorxulu əməliyyatlardan çətinlik çəkmədən xilas olan, ən hiyləgər adamları belə aldada bilən Əbülhəsəni qeyri-adi məxluq adlandırırdı: *“Peşəsi sadəcə mexaniklikdən ibarət olan*

*adi bir inqilabçının bu tərzdə şişirdilməsi və az qala ilahi varlıq dərəcəsinə qaldırılması bədii ölçüyə heç cür sığmır və real təsəvvürə uyğun gəlmir"* [39, s.89].

Məmməd Səid Ordubadinin tarixi səpkidə yazdığı əsərlərində macəra üslubu özünü göstərir. "Dumanlı Təbriz" romanında da macəra elementlərinə təsadüf olunur. Məsud Əlioğlu macəraçılığı bədii əsərlərdə, konkret mövzuda yazılmış tarixi əsərlərdə əhəmiyyətli bir element kimi qiymətləndirsə də, "Dumanlı Təbriz" kimi ciddi siyasi bir romanda belə hadisələrin təsvir edilməsini romanın realizmini və tarixi dəyərini aşağı salan bir üslub kimi dəyərləndirir və belə nəticəyə gəlir ki, bu da romanın bədiiliyinə ciddi ziyan vururdu: *"Macəraçılıq yazıçını tarixin böyük həqiqətlərini təhrifdən başqa, düşmən qüvvələrinin də bayağı, şit və karikatura təsiri bağışlayan yüngül tərzdə göstərməyə də gətirib çıxarmışdır"* [39, s.92].

Məmməd Səid Ordubadi yaradıcılığını geniş şəkildə tədqiqata cəlb edən Yavuz Axundlu bu məqama fikir verir, macəra elementinin iki məqsəd üçün istifadə edildiyini vurğulayırdı: *"Bir tərəfdən o, qələmə aldığı dövrün real mənzərəsinə – tarixi sənədlərlə və faktlarla təsbiq olunan mənzərəsinə heç bir xələl gətirmədən, "tarixə böhtan atmadan" hadisələrin daha maraqlı və cəzbedici olmasına səy göstərirdi. Burada əslində heç bir yanlışlıq yoxdur. İkinci bir tərəfdən, Ordubadinin romanlarında macəraçılığa meyl qəhrəmanların çıxılmaz vəziyyətindən, düşdükləri real çətinlikdən irəli gəlirdi. Əlbəttə, gizlətmək lazım deyil ki, belə məqamlarda realizm, inandırıcılıq nisbətən zəifləyir"* [7, s.9]. Yenə də son nəticə də o da macəra elementlərinin ciddi bir əsərdə olmasını düzgün hesab etmirdi: *"M.S.Ordubadinin yaradıcılığına xas olan macəraçılıq meyli onun tarixi romanlarının oxucular tərəfindən maraqla oxunmasına imkan versə də, bu əsərlərin ümumi bədii dəyərini aşağı salır. Çünki macəraçılıq realist əsər üçün məqbul hal deyil"* [3, s.289].

Onu da qeyd edək ki, tarixi mövzuya müraciətin tənqid edildiyi illərdə M.S.Ordubadinin məşrutə hərəkatı haqqında əsər yazması Azərbaycan ədəbiyyatı və Azərbaycan tarixi üçün əhəmiyyətli bir hadisədir. Həmin dövrdə tarixi mənbələrin lazımı səviyyədə araşdırılmaması, çox səthi və az olması, tarixə sosioloji münasibət bu əsərin dəyərini bir daha ön plana çəkir: *"Azərbaycanda bir neçə nəsil Sərdari-milli Səttarxanı qüdrətli bir sərkərdə kimi tarixdən çox "Dumanlı Təbriz" tarixi*

*romanından tanımışdır”* [69, s.57]. Həm də bu roman Azərbaycan ədəbiyyatında tarixi roman janrının nəzəri əsaslarını və prinsiplərini formalaşdırmışdır.

Məsud Əlioğlu Y.V.Çəmənzəminlinin “Qan içində” romanı haqqında da maraqlı fikirlər irəli sürür, əsərdə tarixi və bədii həqiqətin vəhdətini müsbət cəhət kimi qiymətləndirirdi. O, tarixi mövzuda yazılmış əsər üçün vacib olan üç mühüm məsələni belə müəyyənləşdirdi:

1. Tarixilik prinsipi, tarixi şəxsiyyətlərin və hadisələrin realist təsviri
2. Tarixin həqiqətlərinə obyektiv baxış və düzgün münasibət
3. Tarixi hadisələrdən müasir həyat üçün çıxarılan nəticələr

Tənqidçi əsəri təhlilə cəlb edərkən 3 əsas tələbi nəzərə almalıdır: Əsərin mövzusuna nəzər yetirməli, onun müsbət keyfiyyətlərini diqqət mərkəzinə çəkməli, əsərin və müəllifin nöqsanlarını aydınlaşdırmalıdır. Məsud Əlioğlu bu tələblərə daim cavab verən fikirlər irəli sürür, bədii materiallara bu prizmadan yanaşır, əsərə düzgün qiymət verməyi bacarırdı. Tənqidçi yazıçının arxiv materiallarını obyektiv qiymətləndirməsini, müasir həyatla səsləşən nəticələri verməsini, realizmə sadiq qalmasını, obrazların həyati təsvir edilməsini əsərin müsbət keyfiyyətləri kimi dəyərləndirirdi. Xanlıqlar dövrünün ümumi mənzərəsini şərh edən ədəbiyyatşünas bədii qəhrəmanlara hərtərəfli yanaşır, onların həm müsbət, həm də mənfi keyfiyyətlərini qeyd edirdi. Əsərin iki qəhrəmanı (İbrahim xan və Molla Pənah Vaqif – M.N.) üzərində geniş dayanan müəllif belə nəticəyə gəlir ki, *“əsərdə baş qəhrəman yoxdur və roman bütünlüklə yalnız Qarabağ xanlığının müəyyən dövrdəki tarixini, taleyini bədii şəkildə işıqlandırmaq məqsədini izləyir”* [40, s.373]. Həm İbrahim xanın, həm də Vaqifin təsvirində yazıçının reallığa sadiq qaldığını vurğulayır, Vaqifin şairliyinə az yer ayrıldığından, müəllifin onu daha çox dövlət xadimi kimi göstərdiyindən söhbət açır, Vaqifin həyatı ilə tarixdə olan hadisələrin təsvirinin üst-üstə düşdüyünü irəli sürürdü. Şairin hökmdarla xalqı birləşdirmək haqqında qənaətlərinin, vəzifəyə olan ehtirasının onun xalqdan uzaq düşməsinə gətirib çıxarmasının təsvir edilməsini tarixi həqiqətlərə obyektiv baxışın nəticəsi kimi qiymətləndirirdi: *“Beləliklə də, Vaqif romanda dövlət xadimi ilə azad xəyallı şair*

*arasında tərəddüd göstərən, həm xalqa istinad edən, həm də saraya bağlanan və meyil edən ziddiyyətli bir insan olaraq canlı verilmişdir"* [40, s.376].

Tarixi mövzuda yazan müəllifdən düzgün yanaşma tərzi tələb edən tənqidçi bu əsərlərdə yazıçının hansı yaradıcılıq üslubunda yazmasına diqqət yetirir. Onun fikrincə, sənətkarın fərdi üslubundan asılı olaraq bu əsərlər realist, romantik və satirik səpkidə işlənilə bilər. Əslində hansı üslubda yazılmasından asılı olmayaraq, yazıçı çalışmalıdır ki, tarixə dərindən yiyələnsin, tarixi həqiqətlərə obyektiv mövqedən yanaşsın.

XX əsrin 30-40-cı illəri elə bir dövr idi ki, ədəbiyyatşünaslığın nəzəri problemləri ətrafında mübahisəli fikirlər irəli sürülürdü. Maraqlıdır ki, ədəbi-nəzəri fikir sənətkarlıq məsələləri ilə bağlı az tədqiqat aparır, həyatilik, müasirlik, aktuallıq kimi məsələlərə xüsusi yer ayırırdı. İkinci Dünya müharibəsindən sonra yazılan məqalələrdə vəziyyət qismən dəyişir. 50-ci illərdə sosializm realizminin ədəbiyyatda nüfuzunun zəifləməsi ədəbi-tənqidi fikrə də öz təsiri göstərdi. Xüsusilə, 1953-cü ildə Azərbaycan KP Mərkəzi Komitəsi ilə Bakı Şəhər Partiya Komitəsinin birgə plenumunun, 1954-cü ildə SSRİ Yazıçılar İttifaqının II qurultayının keçirilməsi ədəbi tənqid qarşısında yenilik açdı. *"1956-1957-ci illərdə dərc olunan məqalələrdə müasir ədəbiyyatda janr, bədii həqiqət problemləri tənqidi daha çox maraqlandırır, insan xarakterinin açılıb göstərilməsi məsələsi ön plana çəkilirdi"* [58, s.105]. Kompozisiya, süjet, konflikt, xarakter, kolorit, bədii əsərin dili, forma və üslub xüsusiyyətləri, janr tipologiyası kimi sənətkarlıq məsələlərinə maraq artırdı. Məsud Əlioğlu da bu məsələlərin həllinin ədəbiyyatşünaslıq üçün əhəmiyyətini dərk edirdi. Xüsusilə, onun "Ədəbiyyat və incəsənət" qəzetinin ayrı-ayrı saylarında çap olunan "Bədii nəsrimizdə konflikt, xarakter və kolorit məsələlərinə dair" [130; 131; 132] adlı silsilə məqalələri əhəmiyyətli hadisə idi.

Tənqidçi bu məqaləni yazmaqla, hər bir dövr üçün aktual olan bir məsələyə toxunurdu. Konflikt bədii əsərin süjet və kompozisiyasının əsas elementidir. Konfliktin müəyyənləşməsi bədii əsərin ideyasının ortaya çıxmasına şərait yaradır. Məsud Əlioğlu konflikt, xarakter problemi ətrafında olan mübahisələrin səbəbini bədii ədəbiyyatın sürətli inkişafı ilə əlaqələndirirdi. Tənqidçinin bu fikirlərində

müəyyən qədər həqiqət var. Belə ki, hər dövr ədəbiyyata özü ilə yeni bir mövzu gətirir. Hər mövzu konfliktin məzmununu dəyişir, amma konfliktin mahiyyəti olduğu kimi qalır. Buna görə də bədii əsəri təhlil edən tənqidçi ilk öncə konfliktin mahiyyətini dərk etməlidir: *"Konflikt süjetin inkişafı nöqtələrini (zavyazka, kulminasiya, razvyazka) (bunlar hərəkətin inkişafı və tənəzzülləri arasında xarakterizə olunur) və kompozisiyanın (forma ilə xarakterizə olunur) müvafiq elementlərini müəyyənləşdirir"* [170].

Tənqidçi tarixi şəraiti nəzərə alaraq, İkinci Dünya Müharibəsinə qədərki dövrlə müharibədən sonrakı dövrü bir-birindən ayırır, hər bir dövrdə yazılan əsərlərdə konflikti formalaşdıran qüvvələri diqqət mərkəzinə çəkir, konflikti bədiiliyi artıran faktor kimi dəyərləndirirdi. Müharibədən əvvəl yazılan əsərlərdə konfliktin yeniliklə köhnəliyin mübarizəsi şəklində yaradılmasını düzgün hesab edirdi. Bu mübarizənin köklərinin həyatla əlaqələndirilməsi tənqidçinin doğru baxışının nəticəsi idi.

Məsud Əlioğlunun müharibədən sonra yazılan bədii nəsr nümunələrinə daha çox diqqət yetirməsi özünü tam doğruldur. Çünki bu illərdə ədəbi tənqiddə "müsbət-mənfi qəhrəman" problemi ətrafında ziddiyyət ortaya çıxırdı ki, bu da konfliktin mövzusuna təsir edirdi. Onun Mehdi Hüseynin "Qara daşlar" romanını təhlil etməsi dövrün ümumi mənzərəsi haqqında bizə məlumat verir. Bunun nəticəsində görürük ki, müəllifin konflikt probleminə yanaşma tərzi dəyişir. Tənqidçi XX əsrin ortalarından konfliktin mahiyyət və forma etibarilə dəyişdiyini vurğulayır, bunun səbəbini yeniliyin mübarizə apardığı cəmiyyətin qurulması ilə əlaqələndirirdi. Yeni yaranmış cəmiyyətin konfliktin mahiyyətini də yeni istiqamətə yönəldiyini belə izah edirdi: *"İndi yalnız öz şəxsi mənafeini üstün tutan ayrı-ayrı fərdlər ümumxalq işinin gedişinə ziyan vuran, başqa-başqa hallarda inkişafı dayandırmağa çalışan, yeniliyə düşmən kəsilən arxasız və gələcəyi olmayan bir tullantıdan ibarətdir ki, bu tullantılara qarşı aparılan ümumxalq mübarizəsi son zamanlarda yazılan nəsr əsərlərimizin, demək olar ki, çoxusundakı konfliktin əsasını təşkil edir"* [130]. Bu fikirlərdə doğruluq payı olsa da, onu deyə bilərik ki, konfliktin forması, mövzusu və məzmunu dəyişə bilər, ancaq mahiyyəti olduğu kimi qalır.

Əsərin konfliktinin müəyyənləşməsi baxımından Mehdi Hüseynin “Abşeron” romanı ilə “Qara daşlar” romanı arasında müqayisə aparılması fikirlərinin izahına görə əhəmiyyətlidir. O, “Abşeron”da iki obraz arasında (Xəlilov və Qüdrət İsmayılzadə nəzərdə tutulur – N.M.) münaqişəni konfliktin mərkəzinə gətirirdi. “Qara daşlar” romanında isə Mollayev obrazını konfliktin mərkəzinə çəkirdi. Müəllifin *“Əsərdəki konfliktin düyüm nöqtəsi də, konkret olaraq iki fərd arasındakı ölüm-dirim çarpışmasında verilmişdir. Bunlar Mollayev və Aslanovdan ibarətdir”* [130] cümləsi əvvəlki fikrini təkzib edirdi. Amma sonra öz mülahizələrinə davam edir, Aslanovu xalqın təmsilçisi kimi səciyyələndirirdi.

Birinci onu qeyd edək ki, “Qara daşlar” romanın təhlili zamanı Mollayev obrazını konfliktin mərkəzinə çəkilməsi birtərəfli yanaşmadır. Mənfi obrazın konfliktin mərkəzinə gətirilməsi və hərtərəfli təhlili ədəbi tənqid üçün yad idi. Belə ki, əsas diqqət müsbət qəhrəmana verilir, onun fonunda mənfi tip təhlil olunurdu. Məsud Əlioğlu isə başqa istiqamətdə getmiş, Mollayevin təhlili fonunda digər obrazlara aydınlıq gətirirdi. Bir tərəfdə Mollayev, digər tərəfdə isə müsbət obrazlar dayanırdı.

Konfliktin məzmunu izah edərkən müəllifin xarakter probleminə toxunması real idi. Çünki *“konflikt problemi xarakter problemi ilə üzvi şəkildə bağlıdır. Əgər bir əsərdə konflikt inandırıcı deyilsə, onda xarakterlərin də dolğunluğundan söhbət gedə bilməz”* [164, s.12]. Məsud Əlioğlu bədii əsərlərin təhlili zamanı xarakterləri izah edərkən düzgün qənaətlər irəli sürür, lakin müəyyən məqamlarda dolaşıqlıq gözə çarpırdı. Xarakter məsələsinə elmi aspektdən yanaşdıqda bunu görmək mümkündür. Tənqidçi xarakterə üç cəhətdən yanaşır: *“Xarakter yaratmaq, hər şeydən əvvəl, mühitin və cəmiyyətin səciyyəvi hadisələrini diqqətlə izləmək, real müşahidə əsasında dərk etmək və yazıçının gördüyü, tanıdığı minlərlə surətlər içərisindən eləsini tapıb ümumiləşdirməkdir ki, həmin surət göstərilən cəmiyyət və həyatın səciyyəvi xüsusiyyətlərini təmsil edə bilsin”* [131]. Tənqidçinin “xarakter” termininə bu şəkildə yanaşması ilk baxışdan “tipiklik” məfhumunu yada salır. Onun işlətdiyi “ümumiləşdirmək” sözü “xarakter” termininin mahiyyətinin açmır. Çünki bu söz xarekterə deyil tip termininə uyğun gəlir: *“Tip – mahiyyətcə xarakterin daha*

*ümumiləşmiş formasıdır. Yunanca "typos" sözündən olub örnək, nümunə anlayışını ifadə edən bu söz daha kəskinliyi ilə seçilən insan xarakteridir"* [60, s.16]. Xarakter isə fərdiləşmə üzərində qurulur: *"Xarakter – bədii əsərdə müəyyən fərdi əlamət və keyfiyyəti olan ətraflı, mükəmməl və hərtərəfli işlənmiş insan surətidir"* [60, s.14].

Əslində, müəllifin xarakterə yanaşması elmi cəhətdən düzgündür, yalnız həmin cümlədə "ümumiləşdirmək" sözü yerinə "fərdiləşdirmək" sözü işlədilməlidir. Sözün düzgün seçilməməsi çaşqınlıq yaradır, buna görə deyə bilərik ki, bu tərif konkret deyil.

"Xarakter" və "xarakteristika" anlayışlarının qarışıq salındığı bir vaxtda tənqidçinin bu məsələyə diqqət yetirməsi düzgün münasibət idi. Bu anlayışların mahiyyətini tənqidçinin fikirləri açıq-aydın göstərir. O, belə qərara gəlirdi ki, obrazın təsviri onun xarakter səviyyəsinə qaldırılması demək deyildir, sadəcə xarakteristikadır. *"Xarakterlər ədəbiyyatın həyatıdır: bunlar maraq və heyranlıq, sevgi və bəyənməmək, heyranlıq və qınaq obyektlərimizdir. Həqiqətən, ədəbi personajlarla münasibətimiz o qədər sıxdır ki, onlar çox vaxt sadəcə "obyekt" olmağı dayandırırlar. Şəxsiyyətin gücü, simpatiya və antipatiya ilə onlar özümüzü necə təsəvvür etdiyimizin, kim olduğumuzun bir hissəsi ola bilirlər"* [175, s.60]. Obrazı xarakter səviyyəsinə yalnız təbiiliyi və canlılığı qaldıra bilər. Bu cəhətdən, o, "Qara daşlar" romanın Lalə və Qüdrət kimi müsbət surətlərini misal göstərməklə nasiri surətlərin dilində süniliyə yol verdiyi, xarakteristika verməklə kifayətləndiyi üçün tənqid edir, bütün bunların obrazın xarakter səviyyəsinə yüksəlməsinə maneçilik törətdiyini vurğulayırdı. Bu da onu göstərir ki, Məsud Əlioğlu da quru, şablon müsbət qəhrəman yaradılmasına qarşı çıxan tənqidçilər sırasındadır.

Tənqidçi xarakterlə koloriti bir-birinə bağlamaqla doğru qənaət irəli sürürdü: *"Kolorit, xarakterlər silsiləsini əmələ gətirən zəmindir"* [131]. Çünki xarakter fərdi xüsusiyyətlərə malik insan obrazıdırsa, kolorit isə dövrün səciyyəvi xüsusiyyətlərini xarakterlər vasitəsilə təcəssüm etdirən milli amildir. O, milli koloriti əsərdə təsvir edilən həyatın içində, obrazların fikirlərində axtarır, bədii surətin zahirini təsvir etməklə, onun dilinə məhəllilik xüsusiyyəti verməklə milli koloritin yaradılması fikri ilə razılaşmırdı. Tənqidçinin Həsən Seyidbəylinin "Telefonçu qız" povestində saf bir

qız olan Mehribanın təmiz sevgisinin yüngüləxlaqlı Zərəngizlə qarşılaşdırılmasını əsərin konflikti üçün zəif olduğunu qeyd etməsi həqiqətə uyğundur. Məsud Əlioğlu konfliktin mərkəzinə sevgi münasibətlərinin gətirilməsini doğru qəbul etmirdi. Sovet nəsrində bədii qəhrəman iş prosesində, əmək cəbhəsində çalışırdısa, müsbət qəhrəman səviyyəsinə qaldırılırdı. Ona görə də konfliktin sevgi ətrafında cərəyan etməsi müəllifi qane etmirdi. Bu cür ziddiyyətli fikirlər 50-ci illər elmi-nəzəri fikri üçün səciyyəvi hal idi. Çünki sabitləşməmiş nəzəri ədəbiyyat tənqidçilərin elmi-nəzəri baxışlarına təsir edirdi.

XX əsrin 20-30-cu illərində nəsrdə daha kiçik janrlara yer verilirdisə, 40-50-ci illərdə irihəcmli əsərlərə maraq artırdı. Romanla birlikdə povest janrı da geniş şəkildə işlənirdi. Məsud Əlioğlu Sovet yazıçılarının II ümumuittifaq qurultayının keçirilməsi ilə bağlı yazdığı "Povestlərimizdə sənətkarlığın bəzi məsələləri haqqında" məqaləsində İsa Hüseynovun "Dan ulduzu", Vidadi Şıxlının "Gəlin" povestləri əsasında janrın inkişaf dinamikasına, problematikasına aydınlıq gətirirdi.

Məqalədən görünür ki, tənqidçi povestlərdə qoyulan mövzu və ideyadan ümumi şəkildə danışmış, obrazların xarakterik xüsusiyyətlərini izah etməklə kifayətlənmiş, sənətkarlıq baxımından baş verən zəif cəhətləri də üzə çıxarmağa çalışmışdır. Kolxoz həyatından, kənddə kollektiv əməyin qurulmasından bəhs edən bu əsərlərin mövzusuna toxunan tənqidçi povest janrı üçün səciyyəvi olan xüsusiyyətləri müəyyənləşdirmişdir. Povestlərdə konfliktin dərinləşdirilməməsini sənətkarlıq cəhətdən nöqsanlı amil kimi dəyərləndirir, bədiilik cəhətdən povest janrı üçün səciyyəvi olmayan epizodların qələmə alınmasını bitkin bir əsər üçün ciddi səhv hesab edirdi. Obrazların fərdi xüsusiyyətlərinin təhlilinə üstünlük verən tənqidçi povestlərdə əsas ideyanın açılmasına xidmət etməyən, xarakter səviyyəsinə yüksəlməyən ikinci dərəcəli obrazların təsvirini əsərin əsas ideyasına ziyan vuran bir cəhət kimi qiymətləndirirdi.

İsa Hüseynovun "Dan ulduzu" əsərinin janrı məsələsinin aydınlaşdırılması istiqamətində aparılan təhlillər əsaslandırılmamış olaraq qalır. *""Dan ulduzu"nu bədii bir əsər kimi nöqsanlı edən cəhətlərdən biri də bir sıra insanların və hadisələrin oçerk səviyyəsindən həqiqi canlı obraz, canlı həyat lövhələri səviyyəsinə qalxa*

*bilməməsidir. Oçerkçilik, faktları və insanları olduğu vəziyyətində göstərmək, dərinləşdirməmək və onları bədii ümumiləşdirmələrdən uzaq şəkildə təsvir etmək isə həqiqi sənətin yolu deyildir"* [155, s.96].

Tənqidçinin bu fikirləri əsərin təhlilinə düzgün yanaşılmadığını göstərirdi. "Bədiilik" faktorunun əsas tutularaq əsərin janrının qarışıq salınması real qənaət deyildir. Çünki oçerk bədii sənədli əsərdir. Oçerkdə də bədiliyə əməl edilməlidir. Belə ki, oçerk bədii ədəbiyyatın janrlarından biridir. Digər tərəfdən "həqiqi sənətin yolu deyildir" fikri janra qarşı yönəlmiş düzgün qiymət deyildir. Düzdür, oçerkdə bədiilik povest qədər güclü deyil. Çünki oçerkdə *"bədii düşüncə minimuma endirilir, obrazlar konkret insanlar və hadisələr, onların həyatları üzərində qurulur"* [168, s.247]. Bununla belə, "Dan ulduzu"nun mövzu və ideyası, surətlərin işlənmə səciyyəsi əsərin povest janrının tələblərinə cavab verdiyini göstərirdi. Povestin bəzi surətlərinin (Murtuz kişi, Yunis kişi, Zaman, İlyas Zeynalov) canlı obraz səviyyəsinə qaldırılmaması "Dan ulduzu" əsərinin janrını şübhə altına almağa heç bir əsas vermir. Bütün bunlar sənətkarlıq cəhətdən sənətkarın yol verdiyi qüsurlar idi.

Məsələnin digər qeyri-real tərəfi onda üzə çıxırdı ki, oçerklə povesti yaxınlaşdıran cəhətlər azdır. İstər həcmi, istərsə də mahiyyət etibarilə bu janrlar bir-birinə uzaqdır. Oçerk həcm etibarilə hekayəyə daha yaxındır. Mahiyyət etibarilə isə oçerk janrının xüsusiyyətləri epik növün digər janrlarından fərqlənir. Müəllifin şahidi olduğu real həyat hadisələrini əhatə etməsi, sənədlilik əsasında qurulması janrın əsas cəhətləridir.

Oçerk janrına tənqidçi layiqli dəyəri 50-ci illərin sonunda verirdi. 1960-cı il fevral ayının 24 və 25-də Nizami adına Ədəbiyyat və Dil İnstitutunda "1959-cu ilin Azərbaycan bədii nəsri haqqında" elmi müşavirə keçirilmişdir. Bu müşavirədə Qulu Xəlilov "1959-cu ildə romanlarımız", Yəhya Seyidov "1959-cu ildə povestlərimiz", Gülrux Əlibəyova "1959-cu ildə hekayələrimiz", Məsud Əlioğlu isə "Bədii oçerklər" mövzusunda məruzə ilə çıxış etmişdilər [105]. Hiss olunur ki, Məsud Əlioğlu dövrün qələm sahiblərinin əsərləri əsasında janrın əsas xüsusiyyətlərini aça bilmişdir: *"Oçerk yazan müəlliflərin çoxu bu fikirdədir ki, oçerk mübariz janrdır, gündəlik hadisələri dərhal qələmə almaqda əlverişli bir bədii vasitədir. Bu, doğrudur. Lakin bir cəhəti də*

*unutmaq lazım deyildir ki, operativlik və mübarizlik pərdəsi altında keçici, əhəmiyyətsiz məsələləri də yaradıcılıq aləminə gətirmək olmaz. Nəsrin başqa növlərində olduğu kimi, oçerkdə də bədiilik məsələsi birinci planda dayanmalıdır. Hər hansi bir romandan, hekayə və povestdən aldığı zövqü oxucu gərək oçerkdən də ala bilsin"* [150, s.3].

Məsud Əlioğlu məruzəsində oçerk janrı üçün dörd başlıca şərt qoyurdu:

1. Oçerkdə bədiilik gözlənilməlidir.
2. Oçerkdə yalnız iş prosesi deyil, qəhrəmanın daxili aləmi də açılmalıdır.
3. Oçerkdə publisistika güclü olmalıdır.
4. Şablon ifadələrə, təkrarlara çox yer verilməməlidir.

Tənqidçinin yazıçılara məsləhət gördüyü bu tələblər janrın elmi-nəzəri səviyyəsinin sabitləşmədiyi dövrdə irəli sürülmüşdü.

Azərbaycan nəsrinin inkişaf yolları Məsud Əlioğlunun əsas tədqiqat predmetidir. Tənqidçinin sovet dövrü Azərbaycan nəsri haqqında gəldiyi yekun qənaət real faktlara əsaslanırdı: *"Azərbaycan nəsri bir tərəfdən klassik irsin ən yaxşı, nəcib və mübariz ənənələri, digər tərəfdən isə klassik Avropa və rus nəsrinin mütərəqqi ənənələrindən öyrənmişdir. O kiçik hekayədən roman-epopeyaya, novelladan povestə doğru inkişaf yolu keçmişdir"* [169, s.85]. Bu sahədə aparılan araşdırmalar elmiliyi ilə diqqəti cəlb edir. Tənqidçinin üslubu üçün səciyyəvi olan romantik pafos bu tipli məqalələrdə yoxdur. Daha çox nəzəri-estetik məsələlərə diqqət yetirilir. Buna görə də deyə bilərik ki, tənqidçinin bu sahədə apardığı tədqiqatlar həm ədəbi tənqid sahəsində, həm də ədəbi-nəzəri fikrin inkişafında böyük əhəmiyyətə malikdir.

Məsud Əlioğlunun tədqiqatları göstərir ki, o, ədəbiyyatın yalnız bir sahəsi ilə məşğul olmamış, müəyyən bir janr ilə ədəbi-tənqidi görüşlərini məhdudlaşdırmamışdır. Poeziya və nəsrlə bağlı olan araşdırmaları elmi-nəzəri səviyyəsi ilə bir-birindən seçilmir. Toxunulan mövzuların, problemlərin aktuallığı bu yazıların dəyər və qiymətini artırır. Azərbaycan poeziyası və nəsrində milli kolorit məsələsinin diqqətə çatdırılması mühüm əhəmiyyət kəsb edir. Hacı Kərim Sanılı, Osman Sarıvəlli, Məhəmmədhüseyn Şəhriyar poeziyasındakı millilik, nəsrdə tarixi

və bədii gerçəklik təhlil olunan əsas məsələlərdəndir. Azərbaycan nəsrinin nəzəri və tədqiqi problemlərinin araşdırılmasında Məsud Əlioğlunun oynadığı rol danılmazdır. Bununla belə, tarixi roman, povest, oçerk kimi janrların, konflikt, xarakter kimi nəzəri məsələlərin təhlilinə yönələn fikirlər Məsud Əlioğlunun nəzəriyyəçi kimi səciyyələndirilməsinə gətirib çıxarmır. Bu tədqiqatlarda öz tənqidçi simasını daha artıq dərəcə də qoruyub saxlayır.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas müddəalar və elmi nəticələr "60-cı illər bədii irsdəki demokratikləşmənin, müasirliyin ədəbi tənqiddəki dərki" [85], "Azərbaycan poeziyasında novatorluq axtarışları (Məsud Əlioğlu poeziya tənqidçisi kimi)" [87], "Məsud Əlioğlunun araşdırmalarında resenziya janrı" [93], "Məsud Əlioğlunun ədəbi-tənqidi yaradıcılığında tarixi və bədii həqiqətin dərki" [94], "Məsud Əlioğlunun teatrla bağlı görüşləri" [95], "Rəsul Rza yaradıcılığı Məsud Əlioğlunun tədqiqatlarında" [97], "Azerbaycan nesirinin teorik problemleri Mesut Alioğlunun araştırmasında" [166] adlı məqalələrdə öz əksini tapmışdır.

# III FƏSİL

# MƏSUD ƏLİOĞLUNUN ƏDƏBİYYATŞÜNASLIQ FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

## 3.1. Məsud Əlioğlunun elmi irsində klassik Azərbaycan ədəbiyyatının tədqiqi məsələləri

XX əsrdə zamanın, dövrün tələbi ilə ədəbi tənqid yeni istiqamət üzrə inkişaf etməyə başlayırdı. MK-nin “Bədii ədəbiyyat sahəsində partiyanın siyasəti haqqında” 1925-ci il tarixli qərarı ilə proletar ədəbiyyatın hegemonluğu təmin edilir, bu mədəniyyətin inkişafı nəticəsində Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə irsi inkar edilir, onların yaradıcılıq fəlsəfəsi unutdurulmağa çalışılırdı. “Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında” 1948-ci il tarixli qərardan sonra 1943-1944-cü illərdə çap olunan “Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi” kitabı tənqidə məruz qaldı. Kitabın redaktorlarının təqibə məruz qalmasının səbəbi klassik irsə olan münasibətlə bağlı idi. İki cilddən ibarət olan kitabın birinci cildində ən qədim dövrdən başlayaraq, XIX əsrə qədər olan dövr təqdim olunurdu.

Əsrin əvvəllərindən başlayan ideoloji təsirlərə baxmayaraq, ədəbiyyatda elmi yaradıcılıq axtarışları aparılırdı. 60-70-ci illərdə ədəbi prosesdə baş verən yumşalma, demokratik meyllərin inkişafı ədəbi tənqidin və ədəbiyyatşünaslığın itirilmiş müstəqilliyini qismən geri qaytardı. Xüsusilə Sov.İKP MK-nin “Ədəbi bədii tənqid haqqında” 1972-ci il tarixli qərarı ədəbiyyatşünaslar qarşısında yeni yaradıcılıq vəzifələri qoyurdu. Bu illərdə klassik irsin tədqiqinə xüsusi diqqət yetirən Məsud Əlioğlu “Yüksək hisslər lirikası”, “Füzulinin eşqi”, “Füzuli və Üzeyir”, “Füzuli və müasir ədəbiyyatşünaslığımız”, “Dahi Azərbaycan şairi” “M.F.Axundov və Şərq” məqalələrini yazmışdır.

Məsud Əlioğlu klassik irsin təhlilində yeni çalarlar axtarırdı. Onların Azərbaycan ədəbiyyatında yerini müəyyənləşdirmək onun əsas yaradıcılıq meyarını əhatə edirdi. *“Nizami möcüzədir – insanlığın mənəvi kainatında! Əqlin və zəkanın*

*hökmran olduğu, qəlbin və hissiyyatın həqiqət naminə çırpındığı və fikirsizlik zülmətinə qarşı mübarizə apardığı bir aləmin möcüzəsidir"* [56], *"Füzuli bizim mənəviyyatımızdır"* [43] cümlələri onların sənətkarlığının ideya-estetik qatını dolğunluğu ilə göstərirdi. Məqalələrdə sadəlik, obyektivlik, aydınlıqla yanaşı, hər şeydən əvvəl tənqidçinin elmi-nəzəri təhlil, bədiyyat və ümumiləşdirmə qabiliyyəti duyulmaqdadır.

"Füzulinin eşqi" məqaləsini "Füzuli bizim mənəviyyatımızdır" cümləsi ilə başlayan tədqiqatçı şairin lirikasının aparıcı mövzularına diqqəti cəlb edirdi. Məsud Əlioğlu ədəbiyyatşünaslığımızda uzun müddət mübahisəli hesab edilən Füzuli yaradıcılığında eşqin mahiyyəti məsələsinə toxunurdu. Tənqidçi "Nizaminin məhəbbəti" məqaləsində də "eşq" məfhumunun mahiyyətini açmağa çalışırdı. İki ayrı-ayrı məqalədə hər iki şairin yaradıcılığında əsas mövzu olan eşq anlayışını düzgün təhlil süzgəcindən keçirməyi bacarırdı. "Yüksək hisslər lirikası" məqaləsində Nizami lirikasında eşqin dünyəvi xarakter daşıdığını qeyd edir və bu anlayışın əsas meyarının gözəllik olduğunu vurğulayırdı. "Füzulinin eşqi" məqaləsində isə eşqin real mənası ilə yanaşı, fəlsəfi məzmununu da açmağa çalışır, Füzuli yaradıcılığının əsas mövzusu olan eşqi ağlın açarı sayırdı. Onun qənaətincə, Füzuli eşq dedikdə insanı kamilliyə çatdıran həyat idealını nəzərdə tuturdu. Bununla da müəllif Füzulinin bədii-fəlsəfi konsepsiyasını, yaradıcılığının sufi mahiyyətini düzgün qiymətləndirə bilmişdir: *"Təfəkkür-düşüncə etibarilə püxtələşməyənlər, şəxsiyyətcə kamilliyə çatmayanlar məhəbbətin ecazkar mənasını – mahiyyətini anlaya bilməzlər"* [43].

Məsud Əlioğlu Füzuli yaradıcılığında eşq problemini qiymətləndirərkən, kədəri bu anlayışdan ayırmır. Füzuli kədərinin fəlsəfi izahını verirdi. O göstərirdi ki, bu kədərin mahiyyətində acizlik, bədbinlik əlaməti yoxdur: *"Füzulinin kədəri insan idealı ilə ictimai varlıq, insan diləkləri ilə real həyat arasındakı uyğunsuzluqdan, uçurumlardan doğan odlu bir fəryadın ifadəsidir"* [40, s.56]. Nizaminin məhəbbət lirikasının həyatiliyi üzərində geniş dayanan tənqidçi bu lirikanın fəlsəfi qayəsini, Nizami kədərinin mahiyyətini açmağa çalışırdı: *"Şirin məhəbbət lirikasında ara-sıra təsadüf edilən kədər notları eşqdə vüsala yetməməkdən, ayrılıqda hicran əzablarından doğan güclü bir intibahın əlamətləri kimi ümumiləşir"* [56].

Tənqidçi şairin yaradıcılığının fəlsəfəsini izah edərkən "Leyli və Məcnun" əsəri üzərində dayanırdı. Poemanın fəlsəfəsinin açılmasında kədər anlayışının vacibliyini diqqət mərkəzinə çəkirdi. Onun fikrincə, poemada kədər o qədər qüvvətlidir ki, Məcnun və Leyli eşqi real həyatın dibindən zəka nurunun sakin olduğu yüksəkliyə qaldıra bilirlər. Əsərin qəhrəmanları ona görə idealın fövqünə ucalırlar ki, onlar eşqin fədakarlıq olduğunu dərk edirlər: *"Məcnun – "eşq fədakarlıqdır" əqidəsinin və Leyli – "eşq özünü sevməməkdir" fikrinin təcəssümü kimi həmin idealın fövqünə ucalırlar"* [43].

Məqalədə müəllifin Füzulinin milli mənsubiyyəti məsələsinə toxunması da ədəbiyyatşünaslığımızda mühüm bir hadisədir. Əsrin əvvəllərində Sovet rejiminin tarixdən silməyə çalışdığı "azərbaycanlı" sözünü Məsud Əlioğlu heç kimdən çəkinmədən qeyd edir və bununla da, qəlbi şəxsiyyətin kamilliyi üçün döyünən Füzulinin azərbaycanlı olması ilə fəxr edirdi. Məqalənin sonunda Məsud Əlioğlu Füzulini "insanlığın mənəvi kainatı" kimi xarakterizə edir, elmi təfəkkürün Füzuli dühasını təhlil etməkdə aciz qaldığını söyləyir və onun irsinin kəşf edilməmiş bir möcüzə olduğunu vurğulayırdı.

Tənqidçi "Füzuli və Üzeyir" məqaləsində isə Füzuli şeirinin fəlsəfi-idraki dəyərini dahi bəstəkar Üzeyir Hacıbəyovun musiqi dili ilə necə ifadə etməsinə diqqəti cəlb edirdi. Müəllif göstərir ki, hər iki sənətkarın yaradıcılıq fəlsəfəsi, fikir dərinliyi, Füzuli poeziyasındakı fikrin atəşi ilə Üzeyir musiqisində gözəlliyin zinəti vəhdətdə olduğu üçün qüvvətli sənət əsərləri ortaya çıxmışdır. O, Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operasında Leylinin, Məcnunun, Leylinin anasının, İbn Səlamın, Məcnunun atasının, Nofəlin, "Arşın mal alan"da Əsgərin və Gülçöhrənin, "O olmasın, bu olsun"da Gülnazla Sərvərin oxuduqları duetlərdə Füzuli qəzəllərinin psixoloji ifadə vasitəsinə çevrilməsini yüksək qiymətləndirirdi: *"Füzuli şeirinin fəlsəfə-bədii qaynaqlarının elmi idrakın məntiqinə əsasən şərhi ilə yanaşı, musiqi lisanı ilə təbliği və izahı da əsaslı bir məsələdir ki, bu işdə musiqi dühası Üzeyir Hacıbəyovun xidməti misilsizdir"* [40, s.60].

Tədqiqatçının bu məqalədə uğuru ondan ibarətdir ki, o, musiqi nəzəriyyəsinin müddəalarını Füzuli qəzəli ilə Üzeyir bəstəsinin vəhdəti əsasında elmi əsaslarla sübut

etməyə çalışırdı. “Leyli və Məcnun” operasının yazılması Füzuli şeirinin Üzeyir Hacıbəyov yaradıcılığının əsas ilham mənbəyi olduğu faktını təsdiq edirdi. Tənqidçi poemanın və operanın təhlili fonunda Füzulinin məhəbbət konsepsiyasını araşdırarkən Qeys obrazını məhəbbət azadlığının timsalı kimi təqdim etmişdir. “Arşın mal alan” operettasında Füzuli lirikasının həyatsevərlik xüsusiyyətlərinə bəstəkarın diqqət yetirməsi Məsud Əlioğlunun təqdir etdiyi məqamlardandır. Məsud Əlioğlu Füzuli qəzəllərinin mayasına hopmuş fəlsəfi kədərin “O olmasın, bu olsun”, “Arşın mal alan” kimi komedik əsərlərdə necə ifadə olunması məsələsinə aydınlıq gətirirdi. Belə bir fikir irəli sürürdü ki, Üzeyir qəhrəmanların daxili aləmini ifadə edən qəzəlləri uğurlu muğam parçaları seçməklə komik əsərə uyğunlaşdırmışdır. “O olmasın, bu olsun” operettasında Sərvərlə Gülnazın dueti Füzulinin “Sor” rədifli qəzəli ilə segah muğamında ifadə edilmişdir. Araşdırmaçı segah muğamının mahiyyətinə hopan məhəbbət hissinin Füzuli şeirinin təsir gücünə necə də yaraşdığını göstərməyə çalışmışdır. Eyni zamanda muğamın 7 pərdəsinin (Rast, Şur, Segah, Şüştər, Çahargah, Bayatı-Şiraz, Humayın) Füzuli qəzəllərinin mahiyyətinə uyğunluğunu araşdırmış, bununla işini bitmiş hesab etməmiş, hər bir muğamın mahiyyətini açmışdır:

- Rast mərdlik hissi oyadır
- Şur şənlik əhval-ruhiyyəsi yaradır
- Segah məhəbbət hissi gücləndirir
- Şüştər kədər duyğusu aşılayır
- Çahargah həyəcan yaradır
- Bayatı-Şiraz qəmginlik gətirir
- Humayın dərin qüssə yaradır

Tənqidçinin Füzuli şeiri ilə Üzeyir musiqisini bir-birinə bağlamasının bir səbəbi var idi: Təkrarolunmaz nadir incilər yaratmaq. Düşündürən poeziya ilə təsirli musiqi birləşdiyi yerdə ölməz sənət nümunələri yaranır.

“Azərbaycan” jurnalının 1958-ci ildəki 12-ci sayı Məhəmməd Füzulinin vəfatının 400 illiyinə həsr olunmuşdur. Mirzə İbrahimov, Məmməd Cəfər Cəfərov, Həmid Araslı, Kamil Mirbağırov, Cəfər Xəndan, Mir Cəlal, Sədi Əfəndiyev,

Məmmədəli Əsgərov, Əsəd Yaqubinin Füzuli yaradıcılığının müxtəlif məsələlərini əhatə edən məqalələri jurnalda çap olunmuşdur. Jurnalın bu sayında dərc olunan Məsud Əlioğlunun "Füzuli və müasir ədəbiyyatşünaslığımız" məqaləsində Füzuli yaradıcılığının öyrənilməsi prosesində mühüm bir addım idi. Tənqidçinin bu məsələyə aydınlıq gətirməsi digər bütün məqalələrin yekunu demək idi. Füzuli irsinin öyrənilməsinin əhəmiyyətinə tənqidçinin bu sözləri aydınlıq gətirirdi: *"Füzulini öyrənmək, xalqı öyrənmək deməkdir, Füzulini anlamaq, insanlığı dərk etmək deməkdir, Füzulini duymaq və izah etmək, bəşər mədəniyyətinə çox qiymətli incilər vermiş, zəngin və qədim mədəniyyətə sahib olan böyük bir xalqın poeziyasını öyrənmək deməkdir"* [139, s.112].

O, Füzuli irsinin öyrənilməsini iki istiqamətə bölürdü. Birinci istiqamətin nümayəndələri şairin yaradıcılığının elmi-tarixi tədqiqi ilə məşğul olanlar, ikinci istiqamət isə yalnız sənətkarlıq xüsusiyyətlərini araşdıranlardır. Məsud Əlioğlu onun irsinin elmi istiqamətdə öyrənilməsi işində Həmid Araslının və Mir Cəlalın əməyini yüksək qiymətləndirirdi. Tənqidçi Həmid Araslının tədqiqat əsərlərini Füzuli haqqında məlumat verən ilk mənbə adlandırırdı. Müəllif Həmid Araslının əsərlərinin əhəmiyyətini onda görürdü ki, o, şairin yaşayıb-yaratdığı dövrü, tarixi hadisələri elmi dəlillər əsasında təhlil edirdi. Məsud Əlioğlu Füzuli irsinə münasibətdə Həmid Araslı ilə Mir Cəlal tədqiqatları arasında olan fərqi müqayisə edir və belə nəticəyə gəlirdi ki, Həmid Araslı şairin yaradıcılığının elmi-tarixi tədqiqatı ilə məşğul olmuş, Mir Cəlal isə Füzuliyə yaradıcı bir şəxsiyyət kimi baxmışdır. Tədqiqatçı düzgün olaraq göstərirdi ki, Mir Cəlal öz əsərlərində Füzuli poeziyasının həyat eşqini, fikirlərindəki dərinliyi, forma xüsusiyyətlərini obyektiv təhlil edə bilmişdir. Füzuli yaradacılığının ikinci istiqaməti üzrə araşdırılmasında Əziz Mirəhmədovun, Məmməd Cəfər Cəfərov və Mirzə İbrahimovun tədqiqatlarını yüksək dəyərləndirirdi. Məmməd Cəfər Cəfərovun "Füzuli sevir" məqaləsində Füzulinin şəxsiyyətində, yaradıcılığında xalqın varlığını, vüqarını axtarmasını tədqiqatçının uğuru hesab edirdi. Məsud Əlioğlu Əkbər Ağayevin "Böyük lirik" adlı məqaləsində irəli sürülən fikirlərlə razılaşmırdı. O, Əkbər Ağayevin Füzulinin eşq fəlsəfəsini idealist adlandırmasını, şairin lirik qəhrəmanlarının həyatın ziddiyyətlərini izah edə bilmədiyi üçün bədbinləşdiyi fikrini

düzgün hesab etmir, bu müddəaların Füzuli yaradıcılığına uyuşmadığını irəli sürürdü. Onu qeyd edək ki, Məsud Əlioğlu bu məqamda yanlışlığa yol verir. Çünki Füzulinin görüşləri üçün idealist fəlsəfə səciyyəvi idi.

Məsud Əlioğlunun klassiklərə münasibətdə Füzuli yaradıcılığına müraciət etməsinin səbəbi Füzuli dühasının fəlsəfi dərki məsələsidir. Əsrlərin sınağından qalib çıxan Füzuli şeirinin dərk edilməzliyi, Füzuli möcüzəsinin poetik izahının çətinliyi, ümumiyyətlə Füzuli şeirinin mənəvi fikir qaynağı tənqidçinin bu qənaətə gəlməsinə şərait yaratmışdır: *"Füzuli çox düşünülmüş, çox araşdırılmış və çox tədqiq olunmuşdur. Bununla belə onun qüdrətli sənətində, qələmindən süzülüb gələn titrək, yanıqlı, düşündürücü, nikbin, şaqraq və cingiltili şeir damlalarında hələ də kəşf edilməmiş mənalar və sehirli rənglər vardır"* [48, s.5].

Beləliklə, hər bir məqalədə Məsud Əlioğlu Füzuli irsinin vacib məsələlərinə toxunur, ədəbiyyatşünaslığımız üçün aktual olan problemlərə aydınlıq gətirirdi. Heç təsadüfü deyil ki, Azər Turan tənqidçi haqqında belə yazırdı: *"Məsud Əlioğlu Azərbaycan ədəbiyyatşünaslığının qumsallığına eşq və kədər yağmuru kimi yağdı"* [122]. Bu sözlər təsdiq edirdi ki, onun klassik irslə bağlı yazdığı məqalələrin başlıca tədqiqat obyekti eşq və kədərdir. Biz bu məqalələrdə eşqin və kədərin müxtəlif çalarları ilə tanış ola bilərik. Onun tənqidçilik fəaliyyətində Füzuli, Natəvan, Vidadi yaradıcılığı bu kontekstindən təhlil olunurdu. "Natəvanın kədəri" məqaləsində tənqidçi kədər motivini Natəvanın bədii yaradıcılığı və şəxsi həyatının vəhdətində axtarır, bunun nəticəsində humanist sənətkar, kədərli ana, kövrək şairə obrazı yaranırdı. Şairənin şeirində kədərin iki amillə (ictimai və subyektiv) bağlamaqla bu lirikanın üsyankar ruhunu qabarda bilirdi. Vidadinin lirikasında kədər motivinə toxunan tənqidçi "xalq kədəri" fikrini irəli sürməklə şairin kədər anlayışını subyektivlikdən uzaqlaşdırır, bu kədərdə tərki-dünyalıq görmürdü.

Məsud Əlioğlu Molla Pənah Vaqif yaradıcılığına başqa aspektdən yanaşır, şeirin poeziyasının mayasına hopmuş gözəllik anlayışına aydınlıq gətirirdi. Şairin anadan olmasının 250 illiyi münasibətilə yazdığı "Vaqif sevirdi, Vaqif sevilir" başlıqlı məqaləsi sənətkarın Azərbaycan ədəbiyyatında mövqeyini təsdiq edirdi. Məqalənin adı şairinə verilən diqqət və qayğıdan irəli gəlirdi: *"Xalq tərəfindən*

*sevilən, ehtiramla xatırlanan və hörmətlə yad edilən sənətkar – xalqı sevən, ürək telləri, ruhi aləmi və pak vicdanı ilə xalqa mənsub olan sənətkardır. Şairə belə bir səadət nəsib olmuşdur"* [40, s.236]. Xalq tərəfindən sevilən Vaqifin poeziyasının dörd problem ətrafında təhlili göstərir ki, XIX əsrdə yenilikçi şair kimliyi yetişmişdir. Bu problemləri aşağıdakı şəkildə bölgüsü şairin yaradıcılığının xəlqi mahiyyətini üzə çıxarırdı:

- Gözəllik anlayışının bədii-estetik dərki
- Xalq danışıq dilində yazı tərzi
- Azərbaycan qadınlığının real cizgilərinin təsviri
- Dövrün haqsızlığına qarşı etiraz motivi

Vaqifin gözəllik anlayışının mənasını realizmə bağlanması, qadınlığa münasibətdə milli kolorit məsələsinin işlənməsi ümumi bir məqsədə xidmət edirdi: Vaqifin xalqla bağlılığının təsdiqinə. Vaqifin "gözəllik" anlayışının xoşbəxtlik və təmizlik məfhumları ilə eyniləşdirilməsi bu anlayışın cismani və estetik meyarını üzə çıxarırdı. "Gözəllik tükənməzdir" deməklə Vaqifin həyatsevərlik fəlsəfəsini açmağa çalışır, "Toy bayramdır bu dünyanın əzabı" misrasına istinad edərək şairin nikbinlik əhval-ruhiyəsinin estetik mahiyyətinə toxunurdu.

Azərbaycan ədəbiyyatında Şərq və Qərbi birləşdirən körpü dedikdə Mirzə Fətəli Axundzadə yada düşür. Ona qədər maarifçilər Şərq kontekstindən və formalarından ayrıla bilmir və yalnız Axundzadənin yaradıcılığı ilə bədii düşüncə Qərb kontekstinə daxil olur. Məsud Əlioğlu "Axundov və Şərq" məqaləsində onun Şərq mədəniyyətinə verdiyi dəyəri yüksək qiymətləndirirdi. *"Filoloji fikrimiz bu böyük, zəngin mənəvi irsə müraciət etməklə bir tərəfdən yeni şəraitdə tənqid və ədəbiyyatşünaslığımızın klassik irs konsepsiyasını formalaşdırır və onu istiqamətləndirirsə, digər tərəfdən yeni milli ədəbiyyat tarixlərinin yaranması üçün ilkin zəmin hazırlayırdı"* [101, s.136-137]. Tənqidçi dramaturqun Şərqə münasibət məsələsində üç prinsipi əsas götürdüyünü irəli sürürdü:

1. Mirzə Fətəli Axundzadə Şərqin tarixi keçmişi, mədəniyyəti, mənəvi xüsusiyyətlərindən tarixi konkretlik əsasında bəhs edir.

2. Dramaturq Şərqdə hökm sürən ədalətsiz quruluşu aradan qaldırmağın, despotizmə son qoymağın yollarını axtarır.

3. O, Şərqin tərəqqisinə kömək edən səbəbləri araşdırır, fikir azadlığının məhdudlaşdırılmasının Şərqi yüksəlişə doğru deyil, geriyə apardığını irəli sürür.

Bu üç prinsip Mirzə Fətəli Axundzadə yaradıcılığının əsas məqamlarını üzə çıxarmışdır. Məsud Əlioğlunun Mirzə Fətəli Axundzadəni Şərqi düşünən, Şərqin taleyi ilə maraqlanan klassik mütəfəkkir kimi təhlili sənətkarın yaradıcılığına verilən dəyərin göstəricisi idi. Dramaturqun Şərq mədəniyyətinə vurğunluğu, Firdovsi, Sədi, Hafiz yaradıcılığına sevgisi tənqidçinin qələminin əsas hədəfi olmuşdur. O, Axundzadə şəxsiyyətinin realist xarakterini Şərqin keçmiş tarixindən çox müasir vəziyyəti ilə maraqlanması faktoruna bağlamışdır.

Məsud Əlioğlu Mirzə Fətəli Axundzadənin “Kəmalüddövlə məktubları” və “Aldanmış kəvakib” əsərləri əsasında nasirin dövlət quruluşu haqqında fikirlərini təhlil edərkən gəldiyi nəticədə anlaşılmazlıqlar vardır. O, Axundzadənin islahatçılıq yolu tutmasını sadəlövhlük kimi qiymətləndirmiş, yalnız dövlət quruluşunda müəyyən dəyişikliklər aparmağın tərəfdarı kimi səciyyələndirmişdir. Digər tərəfdən Yusif Sərracın obrazını təhlil edərkən Mirzə Fətəli Axundzadənin əsərin sonunda despotizmin ləğvinin labüdlüyü məsələsini qaldırdığı fikrini müdafiə etməsi əvvəlki fikrini təkzib etmişdir. Tənqidçi fikrini əsərdəki Adəm və Həvvanın cənnətdən qovulması ilə bağlı verilən hissədən sitat gətirməklə əsaslandırmışdır. Yəni, zülmə öyrəşmiş, istismarı qanuni hal kimi qəbul etmiş insanı doğru yola gətirmək üçün mövcud quruluşu dəyişmək lazımdır. Mirzə Fətəli Axundzadənin maarifçi yolu tutması təbii idi. Məsud Əlioğlu isə Mirzə Fətəli Axundzadə yaradıcılığında inqilabi əhval-ruhiyyə axtarmaqla sosialist realizminin prinsiplərinin tətbiqinə çalışmışdır.

Tənqidçi öz fikirlərində Şərqin mədəniyyətinin geridə qalmasının, öz əvvəlki qüdrətini itirən Şərqin mədəni tərəqqinin inkişafı ilə ayaqlaşa bilməməsinin səbəbini iki amillə – daxili və xarici amillə izah edirdi. Daxili amil kimi dövlət quruluşundakı köhnəlmiş adət-ənənələri, xarici amil kimi Şərqin asılı vəziyyətdə qalmasına şərait yaradan Qərbin müstəmləkəçilik siyasətini göstərirdi. Onun fikrincə, Mirzə Fətəli Axundzadənin imperializmin Şərqdə yaratdığı müstəmləkəçilik siyasətindən xəbəri

yox idi. Bu qənaət Məsud Əlioğlunun öz fikirlərində dolaşıqlığa yol verdiyini əsaslı şəkildə göstərirdi. Çünki Mirzə Fətəli Axundzadə yalnız ədəbi sima deyildi. İctimai xadim kimi dəyərləndirilən nasirin haqqında söylənilən bu fikir reallığı əks etdirmirdi. Açıqfikirli bir şəxsiyyət olması, dövlət qulluğunda çalışması, "Kəmalüddövlə məktubları" fəlsəfi traktatında qaldırdığı problemlər tənqidçinin bu fikirlərini təkzib edirdi.

Şərq və Qərb probleminin tədqiqat obyektinə çevrilməsinə XIX əsrin axırlarından başlanılmışdır. Qərbin Şərq mədəniyyətinə marağı daha qabarıq şəkildə bu dövrdən özünü göstərməyə başlayırdı. Fridrix fon Bodenştetin Şərq tarixini, mədəniyyətini, etnoqrafiyasını öyrənmək marağı, Mirzə Şəfi Vazeh yaradıcılığına verdiyi dəyər bunu sübut edirdi. Bu proses qarşılıqlı şəkildə təzahür edir, Şərqdə də yeni dünyagörüş formalaşmağa başlayır, Qərb mədəniyyəti öyrənilirdi. Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundzadə Qərbin mədəniyyətinə dərindən bələd idi. Bu ikitərəfli prosesi Mirzə Fətəli Axundzadə öz dramlarında təsvir edir və yüksək qiymətləndirirdi. Mirzə ağanın pyesləri haqqında kritika yazan Mirzə Fətəli Axundzadə roman və dram janrının Şərq ədəbiyyatında oynaya biləcəyi rolu diqqət mərkəzinə çəkirdi. Məsud Əlioğlunun fikrincə, dramaturqun Mirzə Ağaya fransızların roman janrını öyrənməyi məsləhət görməsi onun vətənpərvər bir ziyalı olduğunu sübut edirdi. Çünki Azərbaycan ədəbiyyatına yeni tipli nəsrin gəlişi vacib idi. Mirzə Fətəli Axundzadə yaxşı dərk edirdi ki, qəzəl epiqonçuluğu, mərsiyə ədəbiyyatı, nəsihətçilik yolu Şərq ədəbiyyatının inkişafına kömək etməyəcək. Deməli, dramaturq Şərqin gələcək inkişafı üçün Qərb nümunəsinə əsasən realist nəsrin formalaşması məsələsini irəli sürürdü. O belə hesab edirdi ki, Şərqin orta çağ qaranlığından qurtuluş yolu özündə deyil, Qərbdədir.

Şərqin gələcəyini düşünən Mirzə Fətəli Axundzadənin yaradıcılıq tendensiyasının üç məsələ ətrafında sistemləşdirilməsi Məsud Əlioğlunun dramaturqun irsinə vətəndaşlıq mövqeyindən yanaşdığını göstərirdi:

1) Şərq xalqlarının zehninin məşğul edən cəhalətin şüurlardan təmizləmək, onlara vətənpərvərlik fikrini aşılamaq

2) Şərq xalqlarını həyat mübarizəsində fəal səviyəyə çatdırmaq üçün nəsihət yolunu unudub, tənqid əhval-ruhiyyəsini gücləndirmək

3) Şərq xalqlarının fitri istedadına üstünlük vermək

Məsud Əlioğlunun "Axundov və Şərq" məqaləsini yazmasının real aspektləri vardır. Belə ki, 30-cu illərdə ədəbi tənqid dramaturqun yaradıcılığında Qərb meylini həddindən artıq şişirdirdi. Onu da qeyd edək ki, Mirzə Fətəli Axundzadənin Qərb fəlsəfi fikrinə olan münasibəti "Kəmalüddövlə məktubları", "Aldanmış kəvakib" və dram əsərlərində açıq şəkildə özünü göstərirdi. Məsud Əlioğlu haqlı olaraq, Mirzə Fətəli Axundzadənin Qərbə münasibəti haqqında belə bir ideyanı irəli sürürdü ki, Şərq öz tarixi keçmişinə sadiq qalmaqla, Qərbin elmi sahədə əldə etdiyi yenilikləri mənimsəməyə çalışmalıdır. Tənqidçi ədibin sözlərini qeyd etməklə onun Şərqə olan münasibətinə tam aydınlıq gətirmiş olur: *"M.F.Axundov Şərqi xatırlayarkən ürəkdən qopan atəşin ruh yüksəkliyi, dərin iftixar hissi ilə deyirdi: "Deməliyəm ki, mənim xalqımın fitri istedadı ümumi Avropa xalqlarının fitri istedadından əskik deyil, qat-qat artıqdır"* [55, s.19].

Şərq və Qərb sivilizasiyasının tarixi kökləri çox qədimlərə gedib çıxır. Bəzən Qərbin nailiyyətləri Şərqin yanında əsassız olaraq şişirdilir, bəzən də Qərbin Şərqdən bəhrələndiyi ön plana çəkilir. Qərb sivilizasiyasının formalaşmasına iki əsas mənbə – mədəniyyət və incəsənət təsir göstərmişdir ki, bu hər iki mənbə Şərqlə bağlıdır. Qərb Şərqin ixtiralarından, elmi kəşflərindən, yeniliklərindən faydalanmışdır. Buna görə də Şərq və Qərb mədəniyyəti vəhdət şəklində dəyərləndirilməli, onların bir-birinə olan təsiri nəzərə alınmalıdır. Çünki Şərq mədəniyyəti ənənəviliyin, Qərb isə müasirliyin göstəricisi kimi səciyyələnir. Qədimlik müasirliklə birləşdiyi yerdə Şərq-Qərb düşüncə tərzi ortaya çıxır.

Sovet dövrü ədəbi tənqidində klassik irs problemi tənqidçilərin diqqətini cəlb etmişdir. İki mərhələdə səciyyələnən sovet tənqidinin klassik irsə marağının səbəbi birinci mərhələnin ideoloji qatının kəskinliyi ilə əlaqədar idi. 1920-ci ildə Trotski, Plexanov, Piksakov, Nişanov, Voronski, Kubikov klassik irsin tədqiqini əsas hesab etmişdilər. Bununla belə, marksist estetika ədəbiyyatım fəlsəfəsinin açılmasına əhəmiyyət verməmiş, bu istiqamətdə aparılan tədqiqatların qarşısını almışdır. Birinci

mərhələdə onlara verilən yanlış dəyərin nəticəsi idi ki, ikinci mərhələdə Nizami, Füzuli, Mirzə Fətəli Axundzadə yaradıcılığının fəlsəfəsini üzə çıxarmaq əsas məqsəd olmuşdur. Xüsusilə, bu müstəvidə Məsud Əlioğlunun klassik irsə yanaşma tərzi diqqəti cəlb edir. Tənqidçi klassiklərin yaradıcılığındakı eşq və kədər fəlsəfəsinin açılmasına müasirlik mövqeyindən yanaşmışdır. Bu mövzuda yazılan məqalələrdə onun elmi təhlil bacarığı nəzərə çarpırdı. Bu tipli məqalələrin yazılmasında ortaq bir təfəkkür tərzi ortaya çıxırdı: hərarətli, ürəyi vətəni üçün çırpınan, klassik mədəniyyətin ənənələrinə bağlı tənqidçi qələmi. Məsud Əlioğlu Nizami, Məhəmməd Füzuli, Natəvan, Vidadi, Vaqif yaradıcılığının təhlili ilə bir tənqidçi kimi vacib bir missiyanı yerinə yetirmişdir: Xalqı sevmək və öz keçmişini qorumaq. Buna görə də bu tədqiqatların Azərbaycan ədəbiyyatı tarixində xüsusi yeri və rolu vardır.

### 3.2. Məsud Əlioğlunun elmi-nəzəri irsində realizm və romantizm problemlərinə müasir elmi baxış

Azərbaycan ədəbiyyatında realizmin inkişaf dinamikası, tipologiyası, təsnifi problemləri bütün dövrlərdə aktuallığını qoruyub saxlamışdır. Maarifçi realizm, tənqidi realizm və sosialist realizmi istilahlarını əhatə edən realizmin kökləri Vaqif yaradıcılığının ənənələri ilə bağlı idi. *"Molla Pənah Vaqifin realizmi Azərbaycan ədəbiyyatında realizm ədəbi cərəyanının müqəddiməsidir"* [68]. Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Mirzə Şəfi Vazeh, Qasım bəy Zakir yaradıcılığı ilə ilkin inkişaf mərhələsinə qədəm qoyan maarifçi realizm XIX əsrin ortalarında Mirzə Fətəli Axundzadə yaradıcılığı ilə yüksək zirvəsinə çatmış, yeni bir keyfiyyət mərhələsinə daxil olmuşdur. XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında tənqidi realizmin ilkin izlərinin Cəlil Məmmədquluzadə yaradıcılığında göründüyü bir zamanda maarifçi realizm son mərhələsini yaşayırdı. Nəriman Nərimanov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov simasında bu yaradıcılıq metodu süqut mərhələsinə qədəm qoymuşdur.

Publisist, dramaturq və nasir kimi Azərbaycan ədəbiyyatında tanınan Cəlil Məmmədquluzadə istər şəxsiyyəti, istərsə də yaradıcılığı ilə ədəbi ictimaiyyətin

diqqətini cəlb etmişdir. Firidun bəy Köçərli, Hənəfi Zeynallı, Əli Nazim, Mirzə İbrahimov, Məmməd Cəfər Cəfərov, Əziz Mirəhmədov, Yaşar Qarayev, İsa Həbibbəyli və başqaları onun əsərləri haqqında müxtəlif fikirlər irəli sürmüşdür. Ədibin həyat və fəaliyyətinə həsr olunan böyük həcmli əsərlərdən Əli Nazimin "Cəlil Məmmədquluzadə" monoqrafiyası bu işdə ilk addım hesab edilə bilər.

Ədibin bədii irsini sistemli şəkildə tədqiqata cəlb edən alimlərimizdən Məsud Əlioğlunun bu sahədəki fəaliyyəti xüsusən seçilirdi. O, Cəlil Məmmədquluzadə yaradıcılığını 3 istiqamətdə araşdırırdı:

1) dramaturq kimi;

2) hekayə ustası kimi;

3) publisist kimi.

Tədqiqatçı 1954-cü ildə "Cəlil Məmmədquluzadənin dramaturgiyası" monoqrafiyasını yazmışdır. Deyə bilərik ki, ilk dəfə dramaturqun komediyalarının tədqiqata cəlb edilməsi Məsud Əlioğluya məxsusdur. O, qəlbi xalqı üçün döyünən sənətkarın "Molla Nəsrəddin" jurnalında "Sizi deyib gəlmişəm" müraciətini ədəbiyyat səhnəsinə böyük bir ədibin gəlişi kimi dəyərləndirir, bu gəlişin tarixi əhəmiyyətini yüksək qiymətləndirirdi: *"Bu günün nəzəri-estetik səviyyəsindən və müasir zövq anlayışından yanaşıldıqda ədibin dram əsərlərində hələ də çox az toxunulan, zəif işıqlandırılan elə maraqlı və orijinal xüsusiyyətlər tapmaq mümkündür ki, bunların şərhi və qiymətləndirilməsi sayəsində Mirzə Cəlili qüdrətli dramaturq olaraq yenidən tanımaq mümkündür"* [40, s.93].

Dramaturqun komediyalarını ayrı-ayrılıqda tədqiqata cəlb edən müəllif rus realist ədəbiyyatın onun yaradıcılığına təsirini görür, Qoqolu Cəlil Məmmədquluzadənin müəllimi adlandırırdı. Tədqiqatçı Qoqol yaradıcılığının həyata sadiqlik, xəlqilik, təhkimçilik sisteminə qarşı nifrət kimi xüsusiyyətlərinin dramaturqun fəaliyyətinə təsirini qeyd etməklə, onun yaradıcılıq istiqamətini doğru müstəvidə təhlil edirdi. Onu da qeyd edək ki, müəllifin irəli sürdüyü bu problemlər tənqidi realizm metodunun sənətkardan tələb etdiyi əsas məsələlər idi: *"Ümumiyyətlə, Qoqol yaradıcılığı C.Məmmədquluzadə üçün sənətkarlıq məktəbi olmuşdur"* [77, s.137].

Məsud Əlioğlunun fikrincə, Cəlil Məmmədquluzadə rus ədəbiyyatının sənətkarlıq məsələlərini öyrənməklə kifayətlənmir, eyni zamanda rus mədəniyyətinin təbliğatçısı kimi çıxış edirdi. Onun "Papaslar", "Zəncir", "Filosoflar", "Elmi musiqi" kimi məqalələrində rus mədəniyyətinə sevgisini göstərməklə belə nəticəyə gəlirdi ki, Cəlil Məmmədquluzadə komediyalarının mayasında Qoqolun komediyalarının təsiri var. Ədibin "Qurbanəli bəy" hekayəsində verdiyi "Allah sənə rəhmət eləsin, Qoqol" epiqrafı həm tənqidçinin fikirlərini, həm də dramaturqun rus ədibinin yaradıcılığına sevgisini və marağını göstərirdi.

Dramaturqun "Ölülər" əsərini təhlil edən müəllif cəmiyyətin inkişafına ciddi şəkildə mənfi təsir göstərən fanatizmi ortaya çıxarırdı. Buna xidmət edənlər "Allahu əkbər" sözü ilə din pərdəsi altında xalqı faydalı işlərdən uzaqlaşdırır, gücsüz bir qula çevirirdi. Fanatizmin hökm sürdüyü bir cəmiyyətdə "Ölü diriltmə" əhvalatı üzərində süjet xəttinin qurulması Cəlil Məmmədquluzadənin satirik qabiliyyətini, ictimai mühitin nöqsanlarını vaxtında görmə bacarığını göstərirdi. Tədqiqatçı əsəri dövrün ictimai eyiblərinə qarşı yönəlmiş ən kəskin silah hesab edirdi.

Tənqidçi Hacı Həsən surətini təhlilə cəlb edərkən ikili fikir irəli sürürdü. O, bir tərəfdən ölü diriltmə əhvalatına Hacı Həsənin bir möcüzə kimi baxdığını, digər tərəfdən isə Şeyxə şəkk gətirdiyi üçün özünü günaha batmış hesab etdiyini vurğulayırdı. Əslində, Hacı Həsənin dilindən Kərbəlayı Fatma xanıma ünvanlanan *"Bilmirəm dirildəcək ya diriltməyəcək. O bağlıdır allahın iltifatına. Mənim özümün də ağlım çaşıb; heç bilmirəm nə cür diriləcək?"* [84, c.1, s.396] cümlələri dramaturqun obrazlarda qismən də olsa, tərəddüd hissini qələmə aldığını üzə çıxarırdı. Lakin bu oyanış deyil. Obrazın qəlbində baş qaldıran bu sualı susduran müəyyən səbəblər vardır ki, tənqidçi bu məsələni düzgün şərh edirdi: *"Hacı Həsən beynində baş qaldırmış bu sualı dərhal boğur, susdurur, dinin ehkamlarından çıxış edərək, bu "möcüzəyə" izahat verməyə başlayır: "Allahın qüdrətindən heç bir şey uzaq deyil və bir də ölü özbaşına deyil ki, əlbəttə, onu bir dirildən var"* [154, s.142].

Xalqın beynində özünə yer tutan fanatizmlə mübarizə aparmaq çətindir. Məsud Əlioğlu bu problemi doğru izah edərək bu nəticəyə gəlirdi ki, bu proses birdən-birə yaranmamışdır. Uşaqlıqdan mühitin tərbiyəsi beyinlərdə o qədər möhkəm həkk

olmuşdur ki, cəmiyyəti qəflət yuxusundan oyatmaq çətin bir problem olaraq qalmışdır.

Diri ölülər mühitinə kefli İsgəndərin daxil olması dramaturqun uğurudur. Çünki onun "kefli" şəkildə oxucuya təqdim olunması simvolik bir mahiyyət daşıyır. Tənqidçi bu simvolikanın düzgün izahını verirdi: *"O biri tərəfdən dramaturq bu cahil və avam adamların, şeyxin və fanatiklərin qarşısına təkcə İsgəndəri çıxarmaqla sanki demək istəyir: görün din və cəhalət sizi nə günə qoymuşdur ki, kefli İsgəndər sizdən ayıq oldu, Şeyx Nəsrullanın fırıldağını əvvəlcədən sizə xəbər verdi, amma siz nadancasına "ölü diriltmək" möcüzəsinə inandınız!"* [136, s.38].

Məsud Əlioğlu obrazın təhlilinə iki tərəfdən yanaşır. Bir tərəfdən İsgəndər surətinin bu şəkildə qələmə alınmasına haqq qazandırır, yaşadığı cəmiyyətdə tək olduğunu vurğulayır, mübarizəsinin insanların şüurunda yaratdığı yenilikləri diqqətə çatdırırdı. Eyni zamanda, Şeyx Nəsrullahın daxili eybəcərliyini yaxşı başa düşən İsgəndərin "Mən bir heçəm" deməsini, onun öz fikirlərində ardıcıl olmamasını, özünə inanmamasını, yalnız kinayəli sözlər deməklə işini bitmiş hesab etməsini, fəal olmamasını obrazın zəif tərəfləri kimi qeyd edirdi: *"İsgəndər əməli iş görə bilməyən, hadisələrin gedişini öz müdaxiləsi, öz fəaliyyəti ilə dəyişdirə bilməyən passiv protestçidir. Bu zəifliklərinə baxmayaraq, İskəndər müəllifin məhəbbətlə yaratdığı canlı və dolğun bir surətdir"* [136, s.44].

Hüseyn İsrafilov "Ölülər" monoqrafiyasında Məsud Əlioğlunun İsgəndərlə bağlı fikirləri ilə razılaşmır, onu "passiv protestçi" kimi adlandırmasını obrazı qiymətdən salmaq kimi dəyərləndirirdi. Belə nəticəyə gəlirdi ki, İsgəndər Ezop dili ilə danışır, Məsud Əlioğlunun əsərdə satira sənətkarlığını aydınlaşdıra bilməməsini monoqrafiyanın nöqsanlı cəhəti kimi qeyd edirdi: *"Cəlil Məmmədquluzadə onu mənsub olduğu təbəqəyə xas olan bütün məhdudluğu, həyəcanları, şəraitdən doğan məyusluğu ilə verir. İsgəndərin məhdudluğu gərgin sinfi-ideoloji vuruşmalara hələ hazır olmayan, döyüşlərdə bərkiməmiş, təcrübə qazanmamış, vaxtı keçmiş ənənələri vurub dağıtmaq istəyən, buna daxili bir qüvvə, tələbat hiss edən, lakin öz təkliyini, gücsüzlüyünü və acizliyini də hiss edən gəncliyin məhdudluğu idi"* [79, s.110].

Əslində Məsud Əlioğlunun fikirləri İsgəndər obrazının mahiyyətini tam şəkildə açsa da, müəyyən qədər razılaşmadığımız məqamlar da vardır. Belə ki, beyni fanatizmlə dolmuş insanları doğru yola çəkmək, onlarda yenilik duyğusunu aşılamaq çətin bir işdir. Belə bir şəraitdə onun kinayəli sözlər işlətməklə xalqı oyatmağa çalışmasından başqa çarəsi yoxdur. Həm də İsgəndərin rəqibi Şeyx Nəsrullah güclü obraz kimi təsvir edilir. Bu obrazın yaradılması ilə Cəlil Məmmədquluzadə ictimai mühitin əsl mahiyyətini üzə çıxara bilmişdir. Belə ki, mahir bir fırıldaqçı olan Şeyx fəaliyyət göstərdiyi mühitin iç üzünü yaxşı bilir, buna uyğun hərəkət edir, pulun hökm sürdüyü bir cəmiyyətdə insanlar arasında olan münasibətləri, mühitin yetişdirdiyi psixologiyanı yaxşı dərk edir. Şeyx Nəsrullah çirkin mühiti bütün çılpaqlığı ilə göstərməyə xidmət edən obraz səviyyəsinə yüksəlir. Canlı ölülərin murdar işlərinin əsl mahiyyətini Şeyxin gəlişi üzə çıxarır. Buna görə də deyə bilərik ki, bu obraz dramaturqun ciddi axtarışlarının nəticəsidir.

Bununla belə, tədqiqatçı Azərbaycan ədəbiyyatında "Ölülər" əsəri qədər qüvvətli və həyati konfliktin mövcud olduğu ikinci bir komediya tanımırdı. Cəlil Məmmədquluzadənin yaradıcılığından qırmızı xətt kimi keçən bir mövzu varsa da, o da "ana dili" məsələsidir. O, "Ölülər", "Dəli yığıncağı" və "Danabaş kəndinin məktəbi" əsərlərində bu və ya digər dərəcə də ana dili probleminin həlli yollarını göstərmişdir. "Anamın kitabı" pyesi isə ana dilini unudanların, öz dilinin saflığını, təmizliyini korlayanların, öz doğma elindən ayrı düşənlərin məhdud dünyagörüşlərini göstərən tragikomik bir əsərdir. Məsud Əlioğlu "Anamın kitabı" əsərinin üç fərqli əqidəyə qulluq edən qəhrəmanını ayrı-ayrılıqda təhlil edir, hər bir obrazın fərdi cizgilərini üzə çıxarmağa çalışırdı. Maraqlıdır ki, tənqidçi Rüstəm bəy obrazını digər qardaşlardan üstün hesab edir, dramaturqun az-çox bu qardaşa rəğbət bəslədiyini vurğulayırdı. Rüstəm bəyin anasının qarşısında günahını etiraf edib üzr istəməsini, qadın məsələsinə münasibətini, çobanlara faydalı məsləhət verməsini müəllifin obrazın digər qardaşlardan üstün olduğunu göstərmək üçün istifadə etdiyi incə vasitələr kimi göstərirdi. Tədqiqatçı bununla kifayətlənmir, obrazın nöqsanlarını da qeyd edir, Rüstəm bəyin xalqdan uzaq olmasının səbəbini, Rüstəm bəyə aid olan rus dilində lüğətin əsərə dramaturq tərəfindən təsadüfi salınmadığını, müəllifin xüsusi

məqsədinin olduğunu vurğulayırdı: *"Bu siyahı göstərir ki, Rüstəm bəy öz elmi və ictimai fəaliyyətində günün tələblərini, xalqın vəziyyətini nəzərə ala bilən bir xadim səviyyəsinə yüksəlməmişdir. Bu siyahı göstərir ki, Rüstəm bəy qabaqcıl rus mütəfəkkirlərinin və yazıçılarının əsərləri ilə tanış deyildir. Onun ictimai fəaliyyət meydanındakı qeyri-ardıcıllığı, xalqdan uzaqlığı məhz bu məhdud düşüncə tərzindən, dar dünyagörüşündən irəli gəlir"* [136, s.69-70].

Məsud Əlioğlunun Səməd Vahidə münasibəti daha sərtdir. O belə hesab edir ki, Səməd Vahidin ailədə rolu müəyyən deyildir. Tənqidçinin fikrincə, Cəlil Məmmədquluzadənin əsas tənqid hədəfi Səməd Vahid və onun təbliğ etdiyi ideologiyadır: *"Yazıçı burada mühüm bir məsələyə toxunmuşdur. Məlumdur ki, xalqına və doğma yurduna xəyanət edənlərin bir hissəsi ədəbiyyat cızmaqaraçıları idi və onların məfkurə mənbələri Türkiyə dekadent ədəbiyyatı və şeiri idi"* [136, s.74].

XX əsrin əvvəllərində Hüseyn Cavid, Məhəmməd Hadi şeirləri dekadent ədəbiyyat nümunələri kimi təqdim edilirdi. Məsud Əlioğlu dekadent ədəbiyyatı dedikdə, romantik məktəbin nümayəndələrini nəzərdə tuturdu. Tənqidçinin bu qənaəti reallığı əks etdirmirdi. Çünki Səməd Vahidin dekadent şeiri ilə əlaqəsi yox idi. Bu şəkildə yanaşma marksist tənqidin dekadentizmə qarşı yönəlmiş realist xarakteri ilə bağlı idi. Dekadentizmin ədəbiyyatı gerçəklikdən uzaqlaşdırması, fərdiyyətçiliyi sosialist realizmi metodunun mahiyyətinə uyğun gəlmirdi. *"Romantik idealların çöküşü ardınca ruhun tənhalığını, son problematikasını, dekadans durumunu gətirmiş olur. XX əsrin əvvəllərində H.Cavid, M.Hadi, M.Müşfiq, Ə.Cavad şeirlərindəki bədbin çalarlar həmin dekadansın əlamətləri idi"* [9, s.108]. Digər tərəfdən dekadentizmin "sənət sənət üçündür" ideyası romantizmin nümayəndələrinin dekadent ədəbiyyatın nümayəndələri kimi səciyyələndirilməsinə gətirib çıxarırdı. Əslində Hüseyn Cavid, Məhəmməd Hadi yaradıcılığında dekadans çalarlara təsadüf edilsə də, onlar dekadent ədəbiyyatın nümayəndəsi deyildirlər.

"Molla Nəsrəddin" jurnalının "Həyat" qəzeti, "Füyuzat" jurnalı ilə ana dili uğrunda apardığı mübarizəsinin bariz nümunəsi Səməd Vahid obrazı idi. *"Deməli, Cəlil Məmmədquluzadə heç də Əli bəy Hüseynzadənin ümumtürk ədəbi dili yaratmaq ideyasına qarşı çıxmamışdır. Bununla belə, ana dilinin saflığı uğrunda ardıcıl*

*mübarizə aparan ədib füyuzatçıların dilində alınma sözlərin çoxluğunu, qəliz ibarəli ifadələrin yerli-yersiz işlədilməsini tənqid etmişdir. Belə sözlərə isə "Füyuzat" məcmuəsindəki yazılarda sıx-sıx rast gəlinirdi"* [70, s.280].

Məmməd Cəfər Cəfərov Cəlil Məmmədquluzadə tərəfindən Səməd Vahid obrazının satira atəşinə tutulmasını təsadüfi hadisə hesab etmir, dramaturqun uzun müddət apardığı mübarizənin davamı kimi qeyd edərək yazırdı: *"Cəlil Məmmədquluzadə bu incə mətləbi aydın dərk ediyi üçündür ki, ədəbi-bədii dildə xəlqilik uğrunda mübarizəyə mühüm əhəmiyyəti olan məfkurə mübarizəsi kimi baxırdı"* [30, s.46].

Məsud Əlioğlu dramaturqun əsərlərini araşdırarkən hər bir əsərin əsas ideya istiqamətini ortaya çıxarmağa çalışır, uzun-uzadı təhlildən uzaqlaşıb, əsərin əsas məğzini izah etməyi qarşısına məqsəd qoyurdu. Tədqiqatçı "Danabaş kəndinin məktəbi" əsərini araşdırarkən komediyanın sonunda işlənən *"Uçenie svet, neuçenie tma"* [84, c.1, s.520] sözlərinin işlənməsini əsərin əsas istiqamətini başa düşmək üçün kifayət etdiyini vurğulayırdı. Əsərin təhlilinə başlamazdan əvvəl müəllif maraqlı bir fikir ortaya atırdı: "Qorxmaq xəstəliyi". Nədir bu qorxmaq xəstəliyi? Xalqı itaət altında saxlayan, ayılmağa qoymayan, zülm və əsarətin qol-qanad açmasına şərait yaradan, sərbəst və azad yaşayışın inkişafına mane olan şiddətli bir azar, acizlik nümunəsidir.

Məsud Əlioğlu belə nəticəyə gəlirdi ki, Cəlil Məmmədquluzadənin əsəri yazmaqda məqsədi xalqın qorxu xəstəliyinin səbəblərini üzə çıxarmaqdan ibarət olmuşdur. Bu həqiqətən də belədir. Amma tənqidçi əsərin əsas konfliktini təşkil edən çarizmin ruslaşdırma siyasəti ilə yerli əhalinin buna qarşı etirazını düzgün qiymətləndirməyi unudurdu. Uşaqlıqdan beyinlərə həkk olmuş bu xəstəliyin müalicəsi yalnız cəhalətin hökm sürdüyü cəmiyyətin inkişafı ilə mümkündür. Elmin, maarifin xeyrini başa düşməyən, "məktəb" sözündən qorxuya düşən bir xalqın inkişafı yalnız təhsilin əhəmiyyətini başa düşən, bu tərbiyədən xəbərdar olan insanların sayəsində mümkündür ki, bu ağır yük müəllimlərin öhdəsinə düşür. Müəllim Həsənov Danabaş kəndinə elmin əhəmiyyətini xalqa çatdırmaq üçün gəlmişdir. Böyük bir vəzifəni öhdəsinə götürən müəllim nə qədər xoş niyyətli,

xeyirxah bir məqsədə qulluq etsə də, müəyyən qədər də qüsurları var idi. Haqlı olaraq, Məsud Əlioğlu bunun səbəbini onun xalqdan ayrı düşməsində görürdü. Onu da qeyd edək ki, tənqidçi obrazın müsbət keyfiyyətlərini də təhlil etməyi unutmurdu: *"Lakin bütün zəifliklərinə baxmayaraq Həsənov komediyada müsbət və orijinal bir obrazdır ki, nadanlıq və geriliyin əleyhdarı, elm və mədəniyyəti dost tutan bir insan kimi çıxış edir"* [136, s.57-58].

Bununla belə, cəhalətin izini kənddən silməyə çalışan bir müəllimin xalqın ana dilində danışa bilməməsi əsərin böyük problemləri əhatə etdiyini, "qorxmaq xəstəliyi"nin köklərinin dərin olduğunu ortaya çıxarırdı. "Qorxmaq xəstəliyi" rus məmurlarının hakimlik ideyası əsasında xalqın beynində tarixən formalaşdırdığı təhlükəli hadisə qarşısında keçirdiyi həyəcanın nəticəsi idi.

Tənqidçi "Danabaş kəndinin məktəbi" əsərini dramaturqun "Ölülər" əsəri ilə müqayisə edərək belə qənaətə gəlir ki, obrazların inkişaf dinamikasına baxdıqda Hümmətəli, Məşədi Ağakişi, Kəblə Mirzalı kimi surətlər şüurca Hacı Həsən və Məşədi Oruc kimi obrazlardan daha fəaldır, işin mahiyyətini bilməyə can atır, düşündürücü suallar verirlər. Bu fikirlərlə razılaşaraq deyə bilərik ki, "Danabaş kəndinin məktəbi" əsərinin qəhrəmanları cəhalətin məskən saldığı bir cəmiyyətdə oyanmağa, şüurca inkişaf etməyə meyillidirlər. Bununla belə tənqidçi surətlərin dinamikasına baxmayaraq, üstünlüyü "Ölülər" əsərinə verirdi.

Əsərin hər bir obrazına diqqətli şəkildə yanaşan müəllif qazi, Molla Mövlamverdi, Pirverdi bəy kimi mənfi personajların xarakterini də açır, hər birinin obraz səviyyəsində cizgilərinə xüsusi fikir verirdi. Məktəb məsələsindən istifadə edib xalqı istismar etməyə çalışan qazi surəti, yeni açılan məktəbdə dərs deyib, on iki manat yarım maaş təklifi alan yaltaq Molla Mövlamverdi, xalqı şallaq gücünə itaətdə saxlayan yüzbaşı Pirverdi bəy obrazına dramaturqun yanaşma tərzi bir tədqiqatçı kimi Məsud Əlioğlunun marağına səbəb olmuşdur. O, Pirverdi bəy obrazını Cəlil Məmmədquluzadənin digər əsərlərinin qəhrəmanları olan Qurbanəli bəy və Xudayar bəy obrazlarına bənzədir, bu iki obraz arasında keçid təşkil etdiyini irəli sürürdü. Amma onu da qeyd edək ki, Pirverdi bəy bu iki obrazdan fərqli olaraq bədii tip səviyyəsinə yüksələ bilmir.

Cəlil Məmmədquluzadə irihəcmli dram yaradıcılığını ölülər aləmi ilə başlayıb dəlilər aləmi ilə davam etdirir. Daşıdığı ideyaya görə "Dəli yığıncağı" əsəri bu gün də tədqiqatçıların diqqətini cəlb edir. Azərbaycançılıq məfkurəsi, Azərbaycan dili problemi, milli kökə bağlılıq dramaturqun yaradıcılığının hər bir sahəsində müəyyən qədər özünə yer almışdır ki, bu əsərdə həmin problemlərin bədii əksini görmək mümkündür. Məsud Əlioğlunun yazdığı kimi, *""Dəli yığıncağı" – acı həyatın mənalı bir təzahürü, canlı əksidir"* [136, s.90]. Tənqidçi bu əsəri ideya-istiqaməti cəhətdən "Ölülər" əsərinin əkizi hesab edirdi. Ümumiyyətlə, irəli sürülən problemlər nəzərə alsaq, deyə bilərik ki, Cəlil Məmmədquluzadənin dram əsərlərində qaldırılan problemlər bir-birinə bənzəyir. Bununla belə, problemlərin həlli yollarının fərqli şəkildə diqqətə çatdırılması dramaturqun əvəzedilməz bir istedada malik olduğunu üzə çıxarır.

Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatında kiçik hekayə janrının ən gözəl nümunələrini yaratmışdır. Məsud Əlioğlu nasirin böyüklüyünü onda görürdü ki, nasir adi məsələlərin arxasında duran böyük həqiqətləri, dərin problemləri əks etdirməyi bacarırdı. Qurbanəli bəy obrazının yaddaşlardan silinməməsinin səbəbini sənətkarın adi əhvalatlarda ölməz sənət nümunələri yaratması ilə izah edirdi. Onun "Poçt qutusu", "Usta Zeynal", "İki qardaş", "İki alma", "Buz", "İranda Hürriyyət", "Quzu" hekayələrini geniş şəkildə təhlil obyektinə çevirməsə də, əsərlərin ideya istiqamətini düzgün qiymətləndirir və müəllifin hekayə yaradıcılığı haqqında doğru qərara gəlirdi: *"Kompozisiya bitkinliyi, süjet xəttinin ardıcıllığı və hadisələrin reallığı bir daha sübut edir ki, yazıçı həmişə həqiqətə və təbiiliyə sadiq qalmışdır"*[134].

Yazıçının sovet dövründə yazdığı hekayələri ayrıca tədqiqata cəlb edən ədəbiyyatşünas onun bu dövr yaradıcılığında əvvəlki yaradıcılıq prinsiplərinə sadiq qaldığını vurğulayırdı. Onu da qeyd edək ki, tənqidçi onun 1920-30-cu illərdə yazdığı "Hamballar", "Buz", "Yan tütəyi" kimi bəzi hekayələrini yumoristik novellalar səpkisində yazılmış əsərlər kimi qiymətləndirir, toxunulan məsələlərin böyük əhəmiyyət daşımadığını, dövrün vacib məsələləri fonunda xırda məsələlərə geniş yer verildiyi fikrini irəli sürürdü: *"Ümumiyyətlə, C.Məmmədquluzadə bu illərdə (1920-1930) həyatın həlledici, vacib problemlərinə qarşı bir növ laqeydlik göstərirdi. O təzə*

*epoxanın və dövrün əlamətlərini tədricən dərk edirdi"* [47, s.108]. Məsud Əlioğlu bu dövrdə yazılmış yalnız iki hekayəsini –"Bəlkə də qaytardılar" və "Proletar şairi" hekayələrini ideya-məzmununa görə yüksək hesab edirdi.

Cəlil Məmmədquluzadə öz dövrünün sənətkarı kimi ictimai mühitin hadisələrini obrazlı şəkildə ifadə etməyə çalışırdı. Məsud Əlioğlu "Molla Nəsrəddinin xələfi" məqaləsində yazıçının surətlər aləminə toxunur, onları ümumi bir ad altında – "əzilən və təhqir edilən" surətlər silsiləsi kimi qeyd edirdi. Maraqlıdır ki, tənqidçi müəllifin yalnız müsbət obrazlarını nəzərdə tuturdu. O, bu silsilə altında dörd qrupu müəyyənləşdirirdi:

1. "Məğrur ziyalılar"
2. "Zəhmətkeş kəndlilər"
3. "Sadəlövh qadınlar"
4. "Məsum uşaqlar".

Onu da qeyd edək ki, Mir Cəlal Paşayev də "Cəlil Məmmədquluzadənin sənətkarlıq xüsusiyyətləri" məqaləsində onun bədii qəhrəmanlarının bölgüsü məsələsinə toxunur, onları üç qrupda sistemləşdirirdi:

*"1 – Zalimlar, istismarçılar, köhnə dünya adamları.*

*2 – Məzlumlar, zəhmətkeşlər, kütlə nümayəndələri (əsasən kəndli və əsnaf). Bu qrup surətlər müəllifin əsas surətləridir.*

*3 – Qəhrəmanlar, öz hüquqları uğrunda, zülm və zorakiliyə qarşı çıxanlar, gələcəyin adamları!"* [109, s.142].

Mir Cəlal Paşayev və Məsud Əlioğlunun fikirlərində oxşarlıq ondan ibarətdir ki, onlar üstünlüyü zəhmətkeş kütləyə, balaca adamlara verirdi.

Müxtəlif tədqiqatçılar tərəfindən Cəlil Məmmədquluzadə yaradıcılığı müxtəlif sözlərlə diqqət mərkəzinə çəkilmişdir. "Həqiqət carçısı", "Xalq sənətkarı", "Böyük demokrat" kimi epitetlərin sırasına Məsud Əlioğlu yeni bir məfhum daxil edir: "Psixoloq sənətkar". Xalqın dərdinə yanan, qəlbi elin işıqlı gələcəyi üçün çırpınan sənətkar şəxsiyyəti bu ifadədən düzgün anlayışla vəsf edilə bilməz. Həqiqətən, onun yaradıcılığına nəzər yetirdikdə, Azərbaycan kəndlisinin vəziyyəti, kənd həyatı, kəndlinin acınacaqlı taleyi, dözülməz vəziyyəti, ağır iqtisadi durumu, psixologiyası

canlı səhnələrlə təsvir edilmişdir. Onun yaradıcılığı üçün səciyyəvi olan orijinal xüsusiyyətlərdən ən vacibi kəndlinin psixoloji durumunu, keçirdiyi hissləri həyati faktorlarla üzə çıxara bilməsidir. Cəlil Məmmədquluzadə yaradıcılığının bütün dövrlərində obrazların daxili aləmini açan gözəl sənət nümunələri ortaya çıxarmışdır. Məsud Əlioğlu buna görə də ədibin orijinallığını onda görürdü ki, sənətkar satirik məqamları lirik haşiyələrlə birləşdirməyi bacarır və belə nəticəyə gəlirdi ki, lirik və romantik haşiyələr vasitəsilə müsbət qəhrəmanların daxili aləmini düzgün şərh edə bilmiş, bütün bunların sayəsində Cəlil Məmmədquluzadənin realist – düşündürücü sənətini milli hüdudların çərçivəsindən kənara çıxıb ümumbəşəri məqama qaldırmışdır.

Cəlil Məmmədquluzadə yaradıcılığı Azərbaycan ədəbiyyatında özünüdərk, milli oyanış məktəbidir. Onun haqqında yazılan hər bir tədqiqat əsərinin ədəbiyyatşünaslığımız üçün əhəmiyyəti böyükdür. Buna görə də "Cəlil Məmmədquluzadənin dramaturgiyası" monoqrafiyası və məqalələri onun ölməz irsinin araşdırılması istiqamətində diqqətəlayiq bir hadisədir.

XX əsrin əvvəllərində tənqidi realizm ilə eyni vaxtda romantizm də bir ədəbi cərəyan kimi ortaya çıxmışdır. Lakin marksist estetikanın əsas yaradıcılıq metodu realizm olduğu üçün romantizm fəlsəfi sisteminə, onun nümayəndələrinə ögey münasibət uzun müddət davam etmişdir. Məhəmməd Hadi, Hüseyn Cavid və Abdulla Şaiq yaradıcılığı kölgədə qalmışdır. Bu münasibətin davamı kimi Əziz Mirəhmədovun Məhəmməd Hadi haqqında yazdığı tədqiqat işi qəbul edilmir. Belə bir şəraitdə romantizmin tədqiqata cəlb edilməsi mühüm bir hadisə idi. Bu cəhətdən Hənəfi Zeynallının Hüseyn Cavid yaradıcılığı haqqında məqalələrinin həm romantizmin prinsiplərinin müəyyənləşməsində, həm də dramaturqun yaradıcılığının araşdırılmasında əhəmiyyəti böyükdür.

50-ci illərdən başlayaraq romantizmin tədqiqinə maraq artmışdır. Mir Cəlal Paşayevin, Mikayıl Rəfilinin, Kamal Talıbzadənin tədqiqatları romantik ədəbiyyatın nümayəndələrinin öyrənilməsində böyük rol oynamışdır. 60-70-ci illərdə "mürtəce", "mühafizəkar", "pantürkist", "panislamist", "xırda burjua şairi" kimi sözlərlə damğalanmış ədəbiyyat nümayəndələrinin üzərindən bu ağır yük qalxmağa başlayır

və romantizmin artıq estetik xüsusiyyətləri araşdırılır. Məmməd Cəfər Cəfərovun "Azərbaycan ədəbiyyatında romantizm" monoqrafiyası bu işdə ilk addımdır. Əziz Mirəhmədovun Məhəmməd Hadi haqqında yazdığı əsər yenidən çap olunur. Azərbaycan romantizminin dünya romantizmi kontekstində tədqiqində yeni mərhələ başlayır. Bu mərhələni formalaşdıran ədəbiyyatşünaslardan biri olan Məsud Əlioğlu Hüseyn Cavid yaradıcılığını tədqiqata cəlb etməklə onun romantizminə bəraət hüququnu verən tənqidçilər sırasına daxil olur. Belə ki, 1956-cı ildə çap olunan "Məhəbbətin qüdrəti" məqaləsi [148] bəraət hüququ alan Cavid yaradıcılığına ilk yanaşma idi. O, "Eşq və ülviyyət", "Zaman və şəxsiyyət", "H.Cavidin "Səyavuş" faciəsi haqqında", "Hüseyn Cavidin lirikası", "H.Cavidin şeirində fəlsəfi motivlər", "Cavidin demokratik idealları" adlı məqalələrində dramaturqun yaradıcılığı əsasında romantizmin ideya-estetik prinsiplərini aydınlaşdırmışdır. Onun bu tədqiqatları 1975-ci ildə çap olunan "Hüseyn Cavidin romantizmi" monoqrafiyasında sistemləşdirilmişdir. Onu da qeyd edək ki, Məsud Əlioğlu "Hüseyn Cavidin romantizmi" monoqrafiyasını "Cavid – sənətkar" adı altında çap olunmasını nəzərdə tutmuşdur. Onun 1968-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetinə verdiyi müsahibədə bu sözlərə təsadüf edirik: *"Azərbaycan romantik şerinin görkəmli nümayəndəsi Hüseyn Cavidin yaradıcılığı məni çoxdan bəri düşündürür. Hazırda "Cavid – sənətkar" monoqrafiyası üzərində işləyirəm. "Cavidin lirikası" bölməsini yazıb qurtarmışam. 1969-cu ilin axırına qədər əsəri tamamlamaq fikrim var"* [104]. Ancaq təəssüf ki, tənqidçi bu monoqrafiyanın çapını görə bilmir, monoqrafiya Yaşar Qarayevin redaktorluğu altında çap olunur. Həqiqətən də, tənqidçi Hüseyn Cavid yaradıcılığının araşdırılmasına 60-cı illərin əvvəllərindən başlamışdır. 1963-cü ilin 5 mart tarixində Hüseyn Cavidin anadan olmasının 80 illiyi münasibətilə Nizami adına Ədəbiyyat və Dil İnstitutunda keçirilən elmi sessiyada Məsud Əlioğlu "H.Cavidin humanizmi və demokratik fikirləri" mövzusunda məruzə ilə çıxış etmişdir. Hüseyn Cavidin 1968-ci ildə çap olunan seçilmiş əsərlərinin birinci cildinin giriş hissəsini də Məsud Əlioğlu yazmışdır.

Məsud Əlioğludan əvvəl də "Hüseyn Cavid" yaradıcılığı tədqiqata cəlb edilmişdir. *"60-cı illərdə sanki Cavidə qayıdış başladı. M.C.Cəfərovun "Hüseyn*

*Cavid" monoqrafiyası bu sahədə ən mühüm addımlardan biri oldu. Lakin romantizmin ruhu elmi-realistik üslubda tam açıla bilməzdi. Ona görə də, biz Cavidə qayıdışın ilk güclü dalğalarını ancaq Məsud Əlioğlu yaradıcılığında hiss edirik"* [73]. Məsud Əlioğlu onun romantik əsərlərini əsas tutaraq, tədqiqat obyektini konkretləşdirmiş, ədibin romantizmini xəyal və həqiqət, lirik qəhrəman və həyat, ideal və varlıq, qəhrəman şəxsiyyət, darıxan adamlar, eşq və ülviyyət, məhəbbətdir ən böyük din, təkliyin faciəsi, axtarış, ağıl və qəlb, şəxsiyyət və zaman, fatehin faciəsi problemləri ətrafında tədqiqata cəlb etmişdir.

Tənqidçi dramaturqun yaradıcılığının ideyalar aləminin, mövzu qaynaqlarının, sənətkarlıq xüsusiyyətlərinin, fəlsəfi qaynaqlarının araşdırılmasına xüsusi diqqət yetirmişdir. Onun şairin fəlsəfi şeirlərini üslub etibarilə dörd qismə bölməsi obyektiv görsənir: süjetli fəlsəfi lirika; monoloqvari şeirlər; nəsihətamiz parçalar; epik şeir növü olan poemalar. Hüseyn Cavidin poetik irsini xəyal və həqiqət, lirik qəhrəman və həyat, ideal və varlıq problemləri ətrafında təhlilə cəlb etməklə tənqidçi şairin romantizminin əsas xüsusiyyətlərini əhatə etmişdir. Məsud Əlioğlu şairin lirikasında "xəyal" obrazının işlənmə məqamlarını ətraflı araşdırır, onun "dadlı xəyal", "pərişan xəyal", "vərəmli xəyal", "uyuyan xəyal", "aşineyi xəyal" kimi müxtəlif mənalarda işlətdiyi bu obrazın ədibin həyata münasibətini açıq-aşkar göstərdiyini söyləyirdi. "Məsud və Şəfiqə", "İştə bir divanədən" kimi şeirlərində Hüseyn Cavidin idealını axtaran tənqidçi bunu xəyal və həqiqət problemi ilə bağlayır, şairin idealını gözəllik və eşqdə görürdü. Tənqidçi belə nəticəyə gəlir ki, Cavid kədəri xəyalla həqiqət arasındakı barışmaz ziddiyyətlərin rəmzi kimi ümumiləşdirir. "Bəşəri kədər" və "Müqəddəs insani kədər" anlayışlarının irəli sürülməsi onun Hüseyn Cavid yaradıcılığına dərindən bələd olduğunu ortaya çıxarırdı. O, "Bir qızın son fəryadı", "Qüruba qarşı", "Bilməm ki, mən", "Məyus bir qəlbin fəryadı", "Son baharda" adlı şeirlərdə bəşəri kədərin səbəbini ağılla hissin birləşə bilməməsində görür və bu da şairin fikirlərini tam əhatə edirdi.

Məsud Əlioğlu Cavidin lirik qəhrəmanını klassik aşiq obrazına bənzədir və belə nəticəyə gəlir ki, lirik qəhrəmanla şairin "mən" anlayışı birləşib, ədibin tərənnüm üsulunu ortaya çıxarırdı. Tənqidçi yalnız kədərli aşiq obrazı ilə maraqlanmır, Hüseyn

Cavidin digər qəhrəmanları olan uşaq və qadınların şairin yaradıcılığında işlənmə xüsusiyyətlərini də nəzərdən keçirir və bu məsələdə humanist baxışlarını ön plana çəkirdi.

Öz daxili ailəmi ilə dünyaya sığmayan, ümidsizlik içərisində çırpınan, həyatdan uzaqlaşıb tənhalığa çəkilən "darıxan adamlar"ın faciəsi Hüseyn Cavid yaradıcılığının əsas mövzuları sırasındadır. Heç təsadüfi deyil ki, bu məsələyə xüsusi diqqət yetirən Məsud Əlioğlunun "Darıxan adamlar" başlığı altında dramaturqun "Maral", "Şeyda", "Uçurum", "Afət" əsərlərində bu hissləri keçirən bədii qəhrəmanların duyğularının məişət hadisələri çərçivəsində boğulmasına aydınlıq gətirir, onların daxili aləmini açmağa çalışırdı. Tədqiqatçı "Maral" ilə "Afət" və "Şeyda" ilə "Uçurum" arasında ideya-mövzu baxımından yaxınlıq görürdü. "Maral" ilə "Afət" faciələrini bir-birinə yaxınlaşdıran daxili aləminə qapılıb, özünü tənha hiss edən qadınların taleyi məsələsidir. "Şeyda" ilə "Uçurum" əsərində isə başqa bir məsələ ortaya çıxır: sənətkarın və qəlbi xalqın gələcəyi üçün döyünən ziyalının taleyi. Hər iki mövzu romantizmin əsas problemləri sırasına daxil olur.

Məsud Əlioğlu Şeyda obrazının təsvirində ikilik görür, onun cəmiyyətin inkişafı üçün mübarizənin vacib olduğunu dərk etdiyi halda, tərəddüd keçirməsini, öz fikirlərində ardıcıl olmamasını, onun cəmiyyətdə artıq adama çevrilməsini diqqət mərkəzində saxlayır, bunun səbəbini romantik obrazın həyatla əlaqəsinin kəsilməsində görürdü. Obrazın təhlilində tənqidçinin fikirlərində dolaşıqlığa yol verdiyi üzə çıxırdı. O, bir tərəfdən Şeydanın bir mühərrir obrazı kimi kamil və təkmilləşmiş mərhələdə olduğunu söyləyir, digər tərəfdən isə obrazın fəlsəfi bir faciənin əsas qəhrəmanı səviyyəsinə yüksəlmədiyini deyirdi.

Tənqidçi bu əsərlərdə qəhrəmanların həyatında baş verən faciələrin səbəbini uçurumlarda axtarırdı. "Şeyda" əsərində obrazın faciəsinin səbəbini ziyalı ilə cahil cəmiyyət arasında yaranan uçurumda görürsə, "Afət" əsərində ağılla ürək arasında yaranan mənəvi uçurumu diqqət mərkəzinə çəkirdi. "Maral" əsərində isə romantik hislərlə burjua cəmiyyətinin əxlaq qaydaları arasında yaranan uçurum obrazın şəxsi faciəsinə gətirib çıxarırdı. O, insan idealı ilə ictimai varlıq arasında yaranmış dərin ziddiyyəti "Uçurum" faciəsinin ideyasının əsasında duran fəlakət rəmzi kimi

ümumiləşdirirdi. Öz kökündən qopan şəxsiyyətin mənəvi süqutunu, sənətkarın həyatla əlaqəsini kəsdikdə düşdüyü acınacaqlı vəziyyəti əsərin süjetini təşkil edən əsas motiv kimi qiymətləndirirdi. Onu da qeyd edək ki, *"Uçurum – romantizmin məşhur məqsədsizlik motivi ilə bağlıdır. Romantizmdə məqsədsizlik deyilən motiv adi real davranışın hüdudlarından kənara çıxan qavrayış formasıdır. İnsanın münasibətdə olduğu gündəlik gerçəkliklərlə qane ola bilməyən, onun dairəsini aşan məqsədlər romantizmdə məqsədsizlik kimi tanınmışdır"* [107, c.1, s.110].

Hüseyn Cavidin mövzular aləmini təhlil edən Məsud Əlioğlu onun yaradıcılığının türk romantizmindən, bu romantizmin ideya, mövzu və üslub xüsusiyyətlərindən qaynaqlandığını izah etməyə çalışmışdır. Tənqidçi Hüseyn Cavidin tarixi səpkidə yazdığı dramlarında Əbdülhəqq Hamidin, bəşəri fikirləri fəlsəfi üslubda tərənnüm edən əsərlərində Tofiq Fikrətin, vətənpərvərlik ruhunda yazılmış şeirlərində Namiq Kamalın yaradıcılığının təsiri olduğunu qeyd etmişdir. Hüseyn Cavid yaradıcılığında türk ədəbi mühitinin təsiri danılmazdır. Hələ 1926-cı ildə Hənəfi Zeynallı "Hüseyn Cavidin yazdığı "Peyğəmbər" haqqında mülahizələrim" məqaləsində Hüseyn Cavid yaradıcılığına türk ədiblərinin təsiri məsələsinə toxunmuşdur: *"Cavid əşkal cəhətdən nə qədər Hamidanə isə üslub cəhətdən Fikrətanə və fəlsəfə cəhətdən Tofiqanə bir əsər yaratmaq istəmişdir. Bəlkə yazarkən bu üç şairin heç birini düşünməmiş, fəqət bunların cızdığı dairə xaricinə də çıxmağa müvəffəq olmamışdır"* [26, s.20].

Hənəfi Zeynallı Hüseyn Cavid yaradıcılığına fəlsəfi cəhətdən Rza Tofiqin yaradıcılığının təsirinin olduğunu xüsusilə vurğulayırsa, Məsud Əlioğlu bu məsələdə Rza Tofiqin adını çəkmirdi. Onu da qeyd edək ki, Hüseyn Cavid Türkiyədə olarkən Rza Tofiq onun müəllimi olmuş, fəlsəfə və ədəbiyyat dərsi demişdir. Tənqidçi şairin fəlsəfi üslubda yazdığı şeirlərində Tofiq Fikrət şeirlərinin izlərinin olduğunu qeyd edirdi. O, Tofiq Fikrətin "Tarixi-qədim", "Millət Şərqisi", "Rucu" kimi əsərlərinin Hüseyn Cavid romantizminə təsirinin aydın hiss olunduğunu diqqət mərkəzinə çəkirdi. Hüseyn Cavid yaradıcılığında elə fikirlərə təsadüf edilir ki, həmin fikirlər Tofiq Fikrət yaradıcılığında da mövcuddur. Tofiq Fikrətin anasına ithaf etdiyi "Bacım üçün" şeirində belə bir misra var:

*Əlbət, degil nəsibi məzəllət qadınlığın,*

*Əlbət, deyil mələkliyin ümidini zülmü şər,*

*Əlbət, səfil olarsa qadın, alçalır bəşər* [64, s.69].

Hüseyn Cavidin "Peyğəmbər" əsərində Tofiq Fikrətin bu şeirdə irəli sürüdüyü fikirlərə təsadüf etmək mümkündür:

*Qadın gülərsə şu ıssız mühitimiz güləcək,*

*Sürüklənən bəşəriyyət qadınla yüksələcək...*[23, c.3, s.192].

Və ya Hüseyn Cavidin "Səyavuş" əsərində həmin fikirlər bu şəkildə ifadə olunmuşdur:

*Əvət, qadın incə xilqət,*

*Alçalırsa, hiçdir fəqət.*[24, c.4, s.185].

Tofiq Fikrətin "Tarixi-qədim" əsərində işlənən "Ən açıq hikmət: Əzməyən əzilir" misrası Hüseyn Cavidin "Məzlumlar için" şeirində aşağıdakı şəkildə işlənmişdir:

*Bir həqiqət: həqiqəti-zəncir,*

*Bir bəlağət: bəlağəti-şəmşir,*

*Həqq, demək, güclünün-şəririndir,*

*Ən açıq hikmət: əzməyən əzilir* [64, s.154].

*Yaşamaq istəsən çalış, çabala,*

*Rəd olub gurla, bərq olub parla,*

*Yoqsa fəryadü nalə zaiddir,*

*Bir həqiqətdir bu: "əzməyən əzilir"* [21, c.1, s.73].

Tofiq Fikrətlə Hüseyn Cavid yaradıcılığı arasında olan oxşarlıq yalnız misraların bir-birinə uyğunluğunda deyil, eyni zamanda mövzularda eyniliyin olmasındadır. Hər iki şairin lirikasında uşaq psixologiyasının, uşaq ruhunun problemləri özünəməxsus şəkildə əks olunmuşdur. Tofiq Fikrətin 1914-cü ildə çapdan çıxmış "Şərmin" şeirlər toplusu uşaqlara həsr olunmuş şeirlərdən ibarətdir. Onun "Şərmin balama", "Yetim", "Xəstə çocuq", "Mələkin quzusu", "Gəlin bahar", "Qırıq at", "İki yolçu", "Quşlarala yarış" kimi şeirlərində uşaq psixologiyası məsələsi

ön plana çəkilir. Hüseyn Cavidin də lirikasında uşaqların romantik dünyasını açan şeirlərə təsadüf olunur. Onun "Kiçik sərsəri", "Öksüz Ənvər", "Qız məktəbində", "Vərəmli qız" şeirlərində kimsəsizlik nəticəsində həyatın sərt üzünü görmüş yetimin taleyi tərənnüm olunur. Bu şeirləri diqqətlə nəzərdən keçirdikdə bu yaxınlığı görmək mümkündür. Hüseyn Cavidin "Öksüz Ənvər" şeiri ilə Tofiq Fikrətin "Yetim" şeiri, "Qız məktəbində" şeiri ilə "Şərmin balama" şeiri, "İlk bahar" şeiri ilə "Gəlin bahar" şeiri, "Vərəmli qız" şeiri ilə "Xəstə çocuq" şeiri arasında olan oxşarlıq tənqidçinin fikirlərini təsdiq edir. Hüseyn Cavidin "Qız məktəbində" şeirində Gülbaharın şairə dediyi "Bir qızın ancaq bilgidir, təmizlikdir zinəti" misrası Tofiq Fikrətin "Şərmin balama" şeirində başqa quruluşda Şərminə bu şəkildə ünvanlanmışdır:

*Öyrənərsən - hiss etmədən,*
*Zəhmət nədir, sənət nədir,*
*Böyüklərə hörmət nədir* [65, s.3].

Bu mövzu yaxınlığını türk ədibinin Hüseyn Cavid yaradıcılığına birbaşa təsiri kimi qiymətləndirmək düzgün olmaz. Çünki 1913-cü ildə çap olunan "Keçmiş günlər" şeirlər kitabının son şeiri olan "Qız məktəbində" şeiri Tofiq Fikrətin "Şərmin balama" şeirindən əvvəl yazılmışdır. Bu fakt sübut edir ki, belə mövzulara romantizm cərəyanının nümayəndələrinin yaradıcılığında görmək mümkündür: *"Məsumluq rəmzi olan körpələri və himayəsiz qalan könlü sınıq yetimləri öz əsərləri üçün qəhrəman seçərkən romantiklərin fəlsəfi-estetik prinsipləri bu olmuşdur ki, uşaqlar mənəvi paklığın və ruhi təmizliyin simvolu kimi humanist-romantik bədii məqsədin ifadəsi üçün daha müvafiqdirlər. İctimai həyatdakı ziddiyyətlərdən, real varlıqda hökm sürən rəzalətlərdən və insanlar arasında yaranmış qorxunc laqeydlikdən cana doyan romantik sənətkarların hamısı mənəvi təsəlli olaraq uşaqların qəlb dünyası, düşüncə və meyilləri ilə məşğul olmağa haqq qazandırmışlar"* [45, s.32].

Məsud Əlioğlu Əbdülhəqq Hamidlə Hüseyn Cavidin yaradıcılığını bir-birinə yaxınlaşdıran əsas cəhət kimi əsərlərində cərəyan edən hadisələrin tarixi fonunu diqqət mərkəzinə çəkmişdir. O, Əbdülhəqq Hamidin "Elxan", "Turhan", "Tariq", "Təzər", "Əşbər", "İbn Musa", "Fintən" kimi əsərlərinin təsirinin Hüseyn Cavidin tarixi səpkidə yazdığı dramlarda daha çox hiss olunduğunu qeyd etmişdir. Tənqidçi

bəşəri humanist ideyaları nüfuzlu tarixi şəxsiyyətlərin simasında əks etdirmək ənənəsinin Hüseyn Cavidlə yanaşı, Əbdülhəqq Hamidin də əsərlərində olduğunu vurğulamışdır. Onu da qeyd edək ki, onların yaxınlaşdıran yalnız tarixi səciyyəli mövzular deyildir. Qadının daxili dünyası, şəxsi azadlığı hər iki sənətkarın yaradıcılığında əsas mövzu olmuşdur. Enver Uzun "Hüseyn Cavid ve Türkiye edebiyyatı" adlı tədqiqat işində bu məsələyə belə aydınlıq gətirir: *"Türk romantizminin təsiri ən çox Hüseyn Caviddə özünü göstərir. Onun şeirlərində A.Hamitin təsiri estetik cəhətdən açıq bir şəkildə görünməklə bərabər, mənəvi və düşüncə tərzi ilə Cavid ətrafına sadiqdir"* [167, s.100].

Enver Uzunun bu sözləri sübut edir ki, Hüseyn Cavid nə qədər türk ədəbiyyatına bağlı olsa da, öz milli çərçivəsini unutmamışdır. Məsud Əlioğlu da bu cəhəti diqqət mərkəzində saxlamış, milli xüsusiyyətləri və türk ədəbiyyatının təsirini qarşılıqlı şəkildə araşdırmışdır. Buna görə də bu iki sənətkarın yaradıcılığı arasında olan fərqli cəhətlər də Məsud Əlioğlunun nəzərindən yayınmamış, fikri konkretlik və reallıq cəhətdən onun Əbdülhəqq Hamiddən fərqləndiyi fikrini irəli sürmüşdür. Onun fikirlərinə əsasən bu fərqləri belə müəyyənləşdirmək olar:

- Əbdülhəqq Hamidin mənzum dramlarından fərqli olaraq, Hüseyn Cavid uzaq tarixi keçmişlərdən, əfsanə və rəvayətlərdən aldığı mövzuları müasir səpkidə işləmişdir.
- Əbdülhəqq Hamidin mənzum dramları teatr sənətinin tələblərinə cavab vermədiyi halda, Hüseyn Cavidin dramlarının çoxu səhnələşdirilmişdir. Tənqidçi səbəb kimi Əbdülhəqq Hamidin dramlarının süjetinin mürəkkəb olduğunu, cərəyan edən hadisələrin çoxluğunu qeyd etmişdir.
- Əbdülhəqq Hamid dramlarının süjetini İslam tarixindən, Türkiyə mühitindən götürürsə, Hüseyn Cavid Şərq tarixində baş verən hadisələri mövzu seçmişdir.

Məsud Əlioğlunun irəli sürdüyü bu qənaətlər reallığı əks etdirməklə yanaşı mühüm bir cəhəti də göstərirdi. İlk dəfə idi ki, tənqidçi iki dramaturqun yaradıcılığında olan fərqləri üzə çıxarmağı bacarmışdır. *"Maraqlıdır ki, türk şeirinin dahilərindən biri olan Hamidin dramaturgiyasındakı kəsirlər barədə Məsud*

*Əlioğlunun 60-cı illərdə söylədiyi bu həqiqətlərə müasir Türkiyə ədəbiyyatşünaslığı daha geniş müstəvidə son onilliklərdə nəzər yetirməyə başlayıb”* [123].

Məsud Əlioğlu Hüseyn Cavidin vətənpərvərlik mövzusunda yazılmış əsərlərində Namiq Kamalın izlərini görürdü. Hüseyn Cavidin yaradıcılığını birbaşa Namiq Kamalla bağlamaq düzgün olmazdı. Namiq Kamalın “Vətən mərsiyəsi”, “Vətən şərqisi”, “Vətən türküsü”. “Hürriyyət qəsidəsi” şeirlərinin izləri Hüseyn Cavidin şeirlərində görünməkdədir. Xüsusilə, Vətən obrazının Sevgili rolunda təsviri hər iki sənətkarın yaradıcılığında rast gəlinir:

*Bana layiq görürsə əhli-qərəz,*
*Bənzətim yarımı çəmən gülünə.*
*Istəməm, versələr cihanı əvəz,*
*Dağınıq zülfünün kəsik telinə* [21, c.1, s.124].

*Fəminin rəngi əks edib teninə*
*Yeni açmış gülə misal olmuş*
*Initafiylə bax nə al olmuş*
*Sərvi-simin səfalı gərdəninə* [100, k.1, s.497].

XX əsrdə təhsil almaq üçün dünya ölkələrinə üz tutan gənclər həmin ölkənin mədəniyyəti, dövrün tanınmış ədiblərinin yaradıcılıqları ilə tanış olur və bu müəyyən dərəcə də onların həyatlarında və fikirlərində iz qoyurdu. Hüseyn Cavid də belə gənclərdən idi. O, 1905-1909-cu illərdə Türkiyədə təhsil almış, Əbdülhəqq Hamid, Namiq Kamal, Rza Tofiq kimi şəxsiyyətlərlə ünsiyyətdə olmuş, onların yaradıcılığı ilə tanış olmuş, bu mədəniyyəti mənimsəmişdir. Türk romantiklərinin Azərbaycan ədəbiyyatına təsiri tarixi şəraitlə əlaqədar idi. Romantizm bir cərəyan kimi Azərbaycandan əvvəl Türkiyə ədəbi mühitində formalaşmışdır. Azərbaycan ədəbiyyatşünaslığı üçün XX əsrin əvvəllərində yeni olan bu hadisə artıq Türkiyə ədəbiyyatında yüksəliş mərhələsini yaşayırdı və bu oxşarlıqlar təsirdən çox romantizm cərəyanının xüsusiyyətlərindən asılı olaraq irəli gəlirdi.

Türk romantik ədəbiyyatın Hüseyn Cavid yaradıcılığına təsiri məsələsinin araşdırılması göstərir ki, Məsud Əlioğlunun ədəbi əlaqələr problemini diqqət

mərkəzində saxlayan tənqidçi olmuşdur. Bu xüsusiyyət onun tənqidçilik istedadının universallığından irəli gəlir. Çünki *"müqayisəli ədəbiyyat mədəniyyətlərarası qarşılıqlı münasibətlərin ədəbi əsərlərə təsir edən istiqamətlərini araşdırmaqla, ədəbiyyat tarixinə, sosial tarixə və mədəniyyət dəyişikliyinin tarixinə işıq tutmaq məqsədi daşıyan bir sahədir"* [165, s.332]. Ədəbiyyatşünaslıq özünəməxsus mövzu və problemləri olan, bununla belə, dünya xalqlarının ədəbiyyatı və problemlərindən təcrid olunmayan, qarşılıqlı şəkildə inkişaf edən elmdir. *"Heç bir hadisə, heç bir ədəbiyyat digər hadisələr və ədəbiyyatlarla əlaqəsi olmadan kifayət qədər başa düşülə bilməz"* [176]. Buna görə də Azərbaycan romantizminin nümayəndələrini yalnız milli zəminlə təhlil etmək düzgün nəticə hasil etmir. Azərbaycan Türkiyə arasında ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni əlaqələrin tarixi çox qədimdir. Bu iki ölkənin dil və adət-ənənə baxımından bir-birinə yaxınlığı qarşılıqlı ikitərəfli münasibətlərin inkişafına öz müsbət nəticəsini göstərmişdir. Bu səbəblə, cərəyanların milli və beynəlxalq konteksini nəzərə almaq lazımdır.

Məsud Əlioğlu "Eşq və ülviyyət" başlığı altında Hüseyn Cavidin "Şeyx Sənan" faciəsini təhlil edirdi. O, üç əsas mövzunun faciənin ideyasının açılmasında mühüm əhəmiyyətə malik olduğunu deyirdi: müridlikdən mürşidliyə, məhəbbətin qələbəsi, haqq aşiqi. Tənqidçi obrazın mənəvi təkamül yolunun sufiliyin qaydalarına qarşı çıxıb, mütləq həqiqi eşq təliminin ideoloquna çevrildiyi andan başladığını vurğulayırdı. Əslində Şeyx Sənan mənsub olduğu əqidəsindən dönmür, onun həqiqətə çatma yolu məhəbbətdən keçir.

Şeyx Sənan bir bədii tip kimi üç mərhələdən keçir: mürşidlik dövrü, aşiqlik dövrü, məcnunluq dövrü. O, Xumara qədər Hüseyn Cavid yaradıcılığı üçün səciyyəvi olan spektisizm nəzəriyyəsinin təsiri altında olur. Hər şeyə şübhə ilə yanaşan obraz aşiqlik dövrünə keçdikdə yeni bir yola qədəm qoyur. Əsərdə həqiqət axtarışına çıxan yalnız Sənan deyil, haqq aşiqi olan Dəli Dərviş də həqiqət yolunu tapmağa çalışır. Tənqidçinin Sənanın həqiqəti məhəbbətdə, dərvişin isə təklikdə tapması barədə mülahizələri inandırıcı görsənir. Amma dərvişin "təklikdir ən müdrik həqiqət" müddəasının üzərində dayanmasına tənqidçinin baxışı fərqlidir. Məsud Əlioğlu dərvişin öz həqiqət yolunu təklikdə tapmasını öz əqidəsindən dönməsi kimi

mənalandırılması düzgün qənaət deyildir. Dərviş təsəvvüfün mərifət, şəriət, təriqət pilləsini keçir, həqiqət yolunda axtarışlara başlayır. Bu onun əqidəsindən dönməsi deyil, həqiqətə gedən yolda bir vasitədir. Tənqidçinin Sənanın Xumara olan sevgisi sayəsində şübhələrinə son verdiyi, həqiqəti tapdığı haqqında qənaəti qadın obrazını ideal eşqin təcəssümünə çevirir və sufizmin qadına yanaşma tərzini ortaya çıxarırdı. Qadına məhəbbət Tanrıya qovuşmaq vasitələrindən biridir.

Məsud Əlioğlu dərvişlə Sənanın rastlaşması səhnəsinə diqqəti yönəldir, həqiqət axtarışlarının bu obrazla bağlanmasını əsərin əsas ideyasının açdığını vurğulayırdı. Tənqidçi göstərir ki, Sənan dərvişin dəli vəziyyətinin səbəbini düzgün başa düşürdü. “Dəlidir, sözlərində məna var/ Sərsəridir, başında sevda var” misralarına istinad edən tənqidçi həm Şeyx Sənanın, həm də dərvişin sufi mahiyyətini üzə çıxarırdı: *“mütləq həqiqət”, haqq axtarıcısı yalnız müridlikdən mürşidlik pilləsinə yüksələn Şeyx Sənan deyildir. Cəmiyyət içərisində “divanə mütəfəkkir” adı ilə şöhrət tapan Dərviş də yaradanla yaradılmışın vəhdətini sübut etmək məqsədilə həqiqət axtarışları yolunu tutmuş haqq elçisidir”* [45, s.117]. Sufilik təriqətinin rəhbəri Həlac Mənsurun “ənəlhəq” şüarı ilə Dərvişin “həqiqət istərim, yalnız həqiqət” hökmü arasında yaxınlığın araşdırılması Dərviş obrazının sufilik əqidəsinə bağlılığına işarə edirdi.

Tənqidçinin *“faciə “mütləq həqiqətə” – mənəvi eşqin əlçatmaz yüksəkliyinə ucalmaq üçün sevgililərin özlərini fəda etməsi ilə bitir”* [45, s.115] fikri sufizmin prinsiplərinə xidmət edir. Sənan və Xumarın uçurumdan atılması epizodu romantizmin və sufizmin təbiətindən doğan bir cəhət idi. Hüseyn Cavidin böyüklüyü onda idi ki, sufizmin Tanrıya qovuşduran vasitələrindən olan “uçurum” terminini romantizmin əsas elementi ilə birləşdirirdi.

Məsud Əlioğlu Xumarın eşqinin Sənana röyada ikən verilməsi məsələsinə də toxunurdu. *“Xəyali-mövhumi bir aləmdən - əsrarlı “yuxu” dünyasından gəlmiş olsa belə bu meylin kökü canlı varlığa, təbiətə və torpağa bağlıdır”*[45, s.106] deməklə Sənanın daxilində baş qaldıran ikiliyi qabartmağa çalışırdı. *“Röyaların təsəvvüf aspektində yorumuna müvafiq olaraq, bu ilahi eşq məqamını ifadə edən ənfusi röyadır. Yəni “Haqqın könüldə və ruhdakı” təcallasıdır”* [121, s.115].

Şeyx Sənanın dilindən səslənən *“dinsiz olmaq da bir təriqətdir”* [22, c.2, s.151] ifadəsi Sovet dövründə əsərin qiymətləndirilməsində yanlış nəticələrə gətirib çıxarmışdır. Bir çox tədqiqatçılar bu ifadəni əsas tutaraq, əsəri din əleyhinə yazılmış bir sənət nümunəsi kimi təhlil etmişlər. Tənqidçi əsərin təhlili zamanı faciənin araşdırılmasında xidmətləri olan Məmməd Cəfər Cəfərovun fikirlərinə aydınlıq gətirir və onun gəldiyi qənaətləri düzgün hesab edirdi. O, Məmməd Cəfərin əsəri *“dini təəssübkeşliyə qarşı çevrilmiş tarixi mübarizə ənənələri ilə sıx bağlı olan bir əsər”* [28, s.79] kimi dəyərləndirməsi fikri ilə razılaşırdı.

Əslində romantizm cərəyanın nümayəndələrinin əsərlərində din əsas mövzular sırasına daxil olur. Bu sənətkarların məqsədi dini idealizə etmək və ya ona qarşı çıxmaq deyil, dindən bir vasitə kimi istifadə edib qəhrəmanın daxili dünyasını üzə çıxarmaqdır. Məsud Əlioğlu “Peyğəmbər” əsərini təhlili zamanı da əsərin din birliyi ideyasını müdafiə edən bir əsər kimi qiymətləndirilməsini düzgün hesab etmir, belə yanaşmanı birtərəfli olduğunu yazır və “Məhəbbətdir ən böyük din” deyərək kamil məhəbbət təlimini ön plana çəkirdi.

Deməli, hər iki əsərdə “din” və “eşq” anlayışı vəhdətdə təhlil olunur. Bu iki əsas mövzunun qarşılaşdırılması dramaturqun istedadını ortaya çıxarır. Hüseyn Cavidin yaradıcılığında “eşq” anlayışının əsl mahiyyətini tənqidçinin “Şeyx Sənan” əsəri haqqında yazdığı bu fikirlərlə yekunlaşdırmaq olar: *“Sənanın eşqi, fikrin ənginliliyinə çatmaq, sağlam əqlin hökmlərini yerinə yetirmək, təmiz qəlbin niyyətlərinə qovuşmaqdan ibarətdir. Məsumluq və mənəvi gözəllik heykəli olan Xumar da Sənana həqiqətin və idrakın ülviyyətinə çatmaq üçün lazımdır”* [47, s.197].

Sufizmin eşqlə bağlanması Hüseyn Cavid yaradıcılığının əsas konsepsiyasının yekunu idi. Onu da qeyd edək ki, “Şeyx Sənan” sufi ideyaların özünə yer aldığı ilk dramaturji əsərdir. Həmçinin neosifizmin ilkin təzahürlərini bu əsərdə görmək mümkündür: *“Neosufizmin romantizimdə təzahürünə bariz nümunə kimi qəbul etdiyimiz H.Cavid yaradıcılığında sufizmin davamı və dekonstruksiyası ənənəvi Şərq baxış sisteminin yeni fəlsəfi təlimlərlə qarşılaşdırılması yolu ilə gerçəkləşir”* [82, s.27].

Əsərin təhlili zamanı qaldırılan problemlər Hüseyn Cavid romantizminin düzgün izahına xidmət edir. Şübhəçilik, inkarçılıq fəlsəfəsi, həqiqət axtarışları, din, eşq, dərvişlik kimi məsələlər romantizmin vacib problemlərindəndir. Bu cəhətdən müəllifin təhlilləri sənətkarlıq cəhətdən məqsədəuyğun hesab olunur.

Məsud Əlioğlu Hüseyn Cavidin "İblis" faciəsinin mövzu aləminə fəlsəfi mövqedən yanaşmışdır. Faciədəki fəlsəfi mövzunun ağlın faciəsi, hissiyyatın sınağı, ağılla hissin vəhdəti şəklində müəyyənləşdirilməsi romantizmin əsas xüsusiyyətlərinə uyğun gəlirdi. Tənqidçi hər üç mövzunu izah edərkən Hüseyn Cavid yaradıcılığı üçün əsas sayılan spektisizm fəlsəfəsini Arif obrazının timsalında səciyyələndirirdi. Onun fikrincə, Arif həyatı dərk etdikcə bu fəlsəfənin təsiri altına düşür, çünki dərk etdiklərinin sonunda bir uyğunsuzluq görür, ruhi sarsıntılar keçirir və əqli cəhətdən baş verən çaşqınlıq onun həqiqət axtarışına zidd olan hərəkətlər etməsinə gətirib çıxarırdı. Nəticədə hissiyyat əqlə qalib gəlir. *"İnsan idrakı elmin nuru ilə şəfəqləndikdən sonra, yeni bir əqli cərəyan – şübhəçilik, spektisizm fəlsəfəsi meydana çıxır"* [45, s.50]. Məsud Əlioğlunun bu fəlsəfə haqqında yekun qənaəti belə idi ki, spektisizm şübhə oyatmaqla insanı aydın nəticələrə gətirib çıxara bilər. İblisin də məqsədi Arifin qəlbində şübhələr yaratmaqla, onun gözünü açmaqdır. Tənqidçi fantastik obraz olan İblis obrazının Arifin insana məxsus keyfiyyətlərini sınaqdan keçirmək, onun psixologiyasında hansı xüsusiyyətlərin davamlı və ya keçici olduğunu aşkara çıxarmaq üçün yaradılması fikrini irəli sürürdü. O, İblisi insanın ruhi aləmindən baş qaldıran bir qüvvə kimi qeyd etməklə Hüseyn Cavidin fikirlərini təsdiqləmiş olur:

*İblis nədir?*
*– Cümlə xəyanətlərə bais...*
*Ya hər kəsə xain olan insan nədir?*
*– Iblis!...* [23, c.3, s.104].

Məsud Əlioğlu Hüseyn Cavidin əsərdə irəli sürdüyü əsas ideyanı belə ümumiləşdirirdi: *"İblis" faciəsinin bütünlükdə pafosu ilə ifadə olunan əxlaq həqiqətlərindən biri budur: "idrakla ehtiras və zəka ilə hissiyyat birləşə bilmədikdə və vəhdət təşkil etmədikdə insan varlığı büsbütün fəlakət içərisində olur. Bəs faciəli*

*aqibətə son qoymaq, nəhayət vermək üçün nə lazımdır? Əqillə hissin, ürəklə şüurun vəhdəti!"*[45, s.155].

Hüseyn Cavid yaradıcılığında tarixi səpkili mövzulara yer ayırmışdır. Xüsusilə, 20-30-cu illərdə yazdığı dram əsərlərində bu özünü qabarıq şəkildə göstərir. O, tarixi səciyyə daşıyan hadisələri romantizmin tələbləri çərçivəsinə salır, öz bədii obrazının əsas cizgilərinin, qarşıya qoyduğu ideyanın açılmasına yönəldir və nəticədə tarixdən bir vasitə kimi istifadə edirdi. Onun üçün nə Topal Teymur, nə Xəyyam tarixi şəxsiyyət kimi əhəmiyyətli deyildir, onu maraqlandıran bu qəhrəmanların mənəvi aləmini açan xüsusiyyətləri üzə çıxarmaqdır. Məsud Əlioğlu da dramaturqun bu cəhətini əsas götürür və təhlillərini də bu istiqamətdə aparır və belə nəticəyə gəlir ki, Hüseyn Cavid əsərləri üçün seçdiyi hadisə və məsələlərin tarixi gerçəkliyini olduğu kimi təsvir etməyi əsas məqsəd seçməmiş, həmin hadisələrdən öz fəlsəfi fikirlərini əsaslandırmaq üçün istifadə etmişdir. Dramaturqun "Topal Teymur" əsərini yazmaqda məqsədi Əmir Teymurun tarixi fəth haqqında ətraflı məlumat vermək deyil, tarixi şəxsiyyətin mənəvi keyfiyyətlərini üzə çıxarmaq olmuşdur. Məsud Əlioğlu dramaturqun Əmir Teymuru ziddiyyətli bir obraz kimi təsvir etməsində xüsusi məqsədi olduğunu şərh edirdi. Belə nəticəyə gəlirdi ki, bu onun həqiqət axtarışları ilə bağlıdır. Yəni, sülhə aparan təkamül yolunun müəyyənləşməsi üçün Teymur obrazının belə yaradılması vacib idi. Şəxsiyyətin cəmiyyətdəki mövqeyi, dünya ağalığı ideyasının təhlil edən tənqidçi Hüseyn Cavidin gəldiyi yekun qənaətini, yəni "ümumi məhəbbət" ideyasını, "ictimai zülmə və qanlı müharibələrə, insan təbiətini və cəmiyyət həyatını eybəcər hala salan "mütləq hakimlik ehtirasına qarşı qoyulmuş *"dünyanı zülm və vəhşətdən xilas edəcək qüvvət yalnız məhəbbətdir" ideyası, həm də səmimi, təsirli və cazibəli bir ideya idi"* [45, s.209] fikrini irəli sürürdü. Bu yanaşma məhəbbətlə romantizmin bağlılığını sübut edən Hüseyn Cavid dramaturgiyasının fəlsəfi qayəsini sübut edirdi.

Məsud Əlioğlu Hüseyn Cavidin "Xəyyam" əsərini onun yaradıcılığının fəlsəfi fikir istiqamətini ümumiləşdirən əsər kimi düzgün qiymətləndirirdi. O, tarixi şəxsiyyət olan Xəyyamın təfəkküründə formalaşan axtarış ehtirasını dramın əsasında dayanan fəlsəfi fikir qaynağı hesab edir, Hüseyn Cavidin bir sənətkar kimi

inkişafında bu əsərin rolunu yüksək qiymətləndirirdi. Bunu obrazın fəlsəfi yükü və əsərin yazılma tarixi ilə bağlamaq olar. Belə ki, yaradıcılığının son dövrlərində yazılan bu əsər Hüseyn Cavid fəlsəfəsinin yekunu idi.

Romantik cərəyanının nümayəndələri bədii obrazı seçərkən, onları ideal səviyyəyə qaldıra biləcək xüsusiyyətləri təsvir etməyi əsas məqsəd kimi götürürlər. Obrazı bir şəxsiyyət kimi bütövləşdirəcək amilləri yetişdirən cəmiyyətin formalaşması əsas məqsəd hesab olunur. Məsud Əlioğlu Hüseyn Cavidin yaradıcılığında bədii obrazın kamil səviyyəyə yüksəlməsinə xidmət edən məhəbbət və gözəllik anlayışının işlənmə dinamikasına diqqət yetirib. Hüseyn Cavid dram yaradıcılığına ilk olaraq, “Ana” mənzum əsəri ilə başlayıb. Tənqidçi əsərin ana obrazı Səlmanın oğlunun qatilini öz vicdanı ilə baş-başa buraxıb cəzalandırmasını qəhrəmanlıq nümunəsi hesab etmişdir. Ananın düşmən üzərində mənəvi qələbəsinin fövqəladə qoçaqlıq kimi qiymətləndirməsi maraq doğurur.

Məsud Əlioğlu tənqidində obrazların təhlili zamanı müəyyən qədər razılaşmadığımız məqamlar ortaya çıxır. Əsərlərin mənfi qəhrəmanlarına müəllifin bəraət qazandırması maraq doğurur, “Ana” əsərinin mənfi obrazları olan Orxan və Muradda müsbət keyfiyyətləri üzə çıxarması əsərin təhlili zamanı əsas ideyadan uzaqlaşmasına gətirib çıxarır. Qanlı cinayət işləyən Muradın öz əməlini açıq şəkildə həyata keçirməsini müsbət xüsusiyyət kimi qeyd etməsi nə dərəcədə doğrudur. Onun “Səyavuş” əsərinin mənfi obrazı Südabəyə münasibəti ziddiyyətlidir. Belə nəticəyə gəlir ki, Südabə öz taleyindən şikayətlənməkdə haqlıdır. Çünki acı tale yaşamış, gənc və gözəl olan bu qadın qoca bir kişiyə hərəm edilmişdir. Bununla belə, onun öz məqsədinə çatmadıqda cinayətlərə əl atmasını qadına yaraşmayan, bağışlanmaz əlamət hesab edirdi. Məsud Əlioğlu obrazlara iki prizmadan yanaşırdı. Bu tənqidçinin müsbət keyfiyyətlərindən biridir. Amma Murad, Orxan, Südabə kimi obrazlarda müsbət xüsusiyyət axtarmaq obyektiv tənqidə ziddir. Çünki bu obrazlarının mənfi əməllərinin nəticəsində qəlbi həyat eşqi yanan gənclər məhv olur. Tənqidçinin məqsədi oxucunu düzgün istiqamətə yönəlməkdir. Bu obrazlarda müsbətlik axtarılması oxucuda həmin tiplərə qarşı yumşalma hissi oyadır.

Sovet ideologiyasının hakim olduğu illərdə romantizm bir cərəyan kimi iki yerə bölünürdü: mürtəce romantizm və mütərəqqi romantizm. Məsud Əlioğlunun Hüseyn Cavidi mütərəqqi romantizmin nümayəndəsi kimi qeyd etməsi bu ideologiyanın təsirinin olduğunu ortaya çıxarırdı. Tənqidçinin romantika və romantizm anlayışlarını eyni hadisə kimi təhlil etməsi də maraq doğurur. Halbuki bunlar fərqli anlayışlardır. Romantika yaradıcılıq üsulu, romantizm isə cərəyandır. *"XX əsr Azərbaycan romantizminin orta əsrlər ədəbiyyatındakı romantika ilə eyniləşdirilməsi tamamilə səhvdir"* [108, c.2,s.16].

Məsud Əlioğlunun "Hüseyn Cavid romantizmi" monoqrafiyası çap olunduğu gündən tədqiqatçıların marağına səbəb olub, bu barədə müxtəlif rəylər yazılmış və birmənalı qarşılanmamışdır. 1976-cı il "Ədəbiyyat və incəsənət" qəzetində Əbülfəz İbadoğlunun "Romantizmin tədqiqi" başlığı altında rəyi çap olunmuşdur. Əbülfəz İbadoğlu müəllifin monoqrafiyada Hüseyn Cavid romantizmi haqqında geniş təsəvvür yaratdığını vurğulayır və əsərin nöqsanlarını da qeyd etməkdən çəkinmirdi: *"Monoqrafiyada H.Cavid yaradıcılığı haqqında yazılmış tədqiqatçılarla polemika demək olar ki, yoxdur. Əlbəttə, bunlar H.Cavidin sənətkarlığını səciyyələndirən bir sıra keyfiyyətləri: mövzu, fikir və romantik qəhrəman axtarışlarının ayrı-ayrı məsələlərini öyrənmiş və özünə məxsus səbrlə bu məsələləri həll etmiş Məsud Əlioğlunun «Hüseyn Cavidin romantizmi» monoqrafiyasının elmi dəyərini heç də azaltmır"* [75, c.8, s.78]. Vəli Osmanlı isə monoqrafiyada şairin lirikasının izahını romantizmin predmeti baxımından gərəkli hesab etsə də, dram əsərlərinin təhlili zamanı seçdiyi başlıqların romantizmə aid olmadığını yazır və belə nəticəyə gəlirdi ki, *"Kitabın adındakı "Hüseyn Cavidin romantizmi" açılmamış qalır"* [108, s.17]. Müasir dövrün alimlərindən Şirindil Alışanlı monoqrafiyaya obyektiv mövqedən yanaşırdı. O, "Ədəbiyyat" qəzetində çap olunan "Nəzəri fikrin yaşamaq haqqı" məqaləsində XX əsr romantizminin əsas problemlərinin tənqidçinin tədqiqatlarında aparıcı yer tutduğunu vurğulayır, romantizmin milli mahiyyətinin üzə çıxarılmasında monoqrafiyanı Azərbaycan ədəbiyyatşünaslığı üçün dəyərli hesab edirdi: *"H.Cavid dramaturgiyasında romantik qəhrəman və xarakter problemi bu monoqrafiyada da xronoloji səpkidə, daha doğrusu, hər əsərə verilən şərhdə müəyyən tərəflərdən izah*

*olunur, bütöv, romantizmə məxsus qəhrəman, xarakter, tip, tipikləşdirmə problemlərinin əsas cəhətləri haqqında təsəvvür yaradır"* [10, s.3].

Məsud Əlioğlunun Hüseyn Cavid haqqında apardığı tədqiqatlarda müəyyən qədər nöqsanlar olmasına baxmayaraq, romantizmin mövzular aləmi haqqında tənqidçinin gəldiyi qənaətlər həqiqətə uyğundur və bu araşdırmaların elmi əhəmiyyəti böyükdür. Məsud Əlioğlu Hüseyn Cavid yaradıcılığının poetik mənasını düzgün müəyyənləşdirir: *"insanları birləşdirən, yaxın və doğma edən mənəvi amillərin təsdiqi və onları bir-birindən ayıran, yadlaşdıran qorxunc ehtirasların inkarı"* [25, c.1, s.5].

Məsud Əlioğlu bədii yaradıcılığın fundamental problemlərini həmişə diqqət mərkəzində saxlamış tənqidçilərdəndir. Onun realizm və romantizm cərəyanının nümayəndələri haqqında yazdığı tədqiqat əsərlərində müasirlik mövqeyində dayandığını görmək mümkündür. Azərbaycan realizminin bədii-estetik xüsusiyyətlərini, Cəlil Məmmədquluzadə dramaturgiya və nəsrini, Azərbaycan romantizminin milli xarakterini, Hüseyn Cavid romantizminin fəlsəfi mahiyyətini açarkən tənqidçi dərin ümumiləşdirmə qabiliyyətini nümayiş etdirir. Tənqidi realizmin "kiçik adam", romantizmin "uçurum" konsepsiyasını, realizmin cəhalət, nadanlıq, fanatizm, romantizmin xəyal, röya, ideal, eşq, din anlayışlarını tədqiqata cəlb etməklə tənqidçi bu cərəyanların əsas cəhətlərini qələmə ala bilmişdir. Rus realist ədəbiyyatın Cəlil Məmmədquluzadə yaradıcılığına, türk romantik ədəbiyyatın Hüseyn Cavid yaradıcılığına təsiri məsələsinin araşdırılması göstərir ki, Məsud Əlioğlunun ədəbi əlaqələr probleminə toxunması ədəbi cərəyanları lokal çərçivədən çıxardıb qlobalaşdırmışdır. Çünki Azərbaycan realizminin və romantizminin nümayəndələrini yalnız milli zəminlə təhlil etmək düzgün nəticə hasil etmir. Ona görə də ümumudünya konteksti də nəzərə alınmalıdır.

### 3.3. Bədii yaradıcılıqda “Atalar və oğullar” probleminə Məsud Əlioğlunun yanaşması

“Atalar və oğullar” məsələsi ədəbiyyatımızda həmişə aktual olub. Bu da təsadüfi deyil. Çünki zaman, dövr dəyişir. Nəsillər bir-birini əvəz etdiyi kimi, mühitə, cəmiyyətə münasibət də dəyişir, yeniləşir. Oğullar ataların ənənələrini davam etdirməklə yanaşı, onların da öz yolu və həyat idealı olur. Bu prosesdə, şübhəsiz ki, nəsillərin mövqeyi bir çox hallarda üst-üstə düşmür. Hətta bəzən ziddiyyətlər meydana çıxır ki, bədii yaradıcılıqda bütün bunların necə əks olunduğunu görürük. Ədəbiyyat tarixinə nəzər salsaq, “Atalar və oğullar” arasındakı münasibətin təsvirini ardıcıllıqla bu cür izah edə bilərik:

a) Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatında “atalar və oğullar”

b) Maarifçi-realist ədəbiyyatda “atalar və oğullar”

c) XX əsrin əvvəllərində yazılan əsərlərdə “atalar və oğullar”

ç) Sovet dövrü Azərbaycan ədəbiyyatında “atalar və oğullar”

XIX əsrə qədər olan əsərlərdə oğula nəsihət verən, yol göstərən, oğulun yenilik duyğusu ilə barışan ata obrazı tərənnüm olunurdu. Klassik irsdə ata ilə oğul arasındakı münasibətin bu şəkildə təzahürünü Məhəmməd Füzulinin “Leyli və Məcnun”, “Fəzliyə nəsihət”, “Rindu Zahid” əsərlərində görə bilərik. Fikrimizcə, qədim və orta əsrlər Azərbaycan ədəbiyyatında ata ilə oğul arasında olan münasibət bədii əsərlərdə problem səviyyəsində qoyulmamışdır. Çünki bu əsərlərdə övlad tərbiyəsi məsələsi, övladın gələcəyindən narahat olan ata obrazı tərənnüm olunmuşdur. XIX əsrdə tarixi şəraitin nəticəsi olaraq, atalar və oğullar münasibətində yeni təzahürlər üzə çıxır, atalar və oğullar ortaq məxrəc tapa bilmir, atanın tələbi oğulun yenilik duyğusu ilə uyğun gəlmir. Bu təsirlə formalaşan gənc nəslin yeni həyat arzusu mühafizəkar atalar üçün arzuolunmaz bir məsələyə çevrilir. Mühafizəkar ataların yenilik tərəfdarı oğullara qarşı apardığı mübarizə ədəbiyyatdan da yan keçmir. Mülkədar ataya qarşı çıxan ideal oğul “atalar və oğullar” məsələsini ortaya çıxarır. Azərbaycan ədəbiyyatında “Atalar və oğullar” probleminə ilk toxunan Mirzə Fətəli Axundzadə olur. Onun “Hekayəti-müsyo Jordan həkimi-nəbatat və Dərviş

Məstəli şah cadukünі-məşhur" əsərinin qəhrəmanı Şahbaz bəyin timsalında ədəbiyyatda açıq fikirli gənclər yetişir.

1958-cu ildə keçirilən Azərbaycan Yazıçılar İttifaqının III qurultayından sonra müsbət qəhrəman yaratmaq ənənəsi ədəbiyyatda aktual bir məsələyə çevrildi. Bu cəhət ədəbi tənqiddən də yan keçmədi. Tarixi inkişafın hər mərhələsi üçün əhəmiyyətli olan "Atalar və oğullar" mövzusu həmin dövrdə müsbət qəhrəman yaratmaq ənənəsinə xidmət edirdi. Məsud Əlioğlunun araşdırmalarında bu məsələyə geniş yer verilmişdir. Sovet hakimiyyəti illərində öz sinfi kökünə qarşı mübarizə aparan mülkədar oğullar qələmə alınmağa başlanır. Bu yeni istiqamətin bədii qəhrəmanı Süleyman Sani Axundovun "Laçın yuvası" əsərinin Cahangir ağa obrazı idi. Ədib Sovet hakimiyyətinin qurulmasının I ildönümü münasibətilə keçirilən müsabiqədə "Laçın yuvası" əsəri ilə iştirak edir və birincilik qazanır. Azərbaycan ədəbiyyatında XIX əsrdə başlayan atalar və oğullar problemi bu əsərdə yeni istiqamətdə özünü göstərir. Məsud Əlioğlu XIX əsrdə yetişən oğullarla XX əsrin oğulları arasındakı fərqi belə ümumiləşdirir: *"XIX əsrin oğulları atalarına – köhnəliyi təmsil edənlərə qarşı mübarizədə zəif idilər və bu səbəbdən də məğlub oldular. Yeni əsrin, inqilab əsrinin oğulları isə onlardan tamamilə fərqlənirdi. Bunlar mübarizədə xalq kütləsinə arxalandılar"* [142, s.144].

Məsud Əlioğlu əsərdə təsvir edilən mövzuya iki cəhətdən yanaşmışdır. Birincisi, tənqidçinin fikrincə, müəllifin məqsədi Sovet hakimiyyətinin Azərbaycan ərazisində nə dərəcə də yayılmasını araşdırmaqdan ibarət olmuşdur. İkinci məqsədi xalqın psixologiyasında baş verən sarsıntı və dəyişikliklərin nəticələrini öyrənməkdir. Tənqidçi belə nəticəyə gəlir ki, Cahangirin başçılığı altında gedən mübarizəni təsvir etmək onun əsas məqsədi deyildir. Onun əsas fikir verdiyi məsələ yeni quruluşun köhnə beyinlərdə necə qarşılanması məsələsini aydınlaşdırmaqdır. Buna görə də tədqiqatçının fikirləri ilə razılaşırıq ki, *"Laçın yuvası"nın düşünülməsi və yazılması isə yazıçının dünyagörüşündə, həyatı qavramaq üsulunda və üslubunda həlledici yenilikdir, əsaslı mərhələdir"* [46, s.12].

Məsud Əlioğlu nə qədər sosioloji təhlilin sərhədlərindən uzaqlaşmağa çalışsa da, öz təhlillərində Sovet dövrünün əsas yaradıcılıq metodu olan sosialist realizmin

prinsiplərinə əsaslanırdı. Özündən əvvəlkini inkar etmək bu metodun mahiyyətində dururdu. Buna görə də burada müsbət və mənfi qəhrəman məsələsi, köhnəliklə yeniliyin mübarizəsi qabardılırdı. Nəzərə almalıyıq ki, *"Romanların, pyeslərin, hətta poemaların konfliktini "müsbət" insanların sosioloji mübarizələri təşkil etdi və həmin "mənfi"-"müsbət" təsnifatını bədii-etik-psixoloji meyarlar deyil, siyasi meyarlar müəyyənləşdirirdi. Yəni hakim ideologiyanı təcəssüm etdirən surət "müsbət" idi və o, "mənfi" ola bilməzdi, bu ideologiyaya yad hərəkətlərə yol verən isə heç vəchlə "müsbət" surət ola bilməzdi"* [32, s.36-37].

"Atalar və oğullar" XIX əsrdən bədii əsərlərin əsas mövzularından olsa da, tədqiqat predmeti kimi az araşdırılmışdır. Tənqidçinin də qeyd etdiyi kimi, Mir Cəlalın, Məmməd Arifin, Məmməd Cəfər Cəfərovun tədqiqatlarında bu məsələ müəyyən qədər işıqlandırılsa da, ayrıca mövzu kimi tədqiqat predmeti olmamışdır. İlk dəfə Məsud Əlioğlu bu məsələyə sistemli şəkildə toxunmuşdur [37; 38; 125; 126].

Tədqiqatçı problemi xronoloji ardıcıllıqla izləyir, həm dramaturgiyada, həm də nəsrdə işlənmə xüsusiyyətlərinə nəzər salırdı. O, tarixilik baxımından bu mövzunu iki hissədə təhlilə cəlb edirdi:

1. 1850-ci ildən 1930-cu ilə qədər yazılan dram əsərlərində "Atalar və oğullar"
2. 1930-cu ildən sonra yazılan nəsr əsərlərində "Atalar və oğullar"

Bu bölgüdən görürük ki, tədqiqatçı atalar və oğullar arasında olan münasibətin problem səviyyəsində araşdırılmasına XIX əsərdən başlamışdır. Birinci hissədə M.F.Axunzadənin "Hekayəti Molla İbrahimxəlil Kimyagər", "Hekayəti Müsyo Jordan həkimi-nəbatat və dərviş Məstəli şah cadükuni məşhur", N.Vəzirovun "Ev tərbiyəsinin bir şəkli", "Adı var, özü yox", "Yağışdan çıxdıq, yağmura düşdük", "Sonrakı peşmançılıq fayda verməz", "Müsibəti Fəxrəddin", "Təzə əsrin ibtidaisi" Ə.Haqverdiyevin "Dağılan tifaq", "Bəxtsiz cavan", C.Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı", C.Cabbarlının "Aydın", "Oqtay Eloğlu", N.Nərimanovun "Nadanlıq", "Bahadır və Sona", S.S.Axundovun "Laçın yuvası" əsərləri, ikinci hissədə isə S.Rəhimovun "Şamo", Y.V.Çəmənzəminlinin "Studentlər", Əbülhəsənin "Dünya qopur", "Yoxuşlar", Əli Vəliyevin "Qəhrəman" romanları tədqiqata cəlb edilmişdir. Tənqidçi Şahbaz bəy obrazı vasitəsilə ədəbiyyata gələn maarifçi nəsli,

Fatma xanım və Sərvinaz xanım surətləri vasitəsilə qaynana-gəlin konfliktini, Fəxrəddin, Fərhad bəy, Ömər obrazı əsasında başqa ölkələrdə təhsil alıb Vətənə qayıtdıqdan sonra mülkədarlığa xas qaydaları dəyişmək istəyən gənc nəsli təhlil edirdi. İskəndər, Aydın, Oqtay kimi oğulları "Qəribə adamlar", "Anamın kitabı" əsərinin üç qardaşını "Daxili düşmənlər" adlandırırdı. Şamo, Fərzəli, Hümmət, Heybət, Rüstəmbəy, Veys, Bülənd, Bünyad, Qəhrəman obrazlarının timsalında inqilab əsrinin oğullarını diqqət mərkəzinə çəkirdi. Bunlarla yanaşı, tənqidçinin atalara münasibəti orijinallığı ilə fərqlənirdi. Ataların cərgəsində Hatəmxan ağanın ("Hekayəti Müsyo Jordan həkimi- nəbatat və dərviş Məstəli şah cadükuni məşhur"), Hacı Səməd ağanın ("Bəxtsiz cavan") simasında "siyasətcil atalar"ın, Cənnətəli ağa ("Adı var, özü yox") kimi "adı qalıb, özü olmayan" ataların, Rüstəm bəy ("Müsibəti Fəxrəddin") kimi zülmət səltənətinin atalarını, Hacı Abdulla ("Nadanlıq") kimi özünə oxşayan oğullar yetişdirmək istəyən ataların, Nəcəf bəy ("Dağılan tifaq") kimi ötən günlərin həsrəti ilə yeni cəmiyyətə uyğunlaşa bilməyən ataların adını qeyd edirdi.

Məsud Əlioğlunun "Atalar və oğullar" probleminin kökünü XIX əsrlə bağlamasının müəyyən səbəbləri var idi. İlk səbəb janrın yaranma tarixi ilə bağlıdır. O, bu problemin araşdırılmasına dramaturgiya ilə başlayırdı. Azərbaycan dramaturgiyasının yaranması XIX əsrdə baş verdiyinə görə problemin başlanğıcını bu dövrdən götürürdü. İkinci səbəb kimi tarixi şərait nəzərə alınmalıdır. XIX əsrdə Rusiya İmperiyasının verdiyi qərarlar bir sinif kimi bəyliyə qarşı yönəlmişdi. İmperiyasının sahibkarlıq hissini boğmaq cəhdi mülkədar ataların nüfuzunu məhdudlaşdırırdı. Belə bir şəraitdə yeni quruluş gənc nəslin diqqətini çəkir, onların fikirlərinə, düşüncələrinə təsir edirdi. Bunun nəticəsində sələf-varis münasibətlərində yeni təzahürlər ortaya çıxırdı. Oğul yeni quruculuq işlərinin tərəfdarı, ata isə köhnə qanunlarla yaşayan mülkədar kimi təsvir edilirdi. Yazıçılar bundan bir vasitə kimi istifadə edir, ədəbiyyata yeni bir mövzu gətirirdilər.

XIX əsrdə, XX əsrin əvvəllərində və XX əsrin 30-cu illərindən sonrakı üç dövrü nəzərə almaqla, "Atalar və oğullar" məsələsi barədə belə bir sxem qura bilərik:

- "Fərd ↔ Fərd"
- "Cəmiyyət ↔ Fərd"

- "Cəmiyyət ↔ Cəmiyyət"

"Fərd ↔ Fərd" sxemi onu göstərir ki, burada oğulun mübarizəsi ictimai mahiyyət daşısa da, tək fərdin mübarizəsi şəklindədir. XX əsrin əvvəllərində yazılan əsərlərdə ataların yerində cəmiyyət dayanırdı. Yəni oğulu təmsil edən fərd mövcud cəmiyyətə qarşı mübarizə aparırdı. İnqilab məfhumunun bədii ədəbiyyata təsiri atalar və oğullar arasındakı münasibətin arealını genişləndirdi. Əvvəllər ata köhnəliyin, oğul isə yeniliyin tərəfdarı kimi çıxış edirdisə, sovet ədəbiyyatında əsas diqqət müsbət qəhrəman yaratmaq olduğu üçün eyni əsərdə bu məqsədə xidmət göstərən ataları və oğulları görmək mümkün idi. Tənqidçinin iki nəsil arasındakı münasibəti inqilab çərçivəsində təhlil etməsi yeni atalar nəslini ortaya çıxarırdı. Artıq bu münasibətdə yeni bir xətt – "Cəmiyyət ↔ Cəmiyyət" konflikti görünür, oğulların cərgəsinə keçən atalar nəsli yetişirdi.

Məsud Əlioğlu Şahbaz bəyi və Hacı Nurunu yeni oğullar nəslinin ilk qaranquşu hesab edir, onların simasında dövrün ümumi mənzərəsini yaradırdı. Tənqidçi belə qərara gəlirdi ki, təhsil, elmlə bağlı bir islahat aparmayan Şahbaz bəyin düşüncələri, elm, xarici dil öyrənmək istəyi maarifçi gəncə yaraşan bir cəhətdir. Tənqidçinin Şahbaz bəylə müqayisədə Hacı Nuruya daha çox rəğbəti hiss olunur. Nuxuluların mənfi əməllərini üzə çıxaran bir gəncin fikirlərinə aydınlıq gətirməklə, "atalar və oğullar" arasında olan münasibətin vacib məsələsinə diqqəti yönəldirdi. Köhnəliklə yenilik arasında mübarizə o demək deyil ki, ata mütləq mənfi, oğul mütləq müsbət obraz olacaq. Faydalı işlərlə məşğul olan tərəf yeniliyin daşıyıcısıdır.

O, yeniliyə maraq göstərən Şahbaz bəyin qarşısında duran maneəni bir neçə mərkəzdə təhlil edir, əsas mərkəzdə mühafizəkarlığı müdafiə edən mühiti götürürdü. İkinci maneə kimi Hatəmxan ağanı təhlilə cəlb edirdi. Onun Hatəmxan ağaya yanaşma tərzi fərqlidir: *"Elə məsələnin mürəkkəbliyi də orasındadır ki, Hatəmxan ağa mühafizəkarlığını çox incə boyalarla, təsirli vasitələrlə həyata keçirir. Hatəmxan ağanın şəxsində dramaturq, mühafizəkar "atalar"ın xüsusi bir qoluna mənsub ağıllı, "işgüzar" bir bəy surəti yaratmışdır. Bu tipli "atalar" sözdə, bəzəkli nitqlərdə yeniliyə tərəfdar çıxan, konkret işə, fəaliyyətə gəldikdə isə Şəhrəbanı xanımların dünyagörüşündən bir addım da olsun uzağa getməyən mühafizəkarlardır"*[42, s.9].

Tənqidçinin "tədbirli və siyasətcil ata" ifadəsi obrazın mahiyyətini tam şəkildə açmırdı. Çünki əsərin maarifçi qəhrəmanı Şahbaz bəyin istəkləri dövr üçün yeni idi. Hatəmxan ağanın ikili mövqeyi obrazın tərəddüd keçirməsindən irəli gəlirdi. Məsələyə digər tərəfdən yanaşdıqda Hatəmxan ağa hüquqları əlindən alınmış bəy deyildi ki, siyasət işlətsin, şəxsi azadlığı itirmək qorxusu olsun.

Bədii əsərlərdə Avropa ölkələrində təhsil alıb Vətənə qayıdan, şüurca dəyişən oğulların təsvirinə geniş yer verilirdi. Məsud Əlioğlu müxtəlif əqidə ilə Vətənə qayıdan oğulları üç qrupda sistemləşdirirdi. Birinci qrupa Fəxrəddin ("Müsibəti-Fəxrəddin"), Ömər ("Nadanlıq"), Fərhad ("Bəxtsiz cavan") kimi XIX əsrin mühitində fəaliyyət göstərən oğulları, ikinci qrupa isə İskəndər, Aydın, Oqtay kimi XX əsrin yetirmələrini, üçüncü qismə isə inqilab əsrinin oğullarını daxil edirdi. Bu qruplaşdırma şərti xarakter daşısa da, obrazların mahiyyətinə vardıqda görürük ki, oğulları bir-birinə yaxınlaşdıran cəhətlər çoxdur.

İnkişaf etmiş ölkələrin mədəniyyəti ilə tanış olan bu dövrün oğullarının atalara qarşı mübarizəsi iki şəkildə özünü göstərirdi. Birinci qismə daxil olan oğullar açıq şəkildə öz öyrəndiklərini tətbiq etməyə çalışırdı. Bu cəhətdən Fəxrəddinlə Fərhadın inkişaf yoluna nəzər salan tənqidçi onların keçirdikləri hisslərə, faydalı işlərə, eyni zamanda öz qüvvələrinə inamsızlığına, ruh düşkünlüyünə görə bənzərlik görsə də, son nəticədə məqsəd aydınlığına, öz əməllərində konkretliyinə görə Fərhada üstünlük verir, Fərhad kimi bir obrazı dramaturqun vaxtında ədəbiyyata gətirməsini Nəcəf bəy Vəzirovun realizmi ilə əlaqələndirirdi. Bu oğulları birləşdirən cəhətləri tənqidçi belə ümumiləşdirirdi: *""Oğulların" müsibəti onda idi ki, ictimai mühit onları qarşılamağa, başa düşüb qiymətləndirməyə hazır vəziyyətdə deyildi. "Oğulların" əqidəsi, hiss və fikirləri yaşadıqları həyatdan yüksəkdə dururdu"* [125, s.197]. Tənqidçinin təhlillərində ataların taleyi ilə bağlı gəldiyi yekun qənaət reallığa əsaslanırdı: *""Ataların" müsibəti ondadır ki, doğma övladlarını öz şəxsi mənfəətlərinə qurban verirlər və yalnız o zaman ayılırlar ki, iş işdən keçmişdir"* [125, s.197].

XX əsrin əvvəllərində başqa bir mənzərə ortaya çıxır. Bu əsrdə qələmə alınan qəhrəmanlar yeni yolla gediblər. Onlar mübarizəni aktiv yox, passiv şəkildə aparıblar.

Məsud Əlioğlu bu dövrün oğullarını "qəribə adamlar" nəsli adlandırırdı. "Qəribə adamlar" deyəndə tənqidçi bu gənclərin qeyri-adi, anlaşılmaz vəziyyətini nəzərdə tuturdu. Tənqidçinin "qəribə oğulları" anlaşılmaz vəziyyətə salan səbəbləri mənəvi qatda axtarması real cizgiləri əhatə edirdi. Həqiqətən də, XX əsrin oğulları ataları ilə psixoloji aspektdə mübarizə aparırdılar. Psixoloji qat o zaman üzə çıxırdı ki, onlar dərk etdiklərini açıq şəkildə müdafiə etmir, orijinal etiraz şəkli tapırdılar. Tənqidçi bu ziddiyyəti həqiqətə uyğun təsvir edirdi: *"Beləliklə də qüvvətli bir mənəvi təzad yarandı: olduğu kimi görünməmək, həqiqi simanı gizlətmək. Bu tipli ziyalılar odlu hisslərini zorla boğdular və zahirdə çox laqeyd və soyuq görkəm aldılar. Xarakterdə gedən bu təbəddülat "qəribə adamlar"ın hamısı üçün səciyyəvi bir hal idi"* [42, s.70].

Tənqidçi "qəribəlik" əhvalına tutulan İskəndər, Aydın, Oqtay kimi gənclərin ruhi sarsıntılarının səbəbini düzgün izah etmişdir. O, bunu xalq üçün çırpınan təmiz qəlbli ziyalılara cəmiyyətdə hörmət edilməməsi, bunun əksinə olaraq, öz şəxsi mənfəətini xalqın mənafeyindən üstün tutan adamların nüfuz qazanması ilə əlaqələndirirdi. İskəndər, Aydın, Oqtay kimi gənclərin ümumi bir qrupda təhlil edilməsini düzgün hesab edirik. Çünki onları birləşdirən cəhətlər çox idi. Hər üçü keflilik xəstəliyinə tutulub, həqiqət axtarışına çıxmışdılar. Məsud Əlioğlu da təhlillərində bu cəhətə xüsusi diqqət yetirirdi. O, əsərin əvvəlində *"Məni hər kəs görməli, tanımalıdır, çünki mən bir həqiqətəm, mən bir heç deyiləm"* [20, c.2, s.197] deyən Aydının əsərin sonunda *"Artıq mən bir həqiqət deyiləm, mən bir heçəm"* [20, c.2, s.241] deməsini qəribəlik əhval-ruhiyyəsinə tutulan oğulların uğursuz taleyi ilə bağlayırdı. İsgəndərin dilindən səslənən *"Mən heç bir şeyəm"* [83, c.1, s.428] ifadəsini obrazın cəmiyyətə qarşı etirazının kinayəli nəticəsi kimi dəyərləndirirdi. Məsud Əlioğlu İskəndər və Aydın surətini qarşılaşdırır və bu nəticəyə gəlirdi ki, *"İskəndər qurtardığı yerdən Aydın fəaliyyətə başlayır"* [126, s.172].

Oqtayın inkişaf yoluna nəzər salsaq görərik ki, o, İsgəndər və Aydından fərqlənirdi. Onun qarşısında böyük bir ideal dayanırdı. O, bu arzusuna qovuşmaq üçün əvvəlcə açıq şəkildə mübarizə yolunu seçirdi. Lakin zaman keçdikdə axtardığı həqiqətin süniliyindən yorulur, qəribə oğullar cərgəsinə qoşulurdu. Daxili sarsıntı

keçirən Oqtay isə *"Qoy bu şaşqın bəşəriyyət bir dəfə də olsa həqiqəti görsün, görsün ki, o bir heçdir"* [20, c.2, s.288] deyərək həqiqətin yoxluğundan intiqamını alırdı. Həqiqət axtarışına çıxan Oqtayın aqibəti idealı, arzuları məhv olan əməlpərvər gənclərin bizə tanış olan sonunu göstərirdi. Bu gənclərin ruhi böhran keçirməsinin, daxili süqutunun nəticəsi idi ki, "qəribə adamlar" özlərini heçlik mərtəbəsində görürdülər. Məsud Əlioğlunun da oğullara bu istiqamətdə yaxınlaşması və eyni qrupda təhlil etməsi real və doğru qənaət idi.

Qəribə oğullar öz etirazlarını kefli şəkildə bildirirdilər. Bu onların cəmiyyətdəki ədalətsizliyə qarşı etirazlarının orijinal ifadə forması idi. İstər Aydının, istərsə də İsgəndərin mənəvi alkoqolluğu haqqında Məsud Əlioğlunun fikirləri doğruluğu ilə diqqəti cəlb edirdi: *""Bütün həqiqətlərə göz yuman, bütün xəyalları həqiqət görən zavallı bəşəriyyətin" dərdini çəkmək üçün yalnız hissləri keyləşdirən, şüuru dumanlandıran bir vasitə var ki, o da içkidir. Lakin bəla orasındadır ki, "qəribə adamlar" içki qəbul etdikdən sonra nəinki sakitləşirlər, əksinə, daha qızğın olurlar, hər şey onlara əslində olduğu kimi görünür"*[42, s.89].

Məsud Əlioğlunun əsas məqsədi ata ilə oğulu qarşı-qarşıya qoymaq deyildi. Onu iki nəsil arasında gedən münasibətlər, bədii əsərlərdə qaldırılan bu problemin mahiyyətini üzə çıxarmaq maraqlandırırdı. Buna görə də ataların izi ilə gedən oğullar da tədqiqatdan kənarda qalmırdı. Bu zaman iki bir-birinə oxşayan, lakin mahiyyət etibarilə tamam başqa məna kəsb edən iki anlayış diqqətimizi cəlb edir:

1. Kef fəlsəfəsi
2. Keflilik fəlsəfəsi

Mülkədarlığın bir sinif kimi süquta doğru getməsi, xüsusilə, Rusiya İmperiyasının bu istiqamətdə apardığı tədbirlər bədii əsərlərin də aparıcı mövzusuna çevrilmişdi. Tənqidçi Əbdürəhim bəy Haqverdiyevin "Dağılan tifaq" əsəri vasitəsilə mülkədarlığın dağılmasının obyektiv və subyektiv səbəblərini izahına çalışmışdır. O, obyektiv amil kimi tarixi şəraiti, subyektiv amil kimi isə "kef" fəlsəfəsini diqqətə çatdırırdı. Bu məqamda "kef" fəlsəfəsi ilə "keflilik" fəlsəfəsi arasındakı fərqi üzə çıxarması tənqidçinin bədii əsərin incəliklərinə dəyər verdiyini göstərirdi. Məsud

Əlioğlunun tədqiqatlarından bu iki anlayış arasındakı fərqi belə müəyyənləşdirə bilərik:

1. "Kef" fəlsəfəsi obrazi ciddi məsələlərdən uzaqlaşdırırsa, "Keflilik" fəlsəfəsi daha çox dərdləri artırırdı.

2. "Kef" fəlsəfəsi bayağı alkoqolizmi göstərirdisə, "Keflilik" fəlsəfəsinin mahiyyəti dərin idi, mənəvi qata gedib çıxırdı.

3. "Kef" fəlsəfəsi zərərli düşüncə tərzindən gəlirdisə, "Keflilik" fəlsəfəsi bir etiraz forması idi.

4. "Kef" fəlsəfəsi məqsədsizlik arqumentlərini daşıyırdısa, "Keflilik" fəlsəfəsinin mahiyyətində böyük bir məqsəd dayanırdı.

Dramaturgiyamızın ilk nümunələrində qəhrəmanların ölkəyə yenilik gətirmək məqsədi ilə Avropaya üz tutmasını əngəlləmək üçün valideynlər onları evləndirmək yolu ilə bunun qarşısını almağa çalışırlar. Məsud Əlioğlu Mirzə Fətəli Axundzadənin komediyaları əsasında bu məsələyə toxunmuşdur. Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" əsərində oğulun qarşısını ala biləcək qüvvə kimi evlilik ön plana çəkilirdi. Tənqidçi "evlənmək" məsələsini köhnəliyin yeniliyə qarşı qurduğu tələ kimi dəyərləndirirdi.

Tərbiyə və mühit amili atalar və oğullar arasında münasibətin aydınlaşdırılmasında doğru yanaşma idi. Çünki düzgün tərbiyə gələcək nəslin sağlam əsaslarla inkişafında mühüm rol oynayırdı. Nəcəf bəy Vəzirovun "Ev tərbiyəsinin bir şəkli" əsərinin mülkədar atası Bayraməli bəyin timsalında yanlış tərbiyə üsulunu tənqid edir, "Əsl tərbiyə necə olmalıdır?" sualına cavab verir, atanın övlad üçün nümunə olması fikrini bəyənirdi. Tənqidçinin bəyliyə, mülkədarlığa bu şəkildə yanaşması dövrün tələbi ilə bağlı idi. İlk baxışda ideologiyanın maraqlarına xidmət etdiyi qənaəti yaranırdı. Lakin tənqidçinin fikirlərinin mahiyyətinə vardıqda fərqli nəticələr üzə çıxırdı. Məsud Əlioğlu Nəcəf bəy Vəzirovun mövqeyini müdafiə etsə də, öz mövqeyini də nümayiş etdirməyi unutmur: *"Bəyliyin müəyyən təbəqəsi içərisində ardıcıl tərbiyə, qarşılıqlı hörmət, biri digərini anlamaq kimi gözəl insani sifətlər vərdiş halına düşmədiyinə görə Ataların da, oğulların da halı fənadır, dözülməzdir"* [125, s.184]. Onun bu sözləri sosioloji təhlilin prinsiplərindən kənara

çıxırdı. Yəni, o, bəyliyi bir sinif olaraq təhlil etmir, fərdi olaraq yanaşır, bu xüsusiyyəti bütün bəyliyə şamil etmirdi.

Məsud Əlioğlu atalar ilə oğullar arasındakı münasibətdən söz açarkən "böyüyə hörmət" məsələsinin üzərində dayanırdı. Belə ki, XX əsrin "qəribəlik" əhvalına tutulan oğulları xalq üçün çalışır, köhnəliyə qarşı etiraz edə bilirdilər. XX əsrin elə oğulları da var idi ki, Vətənə yad ruh gətirmişdilər. Məsud Əlioğlu onları "daxili düşmənlər" adlandırırdı. O, oğulların yeni ruh gətirmək üçün atalara qarşı mübarizəsini dəyərləndirərkən ata sevgisinin vacibliyini qabardırdı. "Anamın kitabı" əsərinin üç bir-birinə yad oğlunu ona görə tənqid edirdi ki, onlar Vətənə "yeni ruh " deyil, "yad ruh" gətirmişdilər. Deməli, tənqidçi oğulların ataların ənənələrinə sadiq qalmaqla yenilik yollarını müəyyənləşdirməyi əsas sayırdı. Fəxrəddin, Fərhad, Aydın, Oqtay kimi oğulların yenilik uğrunda mübarizəsi xalq sevgisindən irəli gəlirdi. Eyni zamanda, onların öz atalarına qarşı mübarizəsi hörmət çərçivəsindən kənara çıxmırdı. "Anamın kitabı" əsərinin "oğulları" isə Vətən, xalq sevgisinin nə olduğunu dərk etmirdilər. Məsud Əlioğlu ona görə də onları "yadlaşmış oğullar" kimi dəyərləndirirdi.

Azərbaycan ədəbiyyatında Nəcəf bəy Vəzirovun "Sonrakı peşmançılıq fayda verməz" əsərində bu mövzu ətraflı şəkildə qələmə alınmışdır. Köhnəliklə yeniliyin mübarizəsi şəklində təhlil olunan bu məsələdə köhnəni qaynana Fatma xanım, yenini isə gəlin Sərvinaz təmsil edirdi. Əslində burada üçüncü bir xətt ortaya çıxır: Oğul. Məsud Əlioğlu da "qayınana-gəlin" konfliktini münaqişə xəttinin həlli yolunu oğulda axtarırdı. Oğulun yeni nəslin nümayəndəsi kimi özünə düzgün yol tapa bilməməsini, cəsarətsiz, iradəsiz hərəkətlərini mühitin dərdi kimi dəyərləndirirdi. Tənqidçinin təhlilində qayınana Fatma xanımın səslənən "arvadağızlı oğul" sözünü qabartması mühitin reallığını əks etdirirdi. Oğul nə qədər sabitlik yaratmağa çalışsa da, ananın gözündə günahkardır. Çünki yeninin gəlişi köhnənin nüfuzuna təsir edirdi. Müəllif "Gəlin-qaynana" konflikti arasında qalan oğulun çıxış yolunu Sibirə qaçmaqda tapmasını mühafizəkar ailə-əxlaq qanunları ilə bağlayırdı.

Məsud Əlioğlunun qaynana və gəlin münasibətlərinə az yer ayırmasının səbəbi bu məsələnin problem səviyyəsinə yüksəlməməsidir. Məsələnin məişət çərçivəsində

həll edilməsi "atalar və oğullar" probleminin qlobal xarakterinə uyğun gəlmirdi. Ailə daxildə həll edilən problemlərin ictimai xarakter daşımaması bu məsələnin problem səviyyəsində araşdırılmasına əsas vermirdi.

Məsud Əlioğlu yalnız ata və oğul arasında baş verən konfliktdən bəhs etmir, bu mübarizəyə köhnəliklə yeniliyin mübarizəsi kimi baxırdı. Bunun səbəbi tənqidçinin fəaliyyət göstərdiyi dövrlə bağlı idi: *"Sosialist mütəfəkkirləri isə bu konflikti ictimai mübarizə müstəvisinə gətirirlər - Ata mürtəce konservativ köhnəliyi, oğul isə proqressiv yeniləşməni təmsil edir və bu ata-oğul mübarizəsi sadəcə yeniliklə köhəliyin savaşından başqa bir şey deyil... Deməli ata inkişafa mane olan mənfi ünsür, oğul isə inkişafa çalışan və müsbət ideyaların daşıyıcısı kimi çıxış edir"* [63].

Sovet ədəbiyyatının müsbət qəhrəman yaratmaq ənənəsinin romanlar vasitəsilə tədqiqata cəlb edilməsi Məsud Əlioğlunun atalar və oğullar probleminin həllində doğru istiqamət idi. Xüsusilə, XX əsrin 30-cu illərindən sonra yazılan "Şamo", "Studentlər", "Dünya qopur", "Yoxuşlar", "Qəhrəman" romanlarında yeni əsrin qəhrəmanlarını yetişdirən mühit və mühitin "atalar" və "oğullar"ı ətraflı şəkildə təhlilə cəlb olunmuşdur. Yeni dövrün qəhrəmanları öz köklərinə bağlı olsalar da, müəyyən məqamlarda inqilab əsrinin yetirmələri kimi əcdadlarından fərqlənirdilər.

Partiyanın "Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında" 1932-ci il qərarı sənətkarların qarşısında yeni tələblər qoymuşdu. Bu dövrdə sosializm realizmi prinsiplərinə xidmət edən əsərlərin yazılması mövzu və problematikanı dəyişirdi: *"Normativ estetika zəminində yüksək bədii nümunələrdən tutmuş sxematik ədəbiyyata qədər ədəbiyyat bir dəfə müəyyənləşmiş əsas mövzular ətrafında (inqilabi gerçəklər, proletariatın qəhrəmanlıq mübarizəsi, sosializmin qələbə pafosu, kommunist partiyasının müdrikliyi və s.) yaranır, eyni sosializm dəyərlərinə münasibətdə funksional olur. Son dərəcə ağır ideoloji mühit-stalinizm epoxası (1930-50-ci illər) ədəbi əsərlərin səciyyə və səviyyəsinə mənfi təsir göstərir, burda izlər buraxır"* [57, s.13].

Məsud Əlioğlu inqilab əsrinin "atalar və oğullar" problemini ilk olaraq Süleyman Rəhimovun "Şamo" romanı ilə başladığı qənaətinə gəlirdi. Əsərin qəhrəmanı Alo kişinin "Poçt qutusu" hekayəsinin obrazı Novruzəli və "Danabaş

kəndinin əhvalatları" povestinin obrazı Məmmədhəsən əmi ilə müqayisə edilməsi dövrün ümumi mənzərəsi haqqında ətraflı məlumat verirdi. O, Alo kişi kimi qeyrətli, igid, müdrik ata obrazının yaradılmasını sosializm realizmi metoduna yiyələnən sənətkarın (Süleyman Rəhimovun – N.M.) qələminin bəhrəsi kimi səciyyələndirir, müti, yazıq Novruzəli, Məmmədhəsən əmi kimi obrazların təsvirini isə tənqidi realizmin nümayəndələrinin yaradıcılığındakı məhdudluqla əlaqələndirirdi. Məsud Əlioğlunun bu barədə fikirləri belədir: *"Klassik realist ədəbiyyat tənqidi metoda yiyələndiyindən, yalnız ifşa etməklə, köhnəliyi, geriliyi, mənfi halları satira atəşinə tutmaqla kifayətlənmişdi. Bu ədəbiyyatda müsbət səciyyəli, qabaqcıl fikirli "atalar" haqqında ötəri bir məlumat da yox idi. Əlbəttə, bu hal həmin realizmin zəifliyi və bu realizmə əsaslanan yazıçıların həyatı birtərəfli göstərmələri, xalq həyatı ilə hərtərəfli tanış olmamalarının nəticəsi idi"* [42, s.138].

Məsələyə sosializm realizmi çərçivəsindən yanaşan müəllifin qeyd etdiyi xüsusiyyətləri tənqidi realizmin məhdud cəhətləri ilə əlaqələndirmək doğru deyildir. Çünki hər bir cərəyanın öz tələbi var idi. Bir metodun prizmasından yanaşaraq digər metodun xüsusiyyətlərinə münasibət bildirilməsi, hətta onlar arasında müqayisə aparılması xüsusiyyətlərinə həmin dövrdə tez-tez rast gəlmək mümkün idi. M.Arifin "Sosialist realizmi sovet ədəbiyyatının əsas yaradıcılıq üsuludur" məqaləsində həmin fikirlərə təsadüf edirik: *"Tənqidi realizm yazıçıdan əsas etibarilə "mühakimə etməyi", tənqid etməyi, həyat haqqında ittihamnamə çıxarmağı tələb edirdi. Ona görə də, biz oradan ancaq "həyat belə olmalıdır, bu pisdir, bu rəzalətdir" sözlərini eşidirik. Köhnə tənqidi realizmin xəyalları qüvvətli olsa da, qanunları zəif idi; arzusu böyük olsa da, imkanı kiçik idi"* [12, s.200].

Alo və İskəndər ("Səhər") kimi ataların romanlara gətirilməsi milli gerçəkliyi özündə cəmləşdirirdi. Tarixi şəraitin tipik nümayəndəsi olan bu ataların təsviri sinfi təbəqə arasında gedən mübarizəni üzə çıxarırdı. Heç təsadüfi deyil ki, Məsud Əlioğlu Alonu  həyatdan gələn bir obraz kimi təhlil edirdi. O, bu ataların ələ silah alıb mübarizə aparmasının əsl mahiyyətini düzgün izah edir, inqilab əsrinin oğullarının yetişməsində bu tipli ataların rolunu diqqətə çatdırırdı. Məsud Əlioğlunun "Şamo" romanının varlı təbəqəsini təmsil edən da Sultan bəy obrazı diqqətindən yayınmır.

Ənənəvi tənqidin təhlilləri müəllifin baxışında da özünü göstərirdi. “Ağzıqanlı canavar Sultan bəy” ifadəsi tənqidçinin, ümumiyyətlə, dövrün sinfi yanaşmasının təsirindən irəli gəlirdi. Bu da obraza birtərəfli münasibətin təzahürü idi.

Tənqidçinin “Studentlər” romanına müraciət etməsi də səbəbsiz deyildi. Belə ki, bu əsərin gənc qəhrəmanları öz köklərinə bağlı idilər. Müəllifin də bu gəncləri XIX əsrə bağlaması real görsənirdi. Bu cəhətdən tənqidçinin bu sözləri dövrün əsas cizgilərini üzə çıxarırdı: “*Bununla belə “Oğullar” “Atalar”ı yalnız təqlid etmirlər. Qidalandıqları, tərbiyə aldıqları, təsirləndikləri zəminə, adət və ənənələrə, yeni keyfiyyətlər də əlavə edirdilər. Onların da özlərinə məxsus fikirləri, əxlaqi görüşləri münasibətləri var idi... Bu yalnız “Babalar həyatının müasir şəkli idi”* [37, s.211]. Müəllifin bu sözləri mövcud reallığı əks etdirirdi. Belə ki bu əsərdə sovet ədəbiyyatının obrazlarını görməklə yanaşı, əvvəlki dövrün oğullarına da təsdüf etmək mümkündür. Rüstəm bəyin, Əlinin simasında Oqtay, Aydın kimi gənclərin izlərini görə bilərik. Fəraməz, Qulamrza, Cəfər kimi gənclər tüfeyli həyata meyl edən gəncləri təmsil edirdi. Məsud Əlioğlu yeniliyi, inqilabi gerçəkliyi Salman və Əhmədin simasında cəmləşdirirdi. Onun əsas tədqiqat obyekti Rüstəm bəy obrazı idi.

Məsud Əlioğlunun uğuru ondan ibarət idi ki, obrazların mahiyyətini açmaq üçün müqayisəli təhlilə üstünlük verirdi. Bu da təhlilin aydınlığına gətirib çıxarırdı. “Studentlər” romanının obrazı Rüstəm bəyi “Anamın kitabı” əsərinin Rüstəm bəy obrazı ilə qarşılaşdırırdı. Bir sıra oxşarlıqların olmasına baxmayaraq, hər iki obrazı bir-birindən ayıran cəhətləri müəyyənləşdirmək baxımından müəllifin bu sözləri obrazların daxili aləminin açılmasına xidmət edirdi: *“Əvvəlki Rüstəm bəy doğma ananın “yadlaşmış oğlu” idisə, bu Rüstəm bəy “yad ellərdə” yaşamasına baxmayaraq, doğma “ana, Vətən” haqqında düşünən namuslu oğul idi”* [37, s.213].

Məsud Əlioğlu silsilə şəklində çap etdirdiyi “Atalar və oğullar” məqaləsinin adı simvolik mahiyyət daşıyır. Deməli, yalnız atalar ilə oğullar arasında olan münasibətdən söhbət getmir. Burada fikirlərin mübarizəsi, müsbət və mənfi qəhrəman məsələsi diqqətə çatdırılır. Ataların dedikdə Mehri xanım, Fatma xanım kimi analar da nəzərdə tutulur, oğulların sırasında Gülbahar kimi gənc qızlar da iştirak edirdi. Bu da onu göstərir ki, müəllif problemin həllində cins və yaşa

əhəmiyyət vermir. Halbuki "atalar və oğullar" dedikdə, ilk öncə yaşlı nəsillə gənc nəsil arasındakı münasibət yada düşür. Problemin həllində tənqidçinin bu sözləri məsələnin mahiyyətini açmış olur: *"Deməli, zamanın və həyatın qabaqcıl, faydalı və əməli əhəmiyyəti böyük olan məsələlərini, fikirlərini kimin necə və nə şəkildə dərk etməsi həlledici amildir. Yaş fərqinin və həyat təcrübəsinin isə o qədər əhəmiyyəti yoxdur"* [42, s.56].

Məsud Əlioğlunun təhlillərindən "Atalar və oğullar" problemi ilə bağlı yeddi nəticə çıxır:

1. "Atalar və oğullar" arasında münasibət Azərbaycan ədəbiyyatında geniş şəkildə işlənən mövzulardandır.
2. Bu məsələnin problem səviyyəsində qoyuluşu XIX əsrlə bağlıdır.
3. Bu mövzu Sovet ideologiyasının prinsiplərinə cavab verirdi.
4. Bu problem yeniliklə köhnəliyin mübarizəsi şəklində təzahür edirdi.
5. Müsbət qəhrəman məsələsi ön plana çıxarılmışdır.
6. Bu mövzu Avropa ədəbiyyatından keçmişdir.
7. Bu mövzuda yazılan əsərlər tarixi gerçəkliyi tam şəkildə əks etdirmirdi.

Hər bir əsər yarandığı dövrün bədii məhsuludur. Sənətkarın əsərdə qaldırdığı problem yazıçı qələminin bəhrəsi olsa da, tarixi şəraitin izlərini də özündə cəmləşdirir. Buna görə də tədqiqat aparan müəllif müraciət etdiyi əsərin mahiyyətinə toxunmadan onu təhlil etməyi bacarmalıdır. Tənqidçi çalışmalıdır ki, həm yazıçı mövqeyini müdafiə etsin, həm də obyektivlik gözlənilsin. Məsud Əlioğlunun "Atalar və oğullar" probleminə yanaşmasında bu vəzifənin öhdəsindən gəldiyi açıq-aşkar görünür.

Nəticə olaraq deyə bilərik ki, ədəbiyyatda özünü göstərən "Atalar və oğullar" problemi dövrün tələbindən irəli gələn bir problemdir, burada iki nəsil arasındakı münasibətdən söhbət gedir. Müasir dövrün prizmasından baxdıqda Rusiya imperiyasının və Sovet dövrünün hakim olduğu illərdə ədəbiyyatda qabarıq şəkildə göstərilən bu tipli mövzulara həmişə yaşıl işıq yandırılıb. Digər tərəfdən cəmiyyətdə özünə yer tutan yeni təmayüllər, Qərb tipli mədəniyyətə maraq bu problemin aktuallaşmasına səbəb olurdu.

Tədqiqat işinin bu fəslində əldə edilən əsas müddəalar və elmi nəticələr “Cəlil Məmmədquluzadə irsinin tədqiqi (Məsud Əlioğlunun yaradıcılığı əsasında)” [88], “Füzuli yaradıcılığı Məsud Əlioğlu tədqiqatında” [90], “Mesut Alioğlu ve karşılaşdırmalı edebiyyat sorunu” [91], “Məsud Əlioğlu yaradıcılığında Şərq və Qərb mədəniyyəti” [92], “Məsud Əlioğlunun tədqiqatlarında “Atalar və oğullar”” [96], “Творчество Гусейна Джавида в исследовании Месуда  Алиоглы” [172] adlı məqalələrdə öz əksini tapmışdır.

# NƏTİCƏ

Məsud Əlioğlunun ədəbi-tənqidi görüşləri haqqında əldə edilmiş elmi-nəzəri müddəaları aşağıdakı şəkildə ümumiləşdirmək olar:

- Məsud Əlioğlu bir-birinə zidd iki epoxanın qovşağında formalaşmış tənqidçidir. Sosioloji və estetik tənqidin mövqeyindən baxdıqda tənqidçinin yanaşmalarında ziddiyyətli məqamların üzə çıxdığı aydın görünür.

- Dissertasiyada Məsud Əlioğlunun tənqidçilik fəaliyyətinin mərhələ təsnifatı verilmiş, hər mərhələnin xarakterik xüsusiyyətləri qruplaşdırılmışdır. Onun XX əsrin 50-ci illərindəki fəaliyyəti axtarış, 60-70-ci illərindəki fəaliyyəti isə kamillik mərhələsi kimi səciyyələndirilmişdir. Tənqidçinin bir-birinə antiteza təşkil edən yaradıcılıq mərhələsi haqqında belə qənaətə gəlirik ki, 50-ci illərdə Məsud Əlioğlu sosioloji tənqid istiqamətini seçmiş, təhlillərində realist üsluba əməl etmiş, müasirliyə daha çox meyil etmişdir. Tənqidçi 60-70-ci illər mərhələsində isə estetik tənqidin nümayəndəsi kimi özünü göstərmiş, romantik üsluba malik olmuş, klassik irsin tədqiqinə üstünlük vermişdir.

- Bir tənqidçi kimi Məsud Əlioğlunun yetişdiyi milli elmi zəmin tədqiq edilmiş, onun elmi qənaətlərinin formalaşmasında ədəbi-nəzəri fikrin 50-70-ci illər mərhələsi tədqiqata cəlb edilmişdir. Məsud Əlioğlunun tənqidçi şəxsiyyəti həm onun fəaliyyətə başladığı dövrdən, həm də formalaşdığı ailə çərçivəsindən irəli gəlirdi. Tənqidçi şəxsiyyəti dedikdə, onun bir insan kimi fərdi xüsusiyyətləri nəzərdə tutulmur, bu birləşmə tənqidçinin bədii materiala yanaşma tərzini ifadə edirdi. Obyektivlik, tələbkarlıq, qərəzsiz fikirlər, yazı texnikasının aydınlığı, yeniliyə qarşı açıq olunması, bədii mətinlərin təbiətindən doğan problemlərə diqqət yetirilməsi Məsud Əlioğlunun tənqidçi şəxsiyyətini formalaşdıran amillər idi.

- Məsud Əlioğlu elmi-ədəbi fəaliyyətində daim tarixilik və müasirlik prinsiplərinə sadiq qalmışdır. Ədəbiyyatşünaslığın bu mühüm kateqoriyalarına həmişə əməl etməsi onu subyektiv mülahizələrdən çəkindirmiş, bir qayda olaraq obyektiv fikirlər söyləməsinə səbəb olmuşdur. O, ədəbiyyatda yaranan yeni meyil və təmayülləri hamıdan əvvəl görüb vaxtında qiymətləndirməyi bacarmışdır. Səməd

Vurğunun "Aygün" poemasında Aygün ədəbi tənqid tərəfindən subyektiv tənqidlə qarşılaşanda Məsud Əlioğlu vaxtında əsərə yüksək qiymət vermişdir.

- Tədqiqatda ənənə və novatorluq məsələsinin araşdırılması istiqamətində Məsud Əlioğlunun tənqidi irsinin mühüm əhəmiyyətə malikliyi məsələsi diqqətə çatdırılır. 60-cı illərdə milli ənənə və ədəbi ənənə məsələsində ziddiyyətli fikirlərin qabarıq şəkildə özünə yer aldığı bir vaxtda Məsud Əlioğlunun məqalələri mübahisələrə səbəb olurdu. "Səriyyə haqlıdırmı?", ""Sevil"dən "Saçlı"ya" məqalələrində tənqidçinin yeni qadın tipinə münasibəti milli ənənə faktoruna əhəmiyyət verdiyini üzə çıxarırdı.

- Məsud Əlioğlunun Süleyman Sani Axundovun nəsr və dramaturgiya yaradıcılığına həsr olunmuş elmi əsərlərinin Azərbaycan tənqidi fikir tarixində əhəmiyyəti böyükdür. Tənqidçi uşaq ədəbiyyatının nümunələri içərisinə daxil olan ədibin hekayələrinin təhlili zamanı hadisələri və insanları canlı göstərmək, həyata yaxından müdaxilə etmək, humanist fikirlər aşılamaq baxımından bu əsərləri yüksək qiymətləndirmişdir. Belə ki, tənqidçinin toxunduğu problemlər ədibin yaradıcılığının əsas mövzularının açılmasına istiqamətlənmişdir.

- Bədii nəsrdə tarixiliyin hansı səviyyədə əks olunması, əsərlərdə tarixi gerçəkliyə yazıçının hansı müstəvidən baxması, yazıçının tarixi mövzunu işləmə bacarığı, tarixi roman janrının səciyyəvi xüsusiyyətləri və bu məsələlərə Məsud Əlioğlunun yanaşması münasibət hədəfi seçilmişdir. Tənqidçinin Məmməd Səid Ordubadinin və Yusif Vəzir Çəmənzəminlinin nəsrində tarixi mövzunun işlənmə xüsusiyyətləri barədə fikirləri nəzərdən keçirilən zaman bu nəticəyə gəlinmişdir ki, yazıçı tarixi həqiqətə bədii təxəyyülün məhsulu kimi toxunduqda canlandırdığı dövrün mənzərəsini və tarixi şəxsiyyətin portretini olduğu kimi saxlamalıdır.

- Məsud Əlioğlunun Azərbaycan ədəbiyyatında öz dəsti-xətti olan şairlər haqqında apardığı tədqiqatların poeziyanın nəzəri müddəalarının inkişafı baxımından əhəmiyyəti vardır. Bu araşdırmaları nəzərdən keçirdiyimiz zaman Hacı Kərim Sanılı, Osman Sarıvəlli, Rəsul Rza, Məhəmmədhüseyn Şəhriyar və Əliağa Vahid yaradıcılığının ümumi bir ortaq cəhəti müəyyənləşdirilmişdir. Xalqa bağlılıq və canlı

danışıq dilinin saflığı amillərinin bu sənətkarların poeziyasını birləşdirən xüsusiyyətlər olduğu nəticəsinə gəlinmişdir.

- Məsud Əlioğlu Hüseyn Cavidin yaradıcılığını elmi-nəzəri aspektdə tədqiqata cəlb etməklə, romantizmin tədqiqində yeni bir mərhələ formalaşdırdı, romantizmin çərçivəsini genişləndirdi, ona bəraət hüququ verən tənqidçilər sırasına daxil oldu.

- Məsud Əlioğlu Cəlil Məmmədquluzadənin komediyalarında irəli sürülən məsələlərin aktuallığı və əhəmiyyətinə toxunarkən Azərbaycan dramaturgiyasında realizmin nəzəri konsepsiyasını müəyyənləşdirə bilmiş, satiranın kəskinliyi məsələsinə aydınlıq gətirmişdir. Dissertasiyada dramaturqun tip yaratmaq ustalığı, əsərlərinin kompozisiya bitkinliyi, Məsud Əlioğlunun psixoloji təhlil bacarığı tədqiqat obyektinə çevrilmişdir.

- Məsud Əlioğlu tədqiqat predmetinin mahiyyətinə uyğun təhlil üsulu seçirdi. Realizm və romantizm cərəyanına yanaşmasında bu xüsusiyyəti görmək mümkündür. Cərəyanların tələbindən irəli gələn məsələlərə aydınlıq gətirilməsi tənqidçinin üslubunun ciddi elmi meyarlara söykəndiyini üzə çıxarırdı. Belə ki, onun 1954-cü ildə çap olunan “Cəlil Məmmədquluzadənin dramaturgiyası” kitabının yazı üslubu ilə 1975-ci ildə çap olunan “Hüseyn Cavidin romantizmi” kitabının üslubu fərqli idi. Eyni problemə müxtəlif aspektdən yanaşmaq böyük nəzəri bilik tələb edir ki, Məsud Əlioğlu bunun öhdəsindən gələ bilirdi. Cəlil Məmmədquluzadənin dramaturgiyasında tənqidçini daha çox tipik şəraitin və tipik obrazların təhlili maraqlandırırdı. Hüseyn Cavidin dramaturgiyasında isə obrazın daxili dünyasını, ruhi aləmini açmağa çalışırdı. Realist və romantik üsülubun bir tənqidçinin simasında cəmlənməsi həmin tənqidçinin Azərbaycan ədəbi tənqidi fikirdə əhəmiyyətini ortaya çıxarır, onun tənqid üslubundakı bu ikilik demokratik tənqid istiqamətini formalaşdırırdı.

- Tənqidçinin musiqi nəzəriyyəsi, teatr mədəniyyəti ilə bağlı təhlilləri onun elmi-nəzəri fəaliyyətinin fəlsəfi-estetik əhəmiyyətindən xəbər verirdi.

- Məsud Əlioğlu ədəbiyyat tarixinin yazılmasında da yaxından iştirak etmişdir. Bu istiqamətdə aparılan araşdırmalarda milli ədəbi-bədii təcrübənin ayrı-ayrı inkişaf mərhələləri, şəxsiyyətləri barədə əyani təsəvvür yaratması ön plana çəkilmişdir.

- Məsud Əlioğlu nəzəri biliyə sahib tənqidçi idi. 60-cı illərdən sonra yazdığı məqalələrdə sənətkarlıq məsələlərinə diqqət yetirir, tarixi roman, oçerk janrı, konflikt, xarakter haqqında təhlilləri elmi-nəzəri fikrimizə yeniliklər gətirirdi.

- Klassik ədəbi irs problemi tənqidçinin yaradıcılığının ikinci mərhələsində daha qabarıq şəkildə özünü göstərirdi. Nizami, Füzuli yaradıcılığına sevgi, milli-mənəvi dəyərlərə qayğı tənqidçi şəxsiyyətini bu istiqamətdə məqalələr yazmağa gətirib çıxarmışdır. “Eşq” və “kədər” anlayışlarının açılması istiqamətində olan tədqiqatların ədəbiyyatşünaslığın klassik irs konsepsiyasını formalaşdırdığı fikri irəli sürülmüşdür. Bu anlayışlarının izahına yönələn təhlillər zamanı Məsud Əlioğlunun tarixilik prinsipinə əməl etdiyi aşkarlanmışdır.

- Tənqidçinin yaddaşlarda qalmasına kömək edən əsas cəhət ədəbi-tənqidi fikir tarixində xidmətləri ilə bağlıdır. Bu mənada Məsud Əlioğlu ilklərə imza atan tənqidçilər sırasında yer almaqdadır. İlk dəfə olaraq Azərbaycan ədəbiyyatının aktual problemlərindən “Atalar və oğullar” məsələsinə sistemli şəkildə aydınlıq gətirən Məsud Əlioğlu olmuşdur. Hacı Kərim Sanılı, Hüseyn Cavid yaradıcılığına bəraət hüququ verən alimlərdən biri olması dissertasiyada zəngin faktlar əsasında üzə çıxarılır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Abbaszadə, H.A. Dünyadan gör necə insanlar gedib... Xatirələr / H.A.Abbaszadə. – Bakı: Gənclik, –1988. – 368 s.
2. Abdullayev, C.M. Yeni insan haqqında düşüncələr // Ədəbiyyat və incəsənət. – 1964, 28 noyabr. – s. 4.
3. Axundlu, Y.İ. Məmməd Səid Ordubadi / Y.İ.Axundlu. – Bakı: Elm və təhsil, – 2012. – 383 s.
4. Axundlu, Y.İ. Tarixi roman yeni mərhələdə / Y.İ.Axundlu. – Bakı: Maarif, – 1998. – 176 s.
5. Axundov, S.S. Qaraca qız: "Qaraca qız"ın taleyi ("Qaraca qız" povesti 3 variantda). Ərəb əlifbasından transfoneliterasiya ed. və ön söz. müəl. K.Nəhmətova. – Bakı: Avropa, – 2016. – 170 s.
6. Axundov, S.S. Seçilmiş əsərləri / S.S.Axundov, tər. ed. A.Zamanov. – Bakı: Azərnəşr, – 1951. – 435 s.
7. Axundov, Y.İ. Tarix və roman / Y.İ.Axundov. – Bakı: Yazıçı, – 1988. – 190 s.
8. Akademik İsa Həbibbəyli: Məsud Əlioğlu universal ədəbiyyatşünaslıq təfəkkürünə malik görkəmli alim olub // Ədəbiyyat qəzeti. – 2018, 29 sentyabr. – s. 27.
9. Akimova, E.S. Müstəqillik dövrü Azərbaycan poeziyası müasir ədəbi təmayüllər kontekstində: / filologiya üzrə elmlər doktoru dissertasiyası / – Bakı, 2017. – 287 s.
10. Alışanlı, Ş.H. Nəzəri fikrin yaşamaq haqqı // Ədəbiyyat qəzeti. – 2008, 7 noyabr. – s. 1-3.
11. Arif, H.C. Şeirlər: [8 cilddə] / H.C.Arif, topl. və red. Z.Hüseynzadə. – Bakı: MBM, – c. 2. – 2014. – 488 s.
12. Arif, M.M. Ədəbi-tənqidi məqalələr / M.M.Arif. – Bakı: Azərnəşr, – 1958.– 444 s.
13. Arif, M.M. Unudulmaz Ədib // Kommunist. – 1945, 20 oktyabr. – s. 3

14.Azərbaycan ədəbiyyatı tarixi: [3 cilddə] / red.S.Vurğun, M.İbrahimov, M.A.Dadaşzadə, Ə.Mirəhmədov. – Bakı: AzSSR EA, – c. 1. – 1957. – 559 s.
15.Azərbaycan Sovet ədəbiyyatı tarixi: [2 cilddə] / baş red. M.Arif; red. H.Babayev, Q.Qasımzadə, B.Nəbiyev. – Bakı: AzSSR EA, – c. 1. –1967. – 636 s.
16.Azərbaycan Sovet ədəbiyyatı tarixi: [2 cilddə] / baş red. M.Arif; red. H.Babayev, Q.Qasımzadə, B.Nəbiyev. – Bakı: AzSSR EA, – c. 2. – 1967. – 499 s.
17.Azərbaycan Sovet yazıçıları: ədəbi portretlər / red.Q.Musayev. – Bakı: Azərnəşr, – 1958. – 261 s.
18.Bayramov, A.H. Səməd Vurğun: milli və ümumbəşəri / A.H.Bayramov. – Bakı: Səda, – 2006. – 316 s.
19. Borev, Y.B. Estetika / Y.B.Borev, tər. ed. R.S.Ulusel; elmi red. Ş.Alışanlı – Bakı: Təhsil, – 2010. – 256 s.
20.Cabbarlı, C.Q. Əsərləri: [4 cilddə] / C.Q.Cabbarlı, tərt.ed.,A.Rüstəmli. – Bakı: Şərq-Qərb, – c. 2. – 2005. – 360 s.
21.Cavid, H.A. Əsərləri: [5 cilddə] / H.A.Cavid, tər. ed., T.Cavid; red. T.Kərimli. – Bakı: Lider, – c. 1. – 2005. – 256 s.
22.Cavid, H.A. Əsərləri: [5 cilddə] / H.A.Cavid, tər. ed., T.Cavid; red. T.Kərimli. – Bakı: Lider, – c. 2. – 2005. – 303 s.
23.Cavid, H.A. Əsərləri: [5 cilddə] / H.A.Cavid, tər. ed., T.Cavid; red. T.Kərimli. – Bakı: Lider, – c. 3. – 2005. – 303 s.
24.Cavid, H.A. Əsərləri: [5 cilddə] / H.A.Cavid, tər. ed., T.Cavid; red. T.Kərimli. – Bakı: Lider, – c. 4. – 2005. – 256 s.
25.Cavid, H.A. Seçilmiş əsərləri: [3 cilddə] / H.A.Cavid, tər. ed., T.Cavid. – Bakı: Azərnəşr, – c. 1. – 1968. – 370 s.
26.Cavidi xatırlarkən: Məqalələr və xatirələr / tər. ed. İ.Orucəliyev; red. və ön sözün müəl. A.Zamanov. – Bakı: Gənclik, – 1982. – 392 s.
27.Cəfər, M.Z. Həyatın romantikası / M.Z.Cəfər. – Bakı: Azərnəşr, – 1968. – 170 s.
28.Cəfər, M.Z. Hüseyn Cavid / M.Z.Cəfər. – Bakı: Azərnəşr, – 1960. – 246 s.
29.Cəfər, M.Z. Saçlı və həyatımız // – Bakı: İnqilab və mədəniyyət, – 1949. №4, – s. 150-163.

30.Cəfərov, M.Z. Cəlil Məmmədquluzadə / M.Z.Cəfərov. – Bakı: Azərnəşr, – 1966. – 56 s.
31.Cəfərov, N.Q. Mütəfəkkir ədəbiyyatşünas: [Elektron resurs] / URL: https://525.az/site/?name=xeber&news_id=95162#gsc.tab=0
32.Elçin, İ. Sosrealizm bizə nə verdi? / İ.Elçin. – Bakı: Mütərcim, – 2010. – 76 s.
33.Elçin, İ. Tənqid və nəsr (Azərbaycan bədii nəsri tənqiddə (1945-1965)) / İ.Elçin. – Bakı: "Günəş" nəşriyyatı, – 1999. – 219 s.
34.Əbilov, İ.Y. Söndükdə zəka əhli-vətən ağlayacaqdır // – Bakı: Azərbaycan, – 2008. №11, – s. 134-137.
35.Ədəbiyyatımızın yeni yüksəlişi uğrunda // – Bakı: Azərbaycan, –1963.№2,– s.3-9.
36.Ələkbərli, N.Ə. Tənqiddən keçən şəxsiyyət // –Bakı: Ulduz,–1998. №12, –s.86-87.
37.Əlioğlu, M.Ə. Atalar və oğullar // – Bakı: Azərbaycan, – 1961. №2, – s. 206-221.
38.Əlioğlu, M.Ə. Atalar və oğullar // – Bakı: Azərbaycan, – 1961. №3, – s. 188-199.
39.Əlioğlu, M.Ə. Bədii nəsrimizdə tarixi roman // – Bakı: Azərbaycan, – 1965. №12, – s. 83-95.
40.Əlioğlu, M.Ə. Darıxan adamlar (Seçilmiş əsərləri) / M.Ə.Əlioğlu. – Bakı: Təhsil, – 2018. – 792 s.
41.Əlioğlu, M.Ə. Ədəbi fraqmentlər / M.Ə.Əlioğlu. – Bakı: Gənclik, – 1974. – 174 s.
42.Əlioğlu, M.Ə. Ədəbiyyatda yeni insan / M.Ə.Əlioğlu. – Bakı: Azərnəşr, – 1964. – 220 s.
43.Əlioğlu, M.Ə. Füzulinin eşqi // Ədəbiyyat və incəsənət. – 1970, 8 avqust. – s. 13.
44.Əlioğlu, M.Ə. Hacıkərim Sanılı // – Bakı: Azərbaycan, – 1966. №9, – s. 196-202.
45.Əlioğlu, M.Ə. Hüseyn Cavidin romantizmi / M.Ə.Əlioğlu. – Bakı: Azərnəşr, – 1975. – 217 s.
46.Əlioğlu, M.Ə. "Laçın yuvası" nədən tarmar oldu? // Ədəbiyyat və incəsənət. – 1970, 17 yanvar. – s. 12-13.
47.Əlioğlu, M.Ə. Məhəbbət və qəhrəmanlıq / M.Ə.Əlioğlu. – Bakı: Yazıçı, – 1979. – 406 s.
48.Əlioğlu, M.Ə. Məslək qardaşları / M.Ə.Əlioğlu. – Bakı: Azərnəşr, – 1966. –157 s.

49.Əlioğlu, M.Ə. Nəsrimiz ətrafında mübahisələr // – Bakı: Azərbaycan, – 1964. №7, – s. 168-184.
50.Əlioğlu, M.Ə. Nəsrimizdə qadın azadlığı problemi (30-cu illər) // – Bakı: Azərbaycan, – 1967. №3, – s. 195-200.
51.Əlioğlu, M.Ə. Oqtayın taleyi // Ədəbiyyat və incəsənət. – 1966, 9 iyul. – s. 2.
52.Əlioğlu, M.Ə. “Sevil”dən “Saçlı”ya // – Bakı: Azərbaycan, – 1962. №3, – s. 228-240.
53.Əlioğlu, M.Ə. Səriyyə haqlıdırmı? // Ədəbiyyat və incəsənət.–1961, 17 iyun. –s. 4.
54.Əlioğlu, M.Ə. Şairin amalı və sənəti // – Bakı: Azərbaycan, – 1971. №5, – s. 195-199.
55.Əlioğlu, M.Ə. Tənqidçinin düşüncələri / M.Ə.Əlioğlu. – Bakı: Azərnəşr, – 1968. – 172 s.
56.Əlioğlu, M.Ə. Yüksək hisslər lirikası // Ədəbiyyat və incəsənət. – 1971, 1 yanvar. – s. 13.
57.Əlişanoğlu, T.Ə. XX əsr Azərbaycan nəsrinin poetkası / T.Ə. Əlişanoğlu. – Bakı: Elm, – 2006. – 312 s.
58.Əliyev, A.S. Ədəbiyyat və həqiqət / A.S.Əliyev – Bakı: Maarif, – 1990. – 191 s.
59.Əliyev, H.Ə. Xalq üçün yaşayıb yaratmalı // Bakı. – 1980, 6 dekabr. – s. 1.
60.Əliyev, M.S. Ədəbiyyat nəzəriyyəsi / M.S.Əliyev – Bakı: Elm və təhsil, – 2012. – 480 s.
61.Əsgərli, Ə.B. Osman Sarıvəllinin poetikası / Ə.B.Əsgərli. – Bakı: BQU, – 2005. – 160 s.
62.Əsgərli, Z.Ş. Sözü qalan tənqidçi // Azərbaycan müəllimi. –1998, 24 dekabr. –s. 4.
63.Fəhmi, İ.Ə. Atalar və oğullar // Ədəbiyyat qəzeti. – 2018, 13 yanvar. – s. 8-10.
64.Fikrət, T.H. Seçilmiş əsərləri / T.H.Fikrət – Bakı: Şərq-Qərb, – 2006. – 176 s.
65.Fikrət, T.H. Şərmin uşaq şeirləri /T.H.Fikrət, tərc.ed. F.Sadıq; red. Ə.Salahzadə. – Bakı: Gənclik, – 1972. – 176 s.
66.Hacıyev, A.M. Ədəbiyyat nəzəriyyəsi / A.M.Hacıyev. – Bakı: Mütərcim, – 1996. – 376 s.

67.Hacıyev, C.Z. XX əsr Azərbaycan ədəbiyyatı tarixi / C.Z.Hacıyev. – Bakı: Azərbaycan Universiteti, – 1955. – 434 s.
68.Həbibbəyli, İ.Ə. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü: [Elektron resurs] / URL: http://edebiyyatqazeti.az/news/diger/1220-azerbaycan-edebiyyatinda-erken-realizm-dovru
69.Həbibbəyli, İ.Ə. Böyük ədəbiyyat nəhəngi Məmməd Səid Ordubadi / İ.Ə.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2012. – 89 s.
70.Həbibbəyli, İ.Ə. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri / İ.Ə.Həbibbəyli. – Naxçıvan: Əcəmi, – 2009. – 424 s.
71.Həbibbəyli, İ.Ə. Tənqidi realizm epoxası və romantizm: [Elektron resurs] / URL: https://525.az/site/?name=xeber&news_id=91801#gsc.tab=0
72.Həsənov, O.Y. İstəyi həqiqətə çevrilməlidir // – Bakı: Revolusiya və kultura, – 1937. №4, – s. 55-59.
73.Xəlilov, S.S. Məsud Əlioğlunun yaradıcılığında fəlsəfi meyl haqqında: [Elektron resurs] / URL:http://www.anl.az/down/meqale/525/525_mart2009/71070.htm
74.Xəndan, C.Z. Zeynal Xəlilin “Etibar” kitabı haqqında // – Bakı: İnqilab və mədəniyyət, – 1948. №1, – s. 155-159.
75.İbadoğlu, Ə. Romantizmin tədqiqi / Cavidşünaslıq: araşdırmalar toplusu [10 cilddə] / tər. ed. və ön söz. müəl. G.Babaxanlı; red.hey. M.Kərimov. – Bakı: Proqres, – c. 8. – 2012. – s. 72-78.
76.İbrahimov, İ.İ. Yazıçı və tənqid // – Bakı: Azərbaycan, – 1964. №8, – s. 172-188.
77.İbrahimov, M.Ə. Böyük demokrat / M.Ə.İbrahimov. – Bakı: Azərbaycan SSR EA-nın nəşriyyatı, – 1957. – 215 s.
78.İdeoloji işi müasir tələblər səviyyəsinə! // Ədəbiyyat və incəsənət. – 1962, 15 sentyabr. – s. 1-2.
79.İsrafilov, H.Ə. “Ölülər” /H.Ə.İsrafilov. – Bakı: Azərbaycan SSR EA-nın nəşriyyatı, – 1966. – 169 s.
80.Qasımzadə, İ. B. İşığı qalır // – Bakı: Azərbaycan, – 2008. №11, s. 133.
81.Quluzadə, M.Y. Səməd Vurğunun “Aygün” poeması haqqında // Kommunist. – 1952, 13 mart. – s. 3.

82. Məmməd, T.Q. Neosufizm: yaradıcılıq və nəzəriyyə / T.Q.Məmməd. – Bakı: Xan, – 2016. – 120 s.
83. Məmmədquluzadə, C.M. Əsərləri: [4 cilddə] / Tər. ed. və ön söz. müəl. İ.Həbibbəyli; red. V.Məmmədov. – Bakı: Öndər, – c. 1. – 2004. – 664 s.
84. Məmmədquluzadə, C.M. Seçilmiş əsərləri: [2 cilddə] / C.M.Məmmədquluzadə, tər. ed., İ.Həbibbəyli; red. V.Məmmədov. – Naxçıvan: Əcəmi, – c. 1. – 2009. – 605 s.
85. Məmmədova, N.H. 60-cı illər bədii irsdəki demokratikləşmənin, müasirliyin ədəbi tənqiddəki dərki // "Ulu öndər Heydər Əliyev irsində multikultural və tolerant dəyərlər" mövzusunda Beynəlxalq Elmi Konfransının materialları, – Bakı: Mütərcim, – 3-5 may,– 2016, – II hissə, – s.188-191.
86. Məmmədova, N.H. 60-cı illərin ədəbi prosesində Məsud Əlioğlunun yeri və mövqeyi // – Bakı: Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, Bakı Dövlət Universiteti, – 2019. №2 (110), – s. 282-284.
87. Məmmədova, N.H. Azərbaycan poeziyasında novatorluq axtarışları (Məsud Əlioğlu poeziya tənqidçisi kimi) // – Bakı: Filologiya məsələləri, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, – 2019. №6, – s. 204-209.
88. Məmmədova, N.H. Cəlil Məmmədquluzadə irsinin tədqiqi (Məsud Əlioğlunun yaradıcılığı əsasında) // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2017. №2, – s. 88-93.
89. Məmmədova, N.H. Ədəbi tənqiddə Məsud Əlioğlu imzası // Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 94 illiyinə həsr olunmuş Gənc tədqiqatçıların I Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: Bakı Mühəndislik Universiteti, – 05-06 may, – 2017, – s. 751-752.
90. Məmmədova, N.H. Füzuli yaradıcılığı Məsud Əlioğlu tədqiqatında // Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr olunmuş Gənc tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransının materialları, – Bakı: Qafqaz Universiteti, – 29-30 aprel, – 2016, – s.1099-1100.
91. Məmmədova, N.H. Mesut Alioğlu ve Karşılaşdırmalı Edebiyyat Sorunu // 5. Uluslararası Bilimsel Araştırmalar Kongresi (Sosyal Bilimlerde Yeni Araştırmalar

– II), – Ankara: Berikan Yayınevi, – 11-14 temmuz, – 2019,Bandırma, – s. 371-378.
92. Məmmədova, N.H. Məsud Əlioğlu yaradıcılığında Şərq və Qərb mədəniyyəti // “XXI əsrdə dünya elminin inteqrasiya prosesləri” mövzusunda Gənclərin Beynəlxalq Elmi Forumunun materialları, – Gəncə: “Xəzər Universiteti” nəşriyyatı, – 10-14 oktyabr, – 2016, – s. 374-376.
93. Məmmədova, N.H. Məsud Əlioğlunun araşdırmalarında resenziya janrı // – Bakı: Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, Bakı Dövlət Universiteti, – 2018. №2 (106), – s. 241-243.
94. Məmmədova, N.H. Məsud Əlioğlunun ədəbi-tənqidi yaradıcılığında tarixi və bədii həqiqətin dərki // – Bakı: Ədəbiyyat məcmuəsi, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun əsərləri, – 2017. XXIX, №1, – s. 290-297.
95. Məmmədova, N.H. Məsud Əlioğlunun teatrla bağlı görüşləri // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş Gənc tədqiqatçıların II Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: Bakı Mühəndislik Universiteti, – 27-28 aprel, – 2018, – s. 1184-1186.
96. Məmmədova, N.H. Məsud Əlioğlunun Tədqiqatlarında “Atalar Və Oğullar” // IV Türk Kültür Coğrafyasında Eğitim və Sosyal Bilimlər Sempozyumu, – Ankara: Tebad, – 27-30 iyun, – 2018, – s. 39.
97. Məmmədova, N.H. Rəsul Rza yaradıcılığı Məsud Əlioğlunun tədqiqatlarında // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş Azərbaycanşünaslığın aktual problemləri mövzusunda IX Beynəlxalq Elmi Konfransın materialları, – Bakı: Mütərcim, – 3-4 may, – 2018, – s. 344-346.
98. Məmmədova, N.H. Süleyman Sani Axundov yaradıcılığı Məsud Əlioğlunun tədqiqində // – Bakı: Ədəbiyyat məcmuəsi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri, – 2018. XXXII, №1, – s. 222-229.
99. Məmmədova, T.Q. C.Cabbarlı yaradıcılığının bədii metod təkamülü: / filologiya üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı, 1989. – 140 s.

100. Min beş yüz ilin oğuz şeiri. Antologiya: [2 kitabda] / tər. ed. və ön söz. müəl. Anar; Kitabın layihəsi, dizaynı və çapa hazırlayanı: N.İbrahimov. – Bakı: Azərbaycan, – 1999. – k. 1. – 912 s.
101. Mustafayev, M.B. XIX əsr ədəbi irsi ədəbiyyatşünaslıqda / M.B.Mustafayev. – Bakı: Xəzər, – 2010. – 240 s.
102. Mustafayev, T.Ə. Azərbaycan sovet tənqidinin üslubları (1960-1980-ci illər): / filologiya üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı, 1989. – 161 s.
103. Nəbiyev, B.Ə. Məhəbbət və qəhrəmanlıq // Ədəbiyyat və incəsənət. – 1979, 24 avqust. – s. 6.
104. Nəsrimiz haqqında yeni tədqiqat əsəri // Ədəbiyyat və incəsənət. – 1968, 19 oktyabr. – s. 2.
105. Nəsrimizdə sənətkarlıq məsələləri // Ədəbiyyat və incəsənət. – 1960, 5 mart. – s. 2.
106. Ordubadi, M.S.H. Dumanlı Təbriz: [2 kitabda] / M.S.H.Ordubadi. – Bakı: Təhsil, – k. 1. – 2012. – 375 s.
107. Osmanlı, V.M. Azərbaycan romantizmi: [2 clddə] / V.M.Osmanlı. – Bakı: Elm, – c. 1. – 2010. – 464 s.
108. Osmanlı, V.M. Azərbaycan romantizmi: [2 clddə] / V.M.Osmanlı. – Bakı: Elm, – c. 2. – 2014. – 452 s.
109. Paşayev, M.C. Cəlil Məmmədquluzadənin sənətkarlıq xüsusiyyətləri // – Bakı: İnqilab və mədəniyyət, – 1947. №1, – s. 137-142.
110. Respublikanın partiya təşkilatlarında ideoloji işi Sov.İKP XXII qurultayının qarşısında qoyduğu vəzifələrə səviyyəsinə qaldırmalı // Ədəbiyyat və incəsənət. – 1962, 1 sentyabr. – s. 1-3.
111. Saləddin, Ə.M. Məslək naminə //Azərbaycan gəncləri. –1967, 22 oktyabr. –s.3.
112. Saləddin, Ə.M. Yeni insanın tədqiqi // Azərbaycan gəncləri. – 1965, 28 mart. – s.3.
113. Salmanov, Ş.M. Tənqidçi ehtirası ilə // Ədəbiyyat qəzeti.–1998, 16 oktyabr.– s.3.
114. Seyidov, Y.Q. Ədəbiyyatda yeni insan // Kommunist. – 1965, 12 fevral. – s. 3.

115. Səriyyə haqlıdırmı? // – Bakı: Azərbaycan qadını, – 1961. №10, – s. 18.
116. Siz necə baxırsınız? // – Bakı: Azərbaycan qadını, –1961. №7, – s. 22.
117. Sultanlı, V.S. Azərbaycan ədəbi tənqidi / V.S.Sultanlı. – Bakı: Azərnəşr, – 2009. – 202 s.
118. Süleyman Sani Axundovun tərcümeyi halı // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Arxiv 11, Saxlama vahidi 63/10, 132/1, 6360.
119. S.S.Axundovun tərcümeyi-halı // – Bakı: İnqilab və mədəniyyət, – 1939. №4, – s. 102-105.
120. Talıbzadə, K.A. Seçilmiş əsərləri / K.A.Talıbzadə. – Bakı: Elm, – 2015. –352 s.
121. Turan, A.İ. Cavidnamə / A.İ.Turan – Bakı: Elm və təhsil, – 2010. – 565 s.
122. Turan, A.İ. Eşq və kədər yağmuru // Ədəbiyyat qəzeti. –2018, 29 sentyabr.–s.9.
123. Turan, A.İ. Fikir həyatımızın Məsudu // Ədəbiyyat qəzeti. – 2008, 10 oktyabr. – s. 4.
124. Vəlixanov, N.İ. Süleyman Sani Axundov / N.İ.Vəlixanov. – Bakı: Gənclik, – 1968. – 169 s.
125. Vəliyev, M.Ə. Atalar və oğullar // – Bakı: Azərbaycan, – 1959. №11, – s. 178-213.
126. Vəliyev, M.Ə. Atalar və oğullar // – Bakı: Azərbaycan, – 1959. №12, – s. 172-199.
127. Vəliyev, M.Ə. “Aylı gecələr” poeması haqqında // Azərbaycan gəncləri. – 1948, 18 yanvar. – s. 4.
128. Vəliyev, M.Ə. Azadlıq və inqilab şeirləri // – Bakı: İnqilab və mədəniyyət, – 1950. №4, – s. 152-154.
129. Vəliyev, M.Ə. Azərbaycan sovet nəsrinin inkişaf yolları (1920-1940): / filologiya üzrə elmlər doktoru dissertasiyası / – Bakı, 1969. – 469 s.
130. Vəliyev, M.Ə. Bədii nəsrimizdə konflikt, xarakter və kolorit məsələlərinə dair // Ədəbiyyat və incəsənət. – 1958, 30 avqust. – s. 2.
131. Vəliyev, M.Ə. Bədii nəsrimizdə konflikt, xarakter və kolorit məsələlərinə dair // Ədəbiyyat və incəsənət. – 1958, 29 noyabr. – s. 2.

132. Vəliyev, M.Ə. Bədii nəsrimizdə konflikt, xarakter və kolorit məsələlərinə dair // Ədəbiyyat və incəsənət. – 1959, 10 yanvar. – s. 3-4
133. Vəliyev, M.Ə. Bir gəncin manifesti // – Bakı: İnqilab və mədəniyyət, – 1949. №11, – s. 179-186.
134. Vəliyev, M.Ə. Böyük həqiqətləri əks etdirən kiçik hekayələr // Ədəbiyyat və incəsənət. – 1954, 25 sentyabr. – s. 3.
135. Vəliyev, M.Ə. Cəfər Cabbarlının ədəbi-tənqidi görüşləri // – Bakı: İnqilab və mədəniyyət, – 1950. №1, – s. 122-131.
136. Vəliyev, M.Ə. Cəlil Məmmədquluzadənin dramaturgiyası / M.Ə.Vəliyev. – Bakı: Azərnəşr, – 1954. – 114 s.
137. Vəliyev, M.Ə. Düşündürən poeziya // Azərbaycan müəllimi. – 1960, 19 may. – s. 3.
138. Vəliyev, M.Ə. Fırtına ərəfəsində // – Bakı: İnqilab və mədəniyyət, – 1951. №6, – s. 147-158.
139. Vəliyev, M.Ə. Füzuli və müasir ədəbiyyatşünaslığımız // – Bakı: Azərbaycan, – 1958. №12, – s. 102-112.
140. Vəliyev, M.Ə. Gələcək gün romanı haqqında // – Bakı: İnqilab və mədəniyyət, – 1951, №1, – s. 134-147.
141. Vəliyev, M.Ə. Gənc şairlərin yaradıcılığında sənətkalıq məsələlərinə dair // Azərbaycan gəncləri. – 1954, 16 iyun. – s. 3-4.
142. Vəliyev, M.Ə. Həqiqətə çevrilmiş arzular // – Bakı: Azərbaycan, – 1955. №10, – s. 137-151.
143. Vəliyev, M.Ə. Qardaşlar // Ədəbiyyat və incəsənət. – 1953, 18 aprel. – s. 3.
144. Vəliyev, M.Ə. Qüdrətli sənətkar // Ədəbiyyat və incəsənət. – 1957, 6 yanvar. – s. 1.
145. Vəliyev, M.Ə. "Mehman" povesti haqqında // – Bakı: Azərbaycan, – 1954. №2, – s. 159-168.
146. Vəliyev, M.Ə. Məfkurə dostları / M.Ə.Vəliyev. – Bakı: Azərnəşr, – 1961. – 172 s.

147. Vəliyev, M.Ə. Məfkurə dostları // – Bakı: İnqilab və mədəniyyət, – 1950. №9, – s. 115-128.

148. Vəliyev, M.Ə. Məhəbbətin qüdrəti // – Bakı: Azərbaycan, – 1956. №12, –s. 120-129.

149. Vəliyev, M.Ə. Mirzə İbrahimovun dramaturgiyası // – Bakı: Azərbaycan, – 1955. №7, – s. 141-158.

150. Vəliyev, M.Ə. Oçerklərimiz haqqında // Ədəbiyyat və incəsənət. – 1960, 2 iyul. – s. 2-3.

151. Vəliyev, M.Ə. Oxucunun qeydləri // Ədəbiyyat qəzeti. – 1947, 20 aprel. – s. 4.

152. Vəliyev, M.Ə. Oxucunun qeydləri // – Bakı: İnqilab və mədəniyyət, – 1948. №6, – s. 107-109.

153. Vəliyev, M.Ə. Osman Sarıvəllinin yaradıcılığında sənətkarlıq xüsusiyyətləri // – Bakı: Azərbaycan, – 1954. №6, – s. 135-152.

154. Vəliyev, M.Ə. "Ölülər" əsərinin ölməz ənənələri // – Bakı: Azərbaycan, – 1954. №10, – s. 139-149.

155. Vəliyev, M.Ə. Povestlərimizdə sənətkarlığın bəzi məsələləri haqqında // – Bakı: Azərbaycan, – 1954. №12, – s. 91-104.

156. Vəliyev, M.Ə. Rəsul Rza / M.Ə.Vəliyev, Q.Q.Xəlilov – Bakı: Azərnəşr, – 1960. – 110 s.

157. Vəliyev, M.Ə. Rəsul Rza yaradıcılığı haqqında bəzi qeydlər // – Bakı: İnqilab və mədəniyyət, – 1952. №5, – s.149-160.

158. Vəliyev, M.Ə. Səməd Vurğunun "Aygün" poeması haqqında // – Bakı: Təbliğatçı, – 1956. №7, – s. 78-84.

159. Vəliyev, M.Ə. Süleyman Sani Axundov / M.Ə.Vəliyev. – Bakı: Uşaqgəncnəşr, – 1956. – 110 s.

160. Vəliyev, M.Ə. Süleyman Sani Axundovun müsbət qəhrəmanları // – Bakı: Azərbaycan, – 1953. №9, – s. 160-175.

161. Vəliyev, M.Ə. Şairin ürək döyüntüləri // – Bakı: Azərbaycan, – 1960. №9, – s. 213-217.

162. Vəliyev, M.Ə. Zeynal Xəlilin “İki dünya” kitabı haqqında // – Bakı: İnqilab və mədəniyyət, – 1952. №7, – s. 170-173.
163. Yusifli, V.Ə. Məsud Əlioğlu: 90 ilin yarısı // – Bakı: Azərbaycan, – 2018. №10, – s. 123-127.
164. Yusifli, V.Ə. Nəsr, konfliktlər, xarakterlər / V.Ə. Yusifli. – Bakı: Yazıçı, – 1986. – 164 s.

## Türk dilində

165. Kefeli, E. Karşılaştırmalı Edebiyat: Tanım, Yöntem ve İncelemeler // – İstanbul: Türkiye Araştırmaları Literatür Dergisi, – 2006. №54 (8), – s. 331-350.
166. Memmedova, N.H. Azerbaycan nesirinin teorik problemleri Mesut Alioğlunun araştırmasında // 4. Uluslararası Mersin Sempozyumu, – Mersin: Mer Ak Yayınları, –22-24 ekim, – 2020,– s. 89-106.
167. Uzun, E.A. Hüseyin Cavid ve Türkiye edebiyyatı / E.A.Uzun – Bakü: Güneş, – 1998. – 168 s.

## Rus dilində

168. Абрамович, Г.Л. Введение в литературоведение. –Москва: Просвещение, – 1965. –366 с.
169. Велиев, М.А. Пути развития Азербайджанской советской прозы (1920-1920 гг): /Автореферат диссертации на соискание ученой степени доктора филологических наук / – Баку, 1968. – 85 с.
170. Луков, В.А. Конфликт (в литературном произведении): [Электронный ресурс] / URL: http://www.litdefrance.ru/199/688
171. Мамедов, Дж.Дж. Сария, ее друзья и недруги // Литературная газета. – 1962, 26 мая.
172. Маммадова, Н. Г. Творчество Гусейна Джавида в исследовании Месуда Алиоглы // – Ukrayna: Науковий вісник Міжнародного Гуманітарного Університету, Серія: Фiлологiя, – 2018. випуск 32 том 1, – ст. 152-155.

173. Талыбзаде, К.А. О нашей литературной критике // «Литературный Азербайджан», – 1959. №5, – с. 93-96.
174. Тимофеев, Л. И. Теория литературы. –Москва: Учпедгиз, –1948. –382 с.

**İngilis dilində**

175. Andrew,B. An Introduction to Literature, Criticism and Theory / B.Andrew, R.Nicholas,–New York : Pearson/Longman, –2004. – 361 p.
176. Matthew, A. On the Modern Element in Literature: [Electronic resource] / URL: https://ru.scribd.com/doc/11554174/Matthew-Arnold-On-the-Modern-Element-in-Literature